# Diasporlarımızın fəaliyyəti

2023-cü il

- **Abdullayev, Mübariz.** Milyonların qəlbi Azərbaycanla döyünür!: 50 milyon soydaşımızı birləşdirən bir VƏTƏN var... // Yeni Azərbaycan. - 2023.- 31 dekabr. - № 242. - S. 2.

- **Azadi, Sevinc.** Bu həmrəylik ölkəmizi, xalqımızı yeni-yeni qələbələrə aparacaq!: Bu gün xalqımız bu gözəl bayramı daha mütəşəkkil, daha təşkilatlanmış və müqəddəs amallar ətrafında birləşərək qeyd edir // İki sahil. - 2023.- 31 dekabr. - № 242. - S. 4.

- **Bayramova, Zümrüd.** Birlik və həmrəyliyimiz! // Səs. - 2023.- 31 dekabr. - № 242. - S. 3.

- **Muradov, Fuad.** Ümummilli Lider Heydər Əliyev diaspor quruculuğunun banisidir // Azərbaycan. - 2023.- 30 dekabr. - № 287. - S. 9.

- **Kamal, Mustafa.** Dünya azərbaycanlılarının qürur mənbəyi Qalib Vətən: Beynəlxalq ictimaiyyət xaricdə yaşayan həmvətənlərimizin Azərbaycan Prezidenti ətrafında sıx birliyinə, həmrəyliyinə şahidlik edir // Respublika. - 2023.- 30 dekabr. - № 287. - S. 1-2.

- **Əliyev, Qafar.** Dünya azərbaycanlılarının həmrəyliyinin möhkəmlənməsində Ümummilli Liderin rolu // İki sahil. - 2023.- 30 dekabr. - № 241. - S. 4.

- **Sarıyeva, İradə.** Azərbaycan diasporu Heydər Əliyevin 100 illiyində... // Bakı Xəbər. - 2023. - 21 dekabr. - № 232. - S. 8.

- **Mehralı, Lalə.** Həmrəyliyin 50 milyon nümunəsi: Vətən Müharibəsi həmrəy və yekdil azərbaycanlıların birgə qələbəsi idi // Səs.-2023.-16 dekabr.-№231.-S.15.

- **Əliyeva, İradə.** Heydər Əliyev dünya azərbaycanlılarını birləşdirən ideologiyanın banisidir // Azərbaycan. - 2023.- 12 dekabr. - № 271. - S. 20.

- **Məmmədov, Ramin.** Rusiyada milli diasporumuz: Yaranması, inkisafı, mətbuatı, ədəbiyyatı, həmrəyliyi: I yazı // Olaylar.-2023.-8 -14 dekabr.-№45.-S.17.

- **Rüstəmov, İlqar.** Azərbaycan diasporasının formalaşması Heydər Əliyevin müstəsna xidmətlərindəndir // Xalq qəzeti. - 2023.- 24 noyabr. - № 256. - S. 5.

- **Qəribli, Məhəmmədəli.** Azərbaycan türkdilli məkanda diasporlararası inteqrasiyasını gücləndirir... // Bakı Xəbər. - 2023. - 24 noyabr. - № 213. - S. 8.

- **Avropa Parlamentinin prezidenti azərbaycanlı diaspor fəalına cavab verib** // AZƏRTAC.- 2023.- 6 noyabr.

- **Bayramova, Yeganə.** Diaspor quruculuğunu tamamlamışıq!: Görəcəyimiz işlər sırf lobbiçilikdir... // Yeni Azərbaycan.-2023.-4 noyabr.-№203.-S.5.

- **Quliyev, Ramil.** Diaspor ölkənin inkişafında əsas rollardan birini oynamağa başlayır // Bakı Xəbər. - 2023. - 26 oktyabr. - № 194. - S. 8.

- **Abbasbəyli, Ağalar.** Heydər Əliyev və Azərbaycan diasporu: [davamı] / İ. Əliyev // Respublika. - 2023.- 13 oktyabr. - № 223. - S. 5.

- **Abbasbəyli, Ağalar.** Heydər Əliyev və Azərbaycan diasporu: [davamı] / İ. Əliyev // Respublika. - 2023.- 12 oktyabr. - № 222. - S. 5.

- **Abbasbəyli, Ağalar.** Heydər Əliyev və Azərbaycan diasporu / İ. Əliyev // Respublika. - 2023.- 11 oktyabr. - № 221. - S. 3.

- **Abbas, Günel.** Diaspor quruculuğu prioritet kimi // Yeni Azərbaycan.-2023.-10 oktyabr.-№184.-S.7.

- **Sarıyeva, İradə.** Azərbaycan diasporundan bu anlarda daha böyük fəallıq tələb olunur... // Bakı Xəbər. - 2023.- 29 sentyabr. - № 175. - S. 8.

- **Abbas, Günel.** Dünya azərbaycanlılarından dünya dövlətlərinə müraciət: Sülh müqaviləsinin imzalanmasına dəstək göstərməyə çağırırıq! // Yeni Azərbaycan.-2023.-21 sentyabr.-№171.-S.7.

- **Qocayev, İsmayıl.** Diasporamız erməni lobbisinə cavab verməlidir: Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi: Ermənipərəstlərə cavab vermək tək Hikmət Hacıyevin işi olmamalıdır // Şərq. - 2023.- 11 avqust. - № 141. - S. 6.

- **Azərbaycanın diaspor təşkilatları Laçın yolu ətrafında yaranmış vəziyyətlə bağlı bəyanat yayıb** // Azərbaycan. - 2023.- 1 avqust. - №180. - S. 8.

- **Günel, Abbas.** Diaspor siyasətimiz...: Tarixi qələbənin formalaşdırdığı yeni inkişaf mərhələsi // Yeni Azərbaycan. - 2023.- 21 iyul. - № 127. - S. 6.

- **Azərbaycan diasporu Ermənistanın mina terroru ilə bağlı beynəlxalq ictimaiyyətə növbəti dəfə müraciət edib** // AZƏRTAC .- 2023.- 18 iyul.

- **Ağaşahqızı, Yaqut.** Diasporumuz son 21 ildə // İki sahil. - 2023. - 12 iyul. - № 120. - S. 3.

- **Qəribli, Məhəmmədəli.** Diasporumuzun Şuşa səfərləri getdikcə sistemli xarakter alır – Prezidentin çağırışı konkret işə çevrilir… // Bakı Xəbər. - 2023. - 12 iyul. - № 118. - S. 8.

- **Kərimli, Şərif.** Heydər Əliyev: Gürcüstan azərbaycanlıları diaspor deyil // Xalq qəzeti. - 2023.- 12 iyul. - № 143. - S. 5.

- **Ələddinqızı, Nəzakət.** İdeoloji bütövlük və milli birlik: Ümummilli Lider Heydər Əliyevin 5 iyul 2002-ci il tarixli Fərmanı ilə Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi yaradıldı // Səs. - 2023. - 5 iyul. - № 115. - S. 12.

- **Özbəkistanın azərbaycanlı övladı.** Özbəkistanda idarəetmə sahəsində çalışan azərbaycanlı Mehriban Rəhimova: "Bu ölkədə bütün millətlərə diqqət və qayğı var, millətlərarası dostluq dövlət siyasətinə çevrilib. Bu ölkədə xoşbəxtik. Amma Vətən deyəndə içimizdə nəsə sızıldayır" // Kaspi. - 2023.- 17 iyun. - № 22. - S. 14.

- **Tağıyev, Tahir.** Azərbaycanda lobbiçiliyin təşəkkülü yeni vüsət alır // Bakı Xəbər. - 2023. - 9 iyun. - № 100. - S. 8.

- **Səmədova, Töhfə.** Diaspor təşkilatlarının formalaşdırılması milli prioritetdir: 2016-cı il iyunun 3-də Dünya Azərbaycanlılarının IV Qurultayı keçirilib // Azərbaycan. - 2023.- 3 iyun. - № 116. - S. 5.

- **Qocayev, İsmayıl.** Diasporanın işi ilə kifayətlənmək olmaz: Əli çatan, sözü keçən hər bir insanımız ABŞ-də Azərbaycanın tanıdılması, mövqelərinin möhkəmləndirilməsi üçün bacardığını etməlidir // Şərq. - 2023. - 23 may. - № 88. - S. 6.

- **Dilqəmli, Nicat.** Diaspor quruculuğu - prioritet istiqamət kimi // Yeni Azərbaycan.-2023.- 20 may.-№88.-S.5.

- **Hacıyev, İnam.** Diaspor quruculuğu prioritetdir // Səs.-2023.-13 may.-№83.-S.9.

- **Sarıyeva, İradə.** Azərbaycançılıq ideologiyasının Cənubi Azərbaycan istiqaməti... // Bakı Xəbər. - 2023. - 4 may. - № 76. - S. 8.

- **Rzayeva, Məlahət.** Dünya azərbaycanlılarının həmrəyliyi alqışlanmalıdır: Soydaşlarımız Ermənistanın alçaq hərəkətlərini dünyaya yayır // Şərq. - 2023. - 20 aprel. - № 68. - S. 6.

- **Nəcəfli, Maral.** "Türkiyədə yaşayan Azərbaycan türkləri sistemli, təşkilatlanmış halda deyil". Settar Kaya: "...İYİ Partiyanın içində olduğu bir hökumətdə Azərbaycanın uca mənfəətləri, əlbəttə ki, önə çıxarılacaq" // Şərq. - 2023.- 18 aprel. - № 66. - S. 5.

- **Dilqəmli, Nicat.** Dünya azərbaycanlılarını birləşdirən ideoloji bünövrə: Azərbaycançılıq ideologiyasının təbliği aktualdır // Yeni Azərbaycan.-2023.-13 aprel.-№63.-S.5.

- **Zülfüqaroğlu, Əli.** Heydər Əliyev və dünya azərbaycanlıları // Xalq cəbhəsi.-2023.-16 mart.-№9.-S.7.

- **Qəribli, Məhəmmədəli.** Müstəqil Azərbaycanın və Cənubi Azərbaycanın diasporları birlikdə çox şeylərə qadirdi... // Bakı Xəbər. - 2023. - 8-9 mart. - № 43. - S. 8.

- **Kamalqızı, Rəfiqə.** Heydər Əliyev və Azərbaycan diasporu // Səs.- 2023.- 7 fevral.-№ 22.- S.4.

- **Fərəcova, Zöhrə.** Dünya azərbaycanlılarının birliyinin, həmrəyliyinin Şuşadan təcəssümü // Azərbaycan. - 2023.- 3 fevral. - № 24. - S. 9.

- **Avropadakı diasporumuzun İrandakı səfirliyimizdə törədilmiş terrorla əlaqədar bəyanatı** // AZƏRTAC.- 2023.- 30 yanvar.

- **Qocayev, İsmayıl.** Güc birlikdədir: Azərbaycan diaspora qurumları erməni lobbisinə qarşı mübarizədə qardaş Türkiyə ilə ortaq hərəkət edirlər // Şərq. - 2023. - 25 yanvar. - № 13. - S. 6.

- **Musayeva, Yasəmən.** Milli çağırış: Ötən il Böyük qayıdışın gerçəkləşdirilməsi istiqamətində tarixi uğurlarla əlamətdar oldu // Azərbaycan. - 2023.- 6 yanvar. - № 1. - S. 6.

# Milli çağırış

## Ötən il Böyük qayıdışın gerçəkləşdirilməsi istiqamətində tarixi uğurlarla əlamətdar oldu

**Yasəmən Musayeva**

**"...Demişdim ki, əminəm, 2022-ci il də ölkəmiz üçün uğurlu olacaq. Belə də oldu. Qarşımızda duran bütün vəzifələr icra edildi, Azərbaycan daha da gücləndi".**

Prezident İlham Əliyevin dekabrın 31-də Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciəti zamanı bəyan etdiyi kimi, Azərbaycan hər ötən il gücünə güc qatır. Qüdrətli dövlətimiz qalib lider İlham Əliyevin qətiyyəti və əzmi sayəsində bütün sahələr üzrə böyük uğurlar qazanır, xalqımızın milli mənafeyi uğrunda qarşısına qoyduğu bütün hədəflərə müvəffəqiyyətlə nail olur.

Yola saldığımız 2022-ci il də ölkəmizin əldə etdiyi bol uğurlarla yadda qaldı. Azərbaycan həm daxildəki hərtərəfli inkişafı, həm də beynəlxalq arenada qazandığı diplomatik qalibiyyətlərlə ötən ilə parlaq imzasını atdı, gələcəyə doğru işıqlı yol aldı.

Xüsusilə də 2022-ci ildə, keçmiş məcburi köçkün vətəndaşlarımızın Qarabağa və Şərqi Zəngəzura qayıdışının gerçəkləşdirilməsi istiqamətində tarixi uğurlar əldə edildi.

### Güclü iqtisadiyyata söykənən böyük nailiyyətlər

44 günlük müharibəni şanlı qələbə ilə başa çatdırdıqdan sonra Azərbaycan dövlətinin qarşısına qoyduğu milli prioritetlərdən biri də işğaldan azad etdiyi torpaqlara tezliklə Böyük qayıdışı gerçəkləşdirmək idi. Buna görə də Vətən müharibəsindən dərhal sonra tarixi ərazilərimizdə geniş quruculuq və bərpa işlərinə start verildi. Qarabağa və Şərqi Zəngəzura yenidən həyatın qaytarılması üçün birbaşa dövlət başçısı İlham Əliyevin şəxsi nəzarəti və diqqəti altında bu ərazilərdə dünyada misli görünməmiş meqalayihələrin icrasına başlanıldı.

Prezident İlham Əliyevin zəfərdən ötən bu ikiillik qısa zaman kəsiyində mütəmadi olaraq işğaldan azad edilən ərazilərə səfərlər etməsi, erməni vəhşilərinin yerləyeksan etdiyi qədim şəhərlərimizin yeni bünövrələrini qoyması, yeni yolların, tunellərin, beynəlxalq hava limanlarının təməllərini atması, bütün infrastrukturu başdan yaratması  Böyük qayıdışın tezliklə reallaşdırılmasına mühüm təkan verdi.

Azərbaycan ağır müharibədən çıxsa da, işğaldan azad etdiyi bölgələri öz iqtisadiyyatının gücü sayəsində yenidən qurur, bu ərazilərdə irimiqyaslı müasir infrastruktur layihələri icra edir. Ölkəmiz həmin ərazilərdə apardığı genişmiqyaslı quruculuq işlərini öz maliyyə gücü hesabına aparır. Təkcə ötən il Qarabağ və Şərqi Zəngəzurda gerçəkləşdirilən quruculuq bərpa işləri ilə əlaqədar dövlət büdcəsindən 3 milyard manata yaxın vəsait ayrılıb.

Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə xalqa müraciətində Prezident İlham Əliyev sadalanan nailiyyətləri əldə etmək üçün dövlətin güclü iqtisadiyyata malik olmasının vacibliyini söyləyərək vurğuladı ki, "Əlbəttə ki, bütün bu nailiyyətlərə çatmaq üçün bizim güclü iqtisadiyyatımız olmalıdır və iqtisadi müstəqillik çoxdan təmin edilib. Bu gün Azərbaycan dünya miqyasında nadir ölkələrdəndir ki, heç kimdən iqtisadi və siyasi cəhətdən asılı deyil".

### Gerçəkləşdirilən meqalayihələr

İşğaldan azad edilən bütün şəhərlərin və qəsəbələrin baş planları hazırlanıb və təsdiqlənib. Qarabağ və Şərqi Zəngəzurun bəzi şəhərlərində, ilk növbədə Şuşada, eləcə də Ağdamda, Füzulidə, Zəngilanda, Laçında geniş quruculuq işləri aparılır. Xəstəxanalar, məktəblər, yaşayış binaları inşa edilir. Artıq 10-dan çox kəndin də baş planları təsdiqlənib və bir neçə kəndin təməli şəxsən qurucu lider İlham Əliyev tərəfindən qoyulub.

Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən nəhəng layihələrdən biri də burada qısa müddətdə tikilib istifadəyə verilən beynəlxalq hava limanlarıdır.

Azərbaycan dövləti 2021-ci ildə cəmi 8 ay ərzində Qarabağın "hava qapısı" adlandırılan Füzuli Beynəlxalq Hava Limanını tikib istifadəyə verib. Eləcə də ötən il oktyabrın 20-də, Zəngilanın azadlıq günündə Zəngilan Beynəlxalq Hava Limanının açılış mərasimi keçirilib. Hər iki beynəlxalq hava limanının açılışı Prezident İlham Əliyev və qardaş Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə baş tutub. Hazırda Laçında sürətli tikintisi gedən Laçın Beynəlxalq Hava Limanının isə 2025-ci ildə istifadəyə verilməsi planlaşdırılır.

Bütün azad olunmuş ərazilərdə elektrik təchizatı tamamilə bərpa edilib. 2022-ci il martın 15-də 230 MVt gücündə "Qaradağ" Günəş-Elektrik Stansiyasının təməlqoyma mərasimi keçirilib. İşğaldan azad olunmuş ərazilərdə bərpaolunan enerjinin potensialı on min meqavat təşkil edir. Artıq bir neçə su-elektrik stansiyasının açılışı olub. Su elektrik enerjisinin ümumi gücü beş yüz meqavatdan çox olacaq. Yerdə qalan güc isə günəş və külək elektrik enerjilərindən qaynaqlanacaq.

## Qayıdışın başlanğıcı

Azərbaycanın ötən il əldə etdiyi ən parlaq tarixi uğurlardan biri isə zəfərdən cəmi ilyarım sonra Böyük qayıdışa start verilməsi və Zəngilan rayonunun Ağalı kəndinə sakinlərin köçürülməsi və burada həyatın bərpa edilməsi oldu.

Ağalılıların timsalında "məcburi köçkünlük yükü"ndən azad olan insanların necə böyük sevinc, xoşbəxtlik hissi ilə yurd nisgilindən qurtulduqlarının şahidi olduq.

2022-ci il iyulun 19-da, vaxtilə Ağalıdan zorla didərgin salınan körpələr gənc, uşaqlar ata-ana, gənclər isə saçlarına dən düşmüş nənə-baba kimi doğma torpaqlarına döndülər. O gün Zəngilanı, Ağalını heç zaman görməyən yeni nəsillərimiz getdilər dədə-baba torpaqlarında yaşamağa, qurub yaratmağa.

"Bu, tarixi hadisədir. Çünki müharibədən iki il keçmədən - cəmi ilyarımdan sonra biz artıq birinci keçmiş köçkünləri öz doğma torpaqlarına qaytarmışıq, onlar üçün gözəl şərait yaratmışıq", - deyə xalqa müraciətində dövlət başçısı İlham Əliyev ona da  xüsusi diqqət çəkdi ki, "Bu bir daha onu göstərir ki, dövlətimiz güclüdür və iradəmiz yerindədir. Eyni zamanda bu, xalqımızın böyüklüyünü göstərir. Onu göstərir ki, bizim vətəndaşlarımız öz dədə-baba torpaqlarına bağlıdır, necə deyərlər, torpaq çəkir. Hətta heç vaxt o yerləri görməyən gənclər, uşaqlar, məktəblilər böyük həvəslə Ağalıya qayıdıblar və bu, bir daha xalqımızın böyüklüyünü göstərir. Onu göstərir ki, məcburi köçkünlər qayıdış gününü səbirsizliklə gözləyirlər".

Ötən il qazandığımız möhtəşəm nailiyyətlərdən biri isə avqustun 26-da - nəzərdə tutulmuş vaxtdan xeyli əvvəl Laçın şəhərinin də azad edilməsi, eyni zamanda Laçının Zabux və Sus kəndlərinə də qayıdışımız oldu.

Artıq Laçın şəhərində də çox genişmiqyaslı quruculuq-bərpa işləri aparılır. 2023-cü ildə laçınlıların doğma yurdlarına qaytarılması isə Azərbaycan dövlətinin qarşısına qoyduğu növbəti tarixi hədəfdir.

Eləcə də Zəngəzur dəhlizinin açılması ilə əlaqədar genişmiqyaslı işlər aparılır, dəmir və avtomobil yolları çəkilir. Bununla əlaqədar dövlət başçısı İlham Əliyev müraciətində bəyan etdi ki, "Zəngəzur dəhlizinin açılması mütləq olmalıdır, Ermənistan bunu istəsə də, istəməsə də. Biz ortaya güclü iradə qoymuşuq, bütün işlər plan üzrə gedir. Bizim tələbimiz əsaslıdır və ədalətlidir. Azərbaycanın əsas hissəsi ilə, onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası ilə bizim bağlantımız olmalıdır və olacaqdır".

## Heydər Əliyev Fondunun tarixi irsə töhfəsi

30 illik işğal dövründə erməni vandalları Qarabağ və Şərqi Zəngəzurdakı tarixi, mədəni, dini irsimizi də vəhşicəsinə dağıdıblar, bu ərazilərdə Azərbaycan xalqına məxsus izləri itirmək istəyiblər.

Vətən müharibəsində əldə etdiyimiz zəfər sayəsində tarixi irsimiz də düşmən caynağından xilas olub. Qələbədən dərhal sonra işğaldan azad edilmiş ərazilərdə tarixi binalarımızın, o cümlədən məscidlərimizin əsaslı şəkildə bərpasına və yenidən inşa olunmasına başlanılıb. Xüsusi qeyd edək ki, Qarabağ və Şərqi Zəngəzurda dini abidələrimizin inşası və təmirini Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi altında Heydər Əliyev Fondu böyük müvəffəqiyyətlə gerçəkləşdirir.

Ötən il Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən möhtəşəm quruculuq bərpa işləri, eləcə də Böyük qayıdışla bağlı atılan mühüm addımlardan da aydın görünür ki, Azərbaycan cəmi 44 gün ərzində torpaqlarını işğaldan azad etdiyi kimi, qısa zamanda o yerlərə həyatın qayıtması üçün misilsiz layihələr gerçəkləşdirir.

Qurucu lider İlham Əliyevin rəhbərliyi altında Azərbaycan dövləti öz tükənməz gücü və qüdrəti ilə Qarabağ və Şərqi Zəngəzurda meqalayihələr həyata keçirir, Böyük qayıdışla keçmiş məcburi köçkün vətəndaşlarımızın tarixi torpaqlarına dönərək təhlükəsiz və layiqli həyata başlamasına mükəmməl şərait yaradır.

Yeni qədəm qoyduğumuz 2023-cü ildə də tarixi torpaqlarımızda bərpa quruculuq işlərinin aparılması, keçmiş məcburi köçkünlərin ata-baba yurdlarına qaytarılması dövlətimizin gündəliyində duran bir nömrəli məsələdir.

**Azərbaycan.** - 2023.- 6 yanvar. - № 1. - S. 6.

## Güc birlikdədir

*Azərbaycan diaspora qurumları erməni lobbisinə qarşı mübarizədə qardaş Türkiyə ilə ortaq hərəkət edirlər*

**İsmayıl Qocayev**

**Diasporla İş üzrə Dövlət Komitəsi 2022-ci ilin yekunlarına və 2023-cü ilin fəaliyyət planına həsr olunmuş geniş- tərkibli kollegiya iclası keçirib. İclasda ötən dövr ərzində görülmüş işlərdən və qarşıda duran vəzifələrdən bəhs olunub. Kollegiyanı açıq elan edən Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov 2022-ci ilin Diasporla İş üzrə Dövlət Komitəsinin fəaliyyətində və Azərbaycan diaspor hərəkatının tarixində əhəmiyyətli yer tutduğunu bildirib.**

O, komitənin və diaspor təşkilatlarının fəaliyyətinə göstərdiyi diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür edib. F.Muradov qeyd edib ki, ötən il Azərbaycanın mədəniyyət paytaxtı Şuşada Dünya Azərbaycanlılarının V (Zəfər) Qurultayı və Diaspor Gənclərinin III Yay Düşərgəsi kimi mühüm tədbirlər keçirilib, Komitənin 20 illik yubileyi Had- rutda əsgər və zabitlərimizlə birlikdə qeyd olunub. İl ərzində Dövlət Komitəsi Azərbaycan haqqında dolğun məlumatların dünya ictimaiyyətinə çatdırılması, maddi-mənəvi irsin kütləvi təbliği, lobbiçiliyin təkamülü, xaricdə yaşayan azərbaycanlıların təşkilatlanması, yaşadıqları ölkələrin cəmiyyətlərinə inteqrasiyası, ictimai-siyasi həyatda aktivliyinin təmin olunması, tarixi vətənlə əlaqələrinin genişləndirilməsi üçün ardıcıl və sistemli tədbirlər həyata keçirib. Habelə diaspor təşkilatları arasında səmimi əməkdaşlıq münasibətlərinin yaradılması istiqamətində fəaliyyət davam etdirilib. Soydaşlarımızın birliyi və azərbaycançılıq ideologiyası ətrafında daha sıx birləşməsi üçün mühüm işlər görülüb. Vurğulanıb ki, hesabat dövründə Azərbaycan diasporu xüsusi aktiv olub, nümunəvi yekdillik və mütəşəkklllik göstərib. Ermənistanın Cənubi Qafqaz regionunda həyata keçirdiyi separatçılıq, ekstre-mizm, özününküləşdirmə siyasəti ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində önəmli tədbirlər görülüb. Ölkəmizə qarşı erməni diasporu və lobbisi tərəfindən həyatakeçirilən kampaniyaların qarşısının alınması, Xocavənd rayonunun Edilli kəndində kütləvi məzarlıqların tapılması ilə əlaqədar xarici ölkələrdə Azərbaycan diaspor təşkilatları tərəfindən dünyanın 40 ölkəsində Ermənistan səfirlikləri və beynəlxalq təşkilatların nümayəndəlikləri qarşısında aksiyalar keçirilib. Ermənistanın 12-14 sentyabr təxribatı ilə əlaqədar Azərbaycan diaspor təşkilatları Avropanın aparıcı paytaxtlarında və şəhərlərində aksiyalar keçirərək, Ermənistan rəhbərliyinə etirazlarını bildiriblər. Ümumilikdə diaspor fəalları yaşadıqları ölkələrin ictimai-siyasi dairələrinə və dövlət-hökumət nümayəndələrinə təxribat barədə 70, diaspor təşkilatları isə 143 müraciət və bəyanat ünvanlayıblar. Komitə sədri Azərbaycan Respublikası-nın Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın tapşırıq və tövsiyələrinə uyğun olaraq diaspor fəaliyyətinin əlaqələndirilməsi məqsədilə Koordinasiya şuralarının və Azərbaycan evlərinin, eləcə də həftəsonu Qarabağ və Bazar günü məktəblərinin sayının 2023-cü ildə də artırılmasının nəzərdə tutulduğunu vurğulayıb. Daha sonra Komitənin şöbə müdirlərinin hesabatı dinlənilib. Kollegiya iclası Prezidentin sərəncamı ilə təltif olunmuş komitə əməkdaşlarına orden və medalların təqdim olunması ilə yekunlaşıb. Qeyd edək ki, Prezident İlham Əliyevin 4 iyul 2022-ci il tarixli Sərəncamı ilə Azərbaycan diasporu ilə iş sahəsində dövlət siyasətinin həyata keçirilməsində səmərəli fəaliyyətinə görə Komitə sədri Fuad Muradov 3-cü dərəcəli ’’Vətənə xidmətə görə” ordeni ilə, 8 əməkdaş ’’Tərəqqi” medalı ilə təltif edilib. Bundan başqa, Prezidentin 22 iyun 2022-ci il tarixli Sərəncamı ilə 23 iyun - Dövlət qulluqçularının peşə bayramı günü münasibətilə Diasporla İş üzrə Dövlət Komitəsinin 3 əməkdaşı "Dövlət qulluğunda fərqlənməyə görə” medalı ilə təltif olunub.

Ümumiyyətlə, qeyd olunmalıdır ki, diaspor siyasəti dövlətin əsas güclərindən biridir. Diaspor təşkilatlarının fəaliyyət göstərdikləri ölkələrin siyasi həyatında aktivliyi həm təşkilatlanma səviyyəsi, həm də cəmiyyətlərin siyasi, iqisadi inkişafı ilə bağlıdır. Dünyada təmsil olunmaq, ölkəni layiqincə təmsil etmək əsas vəzifədir. Azərbaycan diasporu son illər təşkilatlanaraq, xarici ölkələrdə öz mövqelərini möh-kəmləndirməkdədir. Ancaq bu proses heç vaxt dayanmamalıdır. Yeni çağırışlara, dünyada baş verən proseslərə uyğunlaşmalıdır. 44 günlük Vətən müharibəsi zamanı Azərbaycan diasporunun bütün nüma-yəndələri ’’dəmir yumruq” kimi birləşməyi bacardı. Xaricdə yaşayan azərbaycanlıların diaspordan lobbiyə çevrilməsi istiqamətində atılan praktik addımların nəticəsini müharibə zamanı gördük. 44 günlük

müharibədən sonra Azərbaycan diaspor təşkilatlarının fəaliyyətində yeni mərhələ başladı. Böyük Qələbədən sonra artıq diasporun da vəzifələri dəyişdi, yeni reallıqlara uyğunlaşdı. Biz artıq dünya ölkələrində müzəffər xalqın nümayəndələri kimi təmsil olunuruq.

**Diaspor Fəaliyyətinə Jurnalistlərin Dəstəyi İctimai Birliyinin sədri, tanınmış jurnalist Fuad Hüseynzadə "Şərq"ə açıqlamasında bildirib ki, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında, eləcə də erməni diasporunun və onları dəstəkləyən qüvvələrin ölkəmizə qarşı apardığı çirkin siyasətin qarşısının alınmasında xaricdə yaşayan azərbaycanlıların müstəsna xidməti var.** Xüsusən 44 günlük müharibədən sonra həmvətənlərimiz yaşadıqları müxtəlif ölkələrdə yüksək səviyyədə təşkilatlanmanın önəmini daha yaxşı dərk edirlər. Ekspertin sözlərinə görə, Azərbaycan diaspora təşkilatlarının tərkib hissəsinə çevrilən həmvətənlərimiz xalqımıza, qardaş Türkiyəyə qarşı düşmənçilik və əsassız torpaq iddialarının, yalanla yoğrulmuş erməni ideologiyasının ifşa olunmasında ardıcıl və sistemli mübarizə aparırlar. Azərbaycan diaspora qurumları erməni lobbisinə qarşı mübarizədə qardaş Türkiyə ilə ortaq hərəkət edirlər: "2021-ci il iyunun 15-də Azərbaycanın mədəniyyət paytaxtı Şuşada Türkiyə lideri Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən imzalanmış Bəyannamənin əhatə etdiyi mühüm sahələrdən biri də birgə diaspora fəaliyyəti ilə bağlıdır. Hesab edirik ki, Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin diaspor təşkilatları vahid siyasət ətrafında fəaliyyət göstərməlidir. Əgər fəaliyyət geniş olarsa, uğurlar da kifayət qədər böyük olar. Dünya erməniləri Azərbaycanın 44 günlük Vətən müharibəsində qələbəsini həzm edə bilmirlər. Eyni zamanda qardaş Türkiyənin Azərbaycana siyasi və mənəvi dəstəyi erməni lobbisini kəskin şəkildə aqressivləşdirib. Amerika Erməniləri Milli Komitəsinin (ANCA) idarəçiliyi ilə dünya erməniləri, xüsusən ABŞ-dəki erməni lobbisi anti-Azərbaycan və anti-Türkiyə fəaliyyətini planlı şəkildə davam edirlər".

**F.Hüseynzadə vurğulayıb ki, informasiya müharibəsi sonsuzdur. İldən-ilə bu müharibədə yeni-yeni trendlər meydana çıxır:** "Biz bu trendlərin önündə olmalıyıq. Erməni və ermənipərəst qüvvələr davamlı olaraq beynəlxalq sosial şəbəkə və media platformalarında Azərbaycan haqqında neqativ yazılarla çıxış edir, ölkəmizə qarşı çirkin kampaniya aparırlar. Xüsusən Vətən müharibəsindən sonra onlar ağlagəlməz şəkildə kəskin anti-Azərbaycan və anti-Türkiyəprioritetləri ilə çıxış edirlər. Erməni lobbi maşını artıq Azərbaycan və Türkiyəyə deyil, türk dünyasına qarşı mübarizəyə qalxıb. Onların hədəfi bir millət və iki dövlətin diasporunun xaricdə nüfuzunu gözdən salmaq, ümumiyyətlə, türk xalqlarının birliyini zədələməkdir".

**Fuad Hüseynzadənin fikrincə, bütün bunlara qarşı ənənəvi diaspor fəaliyyətləri, xüsusən tədbirçilik artıq istənilən nəticə vermir:** 'Biz, ümumiyyətlə, başqalarına cavab vermək və addımları ilə ayaqlaşmağa köklənmiş fəaliyyətlərdən qaçmalıyıq. Uğur qazanmaq, real nəticə əldə etmək üçün yenilikçiliyə ehtiyacımız var. Azərbaycan həqiqətlərinin təbliğində yeni forma və metodların tətbiqi diaspor quruculuğu işini də keyfiyyətcə təkmilləşdirir. Fikri- mizcə, xalqımızın tarixi, xüsusən Qarabağ həqiqətləri ilə bağlı məlumatların dünya ictimaiyyətinə çatdırılması üçün yeni mexanizmlərdən, dünyanın qəbul edəcəyi, ictimai həyata təsir edəcək taktikalardan istifadə etməliyik. Bunun üçün dünya azərbaycanlıları, eləcə də xaricdəki gənclər arasında iki və çoxtərəfli əməkdaşlıq qurulmalı, təcrübə mübadiləsi aparılmalı, azərbaycanlıların intellektual potensialı ümummilli mənafelər naminə səfərbər edilməlidir".

**Şərq.** - 2023. - 25 yanvar. - № 13. - S. 6.

**Avropadakı diasporumuzun İrandakı səfirliyimizdə törədilmiş terrorla əlaqədar bəyanatı**

Avropada yaşayan soydaşlarımız Azərbaycanın İrandakı səfirliyinə edilmiş silahlı hücumla əlaqədar bəyanat yayıb.

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, "Oslo Azərbaycan Evi"nin, Norveç Azərbaycanlıları Gənclər Birliyinin (NAYO) və Skandinaviya Azərbaycanlıları Koordinasiya Şurasının Norveçdəki koordinatorluğunun, Rumıniyada Azərbaycanın Dostları Assosiasiyasının və Şərqi Avropa Azərbaycanlıları Koordinasiya Şurasının Rumıniya üzrə koordinatorluğunun, Almaniyadakı Heydər Əliyev adına Dünya Boks Komitəsinin və Çexiyadakı "Xarı-Bülbül" Dünya Azərbaycanlıları Mədəniyyət Assosiasiyasının yaydığı bəyanatlarda səfirliyimizin mühafizə xidmətinin rəisi Orxan Əsgərovun qətli, iki əməkdaşının yaralanması ilə nəticələnən terror aktına görə dərin narahatlıq ifadə edilib.

İranın müstəqil Azərbaycan dövlətinə münasibətdə təcavüzkar Ermənistanla eyni mövqedən çıxış etməsini kəskin şəkildə pisləyən soydaşlarımız Avropa ictimaiyyətini və beynəlxalq birliyi regionda sülh, eyni zamanda, sabitlik əleyhinə yönəlmiş cinayətlərə görə cavabdehlik daşıyanların ən qısa zamanda məsuliyyətə cəlb olunması istiqamətində əməli addımlar atmağa çağırıb.

**AZƏRTAC**
**2023, 30 yanvar**

## Dünya azərbaycanlılarının birliyinin, həmrəyliyinin Şuşadan təcəssümü

**Zöhrə Fərəcova**

**Tariximizə Zəfər günü kimi yazılan o gündən - 2020-ci ilin 8 noyabrından bəri Qarabağın və Şərqi Zəngəzurun düşmən işğalından azad edilmiş bütün yaşayış məskənləri kimi, Şuşanın da üzü gülür. Həmin gün ki Azərbaycanın igid, mərd oğulları öz qəhrəmanlıqları ilə dastan yazdılar. Prezident İlham Əliyev Şəhidlər xiyabanında Azərbaycan xalqına müraciətində Şuşanın azad olunması müjdəsini verdi: "Əziz Şuşa, sən azadsan!**
**Əziz Şuşa, biz qayıtmışıq!**
**Əziz Şuşa, biz səni dirçəldəcəyik!", - dedi**

### Şuşada düzənlənən möhtəşəm tədbir

Vətən müharibəsindən sonra Azərbaycanın bu qədim və gözəl şəhərinin, mədəniyyət mərkəzi, Qarabağın baş tacı olan Şuşanın yeni, mənalı, xoş günləri başlayıb. Düşmən işğalında qaldığı otuz ilə yaxın müddətin ağrısı, acısı yavaş-yavaş çıxır, yaraları sağalır.

Şuşa artıq yağıların tapdağı altında inləmir. Bu əsrarəngiz şəhər işğalın davam etdiyi illərdə də Ermənistanın cəhdlərini boşa çıxardı. Erməni vandalları onun tarixini, mədəniyyətini özününküləşdirə bilmədilər. Gücləri yalnız uçurub-dağıtmağa yetdi. Vətən müharibəsindən sonra doğmalarının əlləri ilə yenidən qurulur, canlanır Şuşa...

Ermənistanın əsarətindən qurtulandan bəri Qarabağda həm də tarixi və mədəni ənənələrimiz bərpa edilib, Şuşa şəhərinin işğalı ilə yarımçıq qalmış tədbirlər yenidən düzənlənir. Azad olunandan sonra bu şəhərdə "Xarıbülbül" Musiqi Festivalı, Vaqif Poeziya Günləri keçirildi. Milli Məclisin "Şuşa ili"nə töhfəsi olaraq qala şəhərində parlamentin komitə iclaslarının keçirilməsinə başlanıldı. Daha bir əlamətdar hadisə isə bu illə əlaqədardır. Belə ki, 2023-cü ildə Şuşa Türk dünyasının mədəniyyət paytaxtı elan olunub.

### Zəfər adı xalqımıza çox yaraşır

Keçən il Şuşada təşkil olunan ən unudulmaz tədbirlərdən biri də Dünya Azərbaycanlılarının V Qurultayının bu şəhərdə keçirilməsi oldu. Həmin əlamətdar gündə dünyanın müxtəlif yerlərində, fərqli məkanlarında yaşayan həmvətənlərimiz böyük fəxarət, qürur hissləri yaşadılar.

Tarixə Zəfər qurultayı kimi yazılan Dünya Azərbaycanlılarının V Qurultayının iştirakçıları və Diasporla İş üzrə Dövlət Komitəsinin (DİDK) əməkdaşları əvvəlcə respublikamızın paytaxtında Fəxri xiyabanı, Birinci və İkinci Şəhidlər xiyabanlarını ziyarət etdilər. Sonra Şuşa şəhərinə yola düşdülər. Dünya Azərbaycanlılarının V Qurultayında 65 ölkədən 400 nəfərə yaxın diaspor nümayəndəsi iştirak etdi.

Prezident İlham Əliyev vurğuladı: "Biz bu gün azad Qarabağda, azad Şuşada dünya azərbaycanlılarının qurultayını keçiririk. Bu qurultayın adı Zəfər qurultayıdır və bu, təbiidir. Çünki tarixi zəfərdən sonra ilk dəfədir ki, dünya azərbaycanlıları toplaşır, qurultay keçirir və ümumiyyətlə, zəfər adı xalqımıza çox yaraşır. Siz buraya Zəfər yolu ilə gəlmisiniz, qurultayın adı Zəfər qurultayıdır". Dövlət başçısı bildirdi ki, bundan sonra xalqımız müzəffər xalq kimi, dövlətimiz qalib dövlət kimi yaşayacaq.

Qeyd edək ki, Dünya Azərbaycanlılarının I qurultayı 2001-ci il noyabrın 9-10-da, II qurultayı 2006-cı il martın 16-da, III qurultayı 2011-ci il iyulun 5-6-da, IV qurultayı 2016-cı il iyunun 3-4-də keçirilib. Növbəti - V qurultayın Şuşada təşkil olunması birliyimizin, həmrəyliyimizin böyük təntənəsi, həmçinin otuz ilə yaxın davam edən Ermənistanın işğalından sonra Şuşaya azad səfər etməyimizin, nisgilə, həsrətə birdəfəlik son qoymağımızın qürurunun və sevincinin təcəssümünə çevrildi.

### Dünya azərbaycanlıları vətənpərvərliklərini nümayiş etdirdilər

Dünya Azərbaycanlılarının V Qurultayında qalib Azərbaycan xalqının müxtəlif ölkələrdə yaşayan nümayəndələri Şuşaya toplaşdılar. Bu qurultayın məhz Şuşada düzənlənməsi böyük rəmzi məna daşıyırdı. Qeyd edək ki, bütün dünyada yaşayan azərbaycanlılar öz vətənpərvərliklərini, birliklərini, həmrəyliklərini 2020-ci ildə Vətən müharibəsinin davam etdiyi günlərdə nümayiş etdirmişdilər. Həyəcan, təşviş, ümid,

arzu dolu o günlərdə hər bir azərbaycanlı bir amalda birləşməyi bacardı. Uşaqdan böyüyədək hər kəs intizarla qəhrəman Azərbaycan Ordusunun uzun illər düşmən işğalında qalan torpaqlarımızı azad etməsi xəbərini gözləyirdi. O günlərdə dünyanın bütün ölkələrində yaşayan soydaşlarımız fəallıq, birlik nümayiş etdirir, Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq üçün əllərindən gələni əsirgəmirdilər. Dünyanın 30-dan çox ölkəsində Azərbaycan diaspor təşkilatlarının keçirdikləri 200-dək aksiyaya 25 mindən çox azərbaycanlı, eyni zamanda dost xalqların nümayəndələri iştirak etdilər. Vətən müharibəsinin davam etdiyi günlərdə 300-ə yaxın diaspor təşkilatı ayrı-ayrı ölkələrin dövlət və hökumət rəhbərlərinə, parlament üzvlərinə, beynəlxalq təşkilatlara bəyanatlar, müraciətlər etdilər. Bu birlik və bərabərliyin ən böyük müjdəsi və mükafatı isə məğlubiyyətin ağır mənəvi yükündən qurtulmağımız, Ermənistanın işğalına son qoyulması oldu.

Artıq Zəfər günü zəfər illərinə qovuşub. Hər bir azərbaycanlı qürurla bu illərin sevincini duyur, erməni vandallarının xarabalığa çevirdikləri yaşayış məskənlərimizin abad edildiyinin şahidlərinə çevrilir.

Bütün dünyada qələbələrimizi görüb şad olan dostlarımız olduğu kimi, düşmənlərimiz də var. Düşmənin arzularını gözlərində qoymağın, onları uğurlarımızla, iqtisadi, mədəni sahələrdə inkişafımızla məğlub etməyin ən gözəl yolu isə vətənimizi sevmək, onun yolunda hər zaman birlik, bərabərlik və həmrəylik nümayiş etdirməyimizdir.

**Azərbaycan.** - 2023.- 3 fevral. - № 24. - S. 9.

## Heydər Əliyev və Azərbaycan diasporu

**Rəfiqə Kamalqızı**

"Əmin olduğumu bildirmək istəyirəm ki, Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaqdır, işğal olunmuş torpaqlar azad ediləcək, yerindən-yurdundan didərgin düşmüş qaçqınlar öz doğma torpaqlarına qayıdacaqlar. Təbiidir ki, bu sahədə beynəlxalq təşkilatlarla yanaşı, Azərbaycan diasporuna da böyük ehtiyacımız var". Ulu öndər Heydər Əliyevin bu fikirləri səsləndirdiyi Dünya Azərbaycanlılarının I Qurultayından tam 22 il ötür...

Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının «Şuşa İli»ndə Azərbaycanın mədəniyyət mərkəzi olan Şuşada keçirilən V Zəfər Qurultayında 2001-ci ildə keçirilmiş ilk qurultayı ilə bağlı fikirlərini deyib: «2001-ci ildə keçirilmiş ilk qurultayı xatırlayırdım. «Buraya gələrkən 2001-ci ildə keçirilmiş ilk qurultayı xatırlayırdım. Bildiyiniz kimi, ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə ilk qurultay 2001-ci ildə keçirilmişdir. Ulu Öndər dərin məzmunlu çıxışında, eyni zamanda, təbii ki, Qarabağ problemi ilə bağlı öz fikirlərini bildirmişdir və demişdir ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək, işğal altında olan torpaqlar işğaldan azad ediləcək və Azərbaycan xalqı öz dədə-baba torpaqlarına qayıdacaqdır".

### BİZ - ULU ÖNDƏRİN DAVAMÇILARI BU SÖZLƏRİ GERÇƏYƏ ÇEVİRDİK

Dövlət başçısı bildirib ki, artıq Ulu Öndərin davamçıları bu sözləri gerçəkliyə çevirib: «Biz - Ulu Öndərin davamçıları bu sözləri gerçəyə çevirdik və V qurultaya hazırlıq işləri başlayarkən mənə məruzə edildi və mən dedim ki, bu qurultay mütləq Şuşada keçirilməlidir. Əminəm ki, qurultay iştirakçıları da buna çox müsbət yanaşıblar və böyük həvəslə Şuşaya, qədim Şuşaya, bizim mədəniyyətimizin paytaxtı olan Şuşaya gəlmişlər. Şuşa da öz doğmalarını bax, belə günəşli hava ilə qarşılayır və bu, bir daha onu göstərir ki, bura bizim tarixi torpağımızdır. Hətta təbiət, günəş də bizimlə həmrəydir. Qarabağ münaqişəsinin həll edilməsi Prezident kimi mənim üçün başlıca vəzifə idi. Vəzifəyə seçildiyim ilk gündən bu günə qədər bu məsələnin həlli və postmünaqişə dövrünün Azərbaycanın xeyrinə inkişaf etməsi mənim üçün başlıca vəzifədir və bütün güclər səfərbər edilmişdir. Biz hamımız - həm Azərbaycanda yaşayan Azərbaycan vətəndaşları, dünya azərbaycanlıları bir nöqtəyə vururduq, bir hədəfə çatmaq üçün çalışırdıq".

### BİZ BÖYÜK XALQIQ VƏ HEÇ VAXT BU XALQ, AZƏRBAYCAN XALQI İŞĞALLA BARIŞMAQ FİKRİNDƏ DEYİLDİ

Prezident İlham Əliyev onu da bildirib ki, dövlət-ordu-xalq birliyinin, həmrəyliyinin gücü ilə Ulu Öndərimizin arzusunu gerçəkləşdirdik: «Mən deyirdim ki, biz hər birimiz hər gün bu müqəddəs günü yaxınlaşdırmalıyıq, öz əməyimizlə, işimizlə, hərə öz yerində və torpaqlarımızın işğaldan azad olunmasından daha vacib və ali vəzifə yox idi. Məhz buna görə ordu quruculuğu sürətlə aparılmışdır, buna görə Azərbaycan müasir orduya malik olmuşdur, buna görə gənc nəsil vətənpərvərlik, düşmənə nifrət, Vətənə sədaqət ruhunda tərbiyə olunurdu, buna görə iqtisadi islahatlar aparılmışdır. Bizim bütün işlərimizin, apardığımız siyasətin, atdığımız addımların fövqündə bu müqəddəs günü yaxınlaşdırmaq və bu günü görmək amalı dururdu. Biz buna öz gücümüzlə nail olduq. Azərbaycan xalqı 30 il davam edən mənasız danışıqlar əvəzinə öz gücünü ortaya qoydu, ədaləti bərpa etdi, beynəlxalq hüququ bərpa etdi və bütün dünyaya sübut etdi ki, biz böyük xalqıq və heç vaxt bu xalq, Azərbaycan xalqı işğalla barışmaq fikrində deyildi. Mən dəfələrlə, o cümlədən birinci Qurultaydan sonra keçirilmiş Dünya Azərbaycanlılarının qurultaylarında çıxış edərkən deyirdim ki, biz heç vaxt bu işğalla barışmayacağıq, nəyin bahasına olursa-olsun öz dədə-baba torpaqlarımızı işğaldan azad edəcəyik... Biz təkcə Ermənistanla müharibə aparmamışıq. Biz təkcə dünya erməniliyi ilə müharibə aparmamışıq, biz Ermənistanın himayədarları ilə müharibə aparmışıq və bu müharibədə Qələbə qazanmışıq. Ona görə bu Qələbənin tarixi əhəmiyyəti daha böyükdür. Biz sübut etmişik ki, ölümə getməyə hazırıq, öldü var, döndü yoxdur. Müstəqillik dövründə vətənpərvərlik ruhunda yetişən gənclərimiz ölümə gedirdilər, bilərəkdən ölümə gedirdilər Vətən uğrunda".

## HEYDƏR ƏLİYEV - DÜNYA AZƏRBAYCANLILARININ TƏŞKİLATLANMASI VƏ DİASPOR QURUCULUĞUNDA

Ermənistanın təcavüzü və torpaqlarımızın işğalı dövrünə təsadüf edən həmin illərdə – 1993-cü illərdə ikinci dəfə xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə gələn ulu öndər Heydər Əliyev beynəlxalq ictimaiyyətin ölkəmizin problemlərinə biganəliyi fonunda soydaşlarımızın dünyadakı səsimiz ola biləcəyinin gerçəyini təbliğ edərək bu istiqamətdə atılan addımları dövlət siyasəti xəttinə çevirdi. Ulu öndər Heydər Əliyev bütün görüşlərində onları yaşadıqları ölkəyə inteqrasiya ilə yanaşı tarixi Vətənlərini də unutmamağa, dünyada yaşayan azərbaycanlıları həmişə həmrəy olmağa və azərbaycançılıq ideologiyası ətrafında birləşməyə çağırış edirdi. 1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev dünya azərbaycanlılarının birliyini yaratmağın əhəmiyyətini nəzərə alaraq dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan etdi. O gündən başlayaraq dünyada yaşayan azərbaycanlılar hər il Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü qeyd edirlər. Ulu Öndər 31 dekabr tarixini bayram elan etməklə dünyada yaşayan azərbaycanlıların vətəninə bağlılığını daha da artırmış oldu. Onları birliyə, həmrəyliyə, Azərbaycanın köməyinə səslədi. Heydər Əliyev dünya azərbaycanlılarına müraciətində deyirdi: "Biz istərdik ki, müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar həmin ölkələrin vətəndaşları kimi yaşasınlar. Ancaq heç vaxt öz milli köklərini, milli mənsubiyyətlərini itirməsinlər. Çünki bizi birləşdirən milli mənsubiyyətimizdir, tarixi köklərimizdir, milli-mənəvi dəyərlərimizdir... Vətənini, millətini sevən hər bir azərbaycanlı müstəqilliyimizin dönməzliyi üçün ciddi səy göstərməli, vətənimizin, respublikamızın taleyi hər bir soydaşımızın taleyi olmalıdır".

## AZƏRBAYCAN DİASPORUNUN İNKİŞAFINDA, BİRLİK VƏ HƏMRƏYLİK YOLUNDA YENİ MƏRHƏLƏ

Azərbaycan diasporu bu gün öz inkişafının birlik və həmrəyliyinin yeni, ən yüksək mərhələsini yaşayır. Azərbaycanın dövlət müstəqilliyinin onilliyində Ulu Öndər Dünya Azərbaycanlıların I Qurultayının keçirilməsinə qərar verdi və bu qurultay 2001-ci il noyabr 9-10-da baş tutdu. Qurultayın əsas məqsədi dünyada yaşayan azərbaycanlıları təşkilatlandırmaq və bir amal ətrafında birləşdirmək məqsədilə diaspor komitəsinin yaradılması məsələsini müzakirə etmək idi. Dünya Azərbaycanlılarının I Qurultayında 36 xarici dövlətdə yaşayan həmvətənlərimizin cəmləşdiyi 200-dən çox müxtəlif təşkilatı təmsil etməklə, 406 nümayəndə və 63 qonaq iştirak edirdi. Qurultay müxtəlif ölkələrdə azərbaycanlı icmalarının mütəşəkkilliyinin və fəallığının artmasına ciddi təsir göstərdi. Həmin qurultayda Ulu Öndərin böyük iftixarla söylədiyi “Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam” kəlamı dillər əzbəri oldu. Ulu öndər Heydər Əliyev qurultayda dünya azərbaycanlıları həmrəyliyə çağıraraq demişdir: “Beynəlxalq təşkilatlarla yanaşı, Azərbaycan diasporuna da böyük ehtiyacımız var. Məmnuniyyətlə qeyd edirəm ki, Azərbaycan diasporu son illər təşkilatlanır və Azərbaycan icmaları, diasporu yaşadıqları ölkədə, ümumiyyətlə, beynəlxalq aləmdə artıq özlərini göstərirlər. Amma bu, bizim diasporun formalaşmasının ilkin mərhələsidir. Hamımız - siz də, biz də çox iş görməliyik ki, Azərbaycanın güclü diasporu yaransın. Müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar daha da güclənsinlər. İqtisadi cəhətdən daha da möhkəmlənsinlər, yaşadıqları ölkələrin ictimai-siyasi həyatında fəal iştirak edə bilsinlər. O ölkələrin həyatına öz təsirlərini göstərə bilsinlər”.

2002-ci il iyulun 5-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında" Fərman imzaladı və komitə dövlət qurumu olaraq dünyada yaşayan soydaşlarımızla işləməyə başladı. Diasporla İş üzrə Dövlət Komitəsinin qarşısında qoyulan əsas məsələ Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq, dünya azərbaycanlılarını daha sıx birləşdirmək və informasiya müharibəsindən qalib çıxmaqdır. Beləliklə, dövlətimizin düşünülmüş diaspor siyasəti nəticəsində xaricdəki həmvətənlərimizin daha mütəşəkkil formada təşkilatlanması prosesi özünün yeni mərhələsinə qədəm qoydu. 2016-cı il iyunun 3-4-də keçirilən Dünya Azərbaycanlıların IV Qurultayında dünya azərbaycanlıların qarşısında duran vəzifələrə toxunan Prezident İlham Əliyev qeyd edib: “Azərbaycan həqiqətlərini müxtəlif ölkələrə çatdırmaq üçün burada lazımi tədbirlərin görülməsi haqqında müzakirələr aparılmalıdır, proqram tərtib edilməlidir. Əgər Azərbaycan dövləti bu işdə hər hansı bir formada öz dəstəyini verə bilərsə, biz buna hazırıq. Əsas odur ki, biz bunu planlı şəkildə icra edək. Bu, Azərbaycanın diaspor təşkilatları olan bütün ölkələrdə bəlkə də birinci məsələ olmalıdır”.

## ULU ÖNDƏRİN SÖZLƏRİNİ GERÇƏKLİYƏ ÇEVİRƏN QALİB LİDER!

8 noyabr, 2020-ci il – ŞUŞA AZADDIR! Bizə bu hissləri yaşadan Ali Baş Komandanımız İlham Əliyev və Azərbaycan torpaqlarının hər qarışının azad edilməsi uğrunda canından-qanından keçən rəşadətli əsgər və zabitlərimizdir. Milli həmrəylik, xalqın etimadı, inamı və dəstəyi sayəsində dövlətimizin başçısı bütün diplomatik təzyiqlərə də sinə gələrək, mürəkkəb məsələlərin öhdəsindən uğurla, ləyaqətlə gəlməyi bacardı. Çünki Prezidentimiz xalqımızı oddan-alovlardan, məhv olmağın astanasından qurtaran Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev siyasətinin layiqli davamçısıdır. “Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm” - deyən Ümummilli Liderin nə qədər dahi və uzaqgörən şəxsiyyət olduğu hər keçən gün sübut olunur. Prezident, Ali Baş Komandan İlham Əliyevin qətiyyəti və iradəsi sayəsində işğalda olan bütün torpaqlarımızı, o cümlədən Qarabağın tacı Şuşanın nəyin bahasına olursa-olsun, düşmən tapdağından azad edəcəyinə əmin idi. Ulu öndərimizin dediyi kimi: “Şuşasız Qarabağ, Qarabağsız isə, ümumiyyətlə, Azərbaycan yoxdur”. Xalqımız artıq iki ildir ki, tarixi Qələbənin sevinci ilə yaşayır.

Bəli, 2023-cü il mayın 10-da Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə Prezident İlham Əliyev 29 sentyabr 2022-ci il tarixində “Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi haqqında” Sərəncamı, məhz ulu öndərin Azərbaycanın ən yeni tarixinin 35 ilə yaxın dövründə Azərbaycan xalqı, dövlətçiliyimizin, müstəqilliyimizin qorunması və möhkəmləndirilməsi uğrunda yorulmaz fəaliyyətinə və misilsiz xidmətlərinə verilən yüksək dəyərdir. Və müstəqil Azərbaycanın memarı və qurucusu ümummilli lider Heydər Əliyevin ideyaları – Heydər Əliyev yolu - Prezident, Ali Baş Komandanımız Qalib Lider İlham Əliyev tərəfindən uğurla davam edir və bu yol dönməz və sarsılmaz yoldur. Çünki Prezident İlham Əliyev cənablarının dediyi kimi: "Əldə edilən hər bir uğurumuz Heydər Əliyevin xidmətləridir".

**Səs.-**2023.-7 fevral.-№22.-S.4.

## Müstəqil Azərbaycanın və Cənubi Azərbaycanın diasporları birlikdə çox şeylərə qadirdi...

**Məhəmmədəli Qəribli**

**Azərbaycan dövləti xaricdəki soydaşlarımızı əhatə eləməklə yanaşı, həm də onlarla bağlı diaspor fəaliyyətini stimullaşdırır. Bu, olduqca vacib və həssas məsələdir. Dünya azərbaycanlılarının bu ideologiyaya yiyələnməsi yönündə əhəmiyyətli bir yol keçmişik.**

Ötən əsrin 90-cı illərində azərbaycançılıq ideologiyası hələ sistemli şəkildə formalaşmamışdı. Hazırda dünya azərbaycanlılarının vahid hərəkətini müəyyən edən ideya xətti yalnız azərbaycançılıq olub. Bundan başqa heç nə yox idi. Bu gün dünya azərbaycanlıları Azərbaycan bayrağı altında hərəkət edirlər, vahid çətir altında toplana biliblər, Azərbaycan dövlətinin problemləri ilə bağlı məsələ qaldırırlar. Dünya ölkələrində, olduqları cəmiyyətlərə inteqrasiya edəndə azərbaycançılığı özlərinin əsas identifikasiya göstəricisi kimi irəli sürürlər. Dünya azərbaycanlılarının ideologiyaya yiyələnməsi yönündə çox böyük yol keçmişik. Uzağa getməyək, Vətən müharibəsi günlərində dünyada azərbaycanlılarının apardığı təbliğatı xatırlayaq. Diasporumuzun atdığı addımlar təqdirəlayiqdir, bu Azərbaycançılıq ideologiyasının daşıyıcıları olan insanlar sayəsində mümkün oldu. Bu ideologiya olmasaydı, nə qələbəmizin mahiyyətini başa düşərdilər, nə təəssübkeşlik edərdilər. Amma xaricdə diaspor icmalarımız arasında birliyin, vəhdətin yaradılmasında hələ də müəyyən problemlər var. Diaspor fəaliyyətinin əlaqələndirilməsi, xaricdəki diplomatik nümayəndəliklərlə onların əlaqəsi ürəkaçan səviyyədə deyil. Diaspor icmalarımızla bəzi nümayəndəliklərimiz arasında lazım olan vəhdət yoxdur. Bu istiqamətdə işlər aparılmalıdır. Xüsusilə də bizim Cənubi Azərbaycandan olan və sayı çoxluq təşkil edən soydaşlarımızla vahid diaspor strategiyası istiqamətində hərəkət etməyimiz çox lazımdır.

**40 milyon azərbaycanlının əksəriyyəti bu imkanlardan məhrumdur…**

Prezident İlham Əliyev Səmərqənddə keçirilən Türk Dövlətləri Təşkilatının IX Zirvə Görüşündə çıxış edərkən olduqca vacib məqamlara toxundu:

"Əfsuslar olsun ki, Azərbaycan dövlətinin hüdudlarından kənarda yaşayan 40 milyon azərbaycanlının əksəriyyəti bu imkanlardan məhrumdur. Türk dövlətlərindən kənarda yaşayan soydaşlarımızın öz ana dilində təhsil alması daim təşkilatın gündəliyində olmalıdır. Bu istiqamətdə lazımi addımlar atılmalıdır. Azərbaycan dövləti xarici ölkələrdə yaşayan azərbaycanlıların hüquq və azadlıqlarının, təhlükəsizliyinin təmin edilməsinə xüsusi diqqət verir. Biz acı taleyin hökmü ilə Azərbaycan dövlətindən ayrı düşmüş soydaşlarımızın dilimizi, ənənələrimizi, mədəniyyətimizin qoruyub-saxlanılması, azərbaycançılıq ideyalarına sadiq olmaları, öz tarixi vətənləri ilə əlaqələrinin heç vaxt kəsilməməsi üçün səylərimizi davam etdirəcəyik".

Prezident İlham Əliyevin Azərbaycan dövləti taleyin hökmü ilə ayrı düşən soydaşlarının taleyinə biganə qalmayacağı ilə bağlı verdiyi açıq mesaj dünyadakı bütün azərbaycanlılarda ümid işığı yandırdı.

**Yaxşı olar ki, biz dünyada vahid diaspor mövqeyindən çıxış edərək, ciddi lobbiçilik fəaliyyətinə keçək**

Dünya azərbaycanlıları - soydaşlarımız və həmvətənlərimiz deyəndə istər Azərbaycan Respublikası daxil, istərsə də İranın Cənubi Azərbaycan, Gürcüstanın Borçalı, Rusiyanın Dərbənd ərazisində yaşayan və planetimizin ayrı-ayrı qitələrində, müxtəlif ölkələrində məskunlaşan azərbaycanlılar nəzərdə tutulur. Aborigen əhali olmayan, hansısa dövrdə xaricə köçən və yaşayan azərbaycanlılar da bu kateqoriyaya şamil olunur. Azərbaycan diasporu isə yalnız tarixi Vətəndən kənarda sistemli şəkildə təşkilatlanmış milli azlığın birliyini və konkret ictimai fəaliyyətlə məşğul olan şəxslərin ittifaqını ehtiva edir. Bu xüsusda, biz, gərək birinci və ikinci qrup üzrə real və potensial vəziyyətini nəzərdən keçirək. Məlumdur ki, azərbaycanlıların dünyaya səpələnməsinin tarixi qədim olsa da təşkilatlanması prosesi müasirdir. Hələ icmalaşmadan diasporlaşmaya keçid mərhələsini ayırsaq bu fəaliyyəti gənc hesab etmək olar.

Bəllidir ki, dünyada yaşayan soydaşlarımızın böyük hissəsini Cənubdan köçən soydaşlarımız təşkil edir. Xüsusilə də 1979-cu ildəki islam inqlabından sonra onlar dünyanın müxtəlif ölkələrinə səpələniblər. Bizim diaspor siyasətimiz onları da əhatə etməlidir. Düzdür, bəzi ölkələrdə diasporlarımız koordinasiualı fəaliyyət ortaya qoyur, ancaq bu yetərli deyil. Yaxşı olar ki, biz dünyada vahid diaspor mövqeyindən çıxış edərək, ciddi lobbiçilik fəaliyyətinə keçək. Çünki bizim istər Cənubdan, istərsə də Şimaldan olan diaspor üzvlərimizin yaxşı mövqeləri var. Bu səylərin birləşdirilməsi daha məhsuldar nəticəyə səbəb ola bilər.

**İstər Cənubu, istərsə də Şimalı əhatə edən və ümumi tariximizi tərənnüm edən…**

Keçən ilin sonlarında Kanadada fəaliyyət göstərən ELTV Media qrupu ingilis dilində “Vahid Azərbaycan dövləti – Səfəvilər” adlı sənədli film yayımlayıb.

Filmdə Səfəvilər dövlətinin yaranma tarixi, əhatə etdiyi coğrafi ərazilər, süqutunun səbəbləri və bu dövlətin qurucusu Şah İsmayıl Xətai barədə ətraflı məlumat verilib. Səfəvilər dövlətinin müasir Azərbaycan milli kimliyinin formalaşmasında böyük tarixi rol oynadığına diqqət cəlb edilib.

“My History” layihəsi çərçivəsində gerçəkləşdirilən film Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi, “Vətən” Azərbaycan İncəsənət və Mədəniyyət Mərkəzinin təşəbbüsü və təşkilatçılığı ilə ərsəyə gəlib. Hesab edirik ki, istər Cənubu, istərsə də Şimalı əhatə edən və ümumi tariximizi tərənnüm edən bu cür təbliğat vasitələri diasporumuzun təmərgüzləşməsində ciddi töhvə vermiş olar.

**Bakı Xəbər.** - 2023. - 8-9 mart. - № 43. - S. 8.

## Heydər Əliyev və dünya azərbaycanlıları

**Əli Zülfüqaroğlu**

Ümummilli lider Heydər Əliyev fəaliyyəti dönəmindsə daim xrixdə yaşayan soydaşlarımızın təşkilatlanması, onların Azərbaycan naminə fəaliyyət göstərməsi üçün önəmli addımlar atıb. Məhz onun təşəbbüsü ilə 1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qərarı ilə 31 dekabr Dünya azərbaycanlılarının həmrəylik və birlik günü elan olundu və hər il bayram kimi qeyd edilməyə başladı. Bu tarix Müstəqil Azərbaycanın xaricdə yaşayan soydaşlarımızın təşkilatlanması üçün ilk addımlardan biri idi və sonradan əlamətdar günlərdən birinə çevrildi.

Heydər Əliyev xarici ölkələrə səfərləri zamanı mütləq orada yaşayan azərbaycanlılarla görüşür, onların fəaliyyəti, problemləri ilə maraqlanır və Azərbycan naminə çalışmalarının əhəmiyyətini vurğulayırdı.

Heydər Əliyev həmçinin xaricdə təhsil alan tələbələri də unutmur onların təhsilləri ilə maraqlanır, təhsillərini bitirdikdən sonra ölkəyə dönmələrini və ölkə üçün faydalı mütəxəssis olmalarını tövsiyə edirdi.

Ümummilli lider 1994-cü il yanvarın 9-da xaricdə yaşayan azərbaycanlıların bir qrupu ilə görüşdə deyirdi: “Siz özünüz də eşidibsiniz ki, mən bu yaxınlarda Fransaya səfərə getmişdim...

Orada öyrəndik ki, Fransada 400 min erməni yaşayır. Onlar ölkənin həyatına təsir edirlər. Fransa dövlətinin rəhbərləri də etiraf edirlər ki, onlar bizim xalqın bir hissəsidir. Ermənilərin ölkədə böyük vəzifələrdə, biznesdə, informasiya orqanlarında adamları var.

Mən Fransaya gedəndə xahiş etdim ki, orada yaşayan azərbaycanlılar toplaşsın və onlarla görüşüm. Hava limanından birbaşa öz iqamətgahıma gəldim və Fransada ilk görüşüm orada yaşayan azərbaycanlılarla oldu. Az adam toplaşmışdı. Bu o demək deyil ki, Fransada azərbaycanlılar az yaşayır. Xeyr, çox yaşayır. Amma, sizin dediyiniz kimi, pərakəndə, dağınıqdırlar, bir-biri ilə əlaqələri azdır. Siz dediniz ki, Almaniyada ticarətin çoxu azərbaycanlıların əlindədir. Elə Fransada da ticarətin bir hissəsi azərbaycanlıların əlindədir. Amma onlar birləşməyiblər, bəziləri hələ də öz vətənlərini tanımır, öz vətənləri olduğunu dərk etmirlər.

Ona görə də mən belə hesab edirəm ki, siz buraya bir carçı, qaranquş kimi gəlmisiniz. Ölkəmiz yeni əlaqələr qurur. Bu əlaqələr əslində yeni deyil, amma indiyədək qurulmayıb. Biz isə istəyirik ki, onu quraq. Bir halda ki, deyirsiniz Almaniyada çoxlu azərbaycanlı iş adamları var, qoy gəlsinlər; iş adamı da, tacir də, alim də – kim istəyir gəlsin. Gəlsinlər, görsünlər ki, Vətənləri var. Onlar Vətənə nə qədər çox gəlsələr, azərbaycanlıların birliyi, həmrəyliyi də möhkəmlənər”.

### 29 il öncə qaldırılan günümüzün aktual problemi

Biz həmişə Azərbaycan diasporunun inteqrasiya problemini müzakirə edirdikə, bu gün artıq assimilyasiya problemi aktual mövzuya çevrilib. Dünyanın müxtəlif ölkələrində artıq ikinci nəsil azərbaycanlılar formalaşıb. Onlar orada doğulub, orada təhsil alıblar və dostları əcnəbilərdən ibarətdir. Bu yaxşı hal olsa da təhlükəli tərəfi də var. Yəni düzgün istiqamət olmasa assimilyasiya qaçılmazdır. Belə olan halda isə həmin azərbaycanlıların istedadı, potensialı Azərbaycan üçün heç bir əhəmiyyət kəsb etməyəcək. Çünki onlar milli kimliyindən uzaqlaşacaqlar, nəticədə biz, xaricdəki yeni formalaşan gücümüzü itirəcəyik.

Heydər Əliyev bu gün üçün aktual olan məsələni 29 il öncə, 1994-cü il fevralın 23-də Londonda yaşayan azərbaycanlılarla görüşündə qaldırmış və narahatlığını dilə gətirmişdi: “Mən buraya, İngiltərəyə yola düşərkən dedilər ki, Londonda azərbaycanlılar – Böyük Britaniyada yaşayan azərbaycanlıların bir qismi mənimlə görüş keçirmək istəyir. Çox sevindim. Birincisi, ona görə ki, başqa ölkədə, Avropada olan azərbaycanlılarla görüşmək mənim üçün çox mühüm hadisədir. İkincisi də, düşündüm ki, azərbaycanlılar bir yerə yığışıb, demək, bir-biri ilə əlaqə saxlayıb görüşə bilərlər. Xalqımızın çox gözəl xüsusiyyətləri, ənənələri var, qədim tarixi var. Ancaq qüsurlu cəhətləri də var. O da bundan ibarətdir ki, bir-birimizlə möhkəm əlaqə saxlaya bilmirik. İncimısəniz deyə bilərəm ki, düşdüyünüz mühitdə bəziləri əriyib başqalarına qarışır, öz milli mənliyini saxlaya bilmir. Bu, bizim nöqsan cəhətimizdir. Hesab edirəm ki, Azərbaycan müstəqil dövlət olandan sonra, digər ölkələrdə yaşayan azərbaycanlılar özlərinin Azərbaycan kimi bir Ana Vətəni olduğunu dərk edəndən sonra bu çatışmazlıq, bu nöqsan da aradan götürülə bilər...”.

## Soydaşlarımıza verilən dəyər

Ümummilli liderin xaricdə yaşayan soydaşlarımıza verdiyi dəyər onun çıxışlarında tam olaraq ifadə olunub. O, 1995-ci il aprelin 17-də Belçikaya səfəri zamanı soydaşlarımızla görüşündə deyirdi: "Belə hesab edirəm ki, siz azərbaycanlılar buraya mənim Brüsselə gəlməyim münasibətilə toplaşmısınız və mənimlə görüşmək istəyirsiniz. Mən bundan çox məmnunam...

İndi dünyanın həyatı elədir ki, hər bir ölkədən nəsə görüb-götürmək, hər bir ölkənin təcrübəsindən nəsə öyrənmək olar. Mən belə deməklə onu əsaslandırmaq istəmirəm ki, siz niyə, məsələn Azərbaycandan, yaxud Türkiyədən gəlib Avropada – Belçikada, Almaniyada yaşayırsınız. Hərənizin buraya gəlməyinin bir səbəbi var.

Mən bilirəm, Vətən üçün ürəyiniz darıxır. Bu da təbiidir. Amma eyni zamanda, yenə də qeyd edirəm ki, mən gəlib burada, Brüsseldə azərbaycanlılarla görüşəndə özümü yaxşı hiss etdim. Sevindim ki, bizim burada soydaşlarımız, həmvətənlərimiz var. Onlar Azərbaycan haqqında həqiqəti burada, Avropada yaymağa qadirdirlər. Ona görə də hər birinizin burada Azərbaycanın xeyrinə, yəni Azərbaycanın müstəqilliyi naminə, bugünkü və gələcək həyatı

naminə gördüyünüz bütün işlər ölkəmiz üçün qiymətlidir.

Şübhəsiz ki, hər bir insan öz Vətəninə, millətinə, dininə, dilinə nə qədər bağlı olursa, mənəviyyatca da bir o qədər yüksək olur. Mən güman edirəm ki, siz Avropada yaşasanız da, Vətəninizə bağlısınız, ata-babalarınızın, ulu babalarınızın ruhuna, onların verdikləri nəsihətlərə bağlısınız. Kimin harada yaşamasından, işləməsindən asılı olmayaraq, o, Azərbaycanı unutmur, Vətəni yad edir, təbliğ edir.

Bir müstəqil dövlət kimi Azərbaycanın indi Avropada da, Asiyada da, Amerikada da təbliğ olunmağa çox ehtiyacı var. Bu sahədə Avropanın müxtəlif dövlətlərində yaşayan və müxtəlif cəmiyyətlərdə birləşən soydaşlarımız böyük və səmərəli iş görə bilərlər...".

## Dünya Azərbaycanlılarının Qurultayının əhəmiyyəti

Bəllidir ki, dünya azərbaycanlılarının qurultayları Azərbaycan diapsorunun inkişafını şərltəndirən əsas amillərdən biridir. Qurultaya dünyanın müxtəlif ölkələrindən soydaşlarımız qatılırlar. Burada mzakirlər gedir, eyni zamanda soydaşlarımız arasında əlaqələr yaranır və möhkəmlənir, həmçinin yeni ideyalar ortaya çıxır. Bu baxımdan ümummilli liderin təşəbbüsü ilə əsası qoyulan dünya azərbaycanlılarının qurultayları çox önəmlidir 2001-ci il noyabrın 10-da Bakıda keçirilən Dünya Azərbaycanlılarının I qurultayında ümummilli lider deyidi: "Dünya Azərbaycanlılarının I Qurultayı müstəqil Azərbaycanın həyatında, bütün dünya azərbaycanlılarının həyatında tarixi hadisədir. Bütün dünyada yaşayan azərbaycanlıların, Azərbaycan icmalarının nümayəndələri ilk dəfə olaraq Azərbaycana, onun paytaxtı Bakı şəhərinə toplaşmışlar və özlərinin I qurultayını keçirirlər. ...

Biz, Azərbaycanda yaşayan azərbaycanlılar öz həmvətənlərimiz haqqında daim düşünmüşük. Uzun illər Sovetlər İttifaqı kimi böyük bir super dövlətin tərkibində ikən xaricdəki soydaşlarımızla, həmvətənlərimizlə əlaqə saxlamaq mümkün olmadığı halda, biz daim düşünmüşük ki, müxtəlif ölkələrdə azərbaycanlılar necə yaşayırlar, nə edirlər və məhdud imkanlardan istifadə edərək onlarla əlaqələr qurmağa çalışmışıq. Biz indi böyük məmnuniyyətlə qeyd edə bilərik ki, dünyanın bir çox ölkələrində - Avropada, Şimali Amerikada artıq böyük Azərbaycan icmaları yaranıbdır. Son illər bu icmalar get-gedə təşkilatlanır, genişlənir və azərbaycanlıların yaşadıqları ölkələrdə onların birliyini, həmrəyliyini təmin edir. Son illər bu proses sürətlə gedir.

Azərbaycanın varlığı bu həmrəyliyin inkişafının əsasını təşkil edir.

Biz istəyirik ki, müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar həmin ölkələrin vətəndaşı kimi, istədikləri kimi yaşasınlar. Ancaq heç vaxt öz milli köklərini, milli mənsubiyyətlərini itirməsinlər. Bizim hamımızı, azərbaycanlıları birləşdirən milli mənsubiyyətimizdir, tarixi köklərimizdir, milli-mənəvi dəyərlərimizdir, milli mədəniyyətimizdir - ədəbiyyatımız, incəsənətimiz, musiqimiz, şerlərimiz, mahnılarımız, xalqımıza mənsub olan adət-ənənələrdir. İnsan hansı ölkədə yaşamasından asılı olmayaraq, gərək öz milliliyini qoruyub saxlasın. Dünyada eyni zamanda assimilyasiya prosesi də var. İnsanlar - mən azərbaycanlılar haqqında danışıram - gərək, yaşadıqları ölkədə, yenə deyirəm, o şəraiti mənimsəyərək, orada özləri üçün yaxşı mövqelər tutsunlar. Ancaq daim öz millimənəvi dəyərlərinə, milli köklərinə sadiq olsunlar. Bizim hamımızı birləşdirən məhz bu amillərdir. Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır, azərbaycançılıqdır. Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra

azərbaycançılıq aparıcı ideya kimi həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideya olubdur. Biz həmişə bu ideya ətrafında birləşməliyik. Azərbaycançılıq öz milli mənsubiyyətini qoruyub saxlamaq, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir.

Bizim bu qurultayı keçirməkdə məqsədimiz məhz bundan ibarət olmuşdur. Güman edirəm ki, qurultay nümayəndələri, dünyanın bir çox uzaq ölkələrindən Azərbaycana, doğma Vətənə gəlmiş soydaşlarımız burada, qurultay günlərində bir-biri ilə daha da sıx ünsiyyətdə olacaqlar, bir-birini anlamağa çalışacaqlar, müxtəlif ölkələrdə olan icmaların bir diaspor kimi formalaşmasında daha fəal iştirak edəcəklər və Azərbaycan ilə dünyada, digər ölkələrdə olan azərbaycanlıların əlaqələrini möhkəmləndirəcəklər...”.

**Xalq cəbhəsi.-**2023.-16 mart.-№9.-S.7.

## Dünya azərbaycanlılarını birləşdirən ideoloji bünövrə

### Azərbaycançılıq ideologiyasının təbliği aktualdır

**Nicat Dilqəmli**

Xalqların vahid məram və məqsədlər ətrafında birləşərək inkişaf yolunu düzgün müəyyənləşdirməsi, ilk növbədə, milli ideologiya ilə sıx şəkildə bağlıdır. Milli ideologiya qlobal səciyyə daşımaqla yanaşı, hər bir xalqın tarixi inkişaf yolundan xəbər verən bələdçidir. Bu amil cəmiyyətin inkişafının ümumi məqsəd və strategiyasına xidmət etməklə bərabər, hərtərəfli tərəqqinin vacib predmetidir. Ölkəmizdə dünya azərbaycanlılarının vahid ideya ətrafında birləşməsinin, təşkilatlanmasının, başqa sözlə, azərbaycançılıq ideologiyasının əsasının qoyulması birbaşa olaraq Heydər Əliyevin adı ilə bağlıdır. Belə ki, məhz Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə gəlişindən sonra bu missiyanın reallaşdırılması istiqamətində strategiya hazırlandı və onun sistemli şəkildə reallaşdırılması prosesi uğurla həyata keçirildi.

"Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi vətənidir", - deyən ulu öndər Heydər Əliyev Azərbaycan xalqının əsrlər boyu təşəkkül tapmış multikulturalizm dəyərlərinə ən yüksək hüquqi-siyasi qiymət verib, multikultural cəmiyyətin formalaşdırılmasında müstəsna rol oynayıb, məhz bunun nəticəsində də multikulturalizm və tolerantlıq Azərbaycanın dövlət siyasətinin prioritet istiqamətlərindən biri olaraq qəbul edilib. Ümummilli lider Heydər Əliyevin müəllifi olduğu azərbaycançılıq ideologiyasının mərkəzində Azərbaycanda yaşayan xalqların tarixi, mənəvi-əxlaqi, mədəni ənənələr əsasında vahid birliyi ideyası dayanır. Onun "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən Azərbaycanlıyam!" sözləri isə azərbaycançılığın təməl şüarına çevrilib.

Böyük fəxarət hissi ilə qeyd etmək lazımdır ki, bu gün Ulu Öndərin müəllifi olduğu azərbaycançılıq ideologiyasının təbliği Onun layiqli davamçısı, Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Belə ki, Heydər Əliyevin təkmil ideologiya şəklinə saldığı azərbaycançılıq konsepsiyasına sadiq qalan dövlət başçımızın rəhbərliyi ilə Azərbaycanda milli birlik özünü qabarıq formada göstərir.

Milli-mənəvi dəyərlərimizə söykənən xalqımızın sarsılmaz birliyi, həmrəyliyimiz 44 günlük Vətən müharibəsi dövründə özünü daha aydın şəkildə göstərmiş oldu. 2020-ci ilin sentyabr ayında Ali Baş Komandanın əmri ilə erməni təxribatlarına qarşı aparılan əks-həmlə əməliyyatları başlanan kimi xalqımız bir yumruğa çevrilməyi bacardı. İstər ölkəmizdə, istərsə də Azərbaycanın hüdudlarından kənarda yaşayan hər kəs haqq mübarizəsinə öz töhfəsini vermək üçün əlindən gələni etdi. Azərbaycanda yaşayan bütün milli azlıqlar, icmalar ölkə Prezidentinin ətrafında sıx birləşdiyini, Qarabağın azadlığı uğrunda ortaya qoyulan bu iradəni dəstəklədiyini bəyan etdi.

"Milli ideoloji istiqamətin müəyyənləşməsi, xalqın bu çətir altında birləşməsi milli dövlətçiliyin inkişafına mühüm stimul verir". Bu fikirləri "Yeni Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Azər Badamov səsləndirib.

A.Badamov fikirlərinə belə davam edib: "Azərbaycançılıq ideologiyası ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli lider Heydər Əliyev bu ideologiyanı tam dolğun konsepsiya şəklinə salaraq onu yeni çalarlarla zənginləşdirdi və müasir Azərbaycanın milli ideologiyasına çevirdi. Hələ Sovet dövründə respublikamıza birinci rəhbərliyi vaxtı mümkün olan bütün vasitələrlə azərbaycançılığın əsaslarını yaratdı, dirçəltdi və möhkəmləndirdi. O dövrlərdə Azərbaycan dilinin dövlət dili elan edilməsi, milli mədəniyyətimizin, ədəbiyyatımızın, incəsənətimizin inkişafı, milli kadrlarımızın yetişdirilməsi bunu deməyə əsas verir. Müstəqilliyimizin başlanğıcında isə Ulu Öndər bu məfkurəni dövlət ideologiyası olaraq bərqərar etdi. Azərbaycançılığı təbliğ etməkdə Ulu Öndərin məqsədi hər bir azərbaycanlıya vətənpərvərlik hissini, tarixi torpaqlarımıza, dilimizə, mədəni irsimizə, dövlət rəmzlərimizə məhəbbət aşılamaq idi. Bu ideologiya dinindən, dilindən, etnik mənsubiyyətindən asılı olmayaraq, hər bir azərbaycanlını vahid amal, ideya və Vətən ətrafında birləşdirir".

44 günlük Vətən müharibəsinin bu ideologiyanın bariz nümunəsi olduğunu qeyd edən A.Badamov haqq savaşında dünya azərbaycanlılarının vahid amal uğrunda birləşdiyini də xatırladıb: "Hər zaman qürurla səsləndirdiyimiz çoxmillətli ölkə olmağımız bir daha əyani şəkildə öz üstünlüyünü ortaya qoydu. Düşmənə qarşı səngərdə birləşən və Azərbaycanın bütövlüyü uğrunda canını ortaya qoyan oğullarımız məhz milli-mənəvi dəyərlərimizin bizə verdiyi gücün, qüvvənin sayəsində, Prezidentimizin "Mən hər bir

azərbaycanlının Prezidentiyəm", "Biz birlikdə güclüyük" və "Qarabağ Azərbaycadır!" şüarlarını özləri üçün həyat fəlsəfəsinə çevirdilər. Belə bir gücün qarşısında isə heç bir düşmən davam gətirə bilməzdi ki, belə də oldu. Bu birlik, bu inam Azərbaycanın qəti və şanlı Zəfəri ilə nəticələndi".

Vətən müharibəsində olduğu kimi, bu gün də aparılan bərpa-quruculuq işlərində səfərbər olmaqdan söz açan deputat vurğulayıb ki, bu gün hər birimiz parlaq qələbəmizin möhkəmlənməsi üçün çalışmalıyıq: "Artıq işğaldan azad edilən rayonlarımızın, şəhər və kəndlərimizin yenidən qurulması prosesi uğurla davam edir. Bu regionlarımız yenidən dirçəldilir, həmin ərazilərdə kənd təsərrüfatının, sənayenin inkişafına zəmin yaradılır. Bununla bağlı mühüm layihələr həyata keçirilməkdə, mühüm proqramlar qəbul olunmaqdadır. İnanırıq ki, qısa zaman kəsiyində Dağlıq Qarabağ və ətrafındakı rayonlarda həyat yenidən canlanacaq və öz doğma yurd-yuvalarına qayıdan vətəndaşlarımız rahat yaşayış şərtləri ilə təmin ediləcək. Bu, Azərbaycan xalqı üçün olduqca vacibdir. Bunun üçün də bütün azərbaycanlılar səfərbər olmalıdır. Hər birimiz görülən irimiqyaslı işlərə töhfə verməliyik. Ən azından, milli birliyimizlə, dünyaya nümunə göstərilən həmrəyliyimizlə, sabitliyi və inkişafı hədəfləyən dövlət siyasətini dəstəkləməyimizlə bu prosesdə iştirakçı olmalıyıq".

**Yeni Azərbaycan.-**2023.-13 aprel.-№63.-S.5.

## "Türkiyədə yaşayan Azərbaycan türkləri sistemli, təşkilatlanmış halda deyil"

**Settar Kaya: "...**İYİ Partiyanın içində olduğu bir hökumətdə Azərbaycanın uca mənfəətləri, əlbəttə ki, önə çıxarılacaq"

**Maral Nəcəfli,**
İstanbul

**Türkiyənin müxalifət - İYİ Partiyanın Qars şəhəri qurucu başqanı, Azərbaycan əsilli millət vəkilliyinə namizəd Settar Kaya "Şərq"ə müsahibə verib. Söhbəti təqdim edirik:**

**Səttar bəy, artıq Türkiyədə siyasi partiyalar millət vəkilliyinə namizədlərin siyahılarını açıqladılar. Bu siyahılarda az da olsa, Azərbaycan əsilli namizədlərin də adı yer alır. Sizcə, birincisi, bu siyahılarda yer almağın fərqli aspektlərdən başlıca kriteriyaları nələrdir? İkincisi, soydaşlarımızın TBMM-də yer almasının bizim xeyrimizə olan tərəfləri hansılardır?**

Türkiyədə yaşayan Azərbaycan türklərinin Türkiyədəki bütün siyasi partiyalarda fəaliyyətləri var. Amma ümumi olaraq, Türkiyədəki Azərbaycan türkləri keçmişdən bu günə sağ partiyalarda siyasət həyata keçirmişdilər. Keçmişdə Ədalət və İnkişaf Partiyası, sonra Milliyyətçi Hərəkat Partiyası, indi sıx olaraq İYİ Partiyada fəaliyyətləri var. Amma bununla birlikdə Cümhuriyyət Xalq Partiyasında və digər partiyalarda da fəaliyyətlərinə davam edən, siyasətlə məşğul olan dostlarımız var. Təbii ki, partiyalar siyahılarını müəyyənləşdirərkən müxtəlif kriteriyaları gözə alırlar. Digər partiyalardakı namizədlərin vəziyyətini, o şəhərdə yaşayan Azərbaycan türklərinin sayını və o şəxsin partiya içərisində mövqeyini diqqətə alırlar. Bunu təəssüflə ifadə etməliyəm ki, biz, Türkiyədə yaşayan Azərbaycan türkləri bu mövzuda çox sistematik, təşkilatlanmış və uğurlu deyilik. Yəni Türkiyədə bu gün 3 milyonun üzərində Azərbaycan türkü yaşamasına baxmayaraq, siyahılarda yer alan namizəd sayı bununla mütənasib deyil. Bundan başqa seçilmə şansları olan dostlarımızın sayı da olduqca azdır. Hazırda Ədalət və İnkişaf Partiyasından İstanbul 3-cü bölgə 9-cu sırada Şamil Ayrım qardaşımız var. Çox qiymətli, dəyərli, cəmiyyət tərəfindən çox sevilən bir qardaşımızdır. Onun xaricində İğdırda Milliyətçi Hərəkat Partiyasının 1-ci sırasında Yaşar Karadağ var. Hansı ki, millət vəkili olaraq da keçən dönəm parlamentdə yer aldı. İYİ Partiyadan İğdırda professor Kerem Karabulut var. Yenə Ədalət və inkişaf Partiyasının siyahısının 1-ci sırasında da İğdırdan Cantürk Alagöz deyə bir dostumuz var. Bununla birlikdə Qarsda yenə Milliyətçi Hərəkat Partiyasının siyahısının 1-ci sırasında Taner Gökçek dostumuz göstərilmiş, o da seçilmək üçün mübarizə aparacaq. Təbii ki, bizlərin, Azərbaycan türklərinin məclisdə olmasının Türkiyə-Azərbaycan əlaqələri baxımından saysız faydası var. Yəni bilirsiniz ki, Türkiyədə Azərbaycan davasını ictimaiyyətin gündəminə daşımaq üçün parlamentin çox önəmli bir rolu var. Orada da bu mövzuya hakim, Azərbaycan davasını cani könüldən müdafiə edəcək, beynəlxalq platformalara çıxaracaq, burada Azərbaycan düşmənlərinə qarşı onu müdafiə edəcək, dəstəkləyəcək insanlara ehtiyac var. İYİ Partiyada da, təbii ki, könül istəyərdi ki, Azərbaycan türkü bir dostumuz seçilək nöqtədə olsun. Bu gün Türkiyənin heç bir yerində İYİ Partiyanın siyahısının başında və ya seçilə biləcək mövqedə Azərbaycan türklərindən heç kim yoxdur.

**- Bunun səbəbi nədir sizcə?**

İYİ Partiya idarəçiliyinin olayın əhəmiyyətini qavraya bilməməsindən qaynaqlanır. Azərbaycanın Ermənistanla olan 44 günlük Vətən müharibəsindəki zəfərin Türkiyədə yaşayan 80 milyon insanda necə bir həyəcan və məmnuniyyət oyandırdığını, məsələn, Ədalət və İnkişaf Partiyası gördü. Birbaşa özü də Azərbaycana dəstək verərək bu işin içində olunca bunun cəmiyyətdəki qarşılığını hiss etdi. Bu səbəblə, məsələn, Şamil Ayrımı İstanbuldan təkrar dəyərləndirdi. Təkrar seçilə biləcək nöqtəyə qoydu. Çünki bunun seçicidə qarşılığı var. Fəqət, təəssüflər olsun ki, nə CHP, nə də mənim də mənsubu olduğum İYİ Partiya hələ bunun fərqində deyillər. Yəni mən bu mövzunu zaman-zaman partiya sədrimiz daxil səlahiyyətli qurumlarda izah etmişəm ki Türkiyədə bu qədər Azərbaycan türkü var. Bunlar vətənsevər insanlardır. Bunlar eyni zamanda birlikdə hərəkət etmə qabiliyyəti olan insanlardır. Birlikdə ola bilirlər. Yəni burda bir soydaşımız namizəddir, ona dəstək verək deyəndə hərəkət edə bilirlər. Bunları dəyərləndirmək lazımdır. Qaldı ki Türkiyənin Qafqaz, Azərbaycan politikalarında bu insanlar rol oynar". Təəssüflər olsun ki, bunu anlayacaq insan sayısı son dərəcə azdır. Göründüyü kimi, siyasət belə bir şeydir Türkiyədə də. Hamı "mən özümü qurtarım, mənim gəmim hərəkət etsin, gerisi çox da önəmli deyil" anlayışı ilə hərəkət edir.

Təəssüflər olsun ki, İYİ Partiya da bu siyahıları hazırlayarkən bu mövzunu gözardı etdi. Amma edəcək bir şey yoxdur, bundan sonrakı seçkilərə baxmaq lazımdır.

**Sizcə, İYİ Partiyanın Millət İttifaqı üçün əhəmiyyəti nədir? Ümumiyyətlə, İYİ Partiyanın Millət İttifaqındaki rolunu necə dəyərləndirirsiniz?**

Mən Millət İttifaqında İYİ Partiyanın və CHP-nin yer almasını önəmsəyirəm. Türkiyədə uzun illərdir siyasət bir qütbləşmə ilə hərəkət edir. Yəni insanları, necə deyərlər, məzhəblərinə, irqlərinə, bölgələrinə, düşüncələrinə, ideologiyalarına görə ayırırlar. Bu vəziyyət Türkiyəyə çox zərər verir. Türkiyədə insanımızın birlikdə iş həyata keçirə bilmə qabiliyyətini azaldır. İllərcə Türkiyədə bir sağ-sol münaqişəsi yaşanıb. İYİ Partiyanın sağ bir partiya olması, CHP-nin də sol bir partiya olması səbəbi ilə indi bu iki partiyanın birlikdə əməkdaşlıq çərçivəsində Türkiyə üçün bir sıra layihələr irəli sürməsini, bir sıra vizyonlar müəyyənləşdirməsini əhəmiyyətli hesab edirəm. İYİ Partiyada buna ciddi qatqı verir. Yəni İYİ Partiyanın son dərəcə istedadlı, bacarıqlı, inkişaf etmiş, vizyonlu kadrları var, buna görə də Millət İttifaqını içərisində İYİ Partiyanın olmasını Türkiyənin siyasi tarazlığı baxımında bir avantaj olaraq görürəm.

**İYİ Partiyanın Millət İttifaqına daxil olması Türkiyə vətəndaşları nəzdindəki mövqeyinə necə təsir göstərdi? Seçicilərdən nə kimi reaksiyalar aldınız?**

Ümumi olaraq müsbət qarsalayırlar və ciddi dəstək verirlər. Bilirsiniz ki, İYİ Partiya 5 illik bir partiya olmasına baxmayaraq, bu gün parlamentdə və ya Türkiyədə fəaliyyət göstərən 50-60 illik partiyaların üzərində bir səs səviyyəsinə sahibdir. Bu, araşdırmalarda görünür. Buradan da aydın olur ki, İYİ Partiyanın politikalarını vətəndaş mənimsəyir, dəstək verir. Qaldı ki bizim Azərbaycan türkləri arasında da yenə İYİ Partiya ciddi bir simpatiya ilə qarşılanır və dəstəklənir.

**- Səttar bəy, bilirik ki, İYİ Partiya ilə Millət İttifaqına daxil olan digər siyasi partiyalarla prezidentliyə vahid namizədin göstərilməsi mövzusunda bir anlaşılmazlıq yaşandı. Amma daha sonrasında ortaq məxrəcə gəlindi. Sizcə, Millət İttifaqı hakimiyyətə gələrsə, ittifaqa daxil olan partiyalar arasında bundan sonra hansı məsələlərdə, nə kimi anlaşılmazlıqlar ortaya çıxa bilər?**

Təbii ki, prezidentliyə namizədin kim olması mövzusunda Türkiyədə çox böyük araşdırmalar edildi. Bizim partiya sədrimiz Meral Akşenerin o masadan etiraz edib qalxdığı günə qədər həyata keçirilən bütün araşdırmalarda Ankara Böyükşəhər Bələdiyyə başqanı Mansur Yavaşın, İstanbul Böyükşəhər Bələdiyyə başqanı Ekrem İmamoğlunun adları önə çıxırdı. Yəni onların qazanma ehtimalı bir az daha yüksək görülürdü. Cənab Kılıçdaroğlu 3-cü sırada yer alırdı. Partiya sədrimiz də bu seçkilərin Türkiyə üçün çox önəmli bir seçki olduğunu hər zaman vurğulayırdı və qazanacaq bir namizədlə seçkilərə getməyimiz lazım olduğu üzərində dayanırdı. Son görüşmədə də yenə bu düşüncəsini söyləyib, bunda israrlı olub. Amma qarşı tərəfdən müsbət cavab almayınca arada bir qopuqluq yaşandı. Partiya sədrimiz masadan ayrıldığını bir mətbuat açıqlaması ilə də elan etmişdi. Fəqət Türkiyə o qədər həssas bir dönəmdən keçir ki, buna cəmiyyətin də, ölkənin də dözümünün olmadığı aydın oldu. Bizim öz aramızdan partiya sədrimizə təkrar bu masanın davam etməsi mövzusunda çox böyük xahişlərimiz oldu. O da cəmiyyətin, tərəfdarlarının səsinə, partiyalıların səsinə qulaq verərək təkrar masaya döndü və Kamal Kılıçdaroğlunun namizədliyini iki böyük şəhərin bələdiyyə başqanlığının da prezident köməkçisi olması şərti ilə qəbul etdi.

İndi bizdə belə bir anlayış var. İdarənin, deyəlim ki, prezidentin və ya hökumətin dediyi hər şeyə qeyri-şərtsiz, etiraz etməmək doğrudur. Xeyr. Demokratiya belə bir şey deyil. Demokratiyada etirazlar olur, bu etirazlar incələnir, tənqid edilir, dəyərləndirilir, doğrusu tapılır. İndi Türkiyədə uzun illərdən bəri güclü bir lider, R.T. Ərdoğan keçmişdə baş nazir, indi də prezident olaraq ölkəni idarə edir. Bizdə belə bir düşüncə meydana gəlib ki, cənab prezidentin söylədiyi hər şeyi etiraz etmədən qəbul edək. Ölkənin idarəçiliyində başda iqtisadi problemlər olmaq üzərə, ədalət, demokratiya, hüquq və bunun kimi mövzularda ortaya çıxan rahatsızlıqlardan anlayırıq ki, prezidentin tək başına verdiyi bu qərarlar, hər zaman doğru deyil. Bu qərarlar bir sıra yanlış nəticələrə də səbəb ola bilir və bunların çox vaxt düzəldilməsi mümkün olmur. Biz də xalq olaraq bunun sıxıntısını çəkirik. İndi Millət İttifaqında müxtəlif ideologiyalardan, müxtəlif düşüncələrdən siyasi partiyalar var. Parlamentdə bu partiyaların nümayəndələri olacaq. Bunlar hər biri Türkiyənin məsələsi ilə bağlı görüşlərini söyləyəcəklər, zaman-zaman aralarında anlaşılmazlıq da ola bilər. Amma bu fərqli səslərin, fərqli düşüncələrin sağlıqlı bir nəticə doğuracağına inanıram ki, bunun da adı demokratiyadır. Demokratiya budur. Ona görə də hər hansı bir problemin yaşanacağına inanmıram. Onların edəcəkləri hər etiraz, inanıram ki, Türkiyənin faydasına, yaxşılığına olacaq etirazlardır.

**Millət İttifaqına istiqamətlənən bir çox tənqidlər var. Bunlardan biri də ittifaqın xarici siyasət vizyonu ilə bağlıdır. Sizcə, Millət İttifaqı hakimiyyətə gələrsə, Türkiyənin digər ölkələrlə əlaqələri mövzusunda mövqeyi necə olacaqdır? Burada Azərbaycanı ayrıca vurğulamanızı xahiş edirəm.**

Türkiyənin tarixi bir diplomatiya ənənəsi, xarici siyasəti var. Uca Atatürk "Yurdda sülh, cihanda sülh" olaraq o istiqaməti bizə göstərib. AKP iqtidara gəlincəyə qədər də Türkiyə o istiqamət üzərində hərəkət edib. Heç bir dövlətin daxili işlərini qarışmamışıq. Heç bir qonşumuza bu mövzuda müdaxilə etməmişik. Amma heç kimsənin də bizim daxili işlərimizə qarışmasına icazə verməmişik. Türkiyə belə bir siyasət izləyirdi və Türkiyənin minlərcə illik bir diplomatiya ənənəsi, təcrübəsi var. Yəni bu mövzuda Türkiyə dünyada nümunə götürülə biləcək ölkələr arasındadır. AKP ilə birlikdə belə bir vəziyyət ortaya çıxdı. Öncəliklə cənab Ərdoğan "mən Böyük Orta Şərq laiyhəsinin həmsədriyəm",- deyə özünü elan etdi və bölgəmizdə, özəlliklə müsəlman ölkələrdə yaşanan olaylara Avropa Birliyi və ABŞ-nin müdaxilələrində özü də oraya daxil oldu. Liviyanın, Suriyanın, Misirin daxili işlərinə birbaşa müdaxilə edəcək söz və davranışlar içərisinə girdi. Suriyada yaşanan sıxıntı bu gün Türkiyənin daxili işlərindəki problemlərə səbəb oldu. Liviya oxşar şəkildə. Misirlə 10 ildir əlaqələrimiz kəsildi. Orada yaşanan bir çevrilişdə biz tərəf olduq, fəqət sonunda indi orayla bəzi əlaqələr yaratmaq istəyirik. Millət İttifaqının xarici siyasəti təkrar Atatürkün bizə göstərdiyi "Yurdda sülh, cihanda sülh" prinsipi istiqamətində minlərcə illik ənənələrimizə bağlı olan bir xarici siyasət olacaqdır. Azərbaycana gəlincə, bunu çox açıqlıqla ifadə edim. Türkiyədə iki xarici milli mövzu var. Milli məsələ, yəni bu, partiyalar, hökumətlər məsələsi deyil. Bunlardan biri Kipr məsələsidir, biri də Azərbaycan. Türkiyədə hakimiyyətə hansı düşüncə və görüşdə olan partiya gəlirsə gəlsin, millətin gözləntilərinin qarşısında və onlara tərs gələ biləcək, onların təsdiqləmədiyi Azərbaycanla bağlı heç bir qərar ala bilməz, buna heç kimin gücü çatmaz. Bunun siyasi partiyalarla əlaqəsi yoxdur. Yəni Qarabağ hadisələrində Türkiyənin aldığı mövqeyi Türkiyədə hansı partiya iqtidarda olsaydı, o da alardı. Çünki buna millət məcbur edir. Yəni Türkiyədə millətin təsdiq etməyəcəyi Azərbaycana qarşı heç bir qərar ala bilməzsiz. Bu gün məsələn, Ermənistanla sərhəd qapısının açılması qərarını bu hökumət rahatlıqla ala bilməz, əgər Türkiyə ictimaiyyətini buna razı sala bilməzsə. Buna görə də özəlliklə İYİ Partiyanın işin içində olduğu bir iqtidarda, bir hökumətdə, bir idarəçilikdə Azərbaycanın uca mənfəətləri, əlbəttə ki, önə çıxarılacaq. Bundan heç kimsənin şübhəsi olmasın. Çünki orada Azərbaycan davasına ömrünü vermiş, gəncliyini, illərini vermiş insanlar var. Onlar "Can Azərbaycan" deyə yanıb tutuşan insanlardır. Orada türk milliyyətçiləri var, ülkücülər var. Ona görə orada Azərbaycan əleyhinə hər hansı bir qərar ala bilmək o qədər asan deyil.

**Səttar bəy, biz bilirik ki, Qars Türkiyənin Qafqaza açılan qapısı olaraq görülür və orada sizin kimi çox sayıda azərbaycanlı yaşayır. Bəs Qarsda yaşayan azərbaycanlılar bu seçkilərə necə baxırlar, onların öncəlikləri və qayğıları nələrdir?**

Qarsda yaşayan azərbaycanlılar, ümumilikdə, milli həssaslığı yüksək olan insanlardır. Yəni vətənin birliyi, millətin müstəqilliyi, bütövlüyü, Türkiyədə hüzur və təhlükəsizliyin təsisi, dövlətimizin varlığı və s. bunların hamısını səs verərkən diqqətə alarlar. Bu, seçkilərdə də elə olacaqdır. Yenə əlbəttə ki, fərqli-fərqli partiyalardan olan Azərbaycan türkləri var, bu onların hür iradələridir və biz onlara mane ola bilmərik. Amma siyasi partiyalar hələ yeni endilər seçki meydanlarına və önümüzdə təxminən 1 aylıq bir müddət var. Bu zaman içərisində partiyaların fəaliyyətlərini müşahidə edəcəklər. Amma səs verməyəcəkləri partiyalar da var. Onun xaricində ölkənin xeyrinə layihələr, proqramlar ortaya qoyan partiyalara istiqamətlənəcəklər. Amma daha çox hansı partiyaya səs verəcəklərini söyləyə bilmərəm. Çünki onların görüşlərinə hörmətsizlik etmiş olaram. Qarsda yaşayan azərbaycanlıların da önümüzdəki dönəmdə düzgün qərarlar verəcəyinə inanıram.

**Şərq.** - 2023.- 18 aprel. - № 66. - S. 5.

## Dünya azərbaycanlılarının həmrəyliyi alqışlanmalıdır

*Soydaşlarımız Ermənistanın alçaq hərəkətlərini dünyaya yayır*

**Məlahət Rzayeva**

**Vətənimizin şad günündə də, tarixi əhəmiyyət daşıyan gərgin, kədərli günlərində də birlik, həmrəylik nümayiş etdirən dünya azərbaycanlıları Naxçıvan Muxtar Respublikası Şahbuz rayonunun Ermənistanla sərhəd ərazisində Azərbaycan Ordusunun əsgərləri - 2004-cü il təvəllüdlü Bəbirov Aqşin Qabil oğlu və 2003-cü il təvəllüdlü Axundov Hüseyn Əhliman oğlunun Ermənistan tərəfindən əsir götürülməsi və Azərbaycan hərbçilərinə işgəncə verilməsi, onlarla qeyri-insani rəftar edilməsinə görə də yumruq kimi birləşiblər. Təbii ki, soydaşlarımızın birliyini möhkəmləndirən, onları Vətənin səsinə səs verməyə daha da ruhlandıran Azərbaycan Respublikasının Prezidenti, qalib Ali Baş Komandan İlham Əliyevin çağırışları, iradəsi və qətiyyətidir.**

Dünyanın müxtəlif ölkələrində təşkilatlanmış azərbaycanlılar bəyanat qəbul edərək Ermənistanın Cenevrə Konvensiyası, İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya, eləcə də digər mühüm beynəlxalq aktlar üzrə öhdəliklərini yerinə yetirmədiyini bildirir, müvafiq beynəlxalq təşkilatlardan həmin zorakılıq faktını araşdırmalarını, lazımi hüquqi qiymət vermələrini tələb edir, Azərbaycan hərbçilərinin dərhal və qeyd-şərtsiz azad edilməsi üçün çağırış edirlər. Azərbaycan Diasporla İş üzrə Dövlət Komitəsi dünya azərbaycanlılarının bəyanatının mətnini təqdim edib. Bəyanatda deyilir: “Biz, xaricdə yaşayan azərbaycanlılar təəssüf hissi ilə bəyan edirik ki, bir neçə gün əvvəl Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Ermənistanla sərhəd ərazisində əlverişsiz hava şəraitində məhdud görmə səbəbindən yolu azmış Azərbaycan Ordusunun əsgərləri - 2004-cü il təvəllüdlü Bəbirov Aqşin Qabil oğlu və 2003-cü il təvəllüdlü Axundov Hüseyn Əhliman oğlu Ermənistan tərəfindən əsir götürülüb. Nəzərinizə çatdıraq ki, Ermənistanın kütləvi informasiya vasitələrinin yaydığı foto və videolar Azərbaycan hərbçilərinə beynəlxalq hüquqi sənədlərə zidd olaraq işgəncə verildiyini və onlarla qeyri-insani rəftar edildiyini əyani şəkildə sübut edir. Belə ki, yayılan videoda azərbaycanlı hərbçilərin əli bağlı şəkildə döyülməsi və təhqir olunması aydın görünür. “Hərbi əsirlərlə rəftar haqqında” III Cenevrə Konvensiyasına əsasən, döyüş əməliyyatlarında bilavasitə iştirak etməyən şəxslərlə bütün hallarda insani rəftar edilməli və hərbi əsirlərə qarşı zorakılıq hallarına və hədə-qorxuya yol verilməməlidir. Bu fakt Ermənistanın Cenevrə Konvensiyası, İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya və digər mühüm beynəlxalq aktlar üzrə öhdəliklərini yerinə yetirməməsinin, bu ölkədə azərbaycanlılara qarşı geniş vüsət almış etnik nifrət və irqi ayrı-seçkiliyin əyani sübutudur. Müvafiq beynəlxalq təşkilatlar yuxarıda qeyd olunan zorakılıq faktını, həmçinin son 30 ildə Ermənistanın azərbaycanlı hərbi və mülki əsirlərə, itkin düşmüş 3890 şəxsə qarşı törədilmiş zorakılığı araşdırmalı və lazımi hüquqi qiymət verməlidir. Biz, xaricdə yaşayan azərbaycanlılar, bu cinayəti bir daha qətiyyətlə pisləyir və beynəlxalq ictimaiyyəti Ermənistan hökumətinin və cinayətkarların əməllərinə hüquqi qiymət verməyə, əlverişsiz hava şəraiti səbəbindən azaraq Ermənistanın nəzarətində olan ərazilərə keçmiş Azərbaycan hərbçilərinin dərhal və qeyd-şərtsiz azad edilməsini təmin etməyə çağırırıq. Biz, Beynəlxalq Qızıl Xaç Komitəsinin Ermənistandakı nümayəndəliyindən təcili olaraq azərbaycanlı hərbçilərə baş çəkməyi və onların vəziyyəti ilə bağlı məlumat verməyi tələb edirik. Biz, xaricdə yaşayan azərbaycanlılar, dünya ictimaiyyətini bu fakta biganə qalmamağa və Ermənistanın beynəlxalq hüququn norma və prinsiplərindən irəli gələn öhdəliklərini yerinə yetirməsinə təsir göstərməyə çağırırıq”.

Bəyanatdan da göründüyü kimi Ermənistan tərəfindən əsir götürülmüş Azərbaycan hərbçilərinə işgəncə verilməsi faktı dünya azərbaycanlılarında haqlı hiddət doğurub. ABŞ-də yaşayan Azərbaycan icması Nyu-Yorkdakı Azərbaycan-Amerika Qadınlar Cəmiyyəti, Amerika-Azərbaycan İnteqrasiya Mərkəzi, Yuta-Azərbaycan Dostluq Təşkilatı, Corc Vaşinqton Universitetinin Azərbaycanlı Tələbələr Assosiasiyası, Şimali Kaliforniyanın Azərbaycan Mədəniyyət Mərkəzi, Florida Azərbaycan-Amerika Mədəniyyət Assosiasiyası, Floridanın Azərbaycan-Amerika Cəmiyyəti, Azərbaycan-Amerika Gənclər Təşkilatı adından beynəlxalq qurumlara bəyanat ünvanlayıb, Ermənistanda Azərbaycan Ordusunun əsgərləri Bəbirov Aqşin Qabil oğlu və Axundov Hüseyn Əhliman oğluna qarşı qeyri-insani rəftara diqqət cəlb edib. Nəzərə çatdırılıb ki, Ermənistan mühüm beynəlxalq aktlar, o cümlədən Cenevrə Konvensiyası, İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyaları üzrə

öhdəliklərini yerinə yetirmir. Soydaşlarımız müvafiq beynəlxalq təşkilatlardan həmin zorakılıq faktının araşdırılmasını, lazımi hüquqi qiymət verilməsi, Azərbaycan hərbçilərinin dərhal və qeyd-şərtsiz azad edilməsini tələb ediblər. Amerika Birləşmiş Ştatlarında fəaliyyət göstərən Amerika Azərbaycanlıları Koordinasiya Şurası da məlum faktı qətiyyətlə pisləyib. Amerika Azərbaycanlıları Koordinasiya Şurasının adından beynəlxalq təşkilatlara ünvanlanan bəyanatda bu zorakılıq aktı beynəlxalq humanitar qanunların Ermənistan tərəfindən kobudcasına pozulması kimi qiymətləndirilib. Müvafiq beynəlxalq təşkilatların təkcə bu cinayətkar insidenti deyil, həm də Ermənistan tərəfindən son 30 ildən artıq müddət ərzində itkin düşmüş 3890 nəfər azərbaycanlıya qarşı zorakılıq aktlarını araşdırmasının və lazımi qiymət verməsinin vacib olduğu nəzərə çatdırılıb. Amerika Azərbaycanlıları Koordinasiya Şurası beynəlxalq təşkilatları Ermənistan hökumətinin və bu cinayəti törətmiş şəxslərin hərəkətlərinə hüquqi qiymət verməyə, azərbaycanlı hərbi qulluqçularının dərhal və qeyd-şərtsiz azad olunmasını təmin etməyə çağırıblar. Həmçinin Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığında fəaliyyət göstərən Azərbaycan icması da Ermənistan tərəfindən əsir götürülmüş Azərbaycan hərbçilərinə işgəncə verilməsi faktını qətiyyətlə pisləyib. Diasporla İş üzrə Dövlət Komitəsinin məlumatına görə, Britaniya Azərbaycanlıları Assosiasiyası, Şimali İrlandiyanın Azərbaycan icması adından Birləşmiş Krallıq ictimaiyyətinə və beynəlxalq təşkilatlara ünvanlanan bəyanatda Azərbaycan Ordusu əsgərlərinin hansı şəraitdə Ermənistana əsir düşməsinə aydınlıq gətirilib, onlara qarşı qeyri-insani rəftara diqqət cəlb edilib. Bu vandalizm aktı beynəlxalq humanitar qanunların Ermənistan tərəfindən kobudcasına pozulması kimi qiymətləndirilib. Ermənistan tərəfindən əsir götürülmüş Azərbaycan hərbçilərinə işgəncə verilməsi faktı İsveçrədə yaşayan soydaşlarımızın da böyük etirazına səbəb olub. İsveçrə Azərbaycanlıları Koordinasiya Şurası adından beynəlxalq təşkilatlara ünvanlanan bəyanatda azərbaycanlı hərbçilərə qarşı edilmiş qeyri-insani hərəkətlərə diqqət cəlb olunub, bu cinayətkar insident beynəlxalq humanitar qanunların Ermənistan tərəfindən kobudcasına pozulması kimi qiymətləndirilib. Azərbaycan hərbçilərinə işgəncə verilməsini qətiyyətlə pisləyən İsveçrə Azərbaycanlıları Koordinasiya Şurası beynəlxalq təşkilatları Ermənistan hökumətinin və bu cinayəti törətmiş şəxslərin hərəkətlərinə hüquqi qiymət verməyə çağırıb.

**Azərbaycan Vətəndaş Cəmiyyətinə Yardım Assosiasiyası Seçki Qərargahının rəhbəri, professor Məhərrəm Zülfüqarlı "Şərq"ə açıqlamasında dünya azərbaycanlılarının həmrəyliyini alqışladığını dedi**:

- Xarici ölkələrdə yaşayan, müxtəlif sahələrdə fəaliyyət göstərən soydaşlarımızın həmrəylik nümayiş etdirməsi, əlbəttə, qürurvericidir. Vətənimiz üçün həssas zamanlarda biz həmişə bunun şahidi olmuşuq. İki hərbçimizin Ermənistan tərəfindən əsir götürülməsi və onlara qarşı qeyri-insani, qəddar münasibət, biz azərbaycanlılar üçün gözlənilməz bir hadisə də deyil. Çünki erməni xislətinə bələdik. Qarabağ müharibəsindən əvvəl də bu bəlli idi, Qarabağ müharibəsində isə lap açıq şəkildə özünü büruzə verdi. Məlum məsələdir, erməni separatçıları məğlubiyyətlərini həzm edə bilmir, əllərinə iyrənc bir fürsət düşən kimi qisas almağa çalışırlar.

Əsirlərlə bu cür qəddar davranış da, erməni separatçılarının hansı xislətə malik olduqlarını göstərən növbəti hadisədir. Dünya azərbaycanlılarının beynəlxalq təşkilatlara, yaşadıqları ölkələrin rəsmi qurumlarına, insan haqları təşkilatlarına müraciət etmələri, bəyanatla çıxış edərək həqiqətləri diqqətə çatdırmaları müsbət haldır. Həmin bəyanatlarda tamamilə doğru olaraq vurğulanır ki, müvafiq beynəlxalq təşkilatların təkcə bu cinayətkar insidenti deyil, həm də Ermənistan tərəfindən son 30 ildən artıq müddət ərzində itkin düşmüş 3890 nəfər azərbaycanlıya qarşı zorakılıq aktlarını araşdırması və hüquqi qiymət verməsi vacibdir. Ermənistanın mühüm beynəlxalq aktları, o cümlədən Cenevrə Konvensiyası, İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyalar üzrə öhdəliklərini yerinə yetirməsi tələb olunmalıdır.

Soydaşlarımız yerli ictimaiyyəti və beynəlxalq təşkilatları həmin zorakılıq faktının araşdırılmasına, lazımi hüquqi qiymət verilməsinə çağırır və Azərbaycan hərbçilərinin dərhal və qeyd-şərtsiz azad olunmasını tələb edir. Əminik ki, hərbçilərimiz azad ediləcək, amma ermənilərin alçaq xislətini üzə çıxaran bu hadisə də tarixdə qalacaq.

**Şərq.** - 2023. - 20 aprel. - № 68. - S. 6.

## Azərbaycançılıq ideologiyasının Cənubi Azərbaycan istiqaməti...

**İradə Sarıyeva**

**Hər bir xalqın inkişafı üçün mütləq mənada milli ideologiya olmalıdır ki, xalq öz yolunda irəliləyə, məqsədinə nail ola bilsin. Təməlləri dərinliklərə bağlı olan Azərbaycançılıq ideologiyası (ideyası) Azərbaycan xalqının həyatında çox mühüm rol oynayır.**

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycançılıq dövlət siyasəti səviyyəsinə yüksəlib və Şimali Azərbaycanın, Cənubi Azərbaycanın, bütövlükdə dünya azərbaycanlılarının vahid ideologiyasına çevirilib. Heydər Əliyev ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra Azərbaycançılıq dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi həyatımıza daxil oldu.

Azərbaycançılıq vahid Azərbaycanın yaradılması, Cənubi Azərbaycanla Şimali Azərbaycanın birləşdirilməsi məsələsində də mayak rolu oynaya bilər. Azərbaycançılıq bizi birləşdirən bir ideologiyadır. Bu ideologiyanın zorla Cənuba və Şimala parçalanan torpaqlarımızı, bölünən xalqımızı birləşdirməyi hədəflədiyi gizlin deyil. Bu ideologiyanın uzun illərdir ki, dövlət siyasətinə çevirilməsi və xalqımıızın birliyini təmin etməsi bizi təbii, ən çox İran adlanan ölkəni, Tehran rejimini narahat edir. Bizi Cənubi Azərbaycan məsələsi, orada baş verənlər, soydaşlarımızın milli haqqları, maraqları, mənafeləri uğurunda mübarizəsi maraqlandırır, rejimin onlara qarşı repressiv addımları narahat edir, İranı isə narahat edən Güneyin ondan qopmasıdır ki, artıq bu istiqamətdə proses başlayıb. Çoxları hesab edir ki, Güney Azərbaycanın İranın tərkibindən qopması labüddür və bu məsələ tezləşməlidir.

Eksperetlər qeyd edirlər ki, ola bilsin, leçən əsrin 90-cı illərində Azərbaycançılığı məqsədi tam olaraq soydaşlarımıza bəlli olmayıb, amma bu gün onlar bu ideologiyanın bütün hədəflərini dərindən anlayırlar.

**Bakı Təbrizə arxadır…**

Ekspertlər qeyd edirlər ki, Prezident İlham Əliyev bir neçə dəfə Cənubi azərbaycanlıların hüquqlarının pozulması, onların haqlarının qorunacağı barədə açıq mesajlar verib və bu da Cənubi azərbaycanlılar üçün çox böyük əhəmiyyətə malikdir. Əlbəttə, Prezidentin “Biz öz həyat tərzimizi, Azərbaycanın və azərbaycanlıların, o cümlədən İrandakı azərbaycanlıların dünyəvi inkişafını təmin etmək üçün hər şeyi edəcəyik. Onlar bizim millətin bir parçasıdır” bəyanatı Güney Azərbaycanın və güneylilərin həyatında mühüm səhifə açır. Bəzi ekspertlər deyirlər ki, Prezidentin Cənubi Azərbaycan mesajları soydaşlarımız üçün bir yol xəritəsidir. Güeyndəki soydaşlarımızın Azərbaycan xalqının bir parçası olduğunun ölkə başçısı səviyyəsində bəyan edilməsi onlara ruh verir. Bu gün Azərbaycançılıq ideologiyasının Güneydə də daha dərindən otuzdurulması üçün ideoloji işlər aparılır. Ekspertlər qeyd edir ki, Prezidentin də bəyan etdiyi kimi, güney azərbaycanlılar Azərbaycan xalqının tərkib hissəsidir, qoludur, Azərbaycan dövləti onların da milli, dini identifikasiyasının qorunması üçün var gücü ilə çalışacaq. Heç şübhəsiz, bu gün xaricdə yaşayan güneylilər, güneylə bağlı təşkilatlar da Güneydəki azərbaycanlıların fəaliyyətinin dünyaya təqdim edilməsi istiqamətində iş aparmalıdır. Cənubi Azərbaycanın öz özgürlüyünə qovuşması xalq olaraq qarşımızda duran önəmli vəzifələrdən birdir ki, biz bu istiqamətdə fəaliyyət göstərməkdə davam edirik.

**Cənubi və Şimali Azərbaycanın birliyinin ana özəyi azərbaycançılıqdır…**

Ekspertlər deyir ki, vahid dövlətçilik uğrunda xalqımız illər boyu mübarizə aparıb. Şimali Azərbaycan Sovet imperiyasının zəncirlərini qıraraq azadlığa çıxsa da, dövlət müstəqilliyini bərpa etsə də, təəssüflər olun ki, hələ də Cənubi Azərbaycan əsarətdədir. Xalqımız daxilən, mənən, ruhən, qəlbən həmrəydir və bir bədəndə bir ürək kimi öz varlığını ifadə edir. Cənibi və Şimali Azərbaycanın vahidləşməsinin yeganə yolunun milli birliyimizi daha da möhkəmləndirməkdən keçdiyi məlumdur. Şimali və Cənubi Azərbaycanın birliyinin ana özəyi azərbaycançılıqdır ki, bu ideologiya bizim üçün bir istiqamətdir. Onu da vurğulayaq ki, cənubi azərbaycanlıların gələcəyi ilə bağlı ən önəmli addımlar Heydər Əliyevin dövründə atılıb. Məhz onun tərəfindən Güney Azərbaycanla, güney azərbaycanlılarla bağlı mühüm işlər görülüb. AMEA-nın Qafqazşünaslıq İnstitutunun direktoru, professor Musa Qasımlı yazır: “Heydər Əliyev cənubdakı azərbaycanlıların hüquqlarının qorunması və onlara mənəvi dəstək verilməsi məsələsini sovet rəhbərliyi qarşısında qətiyyətlə qaldırdı. Bu xidmətlər cənublular tərəfindən yüksək qiymətləndirilirdi...Heydər Əliyevin Bütöv Azərbaycan naminə çalışmaları xarici ölkələrin tədqiqatçılarının da diqqətindən yayınmırdı. ABŞ tarixçiləri T.Svyatoxovski və B.K.Kollinz yazırdılar ki,

İran inqilabından sonra aktual olan Vahid Azərbaycan şüarı artıq siyasi məna kəsb etməyə başladı. Başqa bir ABŞ tarixçisi A.D.Agostino Heydər Əliyevin bu sahədəki fəaliyyətini təhlil edərək yazırdı ki, Azərbaycan rəhbəri İrandakı azərbaycanlılara qayğı göstərir, Birləşmiş Azərbaycanda millətin azadlığına qəti şəkildə tərəfdar çıxırdı. Bu məqsədlə İranda azərbaycanlılar yaşayan ərazilərdə geniş təbliğat işi aparılırdı. Yenə həmin tarixçi yazırdı ki, Mazandaranda və Xəzər dənizi sahillərindəki İran məntəqələrində daha fəal təbliğat aparılırdı. İran inqilabından sonra Tudə Partiyasına xüsusi diqqət yetirilməsi də bununla bağlı idi. Qeyd edildiyi kimi, Heydər Əliyev Şimali və Cənubi Azərbaycanın gələcəkdə birləşəcəyinə ümid edirdi. T.Svyatoxovski Cənubi Azərbaycan məsələsində Heydər Əliyevin roluna qiymət verərək belə yazırdı: "Əgər Təbriz islamın qalibiyyət rəmzi hesab edilirdisə, Bakı milli dərketmənin rəmzi olaraq qalmaq istəyirdi..."

Göründüyü kimi, Azərbaycançılıq bir ideologiya kimi, sovet dövründə də milli birləşdirici vasitə kimi mövcud olub və hədəflərindən biri də Güney Azərbaycan olub. Şübhəsiz, burada ən böyük rolu ulu öndərin müdrik siyasəti oynayıb. Bu gün də o siyasət davam edir və Prezident İlham Əliyevin siyasətində də Cənubi Azərbaycan faktoru böyük əhəmiyyət daşıyır.

Prezident İlham Əliyev Səmərqənddə keçirilən Türk Dövlətləri Təşkilatının IX Zirvə Görüşündə çıxış edərkən "Əfsuslar olsun ki, Azərbaycan dövlətinin hüdudlarından kənarda yaşayan 40 milyon azərbaycanlının əksəriyyəti bu imkanlardan məhrumdur. Türk dövlətlərindən kənarda yaşayan soydaşlarımızın öz ana dilində təhsil alması daim təşkilatın gündəliyində olmalıdır. Bu istiqamətdə lazımi addımlar atılmalıdır.

Azərbaycan dövləti xarici ölkələrdə yaşayan azərbaycanlıların hüquq və azadlıqlarının, təhlükəsizliyinin təmin edilməsinə xüsusi diqqət verir.

**Biz acı taleyin hökmü ilə Azərbaycan dövlətindən ayrı düşmüş soydaşlarımızın dilimizi, ənənələrimizi, mədəniyyətimizin qoruyub-saxlanılması, azərbaycançılıq ideyalarına sadiq olmaları, öz tarixi vətənləri ilə əlaqələrinin heç vaxt kəsilməməsi üçün səylərimizi davam etdirəcəyik"-deyirdi.**

Güneylilər də, Quzeylilər də, bütövlükdə dünyada yaşayan azərbaycanlılar Azərbaycançılıq ideolgiyasını öz həyat tərzləri hesab eidrlər...

**Bakı Xəbər**. - 2023. - 4 may. - № 76. - S. 8.

## Diaspor quruculuğu prioritetdir

**İnam Hacıyev**

Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra həmvətənlərimizin xarici ölkələrə köçməsi və məskunlaşması daha çox müşahidə edilməyə başladı və 1920-ci ildən başlayaraq Türkiyəyə, Avropa ölkələrinə eləcə də Amerikaya köçənlər arasında cümhuriyyət qurucuları çoxluq təşkil edirdi, hansı ki, onlar məhz Sovet İttifaqının repressiyalarından canlarını qurtarmaq üçün köçmək məcburiyyətində qalmışdılar. Bununla belə, həmvətənlərimizin xarici ölkələrə köçməsi, həmin ölkələrdə məskunlaşması növbəti dəfə daha çox əsrin sonuna, müstəqilliyimiz bərpa edildiyi dövrə təsadüf etdi, amma bu dəfə xarici ölkələrə köç, həmvətənlərimizin xarici ölkələrdə məskunlaşması, həyat və fəaliyyətini həmin ölkədə davam etdirməsi, bütün dünyada miqrasiyanın sürətləndiyi vaxtda, qloballaşma dövründə, təbii olan prosesin tərkib hissəsi kimi qiymətləndirlir və əsrin əvvəlində həmvətənlərimizin köçüb getməsindən köklü surətdə fərqlənir.

Əsrin əvvəllərində köç edib xarici ölkələrdə məskunlaşanlar repressiyalardan xilas olmaq niyyəti ilə gedənlər idi və həmin dövrdə, ardınca da 70 il ərzində artıq Azərbaycan Sovet İttifaqının hakimiyyəti, güclü təsiri altında olduğundan, eləcə də həmin imperiyanın dünyada böyük güc, söz sahibi olduğundan həmvətənlərimizin təşkilatlanması mümkünsuz oldu. Müstəqilliyimiz bərpa olunduqdan sonra, qloballaşma dövründə həmvətənlərimizin dünyanın müxtəlif ölkələrində məskunlaşması isə tamamilə başqa tələbləri ortaya qoyurdu və həmvətənlərimizin təşkilatlanması artıq lazım idi. Xüsusən də, müstəqilliyini yenicə bərpa etmiş Azərbaycanda xaosun, hərcmərcliyin, səriştəsiz hakimiyyətin, idarəsizliyin olmasından istifadə edərək ölkəmizə, xalqımıza qarşı məkrli niyyətlərin ortaya çıxdığı bir dövrdə həmvətənlərimizin məhz təşkilatlanmasına ciddi ehtiyac duyulurdu və diaspor quruculuğu, lobbiçilik fəaliyyəti, eləcə də həmrəyliyimiz labüd idi və ən vacib məsələ sayılırdı. İstər sosial-iqtisadi böhran, istər daxili çəkişmələr, istərsə də xarici müdaxilələr, əlәlxüsus işğalçı Ermənistanın fürsətdən istifadə edərək torpaqlarımıza göz dikməsi, təcavüz etməsi müstəqilliyimiz üçün təhdid hesab olunurdu və belə bir zamanda, belə bir şəraitdə həmrəyliyimizə daha çox ehtiyac duyulmağa başladı və bəlli idi ki, birliyimiz sayəsində çətinliklərin öhdəsindən gəlmək mümkündür. Bəlli idi ki, təkcə hərbi mənada deyil, eləcə də informasiya müharibəsində Ermənistanın ölkəmizə qarşı həmlələr etdiyi, dezinformasiyalarla, yalan, təhrif olunmuş məlumatlarla haqlarımızı tapdalamağa çalışdığı zaman dünya azərbaycanlılarının həmrəyliyi sayəsində bütün bunların qarşısını almaq olar. Ermənistanın, eləcə də xarici havadarlarının, erməni təəssübkeşlərinin çirkin planlarının qarşısını almaq, vəziyyəti xeyrimizə dəyişmək və haqq səsimizi dünyaya çatdırmaq üçün güclü dövlətlə yanaşı güclü lobbinin yaradılması, diaspor quruculuğu qaçılmaz idi. Bir sözlə, birliyimizin təmin olunması, çətinliklərin öhdəsindən gəlmək, məkrli düşmənin hər bir istiqamətdə hücumunu dəf etmək, zərərsizləşdirmək, vəziyyəti milli maraqlarımıza uyğun olaraq dəyişmək, uğurların, qələbələrin bünövrəsi üçün də diaspor quruculuğu, lobbiçilik ön planda idi, hansı ki, bunun da öhdəsindən layiqincə gəlindi və birliyimiz, həmrəyliyimiz sayəsində əldə etdiyimiz qələbələr, uğurlar göz önündədir.

Heç şübhəsiz ki, hər bir xalqın taleyində müstəsna rol oynayan, daha dəqiq desək, milli, eləcə də mənəvi birliyə xidmət edən, həmrəyliyi, birliyi təmin etməklə xalqını qələbələrə, işıqlı gələcəyə aparan tarixi şəxsiyyətlər yaddaşlarda əbədi yaşayırlar və bu heç də səbəbsiz deyil. Həmin tarixi şəxsiyyətlər xalqı öz ətrafında birləşdirməklə, milli ideyalar uğrunda səfərbər etməklə ən çətin vəziyyətdən çıxmaq üçün düzgün, doğru yolu göstərirlər, cəmiyyətin inkişafına böyük töhvələr verirlər və onlar heç zaman unudulmurlar. Məhz Ulu Öndər Heydər Əliyev və onun layiqli davamçısı, cənab Prezident İlham Əliyev öz xalqını qələbələrə, işıqlı gələcəyə aparan, cəmiyyətin inkişafına saysız-hesabsız töhvələr verən şəxsiyyətlərdir.

Ötən əsrin sonlarında öz müstəqilliyini yenicə bərpa edən, hələ möhkəmlənməyən Azərbaycana qarşı düşmən qüvvələrin baş qaldırdığı, ölkəmizi parçalamaq üçün müxtəlif istiqamətlərdə öz çirkin niyyətlərini ortaya qoyduqları bir dövrdə, vəziyyətin az qala vətəndaş müharibəsi həddinə gəlib çatdığı bir zamanda, erməni separatçıları, Qarabağ klanı öz çirkin niyyətlərini həyata keçirmək üçün münbit şəraitdən istifadə etdikləri bir məqamda xalqımızın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev xilaskar lider olaraq, ilk növbədə parçalanmaların, toqquşmaların qarşısını aldı, həmrəyliyimizi, birliyimizi bərpa etməklə problemli məsələlərin köklü şəkildə həllinə nail oldu. Xalqımızın öz Liderinin ətrafında birləşməsi, birliyimiz, həmrəyliyimiz sayəsində ən çətin problemlərin öhdəsindən gəlindi və davam etməkdə olan erməni işğalının qarşısı alındı, sabitlik bərpa edildi, bugünkü qələbələrimizi təmin edəcək

iqtisadi inkişaf yolunun təməli qoyuldu, cəmiyyətimizin bütün sahələr üzrə inkişafı istiqamətində əsaslı addımlar atıldı. Ümummilli Lideri Heydər Əliyevin layiqli davamçısı, Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev məhz Ulu Öndərin ideyaları, milli birlik, həmrəylik sayəsində bütün istiqamətlərdə uğurlara imza atdı və torpaqlarımız məhz birlik, həmrəylik sayəsində işğaldan azad edildi.

Ümummilli Lider Heydər Əliyev milli birliyimizin, xalqımızın həmrəyliyinin nə dərəcə əhəmiyyətli olduğunu çox yaxşı bilir və bunu yüksək qiymətləndirirdi. Dahi rəhbər təkcə ölkə daxilində yaşayan həmvətənlərimizin deyil, ölkə hüdudlarından kənarda məskunlaşan azərbaycanlıların da birliyinə, həmrəyliyinə çalışırdı və bu istiqamətdə də öz töhvələrini verdi. Təsadüfi deyil ki, Ulu Öndər xarici ölkələrə səfərləri zamanı həmin ölkələrdə yaşayan azərbaycanlılarla görüşür, söhbətlər aparır, harada yaşamasından, harada məskunlaşmasından asılı olmayaraq onların bir-birləri ilə əlaqəni kəsməsini, hətta təşkilatlanmalarını da onlara tövsiyyə edirdi. Məhz dahi liderin bu tövsiyyələri, göstərişləri dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar tərəfindən xoş qarşılandı və diaspor quruculuğuna başlanıldı, diasporumuz yaranmağa başladı. Bu baxımdan da cəsarətlə deyə bilərik ki, diaspor quruculuğu, lobbiçilik Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır və bu gün dünyanın bir çox ölkələrində yaşayan azərbaycanlıların təşkilatlanması ideyasının müəllifi, Azərbaycan diasporlarının yaradıcısı və banisi elə məhz Ümummilli Lider Heydər Əliyevdir. Bu gün artıq Azərbaycan diasporlarının fəaliyyəti qənaətbəxş hesab olunur və ölkə rəhbərimiz, cənab Prezident İlham Əliyevin qayğısını da bizim xarici ölkələrdəki diasporlarımız duyurlar. Nümunə üçün qeyd edək ki, erməni lobbisi Ermənistana maddi yardımlar göndərdiyi halda, Azərbaycan dövləti diasporlarımıza, lobbilərimizə maliyyə dəstəyi göstərir və bu da onların daha sürətli inkişafını şərtləndirir. İnkişaf etmiş diaspor, lobiçilik isə ölkəmizə, xalqımıza hər zaman lazımlı hesab olunur, çünki erməni təbliğat maşını heç də dayanmayıb və onlar Azərbaycanı bütün dünyada nüfuzdan salmaq üçün var qüvvələri ilə çalışdıqları zaman, bunun qarşısının alınması istiqamətində diasporlarımızın, lobbilərimizin, ümumiyyətlə, həmrəyliyimizin rolu danılmazdır.

Azərbaycan diasporunun, lobbisinin rolunu 44 günlük müharibə dönəmində də, torpaqlarımızın işğaldan azad olunduğu vaxt da müşahidə etmiş olduq. Dünyanın bir çox ölkələrində, əlalxüsus həmin ölkələrin səfirlikləri qarşısında Azərbaycan əleyhinə aksiya keçirən erməni təşkilatlanmasının da qarşısına məhz Azərbaycan diasporu çıxdı, onlarla mübarizə apardı, onları yerindəcə susdurdular və bizim haqlı tərəf olduğumuzu bütün dünyaya bəyan etdilər. Erməni həddsizliyinin, erməni yalanlarının yerindəcə, yubanmadan qarşısının alınması və ölkəmizin ədalətli mövqeyinin, haqlı mübarizəsinin dünya ictimaiyyətinə çatdırılmasında diaspor fəaliyyətinin, lobbiçiliyin, həmrəyliyin nə qədər vacib olduğunu hər birimiz müşahidə etdik, gördük. Bu baxımdan, Ali Baş Komandan, cənab prezident İlham Əliyevin diasporlarımızın fəaliyyətini yüksək qiymətləndirməsi heç də təsadüfi deyil. Ölkə rəhbərimizin, dövlətimizin diaspor quruculuğuna, lobbiçilik fəaliyyətinə hansı səbəbə görə önəm verdiyini və qayğı ilə yanaşdığını hər kəs çox yaxşı başa düşür. Eyni zamanda onu da başa düşürük ki, qloballaşan dünyamızın reallıqları diaspor quruculuğu sahəsində qarşıya yeni vəzifələr qoymaqdadır və bilirik ki, hazırda diaspor anlayışının beynəlxalq münasibətlərin vacib elementinə çevrilməsi də təsadüfi deyil, qarşıya qoyulan həmin yeni vəzifələrdən irəli gəlir. Xüsusən də xalqlar arasında sürətli inteqrasiya prosesləri gedtdiyi zamanda diaspor təşkilatlarının beynəlxalq siyasətdə rolunu artır etiraf etməmək mümkün deyil. Çünki məhz diaspor təşkilatlarının rolunun artması onların genişmiqyaslı fəaliyyət göstərilməsini tarixi zərurətə çevirib və deməli, getdikcə diaspor quruculuğunun, lobbiçiliyin və həmrəyliyimizin daha da gücləndirilməsi öz aktuallığını qoruyur, prioritet olaraq qalır.

**Səs.-**2023.-13 may.-№83.-S.9.

## Diaspor quruculuğu - prioritet istiqamət kimi

**Nicat Dilqəmli**

Tarixin bütün dövrləri üçün aktual olan məsələlərdən biri də diaspor quruculuğu və lobbiçilikdir. Xüsusilə son illər, daha dəqiq desək, pandemiya və postpandemiya dövrlərində dünyanın bir çox ölkəsində ciddi qlobal dəyişikliklərin müşahidə olunduğu bir vaxtda diaspor və lobbiçilik bir qədər də aktuallaşdı. Ölkəmizdə diaspor quruculuğu və soydaşlarımızın azərbaycançılıq ideyası ətrafında birləşməsi, həmrəyliyi, yəni dünya azərbaycanlılarının təşkilatlanması ümummilli lider Heydər Əliyevin adı ilə birbaşa bağlıdır. Ümummilli Lider ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra xaricdə yaşayan həmvətənlərimizin diqqət mərkəzində olması, onların bir araya gəlməsi dövlətin əsas prioritetlərindən birinə çevrildi. Çünki həyatının müəyyən bir qismini işi ilə əlaqədar doğma Azərbaycandan kənarda yaşamağa məcbur olan Heydər Əliyev həmin insanların keçirdikləri

hissləri də, onların düşüncələrini də hər bir kəsdən daha gözəl anlayırdı. Ulu öndər Heydər Əliyev Azərbaycan diaspor cəmiyyətlərinə aid olan bütün məsələlərə hər zaman olduqca böyük həssaslıqla yanaşıb. Heydər Əliyev dünya azərbaycanlılarına müraciətində deyirdi: "Biz istərdik ki, müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar həmin ölkələrin vətəndaşları kimi yaşasınlar. Ancaq heç vaxt öz milli köklərini, milli mənsubiyyətlərini itirməsinlər. Çünki bizi birləşdirən milli mənsubiyyətimizdir, tarixi köklərimizdir, milli-mənəvi dəyərlərimizdir. Vətənini, millətini sevən hər bir azərbaycanlı müstəqilliyimizin dönməzliyi üçün ciddi səy göstərməli, vətənimizin, respublikamızın taleyi hər bir soydaşımızın taleyi olmalıdır".

Bu gün isə Ulu Öndərin layiqli davamçısı, Prezident İlham Əliyev tərəfindən Onun milli inkişaf strategiyası uğurla davam və inkişaf etdirilir. Qloballaşan, müasir dünyanın reallıqlarına, yeni geosiyasi vəziyyətlərə uyğun olaraq diaspor quruculuğu istiqamətində olduqca mühüm, əhəmiyyətli addımlar atılır. Bu istiqamətdə həyata keçirilən tədbirlər barədə söz açarkən ilk növbədə dövlət başçısının 5 iyul 2018-ci il tarixli fərmanı ilə Azərbaycan Diasporuna Dəstək Fondunun yaradılmasını xüsusi qeyd etmək lazımdır. Fond ötən illər ərzində 200-ə yaxın diaspor təşkilatının sənədlərinin həmin ölkələrin qanunvericiliyinə uyğun tərtib edilməsinə və qeydiyyatdan keçməsinə dəstək göstərib, 100-dən çox layihəni maliyyələşdirib.

Etiraf etmək lazımdır ki, dünyanın dörd bir yanında yaşayan soydaşlarımızın təşkilatlanmasının, vahid amal uğrunda sıx şəkildə birləşməsinin ən aydın nümunəsi 44 günlük Vətən müharibəsi dövründə müşahidə olundu. Məhz Zəfər tariximizin yazıldığı günlərdə dünya azərbaycanlıları ən müxtəlif vasitələrlə dövlətin yanında olduğunu göstərdi, Dəmir yumruğun ətrafında sıx birləşdi. Döyüş yalnız ön cəbhədə getmirdi. Arxa cəbhədə - informasiya müharibəsində də ən az cəbhədə olduğu qədər aktivlik müşahidə olunurdu. Ermənistan hər vəchlə dünya ictimaiyyətini aldatmağa çalışır, dezinformasiyalar yayırdı. Təbii ki, belə bir məqamda bütün vasitələrlə düşmən təxribatlarına cavab vermək hər bir azərbaycanlının vətəndaşlıq borcu idi. Məhz soydaşlarımızın birliyi, həmrəyliyi nəticəsində Azərbaycan bu sınaqdan da üzüağ çıxmağı bacardı - ön cəbhədə olduğu kimi, arxa cəbhədə də parlaq qələbəyə imza atdı.

Birliyimiz, həmrəylimiz bu gün də davam edir. Ali Baş Komandanın ətrafında birləşən xalqımız bu gün Qarabağımızda gedən təmir-bərpa, abadlıq-quruculuq işlərində böyük ruh yüksəkliyi ilə iştirak edir. İllərdir həsrətində olduğumuz mədəniyyət beşiyimiz - Şuşamız artıq bir çox yerli və beynəlxalq tədbirlərə, layihələrə, konsert və festivallara ev sahibliyi edir. Bu tədbirlər sırasında aprelin 22-də Şuşa şəhərində Dünya Azərbaycanlılarının V Qurultayı - Zəfər Qurultayının keçirilməsi də olduqca əlamətdar bir hadisədir.

Bu ilin fevral ayında qardaş ölkə Türkiyədə baş verən dəhşətli zəlzələdə də ölkə vətəndaşları daha bir həmrəylik nümunəsi ortaya qoydu. Təbii fəlakətin nəticələrinin aradan qaldırılması üçün hər bir azərbaycanlı meydana atıldı, qardaşına yardım əli uzatdı. Zəlzələ həm Türkiyə, həm də Azərbaycan tarixlərinə dəhşətli bir faciə kimi yazılmaqla bərabər, həm də dostluq, qardaşlıq, həmrəylik məfhumlarının ən parlaq nümunəsi kimi tarixə əbədi həkk oldu.

Məlumdur ki, hər il yüksək intellektə sahib olan minlərlə azərbaycan gənci təhsil almaq üçün ölkə xaricinə üz tutur. Son illər bu sahədəki inkişaf əvvəlki dövrdən müsbət mənada bir xeyli fərqlənir. Məhz son bir neçə il ərzində ölkə gəncləri dünyanın nüfuzlu ali təhsil müəssisələrindən qəbul qazanaraq həmin ölkələrdə Azərbaycanı layiqincə təmsil edirlər. Həmin tələbələr təhsil aldıqları ölkədə keçirilən mədəni tədbirlərdə ölkəmizin milli adət-ənənələrini, qədim tarixini nümayiş etdirməklə bərabər, həm də Azərbaycan gəncinin istedadını açıq şəkildə ortaya qoyurlar.

Bütün bunlar Azərbaycanda diaspor quruculuğu istiqamətində görülən işlərin uğurlu nəticəsi olmaqla bərabər, həm də qarşıdakı dövr üçün milli dəyərlərin daha da möhkəmlənməsinin, dünya azərbaycanlılarının indikindən də artıq həmrəy olacağının qarantıdır.

Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi” istiqaməti üzrə hazırlanmışdır

**Yeni Azərbaycan.-**2023.-20 may.-№88.-S.5.

## Diasporanın işi ilə kifayətlənmək olmaz

*Əli çatan, sözü keçən hər bir insanımız ABŞ-də Azərbaycanın tanıdılması, mövqelərinin möhkəmləndirilməsi üçün bacardığını etməlidir*

**İsmayıl Qocayev**

**Diasporla bağlı uzun illərdir dövlət səviyyəsində ciddi işlər görülür. Xaricdə müxtəlif tədbirlər, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması istiqamətində görüşlər keçirilir. Mütəmadi olaraq xarici diplomatlarla əlaqələr qurulur, Azərbaycanın maraqları yüksək səviyyədə müdafiə olunur. Davamlı şəkildə aparılan iş xaricdə yaşayan həmyerlilərimizin həmrəyliyi, lobbiçilik fəaliyyəti Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasına vasitə olur. Azərbaycan diasporasının uzun müddətdir fəaliyyət göstərdiyi mühüm ölkələrdən biri də Amerika Birləşmiş Ştatlarıdır.**

Azərbaycanlılar əsasən ABŞ-nin Nyu-York, Vermont, Arizona, Florida, Ohayo, Konnektikut, Nevada, Texas, İllinoys kimi ştatlarında yaşayırlar. ABŞ-də azərbaycanlıların 30-a yaxın ictimai birliyi, bir jurnalı və bir televiziya kanalı fəaliyyət göstərir. Dövlət Departamentinin verdiyi məlumata görə, Azərbaycan müstəqillik əldə etdikdən sonra 5 min 553 azərbaycanlı Amerika vətəndaşlığına keçib. 2001-2010-cu illərdə 9 min 391 nəfər azərbaycanlı ABŞ vətəndaşı kimi qeydiyyata götürülüb. 1979-cu il İran inqilabı zamanı 150 min azərbaycanlı İrandan ABŞ-yə mühacirət edib. Onlar əsasən İranda hakimiyyətə gələn rejimin rəhbərliyi altında yaşamaq istəməyənlər olublar. Azərbaycan xarici işlər nazirinin müavini Elnur Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti bugünlərdə ABŞ-yə işgüzar səfər edib. Nümayəndə heyəti Amerikadakı Azərbaycan icması ilə ilə görüşlər keçirib. Heyət ABŞ-Azərbaycan Ticarət Palatasını ziyarət edib və Kolumbiya Əyaləti və ətraf ştatlarda yaşayan Azərbaycan icmasının fəalları ilə görüşüb. Nazir müavini Nyu-Yorkda da yerli azərbaycanlı icması ilə görüş geçirib. Nümayəndə heyətinin ABŞ-yə səfərinin 24 may tarixinədək davam etməsi və digər rəsmi şəxslərlə görüşlərin keçirilməsi nəzərdə tutulur. Bundan əlavə nazir müavini ABŞ Senatının üzvləri Senator Tom Koton, Senator Ben Kardin, Konqresin Nümayəndələr Palatasının üzvləri Cek Berqmən, Çak Flayşmən, Mayk Ezel və Robert Aderholt ilə görüşüb. Görüşlərdə ABŞ-Azərbaycan ikitərəfli əlaqələri, həmçinin regionda gedən proseslər, eyni zamanda Ermənistanla aparılan sülh danışıqları barədə qarşı tərəf məlumatlandırılıb. Konqres üzvləri, həmçinin post-münaqişə dövründə davam edən mina təhdidləri, bərpa və yenidənqurma işləri barədə məlumatlandırılıblar. Görüşlərdə, "Laçın" sərhəd buraxılışı məntəqəsinin təsis edilməsi ilə əlaqədar ABŞ-də fəaliyyət göstərən radikal erməni təşkilatlarının Konqres üzvlərinə təqdim etdikləri həqiqətə uyğun olmayan və əsassız məlumatların, bu çərçivədə ABŞ Konqresinin üzvləri tərəfindən birtərəfli və ABŞ-nin milli maraqlarına xidmət etməyən qətnamələrin irəli sürülməsinin iki ölkə arasında əlaqələrlə yanaşı, hazırda davam edən sülh danışıqlarına da zərər verdiyi vurğulanıb.

Nazir müavini və nümayəndə heyəti Nyu-York şəhərində Azərbaycan bayrağı ucaldılması tədbirində iştirak edərək, orada çıxış edib. Üçrəngli, ay-ulduzlu bayrağımız Nyu-York şəhərinin simvolu və maliyyə mərkəzi hesab olunan, turistlərin ən çox ziyarət etdiyi küçələrdən birində - "Wall Street"də yerləşən "Bowling Green" parkında nəhəng bayraq dirəyindən asılıb. Mərasim Azərbaycanın BMT yanında Daimi Nümayəndəliyinin təşəbbüsü və dəstəyi, Amerika Azərbaycanlıları Cəmiyyətinin təşkilatçılığı və Nyu-York şəhər meriyasının dəstəyi ilə keçirilib.

Mərasimdə çıxış edən Amerika-Azərbaycan Cəmiyyətinin sədri Tomris Azəri qonaqlara ölkəmizin tarixinin ən şanlı və parlaq səhifələrdən biri olan 28 May – Müstəqillik Günü barəsində ətraflı məlumat verib. Bildirib ki, azadlığı və istiqlaliyyəti uğrunda tarix boyu mübarizə aparan Azərbaycan xalqı 28 may 1918-ci ildə Şərqin ilk demokratik, hüquqi, dünyəvi və parlamentli respublikasını yaradıb: "Ulu Öndər Heydər Əliyev yenidən Azərbaycanı bizə geri verdi və onun möhkəm təməllər üzərində qurduğu müstəqillik əbədi və dönməz oldu. Bu il Heydər Əliyevin 100 illik yubileyini ona olan böyük minnətdarlıq hissi ilə qeyd edirik. Heydər Əliyevin şah əsəri olan müstəqil Azərbaycanın taleyi etibarlı əllərdədir".

Tədbirdə çıxış edən Nyu-York şəhər meriyasının protokol xidmətinin rəhbəri Rəna Abbasova da, 28 May - Müstəqillik Günü münasibəti ilə dünya azərbaycanlılarını təbrik edib. O, dünyanın harasında yaşamağından asılı olmayaraq bütün azərbaycanlıların hər zaman birlikdə olmasının vacibliyinə diqqət çəkib. Üçrəngli bayrağımız dövlət himnimizin sədaları altında Nyu-York səmasına qaldırılıb, Azərbaycan və ABŞ bayraqları səmada birlikdə dalğalanıb. Mərasim Nyu-Yorkun yerli mediasında canlı yayımlanıb.

Ərazini ziyarət edən turistlər bayrağımızın fonunda şəkil çəkdiriblər. Qeyd edək ki, Nyu-York şəhərinin ilk rəsmi parkı olan və nəhəng bayraq meydanı kimi tanınan "Bowling Green" bu gündən etibarən 10 gün müddətində Azərbaycan bayrağına ev sahibliyi edəcək.

**Siyasi şərhçi Azər Həsrət "Şərq"ə açıqlamasında vurğulayıb ki, Amerika Birləşmiş Ştatları dünya siyasətinin, diplomatiyasının nüvəsidir. Analitik qeyd edib ki, qərarlar orada verilir, icra edilir və lazım olan anda güc tətbiq olunur:** "Elə bir dünya dövləti ola bilməz ki, ABŞ ilə bu və ya digər şəkildə hesablaşmasın, onun maraqlarını, mövqeyini nəzərə almasın. O baxımdan Azərbaycan da daxil olmaqla dünyanın bütün dövlətləri ABŞ ilə yaxşı münasibətlərə üstünlük verirlər. Bizim diaspor fəaliyyətimizə, ümumiyyətlə, Azərbaycanın oradakı diplomatik təmsilçiliyinə gəlincə, bu yöndə çox işlər görülməlidir. Görülən işlər az olmasa da, çox da deyil. Azərbaycan Amerikada öz varlığını mümkün qədər uca səslə duyurmağa çalışır. Lakin ABŞ çox böyük dövlətdir, rəngarəngdir, fərqli mövqelərin hakim olduğu bir ölkədir. Ona görə də Amerikada çoxvektorlu iş qurmaq lazımdır.

Bir tərəfdə rəsmi təmsilçiliyimiz, digər tərəfdə isə diaspor nümayəndələrimiz, eyni zamanda Azərbaycanın daxilində fəaliyyət göstərən ictimai-siyasi qurumlar, media çox böyük işlər görməlidir. "Səfirliyimiz edirsə, yetərlidir" deyərək dayanmamalıyıq. Diasporanın da işi ilə kifayətlənmək olmaz. Əli çatan, sözü keçən hər bir insanımız Amerika Birləşmiş Ştatlarında Azərbaycanın tanıdılması, mövqelərinin möhkəmləndirilməsi üçün bacardığını etməlidir. Hətta sosial media hesablarında belə fəallığa ehtiyac var. Ayrı-ayrı Konqresmenlərin, dövlət adamlarının, rəsmilərin paylaşımları izlənməli, yazdıqlarına münasibətlər bildirilməlidir.

Bu işlərin hamısı bütövlükdə Azərbaycanın ABŞ-də mövqelərinin güclənməsinə əlavə töhfə verə bilər. Şəxsən mən bu cür düşünürəm və elə də edirəm. Başqa fəallar da belə davransa, biz yetəri qədər məsafə qət edə biləcəyik".

**Şərq. -** 2023. - 23 may. - № 88. - S. 6.

# Diaspor təşkilatlarının formalaşdırılması milli prioritetdir

## 2016-cı il iyunun 3-də Dünya Azərbaycanlılarının IV Qurultayı keçirilib

**Töhfə Səmədova**

**“Bildiyiniz kimi, birinci Qurultay ulu öndər, müstəqil Azərbaycanın qurucusu Heydər Əliyevin təşəbbüsü ilə 2001-ci ildə keçirilmişdir. O vaxtdan bu günə qədər Azərbaycanda böyük işlər görülmüşdür, Azərbaycan daha da güclənmişdir, bizim imkanlarımız artmışdır… Ulu Öndər bu məsələni daim diqqət mərkəzində saxlayırdı. Məhz onun təşəbbüsü ilə 1991-ci ildə 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik və Birlik Günü təsis edilmişdir. Bu gün bu bayramı bütün dünya azərbaycanlıları qeyd edirlər”.**

Bunu Prezident İlham Əliyev 3 iyun 2016-cı ildə Dünya Azərbaycanlılarının IV Qurultayının açılış mərasimində deyib. Ulu Öndərin təşəbbüsü ilə əsası qoyulan qurultay ötən 22 ildə dünya azərbaycanlıları və ölkəmiz üçün mühüm işlər görüb. Ümummilli liderimizdən miras qalan və bu gün də davam etdirilən ənənə, xaricdə yaşayan azərbaycanlıların həyatı, taleyi, işləri ilə maraqlanmaq, olduqları ölkələrdə rahat yaşamaları, yaxşı mövqe tutmaları, imkanlara sahib olmaları və eyni zamanda öz doğma Vətəninə də xidmət və s. məsələlər etmələri Azərbaycan Respublikasının milli prioritetidir. Birinci qurultayın baş tutması Azərbaycan diaspor təşkilatlarının formalaşdırılmasında önəmli yer tutub. Çünki növbəti il, 2002-ci ildə Heydər Əliyevin Sərəncamı ilə Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi yaradılıb. Hazırda həmin qurumun adı dəyişdirilərək Diasporla İş üzrə Dövlət Komitəsi kimi fəaliyyət göstərir. 4-cü qurultaya qədər mövcud olan diasporların sayı ən az 2 dəfə artıb. Diaspor təşkilatlarının təşkilatlanma, formalaşma prosesi daha da geniş vüsət alıb, həm kəmiyyət, həm keyfiyyət baxımından böyük yol keçib, güclənib. Bu gün dünya miqyasında azərbaycanlılar və onların təmsil etdikləri təşkilatlar önəmli rol oynayırlar.

Xaricdəki diasporlarla ölkəmiz daima əlaqədədir. Birgə qurulan işlər, əlaqələr sürətlə inkişaf edir. Hazırda dünyada minlərlə azərbaycanlı vətəndaş yaşayır. Bu da Azərbaycan həqiqətlərini dünyaya çatdıran minlərlə səs deməkdir. Bu gün dünyanın müxtəlif yerlərində istənilən tədbiri keçirə, dünya ictimaiyyətini Azərbaycan reallıqları ilə daha da geniş şəkildə tanış edə bilirik. Əlbəttə, Azərbaycan dövlətinin və onun xalqının xaricdə yaşayan vətəndaşlarımıza da dəstəyi böyükdür. Başqa ölkələrdə azərbaycançılığın, milli dəyərlərimizin və tarixi həqiqətlərimizin təbliği mühüm əhəmiyyət kəsb edir. Diasporlar arasında sağlam rəqabət də mövcuddur. Hansı ki, bu da inkişafa xidmət edir. Həm ölkə daxilində, həm də xaricdə mövcud olan birlik bizim ən böyük gücümüzdür.

Görüş zamanı Prezident İlham Əliyev vurğulayıb ki, Mən xaricdə fəaliyyət göstərən səfirlərlə iki ildən bir görüş keçirirəm və hər bir çıxışda xüsusilə bu mövzuya toxunuram ki, onlar diaspor təşkilatlarına kömək göstərməlidirlər: “Diaspor təşkilatları ilə səfirliklər arasında möhkəm əlaqələr olmalıdır və bu əlaqələr güclənməlidir. Çünki bir daha demək istəyirəm, biz bir məqsədə qulluq edirik, biz hamımız istəyirik ki, Azərbaycan daha da güclənsin. Hamımız istəyirik ki, xaricdəki azərbaycanlılar rahat yaşasınlar, yaşadıqları ölkələrdə yüksək mövqelərə malik olsunlar və Azərbaycanı ləyaqətlə təmsil etsinlər”.

Bundan sonra Qurultayın “Müasir dövrdə informasiya müharibəsi - müdafiədən hücuma: şərtlər, siyasi reallıqlar və yeni fəaliyyət mexanizmləri”, “Keçmişin təcrübəsi və müasir düşüncə - Azərbaycan diaspor hərəkatında gənclər: yeni baxış və yeni strategiya”, “Lobbi quruculuğu: dəyişən geosiyasi reallıqlar yeni qlobal iqtisadi tendensiyalar kontekstində”, “Cəmiyyətə inteqrasiya və siyasi həyatda iştirak” mövzularında panel iclasları keçirilib. Panel iclaslarda Prezident İlham Əliyevin qurultaydakı nitqi vahid qüvvəyə çevrilmək və azərbaycançılıq ideyası naminə birləşmək baxımından diaspor üzvlərinin qarşısına yeni vəzifələr qoyduğu bildirilib. Moderatorlar vurğulayıblar ki, qurultayın iştirakçıları bundan sonra da Azərbaycan həqiqətlərinin dünyada yayılmasında səylərini əsirgəməyəcəklərini qeyd ediblər.

**Azərbaycan.** - 2023.- 3 iyun. - № 116. - S. 5.

# Azərbaycanda lobbiçiliyin təşəkkülü yeni vüsət alır

**Tahir Tağıyev**

**1980-ci illərin sonunda postsovet məkanında siyasi və iqtisadi modernləşmə başladı. Bu fonda keçmiş SSRİ-nin əvəzinə müstəqil, demokratik hüquqi dövlətlərin qurulması bütün müasir demokratiya institutlarının hərtərəfli öyrənilməsini və onların fəaliyyət mexanizmlərinin mənimsənilməsini tələb edirdi.**

Belə siyasi-hüquqi institutlar sırasında uzun müddətdir ki, inkişaf etmiş demokratiyalarda kök salmış və hüquqi formasını orada almış lobbiçilik də var.

## Lobbiçilik hakimiyyət və cəmiyyət arasında münasibətlərin zəruri, təbii və hüquqi vasitəsidir

Lobbi sözü ingilis dilinə orta əsrlər latın dilindən daxil olub. 17-ci əsrin 40-cı illərində İngiltərədə, Böyük Britaniya Parlamentinin İcmalar Palatasında deputatların müəyyən qanun layihələrinin qəbulu ilə maraqlanan, şəxslərlə görüşləri keçirilirdi. Onlar mövqelərini ifadə edir, deputatlar da bunu nəzərə alırdı. Nəticədə lobbi anlayışı meydana çıxdı.

Müasir elmdə lobbiçilik termini bir qayda olaraq, müxtəlif maraqlı qruplar tərəfindən istifadə edilən dövlət orqanlarına təsir vasitələri və üsullarının məcmusu kimi başa düşülür. Yekun nəticə bu orqanlardan maraqların təmini naminə müsbət qərarlar qəbul etməyə nail olmaqdır. Beləliklə, lobbiçiliyin məqsədi qanunun qəbuluna və ya rədd edilməsinə nail olmaq olan hər hansı qrup və ya şəxslər tərəfindən atılan adımlardır. Təcrübədə lobbiçilik termini dövlət orqanları, ilk növbədə parlament və hökumət arasında münasibətləri xarakterizə etmək üçün də istifadə olunur. Hökumət istədiyi qanun layihəsini "qəbul etdirmək" üçün deputatlara təsuir edir, deputatlar da öz növbəsində bu və ya digər məsələ ilə bağlı hökumətə və ya nazirlərə təzyiq göstərə bilərlər. Lobbiçilik demokratik ölkələrin siyasi sistemlərinin obyektiv hadisəsidir. Lobbiçilik fəaliyyətinin hüquqi əsası dövlətin öz vətəndaşlarına qərarların qəbul edilməsində və ya hakimiyyətin qanuni seçimi və bölüşdürülməsi sistemində bərabər şəkildə azad iştirak etmək hüququnu təmin edəcəyinə təminatdır. Dövlət qərarları, bir qayda olaraq, həm ayrı-ayrı vətəndaşların, onların qruplarının, həm də əhalinin bütün təbəqələrinin mənafeyinə toxunduğundan, hüquqi münasibətlərin subyektləri, yəni vətəndaşlar, siyasi təşkilatlar, vəzifəli şəxslər kifayət qədər konkret qərarlar qəbul edilməsində obyektiv olaraq maraqlıdırlar. Siyasi proseslərin gedişatında konkret şəxslərin istədiyi nəticəni əldə etmək üçün güc strukturlarına, məmurlara, ictimai rəyə təzyiq göstərməyə çalışması da bu mənada məntiqlidir. Beləliklə, lobbiçilik siyasi-hüquqi hadisə kimi müəyyən xüsusiyyətlərə malikdir. Lobbiçilikdə qrupları ilk növbədə, vətəndaşlarla dövlət arasında vasitəçilik funksiyasını yerinə yetirirlər. Bu funksiya həm də informasiya mübadiləsini nəzərdə tutur, çünki söhbət ictimai maraqların dövlət orqanlarına çatdırılmasından gedir. İkincisi, lobbi qrupu "ictimai maraqların çoxluğunu təşkil etmək" funksiyasını yerinə yetirir. Lobbiçilik cəmiyyət üçün ona görə sərfəlidir ki, siyasi qərarlarda rəsmiləşdirilən və demokratik prosedurlar çərçivəsində həyata keçirilən qrup maraqlarının müqayisəsi real və effektiv "yoxlama və tarazlıq" sistemi yaradır. Üçüncüsü, lobbiçilik təmsilçilik sistemini özünəməxsus şəkildə tamamlayır, bunu başqa cür edə bilməyən qrupların siyasi qərarların qəbulunda və həyata keçirilməsində iştirakına şərait yaradır. Buna görə də, hazırda lobbiçilik getdikcə daha çox hakimiyyət (vəzifəli şəxslər, vəzifəli şəxslər) və cəmiyyət (vətəndaşlar) arasında münasibətlərin zəruri, təbii və hüquqi vasitəsi kimi başa düşülür. Azərbaycanda məhz bu yanaşma hakimdir.

## Vətəndaş cəmiyyətinin inkişafı lobbiçiliyə müsbət təsir edir

Aydındır ki, Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafı vətəndaşlara hökumət qərarlarının qəbuluna qanuni təsir göstərmək, dövlət işlərinin idarə edilməsində iştirak etmək və hakimiyyətə nəzarət etmək üçün daha böyük hüquqlar, azadlıqlar və imkanlar vermək yolu ilə getməlidir. Hazırda proseslər elə bu məcrada da inkişaf edir. Bu baxımdan Qərb ölkələrinin demokratik siyasi sistemlərinin nəzərə çarpan elementinə çevrilmiş lobbiçilik institutuna ölkəmizdə göstərilən maraq başa düşüləndir.

Ölkəmizdə lobbiçilik fəaliyyətinin hüquqi tənzimlənməsinin öz modellərini təklif edən ABŞ və Almaniyada bu qurumların öyrənilməsinə xüsusi diqqət yetirilir. ABŞ-da belə tənzimləmə 1946-cı ildən, Konqres müvafiq qanunu qəbul etdikdən sonra həyata keçirilir. Onun əsas ideyası lobbiçiliyi ictimailəşdirməkdir. Onun əsas ideyası lobbiçiliyi ictimailəşdirmək və korrupsiya ehtimalını aradan qaldırmaq idi. Qanuna əsasən, Konqresə təzyiq edən təşkilat və ya şəxs öz lobbiçilərini Senatın Katibində və Nümayəndələr Palatasının katibində qeydiyyatdan keçirməli idi. Eyni zamanda, onlar qanunvericilik sahəsində öz maraqlarının sahəsi barədə məlumat verməyə borclu idilər. Qanun lobbiçilik fəaliyyəti üçün istifadə edilə bilən maliyyə resurslarının həcmini məhdudlaşdırmırdı, lakin qaydaların pozulmasına görə məsuliyyət müəyyən edirdi.Bu sahədə çoxsaylı qalmaqallar göstərdi ki, qanun korrupsiyanı aradan qaldırmayıb. Lobbiçiliyi ona düzəlişlər etməklə məhdudlaşdırmaq üçün edilən sonrakı cəhdlər uğursuz oldu. Buna görə də Konqres 1996-cı ildə qüvvəyə minmiş lobbiçilik fəaliyyətinin açıqlanmasına dair yeni qanun qəbul etməyə məcbur oldu. Yeni qanunun məqsədi Birləşmiş Ştatlar xalqına federal hökumətin qanunverici və ya icraedici qollarının rəsmiləri tərəfindən hökumət fəaliyyətinə təsir göstərmək üçün pullu lobbiçilərin göstərdiyi səylərə effektiv şəffaflığı təmin etməkdir. Beləliklə, qanunvericilər lobbiçilik fəaliyyətinin hüquqi tənzimlənməsinin gücləndirilməsi və sərtləşdirilməsi yolunu tutdular. Almaniyada isə lobbiçilik fəaliyyətinin hüquqi tənzimlənməsinin daha bir modeli yaradılıb. ABŞ-dan fərqli olaraq Almaniyada maraqların təmsilçiliyi lobbiçilik deyil, maraq qruplarının fəaliyyəti adlanır. Burada da dövlət orqanlarında müəyyən maraqları təmsil edən müxtəlif birliklər, birliklər, assosiasiyalar sistemi inkişaf edib və uğurla fəaliyyət göstərir. Azərbaycanda dərin siyasi və iqtisadi transformasiyalar fonunda baş verən vətəndaş cəmiyyətinin yeniləşməsi şəraitində lobbiçilik institutunun formalaşdırılması və inkişafı ön plandadır. Həm ölkə daxilində, həm də xaricində bu istiqamətdə mühüm addımlar atılır. Təbii ki, bizim ölkədə fərqli vəziyyət və başqa ənənələr var. Bu fonda qabaqcıl təcrürə bə yerli ənənələr nəzərə alınmaqla lobbi fəaliyyəti inkişaf etdirilir.

**Bakı Xəbər**. - 2023. - 9 iyun. - № 100. - S. 8.

## Özbəkistanın azərbaycanlı övladı

**Özbəkistanda idarəetmə sahəsində çalışan azərbaycanlı Mehriban Rəhimova: "Bu ölkədə bütün millətlərə diqqət və qayğı var, millətlərarası dostluq dövlət siyasətinə çevrilib. Bu ölkədə xoşbəxtik. Amma Vətən deyəndə içimizdə nəsə sızıldayır".**

Özbəkistanda bələdiyyə modelini xatırladan məhəllələr fəaliyyət göstərir. Ağsaqqallar tərəfindən idarə olunan belə məhəllələr ölkənin hər bir bölgəsində var. Bu məhəllələrdə xalqların adət-ənənəsinə hörmətlə yanaşılır, insanlar bir-birinə qaynayıb qarışır, böyükdən-kiçiyə hamı bir-birinə hörmət edir.

Azərbaycanlılar yaşayan məhəlləni də paytaxt Daşkənddə hamı tanıyır. Həmvətənlərimiz Mirabad rayonunun Temiryolçilar (dəmiryoluna yaxın yerləşir) məhəlləsində yaşayırlar.

**Artıq 41 ildir...**

Özbəkistanda səfərdə olarkən azərbaycanlılar yaşayan bu məhəlləyə baş çəkdik. Məhəllə rəisi Mehriban Rəhimova və digər fəal soydaşlarımızla görüş onların həyat və şəraiti ilə yaxından tanışlığa imkan yaratdı.

Mehriban xanım özünü "Özbəkistanın azərbaycanlı övladı" adlandırır. Təsirli həyat hekayəsi var. Əsli-kökü Zəngəzurdan olsa da Şəki şəhərində doğulub. Qayınanasıgil 1905-ci ildə ermənilər tərəfindən deportasiya edilib. Əvvəlcə Türkiyəyə, sonra Özbəkistana köç ediblər: "Qayınanamgil (xalam) 4 bacı, bir qardaş olublar. Onlar Zəngəzurdan çətin yollarla gələrkən 3 yaşlı bacıları donaraq tələf olub. Nənəm öz əmisinin oğluna ərə gedib və Şəkidə qalıb. Xalam isə bir bacısı, qardaşları və əmiləri ilə Daşkəndə köç edərək orada məskunlaşıblar. Sonra bir çox qohum-əqrəbanı çəkib gətiriblər və sayları çoxalıb. Dəmiryoluna yaxın ərazidə məskunlaşdıqları üçün buralarda dəmiryolunda fəhlə, ocaqçı işləyiblər. Bu ərazilər boşluq olub. Tədricən hamıya torpaq sahəsi verilib, özlərinə ev-eşik qurublar. Sonrakı illərdə də oxumağa, işləməyə gələnlər olub. Evlənib, burada qalıblar. Nəticədə azərbaycanlıların sayı çoxalıb və yerli millətə qaynayıb-qarışıblar. Mən də 19 yaşından bu ölkəyə gəlmişəm. Artıq 41 ildir ki bu gözəl və mehriban ölkədə yaşayıram. Burada ailə qurmuşam. Üç övladım var". M.Səfərova gəncliyindən bəri bir çox sahələrdə çalışıb. İşinə məsuliyyəti, idarəetmə bacarığı, xeyirxahlığı onun yaşadığı məhəllənin sədri (rəisi) vəzifəsinə yüksəlməsinə səbəb olub: "Mənə xalqım hörmət edib, bu məhəllədə sədr seçib və 16 ildir məhəllə komitəsinin sədriyəm". M.Rəhimovanın təmsil etdiyi məhəllədə 3500-dən çox əhali yaşayır. Onların 70 faizi - 2400-ü azərbaycanlıdır: "Məhəlləmizdə müxtəlif xalqların nümayəndələri yaşayır. Biz bir ailə kimi dolanırıq. Sevincimiz də, kədərimiz də birdir. Bir-birimizin xeyir-şərində yaxından iştirak edirik. Tarixi günlərimizi, milli bayramlarımızı birlikdə qeyd edirik. Bu, birgəyaşayışın ən gözəl modelidir".

**Vətən deyəndə...**

Məhəllə sədri deyir ki, özlərini Özbəkistanda doğma Vətəndəki kimi hiss edirlər: "Bu ölkədə bütün millətlərə diqqət və qayğı var, millətlərarası dostluq dövlət siyasətinə çevrilib. Bu ölkədə xoşbəxtik. Amma Vətən deyəndə içimizdə nəsə sızıldayır..."

Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistana səfəri zamanı, Daşkənddə Heydər Əliyev meydanının açılışında Mehriban Səfərova da prezidentlər qarşısında çıxış edib. "Sən bizim baş tacımızsan" deyə dövlətimizin başçısına ürək sözlərini söyləyib. Həmçinin, sədri olduğu məhəllənin rəhbəri olaraq Özbəkistandakı həyat şəraitlərinə görə ölkə Prezidenti Şavkat Mirziyoyevə təşəkkür edib. "Mən anayam. Analar həm öz övladlarının, həm də bütün dünyanın xalqlarının dincliyini, xoşbəxtliyini daim Allahdan arzu edirlər. Canım Özbəkistandır, ana canım Azərbaycandır, hər ikisini eyni dərəcədə sevirəm" deyib.

Məhəllə sədri fəaliyyətinə görə Özbəkistan Prezidenti tərəfindən "Xalqlar dostluğu" medalı ilə təltif edilib. 60-dan çox fəxri diplom, təşəkkürnamə alıb. Bu yaxınlarda isə "Ən yaxşı məhəllə rəisi" müsabiqəsinə qatılıb və avtomobillə mükafatlandırılıb. Bütün bunları gərgin əməyinin bəhrəsi və xalqlar arasındakı münasibətlərə töhfəsi hesab edir.

**Gənclərlə Vətən arasındakı bağ**

M.Rəhimova Daşkənddə fəaliyyət göstərən Azərbaycan diasporunun fəaliyyətindən razılıq edir: "Diasporumuz fəaldır. Sədr Mobil Məmmədov əslən Göygöl rayonundandır. O, bütün azərbaycanlıları ətrafına yığır, vətəni unutmağa qoymur". M.Rəhimova hesab edir ki, Özbəkistanda yaşayan azərbaycanlı

gənclərin də Vətənlə əlaqəsi möhkəm qurulmalıdır: "Gənclərimizdə Azərbaycan ruhu var. Onlar da Vətəni görmək istəyirlər. Gənclərimizlə Vətən arasında bağlar olmalıdır. Yoxsa sonra dili də, milləti də yaddan çıxaracaqlar. Bunları unutmamaq üçün gənclərin əlaqəsini möhkəmləndirmək, gediş-gəlişlərinə dəstək göstərmək lazımdır. Nə qədər çox gedib-gəlsələr, o qədər Azərbaycanı tanıyacaq və sevəcəklər".

**"Sizi Şuşaya çağıracağıq"**

Məhəllə sədri Azərbaycana ara-sıra səfər etdiyini, doğma yurd-yuvasına baş çəkdiyini deyir. Amma həm özü, həm də Özbəkistanda yaşayan azərbaycanlılar işğaldan azad edilmiş torpaqlarımızı görmək arzusundadırlar: "Özümüz gedib-gəlirik. Amma dövlət tərəfindən də diqqət olsa, yaxşı olar. Bilərdik ki, orda da bir vətənimiz var. Yaxınlarda Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov Özbəkistana səfər etmişdi. Onunla bərabər bir sıra rayonun nümayəndələri də gəlmişdi. "Sizi Şuşaya çağıracağıq" deyə Şuşanın nümayəndəsi bildirdi. Çox istərdim ki, Azərbaycanın Diasporla İş üzrə Dövlət Komitəsi Özbəkistanda yaşayan azərbaycanlıların da hissə-hissə işğaldan azad olunmuş torpaqlarımızı, müqəddəs Şuşa şəhərini görməsinə şərait yaratsın. Bu, onların Vətən yanğısına su çiləyər".

M.Rəhimova Azərbaycandan Özbəkistana səfər edən hər bir həmvətənimizin gəlişini bayram hesab edir: "Hər Vətəndən gələni görəndə sanki Azərbaycana toxunuram. Orada nə baş verirsə diqqətlə izləyirik. Özümüzü Azərbaycandan ayrı təsəvvür etmirik. Tez-tez gedib-gəlmək mümkün olmasa da, ürəyimiz oradadır. Şuşada, Zəngilanda, Qubadlıda, Laçında, Füzulidə, Ağdamda, Cəbrayılda... Vətənə salam deyin..."

**Kaspi**. - 2023.- 17 iyun. - № 22. - S. 14.

# İdeoloji bütövlük və milli birlik

## *Ümummilli Lider Heydər Əliyevin 5 iyul 2002-ci il tarixli Fərmanı ilə Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi yaradıldı*

**Nəzakət Ələddinqızı**

Dünya azərbaycanlılarının birliyi milli mənafelər və dövlət maraqları kontekstində ortaya çıxan təbii tarixi zərurətdir. Müxtəlif ölkələrdə fəaliyyət göstərən icma və birliklərin vahid təşkilatda birləşdirilməsi dünya azərbaycanlılarının ümumi birliyinin təməl prinsiplərindəndir. Soydaşlarımız arasında mənəvi-ideoloji birliyin yaradılması, icmalar arasında əlaqələrin möhkəmləndirilməsi və bu sahədə mövcud olan siyasi, psixoloji maneələrin aradan qaldırılması məqsədi ilə həyata keçirilən tədbirlər müsbət nəticəsini vermişdir. Tarixi Vətənlə əlaqələr məsələsi dünya azərbaycanlılarının təşkilatlandırılmasının ən mühüm prinsipləri sırasındadır. Bu gün azərbaycanlılar dünyanın müxtəlif nöqtələrində yaşayır və öz fəaliyyətlərini məhz yaşadıqları ölkələrdə davam etdirirlər. Planetimizin qitələrinə səpələnmiş azərbaycanlılar digər xalqların nümayəndələrinin öz vətəninin inkişafı yolunda həyata keçirdikləri genişmiqyaslı layihələrin, tədbirlərin icrasında yaxından iştirak etməklə yanaşı, vətənimizin inkişafı, taleyüklü məsələlərdə yaxından iştirak edərək öz töhfələrini verirlər. Dünya azərbaycanlılarının təşkilatlanması, müstəqil Azərbaycan Respublikası ilə siyasi, iqtisadi, mədəni və mənəvi əlaqələrin inkişaf etdirilməsində bu qərar son dərəcə əhəmiyyətlidir. Müxtəlif ölkələrdə yaşayan azərbaycanlıları bir araya gətirmək, bir məslək və ideya ətrafında birləşdirmək, əlbəttə ki, azərbaycançılıq məfkurəsindən yaranan amaldır. Təbii ki, ötən əsrin 90-cı illərinin əvvəllərində müstəqillik əldə etmiş Azərbaycanda ideya əsas prioritetlərdən biri elan edilərək, bu istiqamətdə ardıcıl işlər görülməyə başlandı. Azərbaycan müstəqillik əldə etdikdən sonra dövlətin qarşısında duran əsas vəzifələrdən biri də xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması, onların ölkəmizin ümumi maraqlarının müdafiəsi işinə cəlb edilməsi idi.

Bildiyimiz kimi, Azərbaycan diasporunun tarixi bir neçə əsri əhatə edir. Belə ki, VII əsrin sonu-VIII əsrin əvvəllərində Xilafət ordusunun Azərbaycana yürüşü, İslam dininin yayılması ilə əlaqədar burada ərəbdilli elm və mədəniyyətin inkişafı, eyni zamanda onlarca azərbaycanlı mütəfəkkirin Yaxın və Orta Şərqin şəhərlərinə axını başlamış və bu proses diasporun yaranmasının təməlini qoymuşdur. Mənbələrə istinadən deyə bilərik ki, X-XIX əsrlər. Yaxın Şərqin elm və mədəniyyət mərkəzlərində əslən Azərbaycandan olan yüzlərlə alim və tələbənin biliklərə yiyələnməsi, milli təfəkkürümüzün region xalqlarının intibahında qabaqcıl mövqeyə çıxması sayəsində xaricdə məskunlaşması daha geniş vüsət almışdır. Onu da qeyd edək ki, Azərbaycan Demokratik Respublikasının süqutundan sonra xarici mühacirlər axını və Avropada Azərbaycan diasporunun təşəkkülü ilə bağlı olmuşdur. 1941-1945-ci illərdə II Dünya müharibəsi zamanı əsirlikdə və Sovet qəza maşının ölüm xofundan Vətənə dönə bilməyən azərbaycanlılardan ibarət icmaların yaranması diasporun formalaşmasında yeni mərhələ kimi səciyyələndirilir.

### "Hamımız - siz də, biz də çox iş görməliyik ki, Azərbaycanın güclü diasporu yaransın"

Ölkəmizdə milli diaspor fəaliyyətinin təməli Ümummilli Lider Heydər Əliyev tərəfindən 1991-ci il dekabrın 16-da imzalanan "Dünya azərbaycanlılarının həmrəylik və birlik günü haqqında" qərarla qoyulub. 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı, digər sahələrdə olduğu kimi, diaspor quruculuğu işində də əsaslı dönüş yaratdı. Dünya azərbaycanlılarının vətənlə əlaqələrini inkişaf etdirmək, soydaşlarımızın milli özünəməxsusluğunu qoruyub-saxlamaq, diasporun potensialından milli maraqlarımızın daha etibarlı şəkildə qorunması istiqamətində faydalanmaq, diasporlararası əlaqələri genişləndirmək kimi məqsədləri reallaşdırmaq üçün mühüm addımlar atıldı. Ümummilli Lider Heydər Əliyev cəmiyyətin bütövləşməsi və azərbaycançılıq ideologiyasının milli həmrəyliyin aparıcı amilinə çevrilməsi istiqamətində mühüm işlərə imza atdı. Ulu Öndər azərbaycançılıq ideologiyasının real müstəqilliyə nail olmaq, vahid və bölünməz Azərbaycanı qoruyub-saxlamaq və möhkəmləndirmək üçün vasitə olduğunu vurğulayırdı.

Dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın və həmvətənlərimizin müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, onlar arasında birliyin və həmrəyliyin təmin

olunması kimi məsələlərin, zərurətini nəzərə alaraq, Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi haqqında 2001-ci ilin may ayının 23-də Ümummilli Lider Heydər Əliyevin məlum Sərəncamı bu ideologiyanın gerçəkləşməsinə istiqamətləndi. Qurultay milli ideologiyamız olan azərbaycançılıq ideyası ətrafında soydaşlarımızın birlik və həmrəyliyini nümayiş etdirdi. Qurultayda Ulu Öndər Heydər Əliyev qurultayın məqsədinə, qarşıya qoyulan məsələlərə aydınlıq gətirərək, bildirmişdi ki, hamımız - siz də, biz də çox iş görməliyik ki, Azərbaycanın güclü diasporu yaransın: "Müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar daha da güclənsinlər. İqtisadi cəhətdən daha da möhkəmlənsinlər, yaşadıqları ölkələrin ictimai-siyasi həyatında fəal iştirak edə bilsinlər və o ölkələrin həyatına öz təsirlərini göstərə bilsinlər. Beləliklə də, müxtəlif ölkələrdə Azərbaycanın müstəqilliyini, onun xarici siyasətini təbliğ etməklə yanaşı, Azərbaycanın problemlərinin həll olunmasına yardım etsinlər. Hesab edirəm ki, dünya azərbaycanlıları bu yol ilə getməlidir və bu yolda hələ istifadə olunmamış böyük imkanlar vardır. Bu gün işinə başlayan qurultay da, məhz bu məqsədi daşıyır".

**Azərbaycan diasporunun məskunlaşma coğrafiyasının miqyası**

Qurultaydan bir il sonra 5 iyul 2002-ci il tarixində Ümummilli Lider Heydər Əliyevin "Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında" imzaladığı Fərman tarixi hadisəyə çevrildi. Artıq imzalanan bu rəsmi sənəddən bu gün 21 il keçir. Tarixi dövr ərizində görülən işlərin miqyası ildən-ilə artıb. Azərbaycan diaspor təşkilatları həm kəmiyyət, həm keyfiyyət baxımından böyük yol keçmiş, güclənmiş, bu gün dünya miqyasında azərbaycanlılar və onların təmsil etdikləri təşkilatlar önəmli rol oynayırlar.

Bu gün əsası Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulan diaspora quruculuğu siyasəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qayğısı və yüksək diqqəti sayəsində uğurla davam etdirilir. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2008-ci il 19 noyabr tarixli 54 saylı Sərəncamı ilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin əsasında Diasporla İş üzrə Dövlət Komitəsi yaradıldı. Azərbaycan diasporu təşkilatlanaraq, ölkəmizin milli maraqlarını qoruyan bir qüvvəyə çevrilib. Azərbaycan diasporunun məskunlaşma coğrafiyasının miqyası sonsuzdur. Dünyanın 5 qitəsində məskunlaşan soydaşlarımızın siyasi, iqtisadi və sosial-mədəni fəaliyyəti yaşadıqları ölkələr, oradakı şərait və mənəvi dəyərlər kimi müxtəlifdir. Azərbaycanlılar Amerika qitəsində, Avropa qitəsində, Asiya qitəsində, Afrika qitəsində və Avstraliya qitəsində yaşayırlar. Problemlərə və çətinliklərə baxmayaraq, azərbaycanlılar hər zaman öz milli mənsubiyyətini, adət-ənənələrini, mənəvi-əxlaqi dəyərlərini qayğı ilə qoruyub-saxlayıb və tarixi Vətənlə əlaqələrini itirməyiblər. Bu gün dünyanın müxtəlif ölkələrində diasporumuzun mövcudluğu da, məhz bu amillə bağlıdır. Azərbaycanlılar Amerika qitəsinin şimal, mərkəzi və cənub hissəsində daha çox məskunlaşıblar.

**"Bütün azərbaycanlılar, onların böyük əksəriyyəti vətənpərvərdirlər, vətənə bağlıdırlar"**

2016-cı il 3 iyun tarixində keçirilən Dünya Azərbaycanlılarının IV Qurultayı da ölkəmizin tarixinə iftixar gətirəcək hadisələrdən biri kimi yazıldı. Çünki dünya azərbaycanlılarını təmsil edən əsas diaspor təşkilatlarının nümayəndələri, rəhbərləri Azərbaycana - doğma Vətənə gəlmişdilər. Bu birliyin və həmrəyliyin nümayişi idi. Dünya Azərbaycanlılarının IV Qurultayının rəsmi açılışında Azərbaycan Prezidenti İlham Əliyev çıxışında "Mən çox istəyirəm ki, xaricdə fəaliyyət göstərən diaspor təşkilatları da bir nöqtəyə vursunlar və birləşsinlər. Belə olan halda, onların gücü də, ictimaiyyət tərəfindən onlara qarşı hörmət də artacaq", - deyərək, birliyin əsas məsələlərdən olduğunu diqqətə çatdırmışdır: "Xüsusilə, nəzərə alsaq ki, bütün azərbaycanlılar, onların böyük əksəriyyəti vətənpərvərdirlər, Vətənə bağlıdırlar. Onlar istəyirlər ki, Azərbaycan dövləti daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin".

Qurultayda müasir dövrdə informasiya müharibəsi, bu sahədə yeni fəaliyyət mexanizmlərinin tətbiqi, Azərbaycan diaspor hərəkatında gənclərlə bağlı yeni strategiyanın hazırlanması, yeni qlobal iqtisadi tendensiyalar fonunda lobbi quruculuğu, cəmiyyətə inteqrasiya, siyasi həyatda iştirak və digər bu kimi əhəmiyyətli mövzularda fikir mübadiləsi aparıldı. Dünya Azərbaycanlılarının IV Qurultayında Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması sahəsində qarşıda duran vəzifələr, təbliğat işində müasir metodların və informasiya texnologiyalarının tətbiqi, soydaşlarımızın hüquq və azadlıqlarının qorunması istiqamətində mövcud olan problemlər və onların həlli yolları və s. prioritet məsələlər müzakirə olundu. Azərbaycan Prezidenti İlham Əliyev müstəqilliyimizin ilk illərində, zəif olmağımızdan istifadə edən erməni

diasporunun uzun illərdir ki, dünyada bizə qarşı çox çirkin kampaniya apardığını və bu kampaniyanın tərkib hissəsinin Azərbaycanı antidemokratik, Ermənistanı isə yazıq, "blokada" şəraitində olan ölkə kimi təqdim etmək məqsədi daşıdığını bildirmişdi: "Azərbaycanda bu illər ərzində diaspor təşkilatları ilə qurulan iş yeni bir mərhələyə gəlib çatıb. Dünyanın müxtəlif yerlərində tədbirlər keçirilir, dünya ictimaiyyəti Azərbaycan reallıqları ilə daha geniş şəkildə tanış ola bilirlər".

### Dünya azərbaycanlılarının fəaliyyət dövrünün yeni mərhələsi - Zəfər Qurultayı

Diasporumuzun gördüyü işlər yaşadıqları ölkələrin siyasi həyatına təsir edəcək səviyyəyə yüksəlir. Prezident İlham Əliyevin bu sahədə ardıcıl və qətiyyətli, məqsədyönlü və prinsipial siyasət aparması, deməyə əsas verir ki, Azərbaycan diasporu güclənib, doğma Vətənin taleyüklü problemlərinin həllində yaxından iştirak edir. Bu gün artıq Azərbaycan tarixi günlərlə zəngin olan dövrünü yaşayır. Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində keçirilən Dünya Azərbaycanlılarının V Qurultayı - Zəfər Qurultayı ölkəmizin ictimai-siyasi həyatında mühüm hadisə olmaqla yanaşı, dünya azərbaycanlılarının fəaliyyət dövründə yeni mərhələnin başlanğıcı kimi tarixiləşdi. Dünyanın 65 ölkəsindən 400 nəfərə yaxın diaspor nümayəndəsinin iştirakı ilə keçirilən Qurultayda Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı zamanı verdiyi mesajlar xaricdəki azərbaycanlıların növbəti beş ildə fəaliyyəti üçün yol xəritəsi müəyyənləşdirməklə yanaşı, Azərbaycan diasporu qarşısında yeni vəzifələr də qoymuş oldu. Qələbə qazanmış Azərbaycan xalqının Zəfər Qurultayı 2020-ci il Vətən müharibəsində Azərbaycan xalqının böyük Qələbəsindən sonra keçirilən ilk Qurultay idi. Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının V Qurultayında çıxışı zamanı "Şuşada keçirilən Qurultayın çox böyük tarixi mənası var", - deyə bildirib ki, bu gün Azərbaycan yeni dövrə qədəm qoyub: "Biz otuz il işğal edilmiş ölkə kimi yaşamışıq. Bu, bizim üçün çox ağır idi - mənim üçün Prezident kimi, hər bir vətəndaş üçün, sizin üçün – xaricdə yaşayan azərbaycanlılar üçün". Bu gün vəziyyətin tam fərqli olduğunu vurğulayan Cənab Prezident diqqətə çatdırıb ki, bu gün alnımız açıqdır, bu gün üzümüz gülür, bu gün başımız dikdir və həmişə belə olacaq: "Mən tam əminəm ki, bundan sonra Azərbaycan xalqı müzəffər xalq kimi əbədi yaşayacaq, Azərbaycan dövləti qalib dövlət kimi əbədi yaşayacaq. Biz öz torpağımızdayıq. Bu torpaqda möhkəm dayanmışıq və heç kim heç vaxt bu torpaqlardan bizi tərpədə bilməz".

Azərbaycanın diaspor fəaliyyəti qısa müddətdə uzun və əlamətdar yol keçərək müasir dövrümüzdə mütəşəkkil şəkildə formalaşıb. Zəfər Qurultayının Şuşa şəhərində keçirilməsi, heç şübhəsiz ki, dünya ölkələrində yaşayan azərbaycanlıların, diasporumuzun fəaliyyət dövrünün yeni mərhələsidir. Artıq Azərbaycan dünyada sözünü demiş bir dövlətdir və uğurlu inkişaf tarixini yaşayır. Ölkəmizdə həyata keçirilən kompleks islahatlar, geniş quruculuq işləri və yaradılan güclü iqtisadiyyat dövlətimizin əsas inkişaf göstəriciləridir. Prezident İlham Əliyevin rəhbərlik dövrü müasir-müstəqil Azərbaycanın tarixində sürətli iqtisadi inkişaf, dövlətin təşəkkül tapması, qüdrətinin artması, beynəlxalq nüfuzunun yüksəlməsi uğurlar və böyük qələbələr dövrü kimi xarakterizə olunur.

### Diaspor təşkilatları üzərində məsuliyyət

Dünya Azərbaycanlılarının Zəfər Qurultayının qələbə rəmzində keçirilməsi nailiyyətlərimizə, zəfərimizə söykənir. Bu zəfər bütün dünya ölkələrində yaşayan Azərbaycanlıların Zəfəridir. Belə ki, müstəqil Azərbaycan bütün Azərbaycanlıların Vətənidir. 44 günlük Vətən Müharibəsində milli birliyimiz, xalq-iqtidar birliyi bizi qələbəyə apardığı kimi bu amillər yaxın gələcəkdə Azərbaycanın daha da gücünü artıracaqdır. Prezident İlham Əliyev müharibədə məğlub olmuş Ermənistanı ölkəmizin ərazi bütövlüyünü rəsmən tanımağa, sülh müqaviləsinin imzalanmasını yubatmamağa və son şansından istifadə etməyə çağırıb. Bununla yanaşı, dövlət başçısı Ermənistandakı revanşistlərə sərt xəbərdarlığını da edib.

Prezident İlham Əliyevin Qurultayındakı nitqində 44 günlük müharibədən sonra regionda yaranmış yeni vəziyyət və qalib dövlətimizin sülhsevər siyasəti ilə bağlı fikirləri bir mesaj oldu. Dövlət başçısı Qurultayda nitqində bir çox məsələlərə toxundu və dünya azərbaycanlıları üçün postmünaqişə dövrünə uyğun yol xəritəsi cızdı.

Müharibədən sonra yaranmış yeni reallıqları, tarixi Zəfərin reallıqlarını, həqiqətləri dünya ictimaiyyətinə çatdırmaqda xaricdə yaşayan azərbaycanlıların, diaspor təşkilatlarının da üzərinə böyük məsuliyyətlər düşür. Əlbəttə ki, Azərbaycan mədəniyyətinin incisi olan Şuşada keçirilən Zəfər Qurultayı soydaşlarımızın yaşadıqları ölkələrdə fəaliyyətlərini daha əzmlə davam etdirmələrinə böyük təkandır.

**Səs**. - 2023. - 5 iyul. - № 115. - S. 12.

# Heydər ƏLİYEV: Gürcüstan azərbaycanlıları diaspor deyil

**Şərif Kərimli,**
yazıçı-jurnalist

**1996-cı ildə ulu öndər Heydər Əliyevin Tbilisi Opera və Balet Teatrında Gürcüstan azərbaycanlıları ilə görüşündə Prezident Şevardnadze yerli azərbaycanlılara "diaspor" deyə müraciət edən zaman Heydər Əliyev dərhal onun sözünü kəsərək demişdi: "Gürcüstan azərbaycanlıları diaspor deyil, öz doğma torpaqlarında, doğma vətənlərində yaşayırlar". Bu, milli-tarixi məsələlərdə Heydər Əliyevin nə qədər dərin zəkalı tarixçi, uzaqgörən həssas siyasətçi, milli təəssübkeş olduğunu bir daha göstərmiş və Gürcüstan azərbaycanlılarının taleyində müstəsna rol oynamışdı...**

1988-ci ildən sonra imperiya sütun-larının laxlaması milli azadlıq müba-rizəsini oyatmaqla bərabər, etnik burul-ğanların da qabarmasına səbəb oldu.

Belə qabarmalardan biri də 1988-ci ildən bəri Gürcüstandakı soydaşları-mızla bağlıdır. Əslində, onların mənəvi və fiziki diskriminasiyasının tarixi kökü daha uzaqlara gedir, daha doğrusu, Gürcüstanın Rusiya ilə birləşdirilməsi dövründən başlanır. Ötən əsrin orta-larında Ahıska və Adıgün türklərinin sıxışdırılması və onların dədə-baba yurdlarına ermənilərin yerləşdirilmə-si ilə başlanan bu siyasət Borçalının Türkiyə ilə olan bütün əlaqələrinin kə-silməsi demək idi. Daha sonralar, yəni Rusiyada Oktyabr inqilabı baş verən-dən sonra isə Borçalının parçalanması prosesi başlandı.

1918-ci ildə Borçalı uğrunda Ermə-nistan– Gürcüstan müharibəsi Borça-lının tamamilə parçalanması və onun böyük bir hissəsinin – Gümrü, Cəlaloğ-lu, Pəmbək, Loru hissəsinin itirilməsi demək idi. Rusların və fransızların er-mənilərə himayəsi nəticəsində Azər-baycan üçün bu strateji əhəmiyyətli ərazinin itirilməsi (Azərbaycanın Tür-kiyədən bir qədər də uzaqlaşdırılma-sı) nəinki o yerlərdə yaşayan minlərlə soydaşımızın repressiyasının başlan-ğıcı, eləcə də Azərbaycanın qıraq-bu-cağının qayçılanmasının ilk biçimləri oldu. Və sonrakı hadisələr göstərdi ki, rus-türk çəkişmələrində qabaqdan qalan artıq sür-sümüyü gəmirmək də ermənilərə sərfəlidir və ola bilsin ki, haçansa onların da payına bu siyasət süfrəsindən bir yağlı tikə düşsün.

***

Başqa millətlərdən fərqli olaraq, ta-rixən azərbaycanlılar və gürcülər ara-sında ciddi ədavətə səbəb ola biləcək müharibə və münaqişələr olmayıb. Əksinə, 1918-ci ildə ermənilər tərəfdən Azərbaycan və Ermənistan torpaqları-nın ilhaq edilməsi çağlarında, 1919-cu il iyunun 16-da Tiflisdə Gürcüstan və Azərbaycan hökumətləri arasında hər-bi iffifaq barədə saziş imzalanmışdı. Tam müdafiə xarakteri daşıyan həmin saziş 3 il müddətinə bağlanmışdı. Qar-şılıqlı razılığa əsasən, Tiflisdən Bakıya 12 kiçikçaplı top, 12 dağ topu, onlara lazım olan qədər mərmi, 3000 beşatı-lan tüfəng, 211 topçu və süvari qılın-cı, 795 nizə, 24 "maksim" pulemyotu, səfər mətbəxi və başqa hərbi ləvazi-matlar yola salındı.

Maraqlıdır ki, həmin sazişin 10-cu bəndində iki həftə müddətində Ermə-nistanın sazişə qoşulması hüququ saxlanırdı. Lakin o nəinki bu sazişə qoşulmadı, əksinə, Denikinlə gizlincə əlaqəyə girib, Qarabağ və Dilcan səmt-lərinə qoşun yeritdi.

Ümumiyyətlə, Azərbaycanla Gür-cüstan arasında münasibətlər həmişə əməli səciyyə daşıyıb. 1920-ci il iyunun 12-də Ağstafada Azərbaycan Sosialist Şura Cümhuriyyəti ilə Gürcüstan Xalq Cümhuriyyəti arasında bağlanan sülh müqaviləsi bu münasibətlərin daha da möhkəmlənməsi üçün özül rolunu oy-nadı. Ermənilər daim bu iki dövlət və xalq arasında nifaq salmağa çalışmış və bundan faydalanmaq istəyində ol-muşlar.

Azərbaycanla Gürcüstan arasında uzun illər boyu yaranmış münasibətlər sistemini şərti olaraq üç mərhələyə böl-mək olar.

Birinci mərhələ 1990-cı ilə qədər olan münasibətlər dövrüdür. Təbii ki, bu mərhələdə formalaşan münasibət-lərdə keçmiş Sovetlər İttifaqının xalq-lar arasında dostluq siyasətinin strateji xətti bütün sahələrdə öz əksini tapırdı. Həmin dövrün siyasi durumundan Gür-cüstan hökuməti məharətlə istifadə edərək, uzaqgörənliklə soydaşlarımı-zın yaşadığı bütün rayonlarda gürcülə-rin sayını müxtəlif motivlərlə süni surət-də artırmışdır.

Rus imperiyasının antitürk "sol-dat siyasəti"nin Azərbaycan üzərində əks-səda verən ritmlərinə uyğun qol qaldıran erməni, gürcü şovinstlərinin 1930-40-cı və 1948-52-ci illərdəki re-veransları nəticəsində Borçalı türk-lərinin tam deportasiyası həyata ke-çirilməyə başlandı. Nəticədə Borçalı əhalisinin minillər boyu nəsildən-nəsilə ötürülən milli, mənəvi dəyərlərinə, zən-gin intellektual potensialına böyük zər-bələr dəydi.

Türkiyə isə rus-erməni iştahasın-dan qurtarmaq üçün özünü NATO-nun "ağuşuna atdı". 50-80-ci illər Gürcüs-tanda gürcü millətinin sayını artırmaq naminə ağına-bozuna baxmadan gür-cüləşdirmə siyasəti ilə müşahidə olu-nurdu. Bu siyasət hamıdan çox gür-cülərin özlərinə ziyan gətirdi. Burada udan isə yenə də ermənilər oldu.

Təxminən 1990-cı ildə Gürcüstanda vaxtilə soyadını dəyişmiş ermənilərin siyahısını çıxarmağa başladılar. Ancaq bir müddətdən sonra çox müəmmalı şəkildə bu kampaniya dayandırıldı. İndi məlum olduğuna görə bu sirrin açılma-sı heç kimə – nə erməniyə, nə gürcüyə sərf eləyirdi. Bu siyahı çox uzun alınır-dı və buraya Gürcüstanın elə "hörmətli adamları"nın adları düşürdü ki... Onla-rın əksəriyyəti Gürcüstanın türklər ya-şayan bölgələrində rəhbər vəzifələrdə idilər!.. Və belə kadrların “itirilməsinə” bir ovuc gürcü şovinisti də heç vaxt yol verməzdi!

Nəhayət, Gürcüstanın Borçalı zo-nasında "milliləşdirmə" siyasətinin daha dərinlərə getməsi millətçi ideo-loqları rahatsız etməyə başladı. Belə ki, gürcülər və hətta svanlar özləri də dərk etməyə başladılar ki, pasportunda uzun illərdən bəri milliyyətini "gürcü" yazdıran svan gürcü deyilmiş...

Beləliklə, "əsl gürcü"lərlə paspor-tunda adını, soyadını, milliyyətini də-yişmiş "qondarma gürcü"lər, o cümlə-dən ermənilər, arasında ayrı-seçkilik başlayıb. İndi kim kimdir? –sualının ca-vabını tapmaq üçün heç Şerlok Holms da baş çıxara bilməz...

Gürcüstan–Ermənistan sərhədi bo-yunca əsasən türklər yerləşir və onlar Azərbaycanla Türkiyə arasında (Sınıq körpü – Başkeçid–Ərzurum) haçansa bir dəhliz rolunu oynaya bilər (oynamış-dı da). Digər tərəfdən, Borçalı, Ahıska (Mesxeti), Axırkələk (Axalkalaki), Boq-danovka və Adıgündə türklərin 1937-ci il repressiyasından sonra məskunla-şan ermənilərlə Ermənistan arasında bir divardır. Və bu divarın uçurulması "Böyük Ermənistan" cəfəngiyyatının tərkib hissələrindəndir.

Tarix göstərir ki, gürcülər han-sı ərazidən türkləri çıxarıblarsa, ora dərhal ermənilər yiyələniblər. Lakin 80-ci illərdə, konkret olaraq, 1988-ci ildə Svanetiya dağlılarının (svanların) türklər yaşayan bölgələrə köçürülməsi isə nəinki, bu problemin həllinə kömək edib, əksinə, yeni-yeni etnik konflikt-lərə səbəb olub.

1980-ci ildə Gürcüstanda milli-de-mokratik hərəkat geniş vüsət alan-dan sonra millətçi dairələrin fəallığı ilə Marneuli, Bolnisi, Dmanisi, Saqareco, Qardabani və digər rayonlarda yaşa-yan soydaşlarımızın azadlıqları məh-dudlaşdırılır, hüquqları pozulur, onlar müxtəlif zorakı üsullarla öz tarixi tor-paqlarından qovulurdular. Borçalıda demoqrafik balansın məqsədli şəkildə dəyişdirilməsi soydaşlarımıza qarşı et-nik-psixoloji, maddi-mənəvi təzyiq for-masına çevrilirdi.

Qafqaz regionu unikal təbii resurs-lara və əzəmətli insan potensialına malikdir. Cənubi Qafqaz strateji plan-da Rusiya, Türkiyə və İran arasında əlaqələndirici bənddir. Burada bir çox ölkələrin maraqları toqquşur. Bir ucu Türkiyəyə, bir ucu Azərbaycana bağla-nan, bir tərəfdən gürcülər, digər tərəf-dən ermənilərlə dövrələnən və Böyük İpək Yolunun üzərində dayanan Bor-çalı türkləri isə müxtəlif sivilizasiyarın təmas nöqtəsində boy atıblar.

İkinci mərhələ hər iki dövlətin müstəqillik qazandıqları dönəmə düş-məklə, inqilabi keçid dövrünü əhatə edir. Yenicə müstəqillik əldə edən Gür-cüstan və Azərbaycan dövlətləri keç-miş sovet imperiyasından miras qalmış bir çox problemlərlə üzləşdilər. Bunlar-dan ən çətini ölkənin ərazi bütövlüyü-nün təhlükə altına düşməsi idi. Lakin iki dövlət arasında dostluq körpüsünün əsas təməli sayılan borçalılar gürcüləri yenə də tək qoymadılar – onlar ölkənin ərazi bütövlüyünü dəstəkləyib, Gürcüs-tanın süverenliyi uğrunda gürcülərlə çiyin-çiyinə dayandılar. Ancaq təəs-süflər olsun ki, abxazların, osetinlərin, acarların müstəqillik, muxtariyyat iddi-aları ilə yanaşı, ermənilərin separatçı-lığı, Ermənistan bayrağının ermənilərin kompakt yaşadıqları bir sıra rayonlarda qaldırılması, azərbaycanlıların itaətkar, sədaqətli vətəndaş, torpağını sevən, onun uğrunda canından keçməyə ha-zır olan bir millət obrazı yaratsa belə, hələ də lazımi qiymətini ala bilmirdi.

Z.Qamsaxurdiyanın hakimiyyəti dövründə borçalılar dövlətçilik naminə onu dəstəkləsələr də o, soydaşları-mıza qarşı antimilli və antidemokra-tik siyasət yeritdi. Onun hakimiyyətdə olduğu dövrdə 94 nəfər azərbaycanlı oğurlandı, bir ay ərzində 660 nəfər azərbaycanlı məcburi şəkildə iş yerlə-rini, 27 min 500 nəfər isə öz dədə-baba torpaqlarını məcburi şəkildə tərk etməli oldu...

Eduard Şevardnadze və Heydər Əliyev hakimiyyətə gəldikdən sonra onların şəxsi səyi və təşəbbüsü nəticə-sində Gürcüstan dövlətinin hüquq-mü-hafizə orqanlarının Borçalıda və ona bitişik ərazilərdə fəallığı artdı və burada hökm sürən kriminogen özbaşınalığa qarşı ciddi əməliyyatlar həyata keçiril-di.

Azərbaycanın Gürcüstanı böyük neft layihələrinə qoşması və doğrudan da bir qardaş, dost ölkə kimi arxasında dayanması və bu layihələrdən müm-kün qədər onun daha çox faydalanma-sına çalışması Gürcüstanda hər şeyi yaxşılığa doğru dəyişdi.

Məhz bu dövrlərdə xalq diploma-tiyası Gürcüstanda çox faydalı işlər görürdü. Bakıda fəaliyyət göstərən cəmiyyətlərin xətti ilə Borçalı əsilli zi-yalılar dəfələrlə Gürcüstanın müxtə-lif konfliktli bölgələrində – Qabalda, Dmanisidə, Bolnisidə, Marneulidə, Qarayazıda olmuş, soydaşlarımızın hüquqlarının müdafiəsinə qalxmış və gürcü-Azərbaycan xalqları arasında salınmış gərginliyi aradan qaldırma-ğa müvəffəq olmuşdular. 1992-ci ildə Borçalı məsələsi ilə bağlı akademik Kamal Talıbzadə, professor Şamil Qur-banov, şair Abbas Abdulla, “Kirpi” jur-nalının baş redaktoru Eyvaz Borçalı, “Azərbaycan” qəzetinin baş redaktoru Şərif Kərimlinin əvvəlcə Azərbaycan Prezidenti Əbülfəz Elçibəylə, sonra isə Gürcüstan Prezidenti Eduard Şevard-nadze ilə 2 saatlıq görüşləri baş tut-muş, Borçalıdakı problemlər kəskinliyi ilə qoyulmuş və ciddi şəkildə müzakirə olunmuşdu...

Nəhayət, 1996-cı ildə müstəqil döv-lətin rəhbəri kimi Azərbaycan Preziden-ti Heydər Əliyevin Gürcüstana işgüzar səfəri ilə iki ölkə arasında münasibətlə-rin yeni – üçüncü mərhələsi başlan-dı. Azərbaycan Prezidentinin bu tarixi səfəri zamanı Azərbaycan-Gürcüstan arasında “Qafqaz regionunda Sülh, Təhlükəsizlik və Əməkdaşlıq barədə” Bəyannamə, “Dostluq, Əməkdaşlıq və Qarşılıqlı Təhlükəsizliyin möhkəmlən-dirilməsi haqqında” müqavilə, habelə “Neftin nəqlinin yeni vasitələrinin iş-lənib hazırlanması və belə vasitələrin köməyi ilə neftin Gürcüstan ərazisin-dən nəqli haqqında” saziş imzalandı.

İmzalanan bu sənədlər hüquqi dövlət quran Azərbaycan və Gürcüs-tan respublikaları üçün dövlətçiliyin və dövləti münasibətlərin təməl daşları idi.

“Qafqaz regionunda Sülh, Təhlükə-sizlik və Əməkdaşlıq barədə” Bəyan-namənin olduqca böyük əhəmiyyəti vardı. 1996-cı il Bəyannaməsi, əslində, imperiya siyasətinə – siyasi konfliktlə-rin qızışdırılması və etnik didişmələrin genişləndirilməsinə qarşı bir sənəd kimi meydana çıxdı. Son illərdə məhz bu regionda milli zəmində baş verən konfliktlər nəticəsində on minlərlə insan qətlə yetirilmiş, yaralanmış, milyondan artıq adam evini-eşiyini, varını-dövləti-ni itirmiş, əzizlərinin qəbirlərini kimsə-siz qoyaraq baş götürüb qaçmışdı.

Əliyev–Şevardnadze Bəyannamə-sində kompromislərin vacibliyi, qaçqın-ların öz ata-baba yurdlarına qaytarıl-masının zəruriliyi, terrorizmin istənilən formada qarşısının alınması və başqa məsələlər ön plana çəkildi.

Bəyannamədə göstərilirdi ki, tota-litar rejimdən qalmış miras regionun silahlı münaqişələrə gətirib çıxaran kəskin qarşıdurmalara, təcavüzkar separatçılıq və millətçilik meydanına çevrilməsini şərtləndirmişdir. Bəyan-namə elan olunan zaman rus-çeçen müharibəsində qanlı döyüşlər gedirdi. Azərbaycan-Ermənistan və Gürcüs-tan-Abxaziya münaqişələrində isə çox kövrək bir sülhə nail olunmuşdu. Məhz belə bir məqamda qəbul olunan bu bə-yannamə beynəlxalq münasibətlər ta-rixinə düşən nadir sənədlər qəbilindən idi. Bəyannamə bütün münasibətləri beynəlxalq prioritetlərə və praktikaya əsaslanaraq, hüquqi müstəvidə həll et-məyin əyani nümunəsi idi.

İllər ötsə də bu qardaşlıq əlaqələ-rini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ümummilli liderin strate-ji kursunu layiqincə davam etdirir və Azərbaycanla bağlı yaranan bütün qlobal layihələrdə mütləq Gürcüstanla çiyin-çiyinə dayanır.

Məhz bu qəbildən olan görüşlərin birində, 2023-cü il aprelin 8-də Gür-cüstanın Baş naziri İrakli Qaribaşvilinin Azərbaycan Respublikasına işgüzar səfəri zamanı Prezident İlham Əliyev bir daha əmin olduğunu bildirdi ki, bu səfər qardaşlıq əlaqələrinin inkişafına böyük töhfələr verəcək. Dövlətimizin başçısı ölkələrimiz və xalqlarımız ara-sındakı əlaqələrin dərin tarixi olduğunu bildirdi, xalqlarımızın hər zaman sülh və əmin-amanlıq içində yaşadıqlarını vurğuladı.

Qeyd edək ki, iki ölkə arasında münasibətlərin müttəfiqlik səviyyəsinə qalxmasında Azərbaycan Preziden-ti İlham Əliyevin Gürcüstana səfərləri mühüm rol oynayıb. 2022-ci il oktyab-rın 24-də Gürcüstana işgüzar səfəri zamanı Baş nazir İrakli Qaribaşvili ilə təkbətək görüşərkən dövlətimizin başçısı müttəfiqlik səviyyəsinə qalxan münasibətlərimizin yalnız ölkələrimiz və bölgə üçün deyil, bütövlükdə, Avro-pa üçün xüsusi əhəmiyyət daşıdığına diqqət çəkmişdi.

Varislik ənənələrinə sadiqlik nüma-yiş etdirən Baş nazir İ.Qaribaşvili mət-buata bəyanatında Gürcüstan-Azər-baycan əməkdaşlığının gələcək nəsillərə ötürülməsinin vacibliyini belə vurğulamışdı: "Mən Sizin atanızdan, ölkənizin ümummilli liderindən sitat gə-tirmək istəyirəm. Onun xatirəsinə bizim dərin ehtiramımız var. O, vaxtilə Tbilisi-də olanda demişdi, Azərbaycan və gür-cü xalqları xoşbəxtdirlər ki, onlar qonşu xalqlardır. Bizim əcdadlarımız həmin təmasları yaradıb və bu gün bizim və-zifəmiz odur ki, həmin əməkdaşlığı irəli aparaq və gələcək nəsillərə ötürək".

Bu görüşdən az sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əli-yev aprelin 24-də Gürcüstanın müda-fiə naziri Cuanşer Burçuladzeni qəbul edərkən bir daha ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin müxtəlif sahələrdə, o cümlədən hərbi sahədə uğurla inkişaf etdiyini vurğu-ladı. Bu son görüşlərin nəticəsi kimi "Azərbaycan Respublikası hökuməti ilə Gürcüstan hökuməti arasında mü-dafiə sahəsində əməkdaşlıq haqqında" Saziş imzalandı.

Müstəqillik dönəmində ulu öndər Heydər Əliyevin formalaşdırdığı qon-şuluq strategiyası bu gün Gürcüstan və Azərbaycanın timsalında bir örnəyə çevrilib.

**Xalq qəzeti.** - 2023.- 12 iyul. - № 143. - S. 5.

## Diasporumuzun Şuşa səfərləri getdikcə sistemli xarakter alır – Prezidentin çağırışı konkret işə çevrilir…

**Məhəmmədəli Qəribli**

**Diasporla İş üzrə Dövlət Komitəsinin yaradılmasının 21-ci və Azərbaycan Diasporuna Dəstək Fondunun yaradılmasının 5-ci ildönümü münasibətilə tətillərini Azərbaycanda keçirməyə üstünlük verən diaspor nümayəndələrinin mədəniyyət paytaxtımız Şuşaya 9-cu səfəri baş tutub.**

"Dəmir yumruğun gücü ilə Şuşadayıq" layihəsi çərçivəsində doqquzuncu dəfə gerçəkləşən səfərdə 24 ölkədən gələn 100-dən çox diaspor nümayəndəsi iştirak edib. Səfər proqramına ənənəvi olaraq "Bazarbaşı" meydanının, Cıdır düzünün, "Güllələnmiş heykəllər"in yerləşdirildiyi meydanın, Şuşa Bəyannaməsinin imzalandığı məkanın, Xurşidbanu Natəvanın evinin, "Xan qızı bulağı"nın, Molla Pənah Vaqifin məqbərəsinin, Üzeyir Hacıbəyovun heykəlinin, Bülbülün ev-muzeyinin, Gəncə Qapısının, Saatlı, Aşağı və Yuxarı Gövhərağa məscidlərinin və digər görməli yerlərin ziyarəti daxil edilib. Diaspor nümayəndələrinə Qarabağın incisi olan Şuşada aparılan yenidənqurma və abadlıq işləri ilə bağlı məlumat verilib. Səfərin sonunda diaspor nümayəndələri Cıdır düzündə Azərbaycan bayrağı açıb, "Yallı" sədaları altında rəqs ediblər. Onlar bu xoşbəxtliyi xalqımıza bəxş edən Müzəffər Ali Baş Komandana və Azərbaycan Ordusuna təşəkkür ediblər. Eyni zamanda onlara xüsusi diqqət və qayğı göstərən Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin əməkdaşlarına minnətdarlıqlarını bildiriblər.

**Prezidentin azad edilmiş torpaqlarımızı ziyarət tövsiyəsi**

Qeyd edək ki, Prezident İlham Əliyevin Dünya Azərbaycanlılarının V Qurultayında səsləndirdiyi tövsiyələrdə xaricdə yaşayan soydaşlarımızın hər il tarixi vətənlərini, xüsusilə də azad edilmiş torpaqlarımızı ziyarət etməsinin önəminə diqqət cəlb edilmişdi.

Komitə 2021-ci ildə dörd dəfə (27 iyul, 17 avqust,9 oktyabr və 2 dekabr), 2022-ci ildə üç dəfə (26 iyul, 17 avqust, 7 sentyabr), 2023-cü ildə isə bir dəfə (29 iyun) diaspor nümayəndələrinin Şuşa şəhərinə səfərlərini təşkil edib. "Biz dəmir yumruğun gücü ilə Şuşadayıq" şüarı ilə reallaşan səfərlər Azərbaycan diaspor tarixinin ən mühüm hadisələrindən biridir.

Bundan başqa, mütəmadi olaraq beynəlxalq ictimaiyyətin məlumatlandırılmasında böyük rol oynayan xarici jurnalistlərin və elm adamlarının Şuşaya, eləcə də işğaldan azad edilmiş digər rayonlara səfərlərini təşkil edilir.

**Belə səfərlər effektiv və əvəzedilməzdir**

Son illərdə formalaşdırılmış Koordinasiya Şuraları, Azərbaycan Evləri kimi təsisatlar diaspor işinin daha da geniş vüsət almasına şərait yaradıb. Xaricdəki həmvətənlərimizin Azərbaycana bağlılığı düşünülmüş siyasətlə birləşdikdən sonra bu sahədə nailiyyətlər daha da artıb. Diaspor-dövlət münasibətlərinin tənzimlənməsində də irəliləyişlər göz qabağındadır. Xüsusilə qeyd etmək lazımdır ki, 2020-ci ildəki 44 günlük Vətən müharibəsi dövründə görülən işlərin əhəmiyyəti və həyati maraqlarımızın təmin olunmasındakı rolu özünü daha qabarıq surətdə büruzə verdi. Diaspor təşkilatlarının əlaqələndirilmiş birgə fəaliyyəti nəticəsində dünya ermənilərinin və onlar üçün lobbiçilik edən dairələrin təbliğatı məqsədinə çata bilmədi. Bu yolda qarşı tərəfin təxribatlar törətməsi, əngəllər yaratmağa çalışması işə yaramadı, tamamilə fiaskoya uğradılar.

İnformasiya cəbhəsində düşmənə vurulan sarsıdıcı zərbələr diaspor təşkilatlarımızı daha ciddi şəkildə öz işlərini davam etdirməyə stimullaşdıran motivasiya mənbəyinə çevrildi. Sosial platformalarda, mətbuat səhifələrində, beynəlxalq təşkilatlarda və ayrı-ayrı ölkələrin dövlət qurumlarında əsaslı şəkildə məsələlərin qaldırılması, aksiyaların keçirilməsi, uğurlu təbliğat işinin qurulması hərbi sahədə əldə olunmuş qələbəni daha da möhkəm etdi. Şuşa səfəri diaspor nümayəndələri üçün böyük sürpriz olmaqla yanaşı, unudulmaz anların yaşandığı tarixi hadisə kimi yaddaşlarda qalacaq. Əlbəttə, bu səfər Vətən həsrətinə son qoyulması kimi böyük mənəvi əhəmiyyət daşıyır. Lakin Azərbaycanın mədəniyyət paytaxtına təşkil olunan səfərin digər mühüm və incə məqamlarını da vurğulamaq yerinə düşər.

Bu, ilk növbədə Qarabağ reallığının tam fərqli təqdimatla dünya ictimaiyyətinin diqqətinə çatdırılması və xaricdə erməni vandalizminə layiqli qiymət verilməsi, hadisələrin olduğu kimi, video və fotolarla təhrif olunmadan tanıdılması baxımından vacib, həm də effketiv və əvəzedilməzdir.

Təsəvvür edin, dünyanın aparıcı ölkələrində yaşayan və aktiv diaspor fəaliyyəti ilə məşğul olan soydaşlarımız Şuşa ziyarətindən böyük təəssüratlarla qayıdırlar. Onlar uzun illər işğal altında saxlanılmış

doğma torpaqlarımızda ermənilərin törətdikləri vandalizmi, barbar əməlləri yerindəcə öz gözləri ilə gördülər. Qarşılaşdıqları mənzərə nə qədər ürəkağrıdıcı və dözülməz olsa da, onlar yaşadıqları ölkələrə geri qayıdarkən Ermənistanın terrorçu mahiyyəni ifşa edəcək xeyli faktlar topladılar.

Bu nüans postmünaqişə dönəmində Ermənistanın müharibə və hərbi cinayətlərinin dünyanın aparıcı ölkələrində yenidən gündəmə gətirilməsi, təkzib olunmaz faktların nüfuzlu diaspor təşilatlarına göndərilməsi, müxtəlif vətəndaş cəmiyyətləri, parlamentarilər müstəvisində aktiv müzakirələrin aparılması deməkdir.

Belə görüşlərin təşkili ölkəmiz üçün olduqca böyük əhəmiyyəti daşıyır. Hətta xaricdən Azərbaycana baxış bucağının dəyişməsində də müstəsna rol oynaya bilər.

**Bakı Xəbər.** - 2023. - 12 iyul. - № 118. - S. 8.

# Diasporumuz son 21 ildə

**Yaqut Ağaşahqızı**

**Azərbaycanda diaspor quruculuğu və dünya azərbaycanlılarının təşkilatlanması Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli Lider bütün dünyada yaşayan soydaşlarımıza öz milli mənsubiyyətlərini, mənəvi dəyərlərini qoruyub saxlamaq üçün azərbaycançılıq ideologiyası ətrafında birləşməyi təlqin edir, bu ideologiyanın milli həmrəyliyin aparıcı amilinə çevrilməsi məqsədilə mühüm işlər görürdü.**

2001-ci il may ayının 23-də Ümummilli Lider Heydər Əliyev dünyanın dörd bir tərəfində yaşayan azərbaycanlıların birləşməsi, bir-biri ilə əlaqələrinin yaradılmasına xidmət edən Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi barədə müvafiq Sərəncam imzalamışdır. Həmin ilin noyabr ayında 36 ölkədən 200-dən çox müxtəlif təşkilatı təmsil edən 406 nümayəndə və 63 qonağın iştirakı ilə Dünya Azərbaycanlılarının I Qurultayı baş tutmuşdur.

Bu Qurultay milli diaspor hərəkatının inkişafında yeni mərhələnin başlanğıcı olmuşdur. Qurultayın keçirilməsindən az müddət sonra - 2002-ci il iyul ayının 5-də Ulu Öndərin Azərbaycan diasporunun siyasi və ideoloji birliyinin təmin olunması, həmvətənlərimizin bir-biri ilə əlaqələrinin daha da möhkəmləndirilməsi məqsədilə imzaladığı "Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında" Fərman milli maraqlarımızın gerçəkləşdirilməsi istiqamətində atılan əhəmiyyətli addım idi.

Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan diaspor quruculuğu son 21 ildə daha da inkişaf etdirilmiş, xarici ölkələrdə yaşayan azərbaycanlıların vahid amal ətrafında birləşməsi dövlət siyasətinin əsas istiqamətini təşkil etmişdir. Bu müddət ərzində Azərbaycan Prezidenti İlham Əliyevin məqsədyönlü siyasəti sayəsində dünya azərbaycanlılarının birliyinə, həmrəyliyinə hesablanmış mühüm işlər görülmüşdür. Diaspor quruculuğu sahəsində dövlət siyasətinin həyata keçirilməsi, ölkəmizin hüdudlarından kənarda yaşayan azərbaycanlıların təşkilatlanması, həmçinin dostluq münasibətində olan digər xalqların nümayəndələri ilə əlaqələrin genişləndirilməsi üçün ölkə başçımızın 2008-ci il 19 noyabr tarixli Sərəncamı ilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin əsasında Diasporla İş üzrə Dövlət Komitəsi yaradılmışdır.

Diasporla İş üzrə Dövlət Komitəsi ötən illər ərzində xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması, cəmiyyətə inteqrasiyası, soydaşlarımızın ictimai-siyasi həyatda iştirak səviyyəsinin artırılması, tarixi Vətənlə əlaqələrinin genişləndirilməsi, habelə diaspor təşkilatları arasında səmimi əməkdaşlıq münasibətlərinin yaradılması istiqamətində bir sıra tədbirlər həyata keçirib, Dünya Azərbaycanlılarının Xartiyasını hazırlayıb. Dünya Azərbaycanlılarının II Qurultayı, Azərbaycan və Türk diaspor təşkilatları rəhbərlərinin Forumu, Türk dövlət və cəmiyyətlərinin XI dostluq, qardaşlıq və əməkdaşlıq qurultayı, Dünya Azərbaycanlılarının III Qurultayı, Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının toplantıları və digər dövlət və beynəlxalq əhəmiyyətli tədbirlərdə müxtəlif ölkələrin dövlət, hökumət nümayəndələri, parlament üzvləri iştirak ediblər.

Azərbaycan hökumətinin dəstəyi ilə keçirilmiş bu tədbirlər ölkəmizin beynəlxalq aləmdə təbliğinə mühüm töhfələr verib, dünyanın bir sıra nüfuzlu beynəlxalq təşkilatları ilə əməkdaşlığın inkişafında önəmli rol oynayıb. Bu illər ərzində keçirilmiş tədbirlər Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması məqsədinə xidmət edib. Xaricdə fəaliyyət göstərən diaspor təşkilatlarının təbliğat sahəsində fəaliyyətinin daha da gücləndirilməsi, Ermənistanın Azərbaycana təcavüzü ilə bağlı beynəlxalq aləmin məlumatlandırılması və bu faktın dünya dövlətlərinin parlamentlərinin, siyasi dairələrinin müzakirəsinə çıxarılması prioritet məsələ olub. Bundan başqa, Azərbaycanın diaspor təşkilatları tərəfindən yeni kütləvi informasiya vasitələri təsis edilib, eyni zamanda, ayrı-ayrı ölkələrdə fəaliyyət göstərən KİV-də Azərbaycanla bağlı məqalə və materialların işıqlandırılması istiqamətində tədbirlər həyata keçirilib.

2018-ci ildə Fuad Muradovun quruma rəhbər təyin olunmasından sonra onun fəaliyyətində xüsusi canlanma başlayıb. Komitənin inkişafında və daha səmərəli fəaliyyət göstərməsində böyük xidmətləri olan Prezident İlham Əliyevin müvafiq Fərmanı ilə Azərbaycan Diasporuna Dəstək Fondu yaradılıb. Bu Fond ötən illər ərzində 200-ə yaxın diaspor təşkilatının sənədlərinin həmin ölkələrin qanunvericiliyinə uyğun tərtib edilməsi və qeydiyyatdan keçməsinə dəstək göstərib, 100-dən çox layihəni maliyyələşdirib. Eyni

zamanda, bu gün Şuşa Bəyannaməsinə uyğun olaraq Azərbaycan və Türkiyə diasporları arasında qarşılıqlı əməkdaşlıq, dəstək və həmrəylik fəaliyyətinin gücləndirilməsinə xüsusi diqqət yetirilir. Həmçinin Azərbaycan diasporunun birliyinə nail olunması və sistemli işin təşkil edilməsi məqsədi ilə 2019-2023-cü illər üçün Strateji Yol Xəritəsi hazırlanıb. Məqsəd vahid ideya və maraqlar uğrunda dövlət-diaspor əməkdaşlığının inkişafına, qüvvələrin ümumi məqsəd naminə birləşdirilməsinə, xüsusən böhranlı vəziyyətlərdə düşünülmüş çevik planın olmasına şərait yaratmaqdır. Bu plan həm COVID 19 pandemiyası, həm də Vətən müharibəsi dönəmində sistemli şəkildə həyata keçirilib.

Təşkilatlanma prosesində gənclərin fəallığının artırılması, milli kimliyin qorunub saxlanılması və liderlik potensialının inkişaf etdirilməsi məqsədi ilə Azərbaycan Diaspor Gəncləri Şəbəkəsi formalaşdırılıb. Həmçinin 2020-ci ildə Nazirlər Kabineti tərəfindən «Xaricdə yaşayan aztəminatlı azərbaycanlılara sosial yardımın göstərilməsi qaydası» təsdiq olunub. Komitə ilə əlaqənin asanlaşdırılması məqsədilə müasir informasiya texnologiyaları tətbiq edilib və qurum «Elektron hökumət» portalına inteqrasiya olunub.

Dövlət Komitəsi tərəfindən 24/7 fəaliyyət göstərən qərargah yaradılıb, Azərbaycanlıların Koordinasiya şuraları və Azərbaycan evləri gücləndirilmiş rejimdə fəaliyyət göstəriblər. Hazırda dünyanın 31 ölkəsini əhatə edən və 130 diaspor təşkilatını özündə birləşdirən 14 Koordinasiya Şurası, 12 ölkədə fəaliyyət göstərən 18 Azərbaycan Evi fəaliyyət göstərir. Pandemiya dövründə təkcə Dövlət Komitəsinin qaynar xəttinə 18 minə yaxın zəng, Azərbaycan evlərinə, Koordinasiya Şuralarına ümumilikdə 51 ölkədən 9 minə yaxın müraciət daxil olub, 33 ölkə üzrə 6857 nəfər soydaşımıza maddi yardım edilib, sərhədlərin qapanması ilə əlaqədar azərbaycanların təxliyəsinə dəstək göstərilib. Eləcə də Ukraynada baş verən hadisələrlə əlaqədar təxliyə olunan soydaşlarımız Azərbaycan evlərinə üz tutmuşlar.

Azərbaycan Respublikasının Bi rinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü və dəstəyi ilə xarici ölkələrdə “Qarabağ” adlı həftəsonu Azərbaycan məktəbləri fəaliyyətlərini genişləndirir. Hazırda Ottava, Nant, Bern, Varşava, Stokholm, London kimi şəhərlərdə fəaliyyət göstərən “Qarabağ məktəbləri”ndə yüzlərlə azərbaycanlı uşaq təhsil alır. 6-10 yaşlı azərbaycanlı uşaqlar üçün müasir üslubda hazırlanmış “Azərbaycan dili” dərsliyi çap edilərək xaricdəki soydaşlarımıza göndərilib. Azərbaycan diaspor təşkilatları Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması üçün əlindən gələni edir və bundan sonra da bu istiqamətdə səylərini əsirgəməyəcək. Təkcə “Xocalıya ədalət!” beynəlxalq kampani yası çərçivəsində, həmçinin 2020-ci ilin Tovuz hadisələri və Vətən müharibəsi zamanı Avropanın 30 ölkəsində on minlərlə soydaşımızın iştirak etdiyi 300-dən artıq aksiya keçirilib. Ümumilikdə, Azərbaycan həqiqətləri, xüsusilə də Xocalı soyqı rımının 30-cu ildönümü ilə bağlı dün yanın 40-a yaxın ölkəsində 150-dən artıq müxtəlif formatlı təbliğat və anım tədbirləri təşkil olunmuş, 100-ə yaxın məqalə çap edilmiş, 24 ölkədə 29 aksiya keçirilmişdir.

44 günlük Vətən müharibəsi dövründə diasporumuzun apardığı uğurlu fəaliyyət milli birliyimizin növbəti təntənəsinə çevrildi. Belə ki, xaricdə yaşayan soydaşlarımız milli maraqlar ətrafında sıx birləşərək erməni lobbisinə qarşı mühüm bir mübarizə ortaya qoydu. Həmin dövrdə dünyanın aparıcı dövlətlərində sivil mübarizə metodlarından istifadə etməklə Azərbaycan haqq səsini ucaldan soydaşlarımız erməni yalanlarının qarşısının alınmasında böyük rol oynadı. Müharibədən sonrakı dövrdə də istər maddi, istərsə də mənəvi dəstəyini əsirgəməyən xaricdə yaşayan azərbaycanlılar bir daha milli birliyimizin simvolu kimi çıxış etdilər. Müharibə dövründə nümayiş etdirilən milli birlik, həmrəylik diasporumuzun yeni fəaliyyət dövrü üçün proqram xarakteri daşıdı.

2022-ci ilin aprel ayında Ermənistan üzərində tarixi Qələbəmizdən sonra mədəniyyət paytaxtımız Şuşada keçirilən Dünya Azərbaycanlılarının V – Zəfər Qurultayı xalqımızın birlik və həmrəyliyinin daha bir nümunəsi oldu. Bu, Zəfərdən sonra keçirilən Dünya Azərbaycanlılarının ilk qurultayı idi. Dünyanın 65 ölkəsindən 400-dən çox soydaşımızı araya gətirən Qurultay həm də böyük rəmzi məna daşıyırdı. Dünya Azərbaycanlılarının V Qurultayında Prezident İlham Əliyev bəyan etdi ki, Zəfər Qurultayı dünyada yaşayan hər bir azərbaycanlı üçün qürurverici hadisədir. Dövlətimizin başçısı qurultaydakı nitqi ilə Zəfərimizi 50 milyonluq Azərbaycan xalqının yenilməzlik rəmzi adlandırdı.

Göründüyü kimi, uzun illər davam edən məqsədyönlü, düşünülmüş siyasətin nəticəsində bu gün azərbaycançılıq həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas qayədir. Əminik ki, Dias porla İş üzrə Dövlət Komitəsi xaricdə fəaliyyət göstərən diaspor qurumları və qəlbi daim Vətənlə döyünən soydaşla rımız ilə əl-ələ verib, bundan sonra da böyük şövq və qətiyyətlə Azərbaycan həqiqətlərini bütün dünyaya yayacaqdır.

**İki sahil.** - 2023. - 12 iyul. - № 120. - S. 3.

## Azərbaycan diasporu Ermənistanın mina terroru ilə bağlı beynəlxalq ictimaiyyətə növbəti dəfə müraciət edib

İspaniyada fəaliyyət göstərən "Barselonadakı Azərbaycanlılar Cəmiyyəti" və Barselona Azərbaycan Evi Ermənistanın mina təhlükəsi ilə bağlı beynəlxalq hüquqazidd davranışını növbəti dəfə pisləyib.

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, cəmiyyətin və Azərbaycan Evinin adından beynəlxalq təşkilatlara ünvanlanan bəyanatda Kəlbəcər rayonunun Seyidlər kəndi ərazisində arıçılıq fəaliyyəti ilə məşğul olan azərbaycanlı sahibkarın bu il iyulun 13-də mina partlayışı nəticəsində xəsarət alması barədə məlumat verilib. Bu insident Ermənistan tərəfindən Azərbaycan ərazilərində basdırılmış minaların və partlamamış hərbi sursatların mülki şəxslərin həyatına ciddi təhlükə yaratmasının davam etməsi kimi qiymətləndirilib.



C/Villarroel 253 entresuelo B
08036, Barcelona, España
NIF G-66636127

Phone: +34617629948
E-mail: asb@azsocietybcn.org
Web: azsocietybcn.org

Barcelona, 15.07.2023

**Statement**

**Statement by the Azerbaijani Diaspora Organizations on landmines planted by Armenia in the territories of Azerbaijan**

Threats posed by Armenian landmine terror in Azerbaijan's liberated territories continue. The number of landmine victims in Azerbaijan has increased to 303 since the end of the war in 2020.

Another tragic landmine incident in which Aliyev Sahib Isa, a beekeeper in the village of Chopurlu in Azerbaijan's Kalbajar District, tripped a landmine on July 13.

Armenia's mine terror against our country leads to the death or injury of our military personnel and civilians and also slows down the process of returning former internally displaced persons to their native lands, creating obstacles for the activities of businesses and the restoration work carried out in the region.

The planting of mines in the liberated territories of Azerbaijan and the lack of accurate maps of the mined territories is an open demonstration of Armenia's disrespect for the norms and principles of international and humanitarian law.

As diaspora organizations, we call on the relevant international organizations to take decisive steps to curb mine terror by Armenia and have accurate mine maps handed over to Azerbaijan.

**Sincerely,**

**The Azerbaijani community residing in Spain**

Ermənistanın ölkəmizə qarşı törətdiyi mina terrorunun Azərbaycanın hərbi qulluqçularının və mülki şəxslərinin həyatını itirməsinə və ya yaralanmasına səbəb olaraq qaldığı bir daha nəzərə çatdırılıb. Bu təhlükənin keçmiş məcburi köçkünlərin öz doğma torpaqlarına qayıdışını ləngitdiyinə, bölgədə həyata keçirilən bərpa və yenidənqurma işlərinə maneə yaratdığına diqqət cəlb edilib.

İspaniya azərbaycanlıları Ermənistanın mina problemi ilə bağlı yolverilməz davranışını beynəlxalq hüquq norma və prinsiplərinə hörmətsizliyin açıq nümayişi adlandırıblar. Beynəlxalq təşkilatları mina sahələrinin dəqiq xəritələrini ölkəmizə təqdim etməsi, BMT-nin Minalardan Təmizləmə Xidməti (UNMAS) kimi minalarla mübarizə aparan beynəlxalq təşkilatlarla çalışması üçün Ermənistana güclü təzyiq göstərməyə çağırıblar.

Eyni zamanda, Azərbaycanın texniki yardımla və minatəmizləmə təcrübəsi ilə təmin olunmasının zəruriliyi bir daha vurğulanıb.

**AZƏRTAC**
**2023, 18 iyul**

**Diaspor siyasətimiz...**

**Tarixi qələbənin formalaşdırdığı yeni inkişaf mərhələsi**

**Abbas Günel**

Diaspor və lobbiçilik fəaliyyəti xüsusilə hazırki - dünyada yeni nizam qaydalarının formalaşdığı dövrdə böyük aktuallıq kəsb etməkdədir. Bu mənada, bu siyasi istiqamət bir çox ölkələrin siyasi gündəmində ən prioritet məsələlərdən birinə çevrilib. Xüsusilə, milli maraqların, dəyərlərin qorunması baxımından diaspor və lobbiçilik çox vacib fəaliyyət sahəsi sayılır ki, bu da həmin fəaliyyət sahəsinə dövlətin diqqət və qayğısının günü-gündən artmasını şərtləndirir.

Ötən əsrin son onilliyində aktiv fazaya keçən erməni terrorizmi, işğalçılıq siyasəti ölkəmiz üçün ciddi problemlər yaradırdı. Siyasi-iqtisadi böhranın, daxili çəkişmələrin geniş vüsət aldığı, həmçinin Ermənistanla müharibə şəraiti olduğu günlərdə Ermənistan tərəfi məkrli planlar həyata keçirirdi. ən təhlükəli məqamlardan biri isə erməni lobbisinin əli ilə aparılan yalan, böhtan təbliğatı idi. Azərbaycan əleyhinə iş aparan erməni lobbisinin təbliğat maşını bəzi hallarda bir sıra dövlətlərdə baş verənlərlə bağlı fərqli, əks və yalan təəssürat yaradırdı. Xarici havadarların köməyi sayəsində işğalçılıq niyyətlərini həyata keçirən, eləcə də informasiya mübarizəsində üstünlük əldə edən Ermənistanı dayandırmaq üçün isə əks-təbliğat maşını formalaşdırmaq lazım gəlirdi. Vəziyyəti öz xeyrimizə dəyişmək və haqq səsimizi dünyaya çatdırmaq üçün sözsüz ki, qüdrətli dövlət və güclü lobbinin yaradılması çox vacib idi. Ulu öndər Heydər Əliyev qısa müddətdə Azərbaycan lobbisinin təşkili ilə bağlı mühüm qərarlar veri. Bu qərarların uğurlu icrası isə bu balansı Azərbaycanın xeyrinə dəyişdi.

Milli Məclisin deputatı Vüqar İskəndərov bildirib ki, dünya azərbaycanlılarının həmrəyliyi mox vacib amildir. Milli birliyimiz milli-mənəvi dəyərlərimizə hörmət, doğma Vətənə məhəbbət və bağlılıq hisslərini özündə təcəssüm etdirir: “Ümummilli liderimiz Heydər Əliyev Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra diaspor quruculuğu işinə böyük önəm verirdi. O, xaricə səfərləri zamanı orada yaşayan azərbaycanlılarla görüşər, onlara doğma vətənləri ilə sıx əlaqə qurmağı, Azərbaycan həqiqətlərini dünya ictimaiyytinə çatdırmağı tövsiyə edərdi. Məhz ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 2001-ci ildə Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi də bu məqsədlərə xidmət edirdi”.

Millət vəkilinin sözlərinə görə, hər bir vətəndaş öz dövlətinin maraqlarını beynəlxalq arenada təmsil etməyi, qorumağı bacarmalıdır: “Azərbaycan diasporu təşkilatlandıqdan sonra hədəflər dəqiqləşdi - bu hədəflər Azərbaycan həqiqətlərini, Xocalı soyqırımını dünyaya çatdırmaq, Ermənistanın işğalçılıq siyasətini beynəlxalq arenada ifşa etməkdən ibarət idi. Bu gün əminliklə deyə bilərik ki, Prezident İlham Əliyevin apardığı uğurlu siyasi kurs, hücum diplomatiyası, eyni zamanda, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Heydər Əliyev Fondunun vasitəsi ilə gördüyü uğurlu işlər nəticəsində Azərbaycan həqiqətləri dünyada təbliğ edildi. Bu amillər diaspor fəaliyyətinin vacibliyini bir daha ortaya qoymuş oldu. Bu gün Azərbaycan diasporu yüksək səviyyədə təşkilatlanıb desək, yanılmarıq. Dövlətimiz xaricdə diasporumuzun gücləndirilməsi üçün lazımi addımlar atır. Ötən illər ərzində xeyli sayda diaspor təşkilatları formalaşdırılıb. Azərbaycan diasporunun xaricdə mütəşəkkil qüvvəyə çevrilməsi üçün çalışılır. Son illər dövlətimizin dəstəyi ilə xarici ölkələrdə Azərbaycan Evləri, Koordinasiya Mərkəzləri yaradılır ki, bütün bunlar diasporumuzun daha güclü və səmərəli fəaliyyət göstərməsinə xidmət edir. Diasporamızın qarşısında duran vəzifələr Azərbaycanın uğurlu inkişafını təbliğ etməklə yanaşı, bugünkü reallıqlarımızı dünya ictimaiyyətinə çatdırmaq, erməni yalanlarını ifşa etməkdir”.

V.İskəndərov bildirib ki, bu istiqamətdə ciddi nəticələr əldə olunmaqdadır. Lakin bununla kifayətlənməli deyilik - çalışmalıyıq ki, xaricdə yaşayan soydaşlarımız daha mütəşəkkil formada fəaliyyət göstərərək yaşadıqları ölkələrin, şəhərlərin siyasi həyatında da yer alsınlar. “Parlament və bələdiyyə seçkilərinə qoşularaq bu seçkili orqanlarda təmsil olunmağa çalışsınlar. Prezident İlham Əliyev bu fikriləri hər zaman səsləndirir. Dünyada 50 milyon soydaşımız yaşayır, elə aktiv və strateji fəaliyyət qurmalıyıq ki, səsimiz daha da yüksəklərdən eşidilsin”, -deyən deputat bildirib ki, xalqımız 30 il ərzində Qarabağın işğaldan qurtarılacağı, doğma torpaqlarımıza qayıdacağımız günün həsrəti ilə yaşayıb: “Artıq bu həsrətə son qoyuldu, dünyanın müxtəlif ölkələrində yaşayan 50 milyondan çox azərbaycanlının Qarabağı azad, vətəni bütöv görmək arzusu reallaşıb. Məhz Vətən müharibəsi, möhtəşəm qələbəmiz xalqımızın, eyni zamanda, xaricdə yaşayan həmvətənlərimizin birliyini və həmrəyliyini yeni müstəvilərər daşıdı.

Müstəqillik tariximizdə ilk dəfə Dünya Azərbaycanlılarının V Qurultayı Qarabağda - Şuşada keçirildi. Bu, özlüyündə böyük siyasi əhəmiyyəti olan tarixi hadisədir. Bu hadisə bütün dünyaya mesaj idi ki, dünyada yaşayan azərbaycanlılar öz dövlətinin maraqları ətrafında sıx birləşib və həmrəydirlər. Şuşada keçirilən qurultay dünya azərbaycanlılarına torpaqlarımızın azad olunması sevincini bir daha yaşatdı, həmin torpaqları canlı görmək, eləcə də, erməni vandalizmini dünyaya çatdırmaq imkanı qazandırdı. Bu səbəbdən də V qurultay haqlı olaraq Zəfər Qurultayı adlandırıldı".

**Yeni Azərbaycan.** - 2023.- 21 iyul. - № 127. - S. 6.

## Azərbaycanın diaspor təşkilatları Laçın yolu ətrafında yaranmış vəziyyətlə bağlı bəyanat yayıb

Azərbaycanın diaspor təşkilatları Laçın-Şuşa-Xankəndi yolu ətrafında yaranmış vəziyyətlə bağlı bəyanat yayıb.

AZƏRTAC bəyanatı təqdim edir: "Avropa Şurasının Baş katibi Mariya Peyçinoviç-Buriçin Azərbaycanın Qarabağ bölgəsindəki erməni sakinlər üçün təchizat məsələsi ilə bağlı 2023-cü il 28 iyul tarixli bəyanatı bizdə böyük təəccüb və təəssüf hissi yaratdı. Bu açıqlama Şuranın Nizamnaməsində, İnsan Hüquqları üzrə Avropa Konvensiyasında və Ümumdünya İnsan Hüquqları Bəyannaməsində təsbit olunmuş məqsəd və prinsiplərə ziddir.

Azərbaycanın diaspor təşkilatları bildirir ki, ölkəmizin Qarabağ bölgəsində yaşayan ermənilərin guya blokadaya alınması və humanitar fəlakətlə üzləşməsi barədə deyilənlər Ermənistanın beynəlxalq ictimai rəyi çaşdırmaq üçün əl atdığı növbəti böhtan və cəfəngiyatdır. Belə ki, 2020-ci ildə 44 gün davam edən və Azərbaycanın tarixi Zəfəri ilə başa çatan İkinci Qarabağ müharibəsindən qısa müddət sonra rəsmi Bakı 30 illik işğala və məşəqqətlərə baxmayaraq, iki ölkə arasında bir-birinin ərazi bütövlüyünün, suverenliyinin və sərhədlərinin qarşılıqlı tanınması və hörmət edilməsi əsasında münasibətlərin normallaşmasına dair baza prinsipləri, həmçinin sülh müqaviləsi təklifi ilə çıxış edib. Ermənistan tərəfi bu sülh təşəbbüslərinə uzun müddət cavab verməsə də və müxtəlif bəhanələrlə prosesi ləngitsə də, Azərbaycan tərəfi qətiyyət göstərərək sülh müqaviləsi, sərhədlərin delimitasiyası və kommunikasiyaların açılması istiqamətində təşəbbüslərin irəlilədilməsi üçün xoşməramlı səylərini davam etdirib. Azərbaycanın hakimiyyət orqanları tərəfindən Qarabağ bölgəsinin yerli erməni sakinləri ilə dialoq istiqamətində ardıcıl addımlar atılıb, yeni Laçın yolunun tikintisi qısa müddətdə başa çatdırılıb və yol istifadəyə verilib.

Ermənistan tərəfi isə bunun əksinə, "beynəlxalq mexanizm çərçivəsində Bakı-Xankəndi danışıqları vasitəsilə Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyinin təmin edilməsi" kimi əsassız təkliflə çıxış edərək, Azərbaycan və yerli erməni sakinlər arasında təmaslara maneçilik törədib və faktiki olaraq ölkəmizə qarşı ərazi iddialarını başqa ad altında davam etdirib. Eyni zamanda, 2020-ci il 10 noyabr tarixli üçtərəfli razılaşmaya zidd olaraq, öz hərbi birləşmələrini Azərbaycan ərazisindən çıxarmayıb, mina xəritələrini rəsmi Bakıya təqdim etmək əvəzinə, ölkəmizin ərazilərini minalamağa davam edib. Nəticədə 2020-ci ilin noyabr ayından bəri ikisi jurnalist olmaqla, 303 azərbaycanlı minaların qurbanına çevrilib.

Azərbaycan sərhədlərinə nəzarət və Ermənistanın qeyri-qanuni fəaliyyətinin qarşısını almaq məqsədilə özünün suveren ərazilərində "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsi təsis edib. Azərbaycan tərəfindən erməni sakinlərin, Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) və Rusiya sülhməramlı kontingentinin sərhəd-buraxılış məntəqəsindən keçidinin təmin olunmasına baxmayaraq, Ermənistan tərəfi Azərbaycan ərazilərində qeyri-qanuni fəaliyyətini davam etdirmək məqsədilə bölgədə saxta "gərgin humanitar vəziyyət" barədə iddialar yayıb. Eyni zamanda, iyunun 15-də Azərbaycan sərhədçilərinin atəşə tutulması, qaçaqmalçılığa cəhd edilməsi, iyulun 26-da yük avtomobillərinin Azərbaycan ərazilərinə icazəsiz göndərilməsi kimi təxribatlar törədib.

Azərbaycan tərəfinin erməni sakinlərin ehtiyaclarının qarşılanması üçün Ağdam-Xankəndi yolundan və digər alternativ yollardan istifadə daxil olmaqla, bir sıra təkliflər irəli sürməsinə, onların Avropa İttifaqı, BQXK tərəfindən dəstəklənməsinə baxmayaraq, erməni tərəfinin bu təkliflərə qarşı çıxması, alternativ yollara beton maneələr düzməklə əraziyə girişi bloklaması Ermənistanın humanitar vəziyyət barədə iddialarının siyasi şantaj və manipulyasiya olduğunu bir daha göstərib.

Azərbaycanın diaspor təşkilatları bəyan edir ki, Ermənistanın məqsədi bölgəyə üçüncü tərəfləri cəlb etmək, gərginliyin coğrafiyasını genişləndirmək və sülh prosesini iflasa uğratmaqdan ibarətdir. Son günlər baş verən bütün bu təxribatlara görə məsuliyyət Azərbaycan ərazilərində qanunsuz hərbi mövcudluğu davam etdirən, separatizmi təşviq edən və reinteqrasiya səylərinə əngəl törədən Ermənistan və onun rəhbərliyinin üzərinə düşür. Eyni zamanda, 1980-ci illərin sonu və 1990-cı illərin əvvəllərində Ermənistandan və Azərbaycanın işğal olunmuş ərazilərindən zorla qovulmuş bir milyona yaxın azərbaycanlının çəkdiyi iztirablara, Ermənistanın 1992-ci il fevralın 26-da Azərbaycanın Xocalı şəhərində soyqırımı törətməsinə, 30 il ərzində Azərbaycan ərazilərini işğal altında saxlamasına, Naxçıvan Muxtar Respublikasını 32 ildir blokadaya almasına, son üç il ərzində Azərbaycan ərazilərində Ermənistan silahlı qüvvələrinin mövcudluğuna, Ermənistanın kommunikasiyaların açılmasına maneçilik törətməsinə göz

yuman bir sıra ölkələrdən və beynəlxalq təşkilatlardan Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə hörmət etməyi, daxili işlərinə qarışmamağı və ikili standartlar siyasətinə son qoymağı tələb edirik".

**Azərbaycan.** - 2023.- 1 avqust. - №180. - S. 8.

## Diasporamız erməni lobbisinə cavab verməlidir

### Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi;

### Ermənipərəstlərə cavab vermək tək Hikmət Hacıyevin işi olmamalıdır

**Qocayev İsmayıl**

Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında, eləcə də erməni diasporunun və onları dəstəkləyən qüvvələrin ölkəmizə qarşı apardığı çirkin siyasətin qarşısının alınmasında xaricdə yaşayan azərbaycanlıların xidməti danılmazdır. Xüsusən, 44 günlük müharibə zamanı həmvətənlərimiz yaşadıqları müxtəlif ölkələrdə yüksək səviyyədə təşkilatlanmanın önəmini daha yaxşı dərk etdilər. Azərbaycan diaspora təşkilatlarının tərkib hissəsinə çevrilən həmvətənlərimiz xalqımıza, qardaş Türkiyəyə qarşı düşmənçilik və əsassız torpaq iddialarının, yalanla yoğrulmuş erməni ideologiyasının ifşa olunmasında ardıcıl və sistemli mübarizə aparmağa başladılar. Diaspor siyasəti dövlətin əsas güclərindən biridir. Diaspor təşkilatlarının fəaliyyət göstərdikləri ölkələrin siyasi həyatında aktivliyi həm təşkilatlanma səviyyəsi, həm də cəmiyyətlərin siyasi, iqtisadi inkişafı ilə bağlıdır. Dünyada təmsil olunmaq, ölkəni layiqincə təmsil etmək əsas vəzifədir. Azərbaycan diasporu son illər təşkilatlanaraq, xarici ölkələrdə öz mövqelərini möhkəmləndirməkdədir. Ancaq bu proses heç vaxt dayanmamalıdır. Yeni çağırışlara, dünyada baş verən proseslərə daim uyğunlaşmalıdır. Nəzərə alaq ki, müharibədən sonra Azərbaycan diaspor təşkilatlarının fəaliyyətində yeni mərhələ başlayıb. Qələbədən sonra artıq diasporun da vəzifələri dəyişib, yeni reallıqlara uyğunlaşmaq zərurəti yaranıb. Xüsusən son dönəmlər yaşananlar, Laçın yolu ətrafında baş verənlər, Ermənistanın TIR şousu və Qarabağdakı separatçıların aktivliyi vəziyyəti daha da gərginləşdirib. Əlalxüsus, erməni lobbisi Azərbaycana qarşı kampaniyanı genişləndirib. Son günlər Qərb ölkələrində Azərbaycan əleyhinə açıqlama və məqalələrin sayı artmaqdadır. Təbii ki, Ermənistan hökuməti, Qarabağ separatçıları və erməni lobbisi ilə həmfikir olanların öz ölkələrində Azərbaycan əleyhinə ictimai rəy formalaşdırmasına seyrçi qalmaq olmaz. Prezidentin köməkçisi Hikmət Hacıyev az qala hər gün Qərbdə kiminsə açıqlamasına və məqaləsinə cavab vermək məcburiyyətindədir. Qeyd edək ki, Beynəlxalq Cinayət Məhkəməsində baş prokuror vəzifəsində çalışmış Luis Moreno Okampo Azərbaycan əleyhinə qərəzli hesabat hazırlayıb. H.Hacıyev bəyan edib ki, vəkil L.M.Okamponun hesabatında əsassız iddialar var: “Bu hesabat qərəzlidir, real vəziyyəti təhrif edir və özündə ciddi faktiki, hüquqi səhvləri ehtiva edir”. Prezidentin köməkçisi "Forbes"in müəllifinə də həddini bildirib. Vurğulayıb ki, Evelina Oçabın “Forbes” nəşrindəki məqaləsi reallığı təhrif edib və birtərəflidir: “Siz bir insan haqları müdafiəçisi kimi Ermənistan tərəfindən etnik təmizləməyə məruz qalmış azərbaycanlıların hüquqları və acınacaqlı vəziyyəti ilə bağlı məsələni heç vaxt qaldırmamısınız. Azərbaycanın mülki əhalisi Ermənistanın mina terrorunun qurbanına çevrilib. Laçın yolu Ermənistan tərəfindən minaların qanunsuz dövriyyəsi üçün istifadə olunub. Amma siz bütün bunlara susqunluqla yanaşdınız. Ermənistanın himayə etdiyi marionet rejim Azərbaycanın Qarabağ bölgəsinin erməni sakinlərini girov saxlayır. İnsan hüquqlarının müdafiəçisi kimi nəcib status neytral, siyasi manipulyasiyalardan uzaq, obyektivlik və ədalətli olmağı tələb edir. Təəssüf edirəm ki, sizin “Forbes”dəki məqalənizdə bunları görmədim”.

Prezidentin köməkçisi ermənipərəstlərə layiqli cavabı verib. Ancaq bu yalnız Hikmət Hacıyevin işi olmamalıdır. Səfirlərimiz, diplomatik nümayəndəliklərimiz, o cümlədən bir çox ölkədə fəaliyyət göstərən diaspor təşkilatlarımızın üzərinə böyük öhdəlik, məsuliyyət düşür. Onlar da indiki həssas dövrdə fəallıqlarını artırmalı, çalışdıqları ölkələrin ictimai rəyinə təsir edən yazıları ilə çıxış etməlidirlər. Davamlı olaraq dünya ictimaiyyəti qarşısında haqlı mövqeyimiz izah olunmalıdır. Məqalələr hazırlayıb müxtəlif nəşrlərdə və saytlarda yayımlanmasına çalışmalıdırlar.

Diasporumuzun hazırkı fəaliyyəti ilə bağlı "Sherg.az"a danışan danışan millət vəkili Naqif Həmzəyev təəssüflə bildirib ki, Ermənistan hökuməti və Azərbaycan ərazilərində hələ də yaşamlarını davam etdirən Qarabağdakı separatçılar Azərbaycanla sülhün imzalanmasını istəmirlər. Parlament üzvünün sözlərinə görə, erməni tərəfi sülhün İrəvanın şərtlərinə uyğun reallaşmasını arzulayır:

"Bu məqsədlə də müxtəlif təxribatlara əl atırlar. Sonuncu erməni təxribatı- TIR şousu daha hiyləgərcəsinə hazırlanıb və özünə böyük dəstək tapmağa hesablanıb. Ermənilər Laçın yolu üzərində Azərbaycanın hüquqi çərçivələrə uyğun nəzarətini aradan qaldırmaqla əvvəlki kimi maneəsiz Qarabağa

səfərlərini davam etdirmək niyyəti güdürlər. Ancaq Laçın yolu üzərindəki nəzarət-buraxılış məntəqəsi Azərbaycanın suveren hüququdur. Məqsəd separatçı ünsürlərin silah-sursatla təmin olunmasının qarşısını almaqdır. Çünki təhlükə davam etməkdədir və torpaqlarımızdakı qanunsuz silahlı birləşmələr hələ də çıxarılmayıb. Məsələnin digər tərəfi odur ki, Qarabağda yaşayan erməniləri əsarətdə, qorxu və təhdid altında saxlayan separatçılar "ermənilərin müdafiəçisi" kimi çıxış edirlər. Dünya ictimaiyyətinin gözünü boyamaq üçün bir görüntü, fon yaradırlar. Təbii ki, bu prosesi irəliyə doğru aparan önəmli güclərdən biri də erməni lobbisidir. Bizi ən çox təəssüfləndirən məqam ermənilərin yalan və uydurmalarına, şoularına bəzi Qərb ölkələrinin, beynəlxalq təşkilatların və başqa dairələrin açıq dəstək verməsidir. Cənubi Qafqazda sülhün olmasını istəməyən qüvvələr bu prosesi kənardan körükləyirlər".

Parlament üzvü bəyan edib ki, erməni lobbisi anti-Azərbaycan təbliğatında aktiv iştirak edir:

"TIR şousunu mütəmadi olaraq gündəmdə saxlayaraq rəsmi Bakıya təzyiqləri artırmağa çalışırlar. Şübhə yox ki, hər zaman olduğu kimi Azərbaycan dövləti, diasporumuz növbəti erməni təxribatlarının da qarşısını almağa qadirdir. Azərbaycan dövləti və ictimaiyyəti bütün cəbhələrdə Ermənistanla və onların havadarları ilə diplomatik-siyasi savaşını davam etdirir. 3 ilə yaxın müddətdir Ermənistanı sülhə məcburetmə siyasətini uğurla həyata keçirir, qarşı tərəfi fakt qarşısında qoyuruq. 44 günlük müharibənin gedişində Azərbaycan diasporu erməni lobbisinin qarşısını kəsə bildi. Haqsız yerə Azərbaycana yönəlmiş hücumların önündə dayandı. Əlbəttə, bu istiqamətdə cənab Prezident İlham Əliyevin informasiya blokadasının yarılması üçün verdiyi çoxsaylı müsahibələr, mütəmadi bəyanatlar çox mühüm rol oynadı. Düşünürəm ki, indiki dönəmdə də Azərbaycan diasporu və Diaspor Komitəsi prosesdə aktiv yerini mütləq tutmalıdır. Diasporumuz xarici ölkələrdəki səfirliklərimizin koordinasiyası ilə proseslərdə fəal olmalıdır. Türk ölkələrinin və dost dövlətlərin diaspor təşkilatları da bu işdə bizi tək qoymur və daim dəstəkləyir. Çalışmalıyıq ki, erməni lobbisinin Azərbaycana qarşı hücumlarını zərərsizləşdirək. Daxili işlərimizə qarışmaq istəyənlərin qarşısını almalıyıq. Heç kim, xüsusən diasporumuz prosesə seyrçi mövqedən yanaşmamalı və üzərinə düşən öhdəliyi icra etməlidir".

**Şərq.** - 2023.- 11 avqust. - № 141. - S. 6.

## Dünya azərbaycanlılarından dünya dövlətlərinə müraciət

## Sülh müqaviləsinin imzalanmasına dəstək göstərməyə çağırırıq!

**Günel Abbas**

Məlum olduğu kimi, sentyabrın 19-da Azərbaycanın Qarabağ bölgəsindəki erməni silahlı qüvvələri bir sıra genişmiqyaslı hərbi təxribatlara və terror hücumlarına əl atıblar. Belə ki, erməni kəşfiyyat-diversiya qrupları tərəfindən Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda terror məqsədilə əvvəlcədən quraşdırılmış minaların partlaması nəticəsində mülki şəxslər və Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçuları həlak olub və yaralanıb. Bununla yanaşı, ordumuzun bölmələri minaatanlardan və müxtəlif çaplı atıcı silahlardan atəşə tutulub. Nəticədə, Azərbaycan Ordusunun iki hərbi qulluqçusu yaralanıb. Erməni silahlı qüvvələrinin bu kimi təxribatları davam etdirmək məqsədilə döyüş mövqelərini gücləndirməsi və bölmələrini yüksək döyüş hazırlığı səviyyəsinə gətirməsi Azərbaycan Ordusunun bölmələri tərəfindən təsbit edilib. Üçtərəfli bəyanatın müddəalarının təmin olunması, Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərksilah edilərək ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, işğaldan azad edilmiş ərazilərə qayıdan dinc əhali, habelə bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması və Azərbaycan Respublikasının konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə bölgədə lokal xarakterli antiterror tədbirlərinə başlanılıb.

Hadisələrin dünya ictimaiyyətinə geniş və düzgün şəkildə çatdırılması üçün bəyanatlar və müraciətlər ünvanlanmağa davam edilir. Bu prosesdə dünya azərbaycanlıları da öz fəallıqlarını nümayiş etdirirlər.

Belə ki, dünya azərbaycanlıları Azərbaycan Ordusunun Qarabağ iqtisadi rayonunda başlatdığı lokal xarakterli antiterror tədbirləri ilə bağlı bəyanat yayıb.

Diasporla İş üzrə Dövlət Komitəsindən "Yeni Azərbaycan"a verilən məlumata görə, bəyanatda deyilir:

"Biz - xarici ölkələrdə yaşayan azərbaycanlılar və Azərbaycan diaspor təşkilatları böyük kədər hissi ilə bəyan edirik ki, sentyabrın 19-da Azərbaycanın daha 6 vətəndaşı Ermənistanın mina terrorunun qurbanı olub. Dörd polis və iki mülki şəxs 2020-ci ildə İkinci Qarabağ müharibəsi nəticəsində azad edilmiş Azərbaycan ərazilərində xidməti vəzifələrini yerinə yetirərkən yeni çəkilmiş yolda Ermənistan istehsalı olan minalara düşərək həyatlarını itiriblər.

Ümumiyyətlə, İkinci Qarabağ müharibəsi bitən gündən bəri - 10 noyabr 2020-ci ildən bugünədək 320 Azərbaycan vətəndaşı 2020-2023-cü illərdə Ermənistanda istehsal olunmuş minalardan zərər çəkib. Onlardan 67 nəfəri həlak olub, 314 nəfəri yaralanıb. Rəsmi İrəvan mina xəritələrini Bakıya təqdim etməkdən imtina edib və Azərbaycan ərazilərini yeni minalarla çirkləndirməkdə davam edib. Bu isə 30 illik işğal dövründə Ermənistanın darmadağın etdiyi Azərbaycan ərazilərində tikinti-bərpa işlərinə mane olmaqla yanaşı, orada çalışan insanların həyatına ciddi təhlükə törədir. Eyni zamanda 30 il öz doğma yurduna həsrət qalan 750 mindən çox azərbaycanlı məcburi köçkün müharibənin 3 ildir başa çatmasına baxmayaraq, Ermənistanın mina xəritələrini təqdim etməməsi səbəbindən hələ də öz evlərinə qayıda bilmir.

Ermənistanın nizamlama prosesini müxtəlif bəhanələrlə ləngitməsi, Azərbaycanın irəli sürdüyü sülh təkliflərini qəbul etdiyini elan etməsinə baxmayaraq, beynəlxalq səylərlə aparılan danışıqlarda destruktiv mövqe nümayiş etdirməsi, sülh gündəliyinə qarşılıq verməməsi sülh prosesində maraqlı olmadığını və prosesə zərbə vurulması məqsədlərini nümayiş etdirir.

Bundan başqa, Ermənistan 10 noyabr 2020-ci ildə Rusiya, Azərbaycan və Ermənistan arasında imzalanmış üçtərəfli Bəyanatın müddəalarına zidd olaraq, öz hərbi birləşmələrini Azərbaycan ərazilərində saxlamaqda və qanunsuz separatçı rejimi maliyyələşdirməkdə davam edir. Bu isə regional sülh və sabitlik üçün ciddi təhlükə mənbəyidir. Bu səbəbdən sentyabrın 19-da Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələri tərəfindən gözlənilən genişmiqyaslı təxribatların qarşısının alınması, habelə ?çtərəfli Bəyanatın müddəalarının icrasının təmin olunması, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərksilah edilərək Azərbaycan ərazilərindən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, dinc əhali, o cümlədən ərazidə aparılan bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilərin və hərbi qulluqçuların

təhlükəsizliyinin təmin olunması və Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə Rusiya sülhməramlılarının müvəqqəti nəzarət etdiyi Azərbaycan ərazilərində lokal xarakterli antiterror tədbirlərinə başlayıb.

İkinci Qarabağ müharibəsində olduğu kimi, indi də görülən tədbirlərin hədəfi müstəsna olaraq qanunsuz hərbi birləşmələr və hərbi infrastrukturdur. Azərbaycan tərəfi Ermənistandan fərqli olaraq, heç bir halda mülki əhalini hədəf almır. Bölgədə sülh və sabitliyin bərqərar olmasının yeganə yolu erməni silahlı qüvvələrinin Azərbaycanın Qarabağ bölgəsindən qeyd-şərtsiz və tamamilə çıxarılması, Azərbaycanın ərazi bütövlüyünə hörmət olunması və separatçı rejimin buraxılmasıdır.

Biz dünya dövlətlərinə və beynəlxalq təşkilatlara müraciət edərək, regionda sülh və sabitliyin təmin olunması üçün Ermənistan dövlətinə qanunsuz silahlı birləşmələrini Azərbaycan ərazilərindən dərhal və tamamilə çıxarması, mina xəritələrini Azərbaycana təqdim etməsi və ən qısa zamanda Azərbaycanla sülh müqaviləsi imzalaması üçün təsir göstərməyə çağırırıq. Biz, dünya azərbaycanlıları doğma vətənimiz Azərbaycana hər cür dəstək göstərməyə hazır olduğumuzu bəyan edirik”.

**Yeni Azərbaycan.-**2023.-21 sentyabr.-№171.-S.7.

## Azərbaycan diasporundan bu anlarda daha böyük fəallıq tələb olunur...

**Sarıyeva İradə**

**Qarabağda yaşayan ermənilərin reinteqrasiyasının aktuallaşdığı bir dövrdə onların bir qisminin tələsik şəkildə Azərbaycan ərazisini tərk etməsi prosesi baş verir. Lokal antiterror tədbirlərindən sonra Qarabağdan könüllü şəkildə gedən ermənilərin bu addımlarını artıq Ermənistan hökuməti başqa yerə yozmağa başlayıb ki, guya ermənilər "etnik təmizləməyə" məruz qalmamaları (?) üçün bu addımı atırlar.**

Halbuki, belə bir hal yoxdur, Ermənistanın yeni iddiasıdır ki, artıq bu əsassız iddia ilə dünyanı aldatmaq istəyirlər. Əlbəttə, erməni diasporu, lobbisi artıq bu yalanı yaymaq sahəsində "səfərbər olunublar. Təbii, erməni Qriqoryan kilsəsinin "xeyir-dua"sı ilə.

**"Qarabağ ermənilərinin başqa yerə köçməsinin Azərbaycanla heç bir əlaqəsi yoxdur"**

Onu da qeyd edək ki, artıq Ermənistanın Baş naziri Nikol Paşinyan olmaqla rəsmilər və dövlət qurumları yalan maşınını işə salıblar. Onlar bu köçə görə haqsız yerə rəsmi Bakını günahlandırırlar. Ermənistan XİN bu məsələdə də "fəallıq" göstərir.

Artıq rəsmi Bakı "Qarabağ ermənilərinin başqa yerə köçməsinin Azərbaycanla heç bir əlaqəsi yoxdur"-deyə Ermənistan XİN-in iddialarına cavab verib.

"Biz Ermənistanın Azərbaycan ərazilərində qurduğu separatçı rejimin onun gözləri qarşısında necə dağıldığını və yox olduğunu görməsinin nə qədər ağrılı olduğunu anlayırıq, lakin indi onlar üçün Azərbaycanla ərazi bütövlüyünə və suverenliyə həm sözdə, həm də əməldə hörmətə əsaslanan sülh və etimad qurmağa diqqət yetirmək daha yaxşı olardı"-deyə rəsmən bildirilib.

Artıq Erməntan bu istiqamətdə saxta təbliğata başlayıb və qarşıda bizi növbəti erməni təxribatı gözləyə bilər. Bu baxımdan, xaricdəki Azərbaycan diaspor təşkilatlarının üzərinə də çox böyük iş düşür.

İndiki həssas məqamda Azərbaycan diasporunun fəaliyyəti mütləq olmalıdır. Çünki ermənilərin köçüb getməsindən xaricdə bizim əleyhimizə istifadə edirlər.

Ekspertlər deyirlər ki, xaricdəki Azərbaycan diasor təşkilatları şərbaz erməni diasporunun və onların havadarlarının layiqli cavabını vermək üçün hazır olmalıdır. Bu təxribatların qarşısının alınmasına Azərbaycan diasporunun xüsusi fəaliyyəti olmalıdır. 44 günlük müharibə dövründə göstərdiyi mütəşəkkilliyi, dəstəyi indi də göstərməlidir. Bu gün Azərbaycan diasporunun həmişəkindən daha çox ayıq-sayıq olmalı olduğunu deyən ekspertlər hesab edir ki, onlar əlaqədar qurumlar tərəfindən düzgün informasiya ilə təmin olunmalıdırlar.

Ekspertlər onu da vurğulayır ki, Azərbaycan diasporu Azərbaycanla bağlı hər bir məsələyə mövqe bildirir. Aidiyyatı qurumlardan diaspor təşkilatları 44 günlük müharibədən sonra Laçın yolu, ümumiyyətlə, oradakı hadisələrlə bağlı detallı məlumat alır. Bu günkü vəziyyətlə bağlı da onların daim məlumatlandırılması mütləqdir, bu istiqamətdə iş aparıldığına şübhəmiz yoxdur.

**"Azərbaycan diasporu hər zaman ayıqdır, yenə də ayıq-sayıq olmalıdır"**

Milli QHT Forumunun prezidenti Rauf Zeyni "Bakı-Xəbər"ə şərhində bildirdi ki, xaricdəki Azərbaycan diasporu kifayət qədər güclüdür və onlar erməni lobbisinin, diasporunun cavabını verməyə hazırdırlar. "Azərbaycan Respublikasında demokratik, azad, müstəqil, tolerant bir mühit var. Kim bu ölkədə qalıb yaşamaq istəyirsə heç bir problem yoxdur, kim də çıxıb getmək istəyirsə yol açıqdır. Bu gün heç kim, o cümlədən də erməni diasporu bundan bizim əleyhimizə heç bir istifadə edə bilməz. Düzdür, cəhdlər olacaq. Aydın məsələdir, bəzi qüvvələr buna cəhd etməyə çalışacaqlar ki, guya onlar buradan çıxarılır. Amma ermənilər özləri açıq etiraf edirlər ki, onların özləri çıxırlar. "Bizim "hökumətimiz" bizə deyib çıxın, biz də çıxırıq" deyirlər. Onlar artıq ləğv olunmuş qondarma rejimi nəzərdə tuturlar. Qondarma rejimi idarə etmişlər çox söz deyə bilər, amma bu bizim üçün əsas deyil. Erməni sakinlərdən bizim vətəndaşımız olmaq istəyənlər varsa qalıb yaşasınlar, Azərbaycan vətəndaşlığı alsınlar. Ermənilər özləri də /etiraf edirlər ki, onlardan kimlərsə öz məqsədləri üçün istifadə edirlər. Qarabağda yaşayan ermənilər xuntanın təsiri altında idi, onların girovuna çevirilmişdilər.

Azərbaycan diasporu hər zaman ayıqdır, yenə də ayıq-sayıq olmalıdır. Orada hansı bir erməni diasporu bu məsələ ilə bağlı hay-küy salmaq istəsə Azərbaycan diasporu da ona adekvat cavab verməlidir"-deyə R.Zeyni qeyd etdi.

**"Diaspor təşkilatlarımız bu işin də öhdəsindən uğurla gələcək..."**

R.Zeyni əlavə etdi ki, xaricdəki Azərbaycan diaspor təşkilatları mütamadi olaraq əlaqədar qurumlar tərəfindən informasiyalarla təmin olunur. "Azərbaycan diasporu kifayət qədər məlumatlıdır. Onlar daim erməni diasporunun məkrli addımlarını yaxından izləyirlər. Bu səbəbdən də, onların hansı addımlar atacaqlarını da bilirlər və buna uyğun tədbirlərini görürlər. Təbiidir ki, əlaqədar dövlət qurumları da daim onlarla əlaqə saxlayırlar, baş verənlərlə bağlı onları məlumatlandırırlar. Amma lap onlar məlumatlandırılmasalar da belə hadisələrə çox həssas yanaşır. Bir azərbaycanlı kimi bunlar da bilirlər ki, hansı məqamda hansı addım atmaq lazımdır. Düşünürəm ki, diaspor təşkilatları ilə yanaşı vətəndaş cəmiyyəti də diqqətli olmalıdır. Azərbaycana qarşı ləkə atmaq istəyənlərin cavabı zamanında verilməlidir. Bu baxımdan, hesab edirəm ki, diaspor təşkilatlarımızın bu işin də öhtəsindən uğurla gələcək, onlar fəaliyyət göstərdikləri dövlətlərdə məsələnin mahiyyətini təqdim edəcəklər. Bu da əlbəttə, erməni yalanlarına zərbə vuracaq-"deyə R.Zeyni bildirdi.

**Bakı Xəbər.** - 2023.- 29 sentyabr. - № 175. - S. 8.

## Diaspor quruculuğu prioritet kimi

**Günel ABBAS**

Tarixin bütün dövrləri üçün aktual olan məsələlərdən biri də diaspor quruculuğu və lobbiçilikdir. Xüsusilə son illər, daha dəqiq desək, pandemiya və postpandemiya dövrlərində dünyanın bir çox ölkəsində ciddi qlobal dəyişikliklərin müşahidə olunduğu bir vaxtda diaspor və lobbiçilik bir qədər də aktuallaşdı. Ölkəmizdə diaspor quruculuğu və soydaşlarımızın azərbaycançılıq ideyası ətrafında birləşməsi, həmrəyliyi, yəni dünya azərbaycanlılarının təşkilatlanması ümummilli lider Heydər Əliyevin adı ilə birbaşa bağlıdır. Ümummilli Lider ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra xaricdə yaşayan həmvətənlərimizin diqqət mərkəzində olması, onların bir araya gəlməsi dövlətin əsas prioritetlərindən birinə çevrildi. Çünki həyatının müəyyən bir qismini işi ilə əlaqədar doğma Azərbaycandan kənarda yaşamağa məcbur olan Heydər Əliyev həmin insanların keçirdikləri hissləri də, onların düşüncələrini də hər bir kəsdən daha gözəl anlayırdı.

Ulu öndər Heydər Əliyev Azərbaycan diaspor cəmiyyətlərinə aid olan bütün məsələlərə hər zaman olduqca böyük həssaslıqla yanaşıb. Heydər Əliyev dünya azərbaycanlılarına müraciətində deyirdi: "Biz istərdik ki, müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar həmin ölkələrin vətəndaşları kimi yaşasınlar. Ancaq heç vaxt öz milli köklərini, milli mənsubiyyətlərini itirməsinlər. Çünki bizi birləşdirən milli mənsubiyyətimizdir, tarixi köklərimizdir, milli-mənəvi dəyərlərimizdir. Vətənini, millətini sevən hər bir azərbaycanlı müstəqilliyimizin dönməzliyi üçün ciddi səy göstərməli, vətənimizin, respublikamızın taleyi hər bir soydaşımızın taleyi olmalıdır".

### Təşkilatlanmanın uğurlu nümunəsi

Bu gün isə Ulu Öndərin layiqli davamçısı, Prezident İlham Əliyev tərəfindən Onun milli inkişaf strategiyası uğurla davam və inkişaf etdirilir. Qloballaşan, müasir dünyanın reallıqlarına, yeni geosiyasi vəziyyətlərə uyğun olaraq diaspor quruculuğu istiqamətində olduqca mühüm, əhəmiyyətli addımlar atılır. Bu istiqamətdə həyata keçirilən tədbirlər barədə söz açarkən ilk növbədə dövlət başçısının 5 iyul 2018-ci il tarixli fərmanı ilə Azərbaycan Diasporuna Dəstək Fondunun yaradılmasını xüsusi qeyd etmək lazımdır. Fond ötən illər ərzində 200-ə yaxın diaspor təşkilatının sənədlərinin həmin ölkələrin qanunvericiliyinə uyğun tərtib edilməsinə və qeydiyyatdan keçməsinə dəstək göstərib, 100-dən çox layihəni maliyyələşdirib.

Etiraf etmək lazımdır ki, dünyanın dörd bir yanında yaşayan soydaşlarımızın təşkilatlanmasının, vahid amal uğrunda sıx şəkildə birləşməsinin ən aydın nümunəsi 44 günlük Vətən müharibəsi dövründə müşahidə olundu. Məhz Zəfər tariximizin yazıldığı günlərdə dünya azərbaycanlıları ən müxtəlif vasitələrlə dövlətin yanında olduğunu göstərdi, Dəmir yumruğun ətrafında sıx birləşdi. Döyüş yalnız ön cəbhədə getmirdi. Arxa cəbhədə - informasiya müharibəsində də ən az cəbhədə olduğu qədər aktivlik müşahidə olunurdu. Ermənistan hər vəchlə dünya ictimaiyyətini aldatmağa çalışır, dezinformasiyalar yayırdı. Təbii ki, belə bir məqamda bütün vasitələrlə düşmən təxribatlarına cavab vermək hər bir azərbaycanlının vətəndaşlıq borcu idi. Məhz soydaşlarımızın birliyi, həmrəyliyi nəticəsində Azərbaycan bu sınaqdan da üzüağ çıxmağı bacardı - ön cəbhədə olduğu kimi, arxa cəbhədə də parlaq qələbəyə imza atdı.

Birliyimiz, həmrəylimiz bu gün də davam edir. Ali Baş Komandanın ətrafında birləşən xalqımız bu gün Qarabağımızda gedən təmir-bərpa, abadlıq-quruculuq işlərində böyük ruh yüksəkliyi ilə iştirak edir. İllərdir həsrətində olduğumuz mədəniyyət beşiyimiz - Şuşamız artıq bir çox yerli və beynəlxalq tədbirlərə, layihələrə, konsert və festivallara ev sahibliyi edir. Bu tədbirlər sırasında aprelin 22-də Şuşa şəhərində Dünya Azərbaycanlılarının V Qurultayı - Zəfər Qurultayının keçirilməsi də olduqca əlamətdar bir hadisədir.

### Həmrəylikdən qardaşlığa

Bu ilin fevral ayında qardaş ölkə Türkiyədə baş verən dəhşətli zəlzələdə də ölkə vətəndaşları daha bir həmrəylik nümunəsi ortaya qoydu. Təbii fəlakətin nəticələrinin aradan qaldırılması üçün hər bir azərbaycanlı meydana atıldı, qardaşına yardım əli uzatdı. Zəlzələ həm Türkiyə, həm də Azərbaycan tarixlərinə dəhşətli bir faciə kimi yazılmaqla bərabər, həm də dostluq, qardaşlıq, həmrəylik məfhumlarının ən parlaq nümunəsi kimi tarixə əbədi həkk oldu.

Məlumdur ki, hər il yüksək intellektə sahib olan minlərlə azərbaycan gənci təhsil almaq üçün ölkə xaricinə üz tutur. Son illər bu sahədəki inkişaf əvvəlki dövrdən müsbət mənada bir xeyli fərqlənir. Məhz son bir neçə il ərzində ölkə gəncləri dünyanın nüfuzlu ali təhsil müəssisələrindən qəbul qazanaraq həmin ölkələrdə Azərbaycanı layiqincə təmsil edirlər. Həmin tələbələr təhsil aldıqları ölkədə keçirilən mədəni tədbirlərdə ölkəmizin milli adət-ənənələrini, qədim tarixini nümayiş etdirməklə bərabər, həm də Azərbaycan gəncinin istedadını açıq şəkildə ortaya qoyurlar.

Bütün bunlar Azərbaycanda diaspor quruculuğu istiqamətində görülən işlərin uğurlu nəticəsi olmaqla bərabər, həm də qarşıdakı dövr üçün milli dəyərlərin daha da möhkəmlənməsinin, dünya azərbaycanlılarının indikindən də artıq həmrəy olacağının qarantıdır.

Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi" istiqaməti üzrə hazırlanmışdır

**Yeni Azərbaycan.-**2023.-10 oktyabr.-№184.-S.7.

# Heydər Əliyev və Azərbaycan diasporu

**Ağalar Abbasbəyli,**
**İsmayıl Əliyev,**
Bakı Dövlət Universitetinin professorları

***Azərbaycanda "diaspor" anlayışı ulu öndər Heydər Əliyev ikinci dəfə respublika rəhbərliyinə gələndən sonra yaranmağa başladı. Buna baxmayaraq, həmvətənlərimizin dünyanın müxtəlif ölkələrində məskunlaşması prosesi hələ bir neçə əsr əvvəllərdən başlanmışdı. Amma digər dünya xalqları ilə müqayisədə azərbaycanlılar doğma torpaqlarına daha çox bağlı olduqları üçün, onların vətəni tərk edib kənarda yaşamaları çətin olmuşdur. Bu gün "Azərbaycan diasporu" dedikdə xarici ölkələrdə yaşayan azərbaycanlılar nəzərdə tutulur. Başqa sözlə, Azərbaycan diasporu - taleyin hökmü və qonşu imperiyaların ekspansiyası ilə azərbaycanlıların bütün Yer kürəsinə yayılmış bir hissəsidir. Əgər təbii miqrasiyanı və ötən əsrlərdə baş vermiş hadisələr nəticəsində epizodik olaraq yerdəyişmələri nəzərə almasaq, azərbaycanlılar özlərinin tarixi ərazilərində həmişə sabit yaşamışlar.***

"Xaricdə yaşayan azərbaycanlılar" anlayışının təfsiri "Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" Azərbaycan Respublikasının Qanununda öz əksini tapmışdır. Bu qanuna əsasən, "xaricdə yaşayan azərbaycanlılar" anlayışı ölkəmizin hüdudlarından kənarda yaşayan Azərbaycan Respublikasının vətəndaşlarına və onların övladlarına, həmçinin bu kateqoriyaya aid olmayan, lakin etnik, dil, mədəniyyət və ya tarixi əlaqələr baxımından özünü Azərbaycana bağlı və ya azərbaycanlı hesab edən şəxslərə aid edilir.

XX əsrin əvvəllərində azərbaycanlıların xaricə axını daha geniş vüsət aldı. Qafqazda çar Rusiyasının antimüsəlman və antitürk siyasəti məqsədli şəkildə regionda azərbaycanlı əhalinin üstün mövqeyinin zəiflədilməsinə yönəlmiş və 1905-1906, 1918-ci illərdə ermənilər tərəfindən həyata keçirilən soyqırımı, etnik təmizləmə siyasəti də belə məkrli strateji niyyətlərdən törənmişdir.

1949-cu il fevralın 1-də Türkiyənin Ankara şəhərində "Azərbaycan Kültür Dərnəyi"nin təsis edilməsi dünyada Azərbaycan diasporunun təşkilatlanması sahəsində ilk addım oldu. Azərbaycan Xalq Cümhuriyyəti dövründə milli təhlükəsizlik naziri işləmiş Nağı bəy Şeyxzamanlının oğlu Saleh bəy Şeyxzamanlı 1958-ci ildə ABŞ-da "Amerikanın Azərbaycan cəmiyyəti"ni təsis etdi. Sonralar bu cəmiyyətə Saleh bəy Şeyxzamanlının nəvəsi Tomris Azəri rəhbərlik etmişdir. Bu hadisələr Azərbaycan diasporunun tarixində təşkilatlanma mərhələsinin məhz ötən əsrin ortalarından başladığını söyləməyə əsas verir. Həmin dövrə qədər soydaşlarımızı birləşdirən icma və birliklərin yaradılması ilə bağlı hər hansı fakta təsadüf olunmur.

İkinci Dünya müharibəsi dövründə və müharibədən sonra xaricdə yaşayan həmvətənlərimizin sayı əhəmiyyətli dərəcədə artmışdır. Bunlar hərbi əməliyyatlar zamanı əsir düşənlər və müharibədən sonra müxtəlif səbəblər üzündən Avropa ölkələrində məskunlaşan azərbaycanlılar hesabına olmuşdu. Sovet rejiminin amansız və qəddar cəza mexanizmləri, qanlı repressiyaları onların bir çoxunu geri qayıtmaqdan çəkindirmiş, beləliklə xaricdə yaşayan azərbaycanlıların sayı artmışdır.

Qeyd etmək lazımdır ki, son onilliklər ərzində təxminən 40 milyondan çox azərbaycanlının tarixən yaşadıqları İran ərazisindən də dünyaya mühacirət edənlərin sayı Azərbaycan Respublikasından gedənlərin sayından qat-qat çox olmuşdur.

Heydər Əliyevin 1969-cu ildə Azərbaycana rəhbərliyi dövründən etibarən respublikamızın həyatında, ictimai şüurun, milli özünüdərkin təşəkkülündə yeni bir mərhələ başlandı.

Keçən əsrin 70-ci illərinin əvvəllərindən başlayan milli dirçəlişin, iqtisadiyyatın, mədəniyyətin, elm və təhsilin inkişafı, mənəvi mühitin sağlamlaşdırılması bütövlükdə Azərbaycanda milli özünüdərkə təkan verdi. 70-80-ci illərdə Heydər Əliyev böyük qətiyyət, əzm və cəsarətlə xalqımızın tarixi yaddaşının qorunmasına, mədəniyyətimizin tərəqqisinə, Azərbaycanın bütün dünyada tanınmasına çalışırdı.

Heydər Əliyevin rəhbərliyi dövründə yüzlərlə həmvətənimiz SSRİ-nin ən nüfuzlu təhsil ocaqlarında təhsil almaq imkanı əldə etmişdi. Belə ki, keçmiş SSRİ məkanının 50-dən çox böyük şəhərinin 170-dən artıq ali təhsil ocağında elm, iqtisadiyyat, mədəniyyət, istehsalat və digər sahələri əhatə edən və ən zəruri ehtiyac duyulan 250-dən artıq ixtisas üzrə 15 mindən çox azərbaycanlı gənc təhsil almış və yüksək ixtisaslara yiyələnmişdir. Əlbəttə, bu kadrların bir çoxu yenidən Azərbaycana qayıtmış və ölkəmizin ümumi inkişafına öz töhfələrini vermişlər. Onların bir qismi isə təhsil aldıqları şəhərlərdə məskunlaşmışlar.

Dünya azərbaycanlılarının milli şüurunun güclənməsində Heydər Əliyevin Sovet dövlətinin rəhbərlərindən biri kimi Moskvadakı fəaliyyəti dövründə də xüsusi rolu olmuşdur. Həmvətənlərimiz dahi Liderin dünyamiqyaslı siyasi fəaliyyətini milli idrak və xarakterin parlaq təzahürü kimi qəbul edir, xalqımızın özünəinamı, özünüdərki və mütəşəkkilliyi güclənirdi.

Keçən əsrin 80-ci illərinin sonlarında SSRİ məkanında, imperiyanın sərhədləri çərçivəsində cərəyan edən hadisələr demokratik düşüncə tərzinin genişlənməsinə və milli azadlıq hərəkatlarının alovlanmasına stimul yaratmışdı. Azərbaycanda isə bu proses daha sürətlə gedirdi. Təsadüfi deyil ki, 1989-cu ildə azərbaycanlılar "dünyanın ən mübariz xalqı" adına layiq görülmüşdü. Erməni separatçılarının ölkəmizin ayrılmaz tərkib hissəsi olan keçmiş Dağlıq Qarabağda həyata keçirdikləri təxribatlar xalqımızın milli oyanışında, milli özünüdərk hissinin güclənməsində mühüm rol oynadı.

1990-cı il 20 Yanvar hadisələri isə Azərbaycan xalqının milli bütövlüyünü təsdiqləyən ən böyük hadisələrdən biri kimi tarixin yaddaşına əbədi həkk olundu. Bu faciə Azərbaycan xalqını bir yumruq kimi birləşdirdi və bütün dünya azərbaycanlılarının həmrəyliyini göstərdi. Belə bir mürəkkəb və çətin vəziyyətdə Moskvada yaşayan, vətəndaş qeyrəti və həqiqi vətənpərvərliyindən doğan cəsarətli bəyanatı ilə Heydər Əliyev dünya azərbaycanlılarını ayağa qaldırdı, Azərbaycan xalqının siyasi iradəsini ifadə və bəyan etdi. Dünya azərbaycanlılarının bir millət kimi mütəşəkkilliyinə təkan verən bu bəyanat həmvətənlərimizi xalqın gələcək taleyi üçün tarixi məsuliyyəti daşımaq qüdrətində olan yeganə siyasi xadim və milli lider Heydər Əliyevin ətrafında birləşdirdi.

Hazırda dünyanın əksər ölkələrində 300-ə yaxın Azərbaycan icma və birlikləri fəaliyyət göstərir və diasporumuzun təşkilatlanması prosesi bu gün də uğurla davam edir. Ayrı-ayrı fəaliyyət göstərən çoxsaylı cəmiyyət və birliklər bir araya gələrək Azərbaycan federal birlikləri yaradıblar. Bunlardan Ukrayna Azərbaycanlıları Konqresini, Rusiya Azərbaycanlılarının Federal Milli-Mədəni Muxtariyyətini, Almaniya Azərbaycan Cəmiyyətləri Federasiyasını, İsveç-Azərbaycan Federasiyasını, Qazaxıstan, Qırğızıstan və Özbəkistan azərbaycanlılarının "Turan" Konqresini, Qırğızıstanda "Azəri" İctimai Birliyini və s. misal göstərə bilərik. Bu cəmiyyət və birliklər fəaliyyət göstərdikləri ölkələrlə Azərbaycan arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı, həmvətənlərimizin təşkilatlanması, onların tarixi Vətəni Azərbaycan ilə əlaqələrin möhkəmləndirilməsi sahəsində əhəmiyyətli işlər görə bilmişlər. Diasporla İş üzrə Dövlət Komitəsi Azərbaycan diasporunun daha mütəşəkkil qüvvəyə çevirmək məqsədilə yeni cəmiyyət və birliklərin yaradılmasına müntəzəm olaraq diqqət yetirir. Nəticədə yeni icma və birliklərin yaradılması tendensiyası digər ölkələri də əhatə edir. Beləliklə Belarus Azərbaycan İcmaları Konqresi, Moldova Azərbaycanlıları Konqresi, Özbəkistan Azərbaycan Mədəniyyət Mərkəzləri Assosiasiyası, Azərbaycan-Norveç Assosiasiyası öz fəaliyyətlərini vahid mərkəzdə birləşdirərək Azərbaycan federal birliklər sırasına qatılmışlar. Bu Federal birliklər dünyada Azərbaycan diasporunun təşkilatlanması və fəallıqlarının artırılması üçün zəruri tədbirlər görür, üzərlərinə götürdükləri vəzifələrin öhdəsindən layiqincə gəlməyə çalışırlar.

Bu gün Avropada, Şimali və Cənubi Amerikada, MDB məkanında və bir çox ölkələrdə, o cümlədən Özbəkistan, Qırğızıstan, Norveç, Niderland, Almaniya, İspaniya, İtaliya, Belçika, Bolqarıstan, Çexiya, Finlandiya, Estoniya, Polşa, Birləşmiş Ərəb Əmirlikləri, Misir Ərəb Respublikası, Türkiyə və ABŞ-da 460-dan çox Azərbaycan icmaları yaradılmışdır. Yeni Azərbaycan icma və birliklərinin təsis edilməsi Azərbaycanın çağdaş diaspor quruculuğu işinin uğurları kimi qiymətləndirilməyə layiqdir.

Azərbaycanlıların ilk miqrasiyası XIX əsrin əvvəllərində baş verən faciəli hadisələr nəticəsində başlamış və xalqımıza böyük fəlakətlər gətirmişdi. Şimaldan və cənubdan iki qonşu imperiya nə qədər mümkündürsə, xalqımızı köçürməyə və fiziki cəhətdən məhv etməyə çalışmışlar.

Azərbaycanlıların ilk qaçqınlıq dövrü XIX əsrin ilk illərindən başlayaraq 10 il davam edən birinci Rusiya-İran müharibəsi (1804-1813) dövründə başladı. Bu dövrdə yalnız Qarabağın dağlıq hissəsindən 3 min azərbaycanlı ailəsi qaçqın düşdü, 7 min insan isə Azərbaycandan kənara köçürüldü.

Tarixi Azərbaycanın ərazisini Rusiya ilə İran arasında bölən 1813-cü ilin 12 oktyabrda Rusiya İmperiyası ilə Qacar İran dövləti arasında imzalanmış, Gülüstan müqaviləsinin şərtlərinə əsasən Şimali Azərbaycan xanlıqlarından İrəvan və Naxçıvanı çıxmaqla, yerdə qalan bütün xanlıqlar - Lənkəran, Şirvan, Quba, Bakı, Gəncə, Qarabağ, Şəki Rusiyaya verilir.

Türkmənçay sülh müqaviləsi isə Qacarlar ilə Rusiya imperiyası arasında 10 fevral 1828-ci ildə Təbriz yaxınlığındakı Türkmənçay kəndində imzalanan və ikinci Rusiya-İran müharibəsini (1826-1828) bitirən müqavilədir. Bu müqaviləyə əsasən Gülüstan sülh müqaviləsində Rusiyaya keçən ərazilərdən başqa İran, İrəvan, Naxçıvan və Talış xanlığının özlərinə də qalmış hissəsinin də Rus imperiyasının ərazisi olduğu

qəbul edilirdi. İki imperiya arasında sərhəd isə Araz çayı idi. Rusiyaya keçən torpaqlar hazırkı Ermənistan Respublikasının ərazisini, Naxçıvan Muxtar Respublikasının ərazisini, Azərbaycan Respublikasının cənub bölgəsinin bir hissəsini və indi Türkiyə Cümhuriyyətinin ərazisi olan İğdır bölgəsini əhatə edirdi.

Rusiyanın qələbəsi ilə bitən müharibədən sonra bütün şərtlər Rusiya tərəfindən diktə edilmişdir. Hətta general Paskeviç İran nümayəndələrinə bildirmişdi ki, Rusiyanın təklif etdiyi şərtlərlə razılaşmazlarsa Rus ordusu Tehranı tutacaqdır. 1991-ci ildə Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra Türkmənçay müqaviləsinin Azərbaycan üçün hökmü aradan qalxdı və müqavilə öz əhəmiyyətini itirdi. Belə tarixi hadisələri erməni şovinistləri yaddan çıxarmasalar onlar üçün faydası olar.

1828-ci il Türkmənçay müqaviləsindən sonra minlərlə erməni İran və Türkiyədən Qarabağ, İrəvan və Naxçıvan xanlıqlarına köçməyə başladı. 1886-cı ildə Gəncə (Yelizavetpol) quberniyasının Zəngəzur qəzasındakı 326 kənddən 154-ü azərbaycanlı kəndi (45,7%), 91-i kürd kəndi (27,8%) idi. 1813-cü il Gülüstan və 1828-ci il Türkmənçay müqavilələrindən sonra isə Zəngəzura 81 erməni kəndi (24,8%) köçürüldü. 1800-cü illərin əvvəllərinə kimi Zəngəzurda erməni adında nəinki bir tayfa, ailə, hətta bir adam da yaşamayıb.

Bütün bunlar XIX əsrin sonunda Cənubi Qafqazda azərbaycanlıların sayının kəskin azalmasına gətirib çıxardı. Bu isə çarizmin azərbaycanlıları öz doğma yurdlarından köçürmə siyasəti idi. Bu siyasət azərbaycanlıların Avropa, Amerika, Yaxın Şərq və s. ölkələrə köçmələrinə səbəb oldu. İndi Azərbaycan Respublikasında 10,2 milyona yaxın, Cənubi Azərbaycanda - İran İslam Respublikasında isə 40 milyondan çox soydaşımız yaşayır. 10 milyonadək soydaşımız isə doğma torpaqlardan uzaqlarda - ABŞ-da, İraqda, Almaniyada, Fransada, Cənubi Afrikada, Gürcüstanda, İngiltərədə, Kanadada, Rusiyada, Avstraliyada, Baltikyanı və Skandinaviya ölkələrində, Mərkəzi Asiyada və digər ölkələrdə yaşayır.

**Respublika.** - 2023.- 11 oktyabr. - № 221. - S. 3.

# Heydər Əliyev və Azərbaycan diasporu

**Ağalar Abbasbəyli,**
**İsmayıl Əliyev,**
Bakı Dövlət Universitetinin professorları

*(əvvəli ötən sayımızda)*

Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə Azərbaycan xalqına müraciətində demişdir: "Bir il əvvəl Yeni il bayramı münasibətilə Azərbaycan xalqına müraciət edərkən demişdim ki, əminəm, 2022-ci il də ölkəmiz üçün uğurlu olacaq. Belə də oldu. Qarşımızda duran bütün vəzifələr icra edildi, Azərbaycan daha da gücləndi. İki il əvvəl döyüş meydanında qazandığımız tarixi Qələbəmizi siyasi müstəvidə daha da möhkəmləndirdik. Bu ilin oktyabr ayında Praqa və Soçi görüşlərində Ermənistan ölkəmizin ərazi bütövlüyünü və suverenliyini rəsmən tanıdı. Hesab edirəm ki, bundan sonra Azərbaycan ilə Ermənistan arasında sülh müqaviləsinin imzalanması üçün bütün şərtlər təmin edildi və Azərbaycan tərəfindən təklif olunmuş məlum beş prinsip əsasında sülh müqaviləsi imzalana bilər. Bu il biz hərbi gücümüzü daha da artırmışıq, bu sahəyə daim böyük diqqət göstərilir. Azərbaycan həm İkinci Qarabağ müharibəsi dövründə öz hərbi gücünü göstərmişdir, eyni zamanda, müharibədən keçən iki il ərzində biz aparılan islahatlar nəticəsində, yeni silahlı birləşmələrin yaradılması nəticəsində, silahlar və müasir texnika ilə ordumuzu təchiz etməyimiz nəticəsində daha da böyük hərbi potensiala malik olduq...

Bu il Şuşada keçirilmiş Dünya Azərbaycanlılarının Qurultayı tarixi hadisə idi. Bu qurultayın məhz Şuşada keçirilməsi çox böyük rəmzi məna daşıyırdı. Necə ki, Azərbaycan cəmiyyəti, Azərbaycan vətəndaşları bir yumruq kimi birləşib, əminəm, dünya azərbaycanlıları, onların mütləq əksəriyyəti də eyni yanaşma göstərəcəklər. Hər halda güclü Azərbaycan dövləti onlar üçün böyük dayaqdır".

Ümummilli lider Heydər Əliyev "Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi haqqında" 23 may 2001-ci il tarixli, 724 nömrəli Sərəncam imzalamışdır. Sərəncama əsasən, Dünya Azərbaycanlılarının I Qurultayı 2001-ci il noyabr ayının 9-10-da Bakı şəhərində keçirilmişdir. I Qurultayda 36 xarici dövlətdə yaşayan həmvətənlərimizin cəmləşdiyi 200-dən çox müxtəlif təşkilatı təmsil etməklə 406 nümayəndə və 63 qonaq iştirak etmişdi. Qurultay iştirakçıları planetimizin geniş coğrafi məkanını əhatə edən ABŞ, Türkiyə, Rusiya, Böyük Britaniya, Kanada, Almaniya, Fransa, Gürcüstan, Avstriya, Rumıniya, İsveçrə, Avstraliya, Özbəkistan, Ukrayna, Estoniya, Latviya, Moldova, Qazaxıstan, Danimarka, Hollandiya, Finlandiya, Belarus, İsrail və s. dövlətləri təmsil etmişdilər.

Azərbaycan Respublikası qurultayda 130-dan çox müxtəlif dövlət və ictimai qurumlardan, elm, təhsil, mədəniyyət və digər yaradıcı təşkilatlardan, 25 siyasi partiyadan 702 nümayəndə və 844 qonaq ilə təmsil olunmuşdur. Qurultayda Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının üzvləri müəyyənləşdirilmiş və Heydər Əliyev Şuranın sədri seçilmişdir.

Qurultay xaricdə yaşayan azərbaycanlıların ümumi məqsəd, vahid "azərbaycançılıq" ideyası ətrafında birləşməsi yolunda mühüm əhəmiyyət kəsb etmiş, diaspor hərəkatının tarixində keyfiyyətcə yeni mərhələnin - quruculuq və təşkilatlanma mərhələsinin əsasını qoymuşdur. Qurultay nümayəndələrinin təklifləri nəzərə alınaraq, disaporla iş sahəsində dövlət siyasətinin həyata keçirilməsini təmin etmək üçün Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi yaradılmışdı. 2002-ci ilin dekabrında qəbul olunmuş "Xarici ölkələrdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" qanun bu sahədəki prioritet istiqamətləri və hüquqi prinsipləri müəyyən etmişdi.

Ümummilli lider Heydər Əliyev qurultay zamanı öz çıxışında təkcə milli birliyə nail olmağın yolunu deyil, eyni zamanda onu qorumağın yollarını da göstərərək demişdir:

"Sizdən çox şey tələb olunmur. Sadəcə, Siz unutmamalısınız ki, dünyada müstəqil Azərbaycan dövləti var. Unutmamalısınız ki, bu torpaq bütün azərbaycanlıların doğma torpağıdır. Unutmamalısınız ki, Azərbaycan dövləti mümkün olan çərçivədə hər birinizin hüquqlarınızın qorunması üçün lazımi işlər görəcəkdir və bilməlisiniz ki, biz dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar haqqında daim düşünürük, maraqlanırıq, hər bir həmvətənimizin yaxşı, firavan yaşamasını istəyirik, yaşadığı ölkədə özünəlayiq yer tutmasını istəyirik. Azərbaycanlı həmvətənlərimiz, həmyerlilərimiz gərək yaşadığı hər yerdə digər xalqlara, millətlərə, yaşadıqları ölkənin vətəndaşlarına daim çatdırsınlar ki, bu gün Azərbaycan nədir, Azərbaycanın keçmişi nə olubdur, Azərbaycanın bu günü nədir, Azərbaycanın gələcəyi nədir?!".

2001-ci il noyabrın 9-da, qurultayın ilk iş günündə ümummilli lider Heydər Əliyev geniş nitq söyləyərək, Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi yolunda həyata keçirilən tədbirlər və qarşıda duran vəzifələr barədə ətraflı bəhs etmişdir. Ulu Öndər dünya azərbaycanlıları arasında milli birliyin və həmrəyliyin təmin edilməsi, Azərbaycan dövləti ilə dünya azərbaycanlılarının əlaqələrinin möhkəmləndirilməsi, qarşıya çıxan problemlərin həllində səylərin birləşdirilməsi zərurəti, Azərbaycan dilinin və milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması və inkişaf etdirilməsi haqqında öz fikirlərini söyləmişdir.

Dünya Azərbaycanlılarının tarixi I Qurultayında aşağıdakı 5 sənəd qəbul olunmuşdur:

- Dünya Azərbaycanlılarının I Qurultayının qətnaməsi;
- Dünya Azərbaycanlılarının I Qurultayı nümayəndələrinin bütün dünya azərbaycanlılarına müraciəti;
- Dünya Azərbaycanlılarının I Qurultayı iştirakçılarının Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ problemi ilə əlaqədar dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara, xarici ölkələrin hökumət rəhbərlərinə və parlamentlərinə müraciəti ;
- Dünya Azərbaycanlılarının I Qurultayının Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevə müraciəti;
- Dünya Azərbaycanlılarının I Qurultayı nümayəndələrinin 2001-ci il sentyabrın 11-də Amerika Birləşmiş Ştatlarında törədilmiş qanlı terror hadisələri ilə bağlı Amerika xalqına müraciəti.

31 dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün təsis edilməsi ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Məhz ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1991-ci il, dekabr ayının 16-da Naxçıvan Muxtar Respublikasının Ali Məclisi "Dünya azərbaycanlılarının həmrəylik və birlik günü haqqında" tarixi qərar qəbul edərək dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan etdi.

Azərbaycan parlamenti 1992-ci il dekabrın 31-nin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi qeyd olunmasına dair qərar qəbul etdi. 1993-cü ildə isə Azərbaycan Prezidentinin fərmanı ilə 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi rəsmi bayram günü elan edildi.

Azərbaycanda başlayan milli-azadlıq mübarizəsinin ən gərgin vaxtında ulu öndər Heydər Əliyev dünya azərbaycanlılarının vahid ideya ətrafında birləşdirilməsinin Azərbaycanın gələcəyi üçün tarixi və strateji önəm daşıdığını uzaqgörənliklə qeyd edirdi. Həmin dövrdə ümummilli lider Heydər Əliyev tərəfindən irəli sürülmüş "azərbaycançılıq" ideyası Azərbaycanın dünya birliyinə inteqrasiyasının təməl sütunlarından biri kimi müəyyənləşdirildi.

Beləliklə, Dünya Azərbaycanlılarının tarixi I Qurultayında dünyanın 70-dən çox ölkəsinə səpələnən 50 milyondan çox azərbaycanlının vahid "azərbaycançılıq" ideyası ətrafında birləşdirilməsinin və milli diasporumuzun formalaşdırılmasının əsası qoyuldu.

31 dekabr Azərbaycan millətinin birlik şüarının simvolik günüdür. Bu bayram ayrı-ayrı ölkələrdə yaşayan azərbaycanlılarla əlaqələr qurmaq, onlar arasında birlik və həmrəylik yaratmaq işində mühüm rol oynayır. Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün qeyd edilməsi bütün dünya azərbaycanlıları arasında artıq bir zərurətə və mənəvi tələbata çevrilmişdir. Ulu öndər Heydər Əliyevin "azərbaycançılıq" ideyasının dünya azərbaycanlılarının həmrəyliyinin təmin edilməsində güclü diaspor təşkilatının formalaşdırılmasına və onların Azərbaycan dövləti ətrafında daha sıx birləşməsinin vacibliyinə diqqəti cəlb edərək, Dünya Azərbaycanlılarının I Qurultayında dediyi: "Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır, azərbaycançılıqdır. Öz ürəyimdən gələn fikirləri bir daha bildirmək istəyirəm ki, hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!!!",- dahiyanə fikirləri gündən-günə daha çox önəm daşıyır.

Dünya Azərbaycanlılarının tarixi I Qurultayının xaricdə yaşayan azərbaycanlıların müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, dünya azərbaycanlıları arasında birliyin və həmrəyliyin təmin olunması, habelə Azərbaycan icmaları, cəmiyyət və birliklərinin fəaliyyətinin genişləndirilməsi ilə bağlı məsələlərin müzakirə edildiyi ən yüksək səviyyəli tədbir idi.

Dünya Azərbaycanlılarının II Qurultayı Prezident İlham Əliyevin Sərəncamına əsasən 2006-cı ildə, III Qurultay 2011-ci ildə, IV qurultay 2016-cı ildə Bakı şəhərində keçirilmişdir.

2006-cı il martın 16-da Bakıda keçirilmiş Dünya Azərbaycanlılarının II Qurultayı diaspor quruculuğu prosesində irəliyə doğru növbəti addım olmuşdur. Qurultayda qəbul olunmuş sənədlər - Dünya Azərbaycanlılarının II Qurultayının qətnaməsi, qurultayın Azərbaycan Respublikası Prezidentinə və dünya azərbaycanlılarına müraciətləri, keçmiş Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara, xarici ölkələrin parlamentlərinə, dövlət və hökumət

başçılarına, BMT-nin Təhsil, Elm və Mədəniyyət Məsələləri üzrə Təşkilatına (YUNESKO), Azərbaycan və türk diaspor təşkilatlarına müraciətləri xaricdə yaşayan azərbaycanlıların qurultaydan sonrakı müddətdə konkret fəaliyyət proqramı olmuşdur. Qurultayda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının sədri seçilmişdir.

Dünya Azərbaycanlılarının II Qurultayına ümumilikdə 1231 nümayəndə qatılmışdır. Qurultayda 49 xarici ölkədən 593 nümayəndə və 388 nəfər qonaq iştirak etmişdi. Tədbirdə Azərbaycan Respublikası 27 dövlət və hökumət qurumlarından, ictimai təşkilatlardan, elm, təhsil, mədəniyyət müəssisələri və yaradıcı təşkilatlardan, siyasi partiyalardan 638 nümayəndə və 625 qonaq ilə təmsil olunmuşdu.

Dünya Azərbaycanlılarının III Qurultayı 2011-ci il iyul ayının 5-6-da Bakı şəhərində keçirilmişdir. III Qurultayın dünya azərbaycanlılarına, keçmiş Dağlıq Qarabağ münaqişəsi ilə bağlı xarici ölkə parlamentlərinə müraciətləri qəbul olunmuşdu. Qurultayda Azərbaycan Respublikasının bütün bölgələrindən olan nümayəndələr də iştirak etmişdir. Azərbaycan Respublikasının tarixində mühüm rol oynayan qurultayın işini 21 xarici ölkədən respublikamızda fəaliyyət göstərən kütləvi informasiya vasitələrinin 163 nümayəndəsi işıqlandırmışdır. Bu mötəbər tədbirdə xarici ölkələrdən nümayəndə və qonaq qismində 102 nəfər gənc iştirak etmişdi.

Azərbaycan Prezidenti İlham Əliyev yenidən Dünya Azərbaycanlıları Əlaqələndirmə Şurasının sədri seçilmişdir. Əlaqələndirmə Şurası üzvlərinin sayı 107 nəfərdən 115-ə çatmışdır.

Dünya Azərbaycanlılarının IV Qurultayı 2016-cı il 3-4 iyun tarixində növbəti dəfə Bakı şəhərində keçirilmişdir. Dünya Azərbaycanlılarının IV Qurultayında 49 ölkədən 500-dən çox diaspor nümayəndəsi və qonaq iştirak etmişdir. Qonaqların içərisində xarici ölkələrin Azərbaycana dost münasibəti ilə tanınan nüfuzlu siyasətçiləri, ictimai xadimləri, elm adamları və bir neçə ölkənin yüksəkvəzifəli şəxsləri, parlament üzvləri də olmuşdur. Xaricdən dəvət edilən qonaqlarla yanaşı, Qurultayın işində Azərbaycanın müxtəlif dövlət və hakimiyyət strukturları, qeyri-hökumət təşkilatları, elm, təhsil, mədəniyyət və digər yaradıcı qurumların, siyasi partiyaların təmsilçilərindən ibarət 360 nəfərlik nümayəndə heyəti iştirak etmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qurultayın açılış mərasimində iştirak etmiş və nitq söyləmişdir. Daha sonra Qurultay "Müasir dövrdə informasiya müharibəsi - müdafiədən hücuma: şərtlər, siyasi reallıqlar və yeni fəaliyyət mexanizmləri", "Keçmişin təcrübəsi və müasir düşüncə - Azərbaycan diaspor hərəkatında gənclər: yeni baxış və yeni strategiya", "Lobbi quruculuğu: dəyişən geosiyasi reallıqlar yeni qlobal iqtisadi tendensiyalar kontekstində", "Cəmiyyətə inteqrasiya və siyasi həyatda iştirak" mövzularında panel iclasları ilə davam etmişdir.

İştirakçılar qurultayın qətnaməsini, qurultay nümayəndələri adından Prezident İlham Əliyevə müraciəti, dünya azərbaycanlılarına ünvanlanan müraciəti, qurultay nümayəndələri adından keçmiş Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara, xarici ölkələrin hökumət başçılarına və parlamentlərinə müraciəti, qurultayın Ermənistanda yerləşən "Metsamor" Atom Elektrik Stansiyasının fəaliyyəti ilə bağlı BMT-nin Beynəlxalq Atom Enerjisi Agentliyinə, Avropa İttifaqına və dünya ictimaiyyətinə müraciətini yekdilliklə qəbul etmişlər.

**Respublika**. - 2023.- 12 oktyabr. - № 222. - S. 5.

# Heydər Əliyev və Azərbaycan diasporu

**Ağalar Abbasbəyli,**
**İsmayıl Əliyev,**
Bakı Dövlət Universitetinin professorları

***(əvvəli ötən saylarımızda)***

Dünya Azərbaycanlılarının V Qurultayı isə 2022-ci il aprel ayının 22-23-də 30 ilə yaxın erməni faşistlərinin işğalı altında olub, yenicə işğaldan azad olmuş Azərbaycanımızın dilbər guşəsi Şuşa şəhərində keçirilmişdi. İki gün davam edən Zəfər Qurultayında 65 ölkədən 400 nəfərə yaxın diaspor nümayəndəsi iştirak etmişdi. Əvvəlcə Bakı şəhərində Fəxri Xiyabanı, I və II Şəhidlər Xiyabanını ziyarət edən qurultay iştirakçıları, daha sonra Şuşa şəhərinə yola düşmüşlər.

Əfsuslar olsun ki, totalitarizm və diktaturanın uzun sürən illəri ərzində 70 il məcburən Azərbaycanın da daxil olduğu keçmiş SSRİ-də qardaş qardaşının vətəndən kənarda olduğunu, ana doğma övladının xaricdə yaşadığını gizlədirdi. Bütün anketlərdə belə bir sual qoyulurdu: xaricdə qohumunuz varmı? Bu sual "Domokl qılıncı" kimi hər bir azərbaycanlının başı üzərində dururdu. Və bizim əksəriyyətimiz əzizlərini və qohumlarını zərbə altında qoymamaq üçün ürək ağrısı ilə "xeyr" yazırdıq. Bu səbəbdən, azərbaycanlılar xaricdə yaşayan doğmaları ilə əlaqə saxlaya bilmirdilər.

Totalitarizm dövründə yalnız bu hüquqdan ermənilər öz xeyirlərinə istifadə edirdilər. SSRİ-nin dağılmasından 50 il öncə hələ Böyük Vətən müharibəsindən bəri Sov.İKP MK Siyasi Bürosu və Sovet hökumətinin icazəsi ilə Ermənistanda erməni diasporu ilə əlaqələr üzrə Dövlət Komitəsi fəaliyyət göstərirdi. Bu hüquqdan azərbaycanlılar, ukraynalılar, çeçenlər, pribaltikalılar və SSRİ ərazisində yaşayan digər bütün başqa xalqlar məhrum idilər.

Yalnız Azərbaycanda dövlət müstəqilliyinin bərpa olunmasından sonra vəziyyət dəyişdi və doğma vətənlərindən kənarda yaşayan milyonlarla azərbaycanlı ilə əlaqə qurmağa imkan yarandı. Bu işdə isə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin rolu əvəzsizdir. Hələ Naxçıvan Muxtar Respublikasının rəhbəri işləyərkən Heydər Əliyev hər il başqa ölkələrdə yaşayan azərbaycanlıların həmrəylik gününün keçirilməsi təşəbbüsü ilə çıxış etmişdi. Ulu öndər Heydər Əliyevin bu təşəbbüsü respublika əhalisi və xaricdə yaşayan həmvətənlərimiz tərəfindən böyük razılıqla qarşılandı. Bütün bunlar hər il yeni il qabağı azərbaycanlıların təntənə ilə həmrəylik gününün qeyd olunmasına gətirib çıxardı.

İ.V.Stalinin imzaladığı SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 saylı qətnaməsi 1947-1950-ci illərdə Ermənistan SSR-in azərbaycanlı əhalisinin tarixi-etnik torpaqlarından məcburi köçürülməsi və etnik təmizləməsi kimi qiymətləndirilir. Mir Cəfər Bağırov 100 min azərbaycanlının Ermənistandan deportasiya edilməsinə bacardığı qədər müqavimət göstərmişdir. Amma nəticədə, ÜİK(b)P MK-nın Siyasi Bürosu Bağırovun xəbəri olmadan onun "məzuniyyəti haqqında" qərar qəbul edir və 14 dekabr 1947-ci il tarixindən onu məcburi, Kreml xəstəxanasında "müalicə keçmək" bəhanəsi ilə 4,5 ay müddətinə "məzuniyyətə" göndərirlər. 23 dekabr 1947-ci ildə "Kolxozçuların və başqa azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" qətnamə qəbul edilir.

Deportasiya üçün lazımi vəsaitin və maddi-texniki yardımın ayrılması sənəd üzərində nəzərdə tutulsa da, demək olar ki, bu, həyata keçirilməmişdir. Həmçinin deportasiya edilənlərin heç olmasa, öz yaşadıqları yerin iqliminə bənzər regiona köçürülmə istəkləri də rədd edilmişdir. Sənəd üzərində prosesin könüllülük əsasında həyata keçirilməsi nəzərdə tutulsa da, dövlətin gücü hesabına, hətta bəzən zorakılıqla həyata keçirilmişdir. Çünki bu qətnamə ÜİK(b)P MK-nın katibi və SSRİ Nazirlər Sovetinin sədri İ.V.Stalin tərəfindən imzalanmışdır. İkiüzlülüyün həddi-hüdudu yox idi, guya azərbaycanlılar tarixən, əsrlər boyu məskunlaşdıqları və yaşadıqları yerlərdən "könüllü" şəkildə Kür-Araz ovalığına köçürdülər. Yalnız Zəngəzur mahalının Meğri rayonunun Nüvədi kəndində yaşayan azərbaycanlılar "...yoldaş Stalin deyib ki, bu könüllüdür" - ifadəsindən istifadə edib, ciddi müqavimət göstərərək onlar üçün Mingəçevirdə ayrılan əraziyə köçməmişlər.

Daha sonra Gürcüstanda yaşayan azərbaycanlıların köçürülməsinə başlandı. 11 oktyabr 1949-cu ildə ÜİK(b)P MK-nın Siyasi Bürosu "İran təbəələrinin, yəni azərbaycanlıların Gürcüstan SSR-dən Qazaxıstanın Cambul vilayətində əbədi məskunlaşmaq üçün köçürülməsi" haqqında qətnamə qəbul etdi. Qətnamədə

Ermənistandan 100 min azərbaycanlının 1948-1950-ci illərdə Kür-Araz ovlağına köçürülməsi nəzərdə tutulurdu. Sənədin məqsədi xaricdə yaşayan ermənilərin azərbaycanlıların qovulduğu dədə-baba torpaqlarında məskunlaşması üçün şəraitin yaradılması olmuşdu. Bununla da öz dədə-baba yurdunda, Qərbi Azərbaycanda yaşayan azərbaycanlıların tarixi faciəsinin yeni mərhələsi başlamışdır. "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" SSRİ Nazirlər Sovetinin 4083 nömrəli xüsusi qərarına əsasən insanları Ermənistandan mal-qara üçün nəzərdə tutulmuş vaqonlarında daşıyırdılar. Biz uşaq idik və Bakı dəmir yolu vağzalına gedərək bu insanların hansı şəraitdə olmasını gözümüzlə görürdük. Biz onlara çörək, su, meyvə aparırdıq. Bütün bu hadisələr, 1947-ci ildən sonrakı dövrdə, yəni SSRİ-də ərzaq mallarına tətbiq olunan kart sistemi ləğv edildikdən sonra baş vermişdir. İnsanlar tamamilə halsız idilər, ölülərə bənzəyirdilər, sanki konslagerdən çıxmışdılar, onlar çox arıq, əyinlərindəki paltarlar isə cırıq idi. Uşaqlar ağlayırdı, onları görüb biz də ağlayırdıq.

Hazırda bir çox ölkələrdə Azərbaycan diasporunun formalaşması və təşkili Heydər Əliyevin adı ilə bağlıdır. Rəsmi səfərlə hansı ölkədə olsa, Heydər Əliyev həmişə, Azərbaycan diaspor nümayəndələri ilə görüşməyə vaxt tapırdı. Onun ABŞ-da, Almaniyada, Fransada, Belçikada, Rusiyada, Türkiyədə, Qazaxıstanda, Özbəkistanda, Gürcüstanda görüşləri xüsusilə diqqətəlayiq olmuşdur. Bu görüşlər bütün dünyaya yayılmış azərbaycanlıların milli-mənəvi səfərbərliyinə təsir edirdi. Azərbaycan dövlətinin başçısı Azərbaycan diasporunun vacibliyindən, təşkilatlanmasından danışarkən onun formalaşma istiqamətlərini də müəyyən edirdi. Bu istiqamətdə 1995-ci il dekabrın 30-da Dünya Azərbaycanlılarının Həmrəylik günü münasibətilə edilən müraciət xüsusi əhəmiyyət kəsb edir. Həmvətənlərimizə müraciət edərkən Heydər Əliyev demişdir: "Bu əhəmiyyətli gündə bir daha sizi əmin etmək istəyirəm ki, Azərbaycanın qapıları öz övladları üçün həmişə açıqdır".

Xaricdə yaşayan həmvətənlərimizin problemləri Azərbaycan Respublikası xarici siyasətinin ayrılmaz hissəsini təşkil edir. Keçmişdə bu sahədə çox səhvlərə yol verilib, indi Azərbaycan diasporunun problemləri suveren dövlətimizin xarici siyasətində əsas prioritetlərdəndir.

Dünyadakı ən güclü diasporlardan biri də erməni diasporudur. Erməni diasporları ABŞ-da, Latın Amerikası ölkələrində, xüsusən də Argentinada, Fransada, Livanda, Suriyada, İranda və s. ölkələrdə güclü maliyyə - iqtisadi mövqeyə malik olduqlarından bu ölkələrin həyatının bir çox sahələrinə təsir edirlər. Onlar daha irticaçılıqla və həyasızlıqla fəaliyyət göstərirlər ki, bu da özünü Prezidentimizin ABŞ-a rəsmi səfəri zamanı daha qabarıq göstərdi. Belə ki, erməni diasporu və erməni lobbisi bu görüşü pozmağa çalışırdılar. Onlar bir çox təşəbbüs qrupu və komitələr yaratdılar ki, ABŞ hakimiyyət dairələrinə bu səfərin təxirə salınması üçün təzyiq göstərsinlər. Lakin Azərbaycan Prezidenti Heydər Əliyev özünün siyasi məharəti ilə amerikalıları valeh, erməniləri isə məyus etdi. Erməni diasporu bir çox ölkələrdə bütün ermənilərin müdafiəsi şüarı adı altında çıxış edir. Bu məqsədlə onlar Ermənistan Respublikası ilə daim əlaqə saxlayırlar. Erməni diasporu yaşadıqları ölkələrdə, həmçinin terrorçular hazırlayıb, on illərdir türk vətəndaşlarına qarşı fəaliyyət göstərirlər. Onlar Fransada, Almaniyada, Yunanıstanda, İtaliyada, ABŞ-da və s. ölkələrdə yüzlərlə türk diplomatlarını, iş adamlarını, türkün məşhur övladlarını öldürmüşlər.

1987-1988-ci illər avantürasının lap başlanğıcında yüzlərlə erməni terrorçusu Livandan, Suriyadan və başqa ölkələrdən Azərbaycanın Qarabağ bölgəsinə göndərilmişdi. 1990-cı il yanvarın 24-də Fransanın "Dyu dillanş" jurnalı yazırdı: "Son həftə ərzində Livandan Yerevana ağır silahlarla yüklənmiş təyyarələr gəlməkdə davam edir. Bu quldur dəstələrinin başında Beyrutdan və Dəməşqdən gəlmiş erməniləri tez-tez görmək olar. Onlardan çoxu Livan terrorçuları ilə çox yaxındır. Onların əksəriyyəti sərhəd rayonlarına göndərilib, belə faktlar xarici mətbuatda yüzlərlədir".

Erməni diasporunun fəaliyyəti əsasən Türkiyəyə, Türk dünyasına qarşı mübarizə üzərində qurulub.

Bu gün Azərbaycan diasporu ölkə başçımızın rəhbərliyi ilə hər gün, hər ay, hər il güc toplayır, genişlənir və inkişaf edir. Ulu öndər Heydər Əliyevin Avropa dövlətlərinə səfərləri nəticəsində 1997-ci ilin ikinci yarısından Azərbaycan diasporunun Almaniyada, Belçikada, Hollandiyada, Danimarkada, İngiltərədə və Fransada fəaliyyəti genişlənmişdir. 1997-ci il sentyabrın üçüncü ongünlüyündə Bonnda "Azərbaycan evi" təşkil edildi, Almaniyada "Azərbaycan evi", "Azərbaycan xəbərləri" adlı qəzet nəşr edilməyə başladı. Bu qəzet oktyabrın əvvəlində demək olar ki, bütün Qərbi Avropaya yayıldı.

Heydər Əliyevin ABŞ-a rəsmi səfərindən sonra orada yarım milyonluq Azərbaycan diasporu fəaliyyətini genişləndirmiş və ABŞ-da Azərbaycan lobbisi formalaşmağa başlamışdır. İndi azərbaycanlılar kompakt halda ən çox Kaliforniya, Miçiqan, Pensilvaniya ştatlarında yaşayırlar.

ABŞ və Kanadada bir çox Azərbaycan cəmiyyətləri təşkil olunub və onlar öz vəsaitləri, könüllü yardımlar hesabına fəaliyyət göstərirlər. ABŞ-da ən böyük və nüfuzlu azəri cəmiyyətlərindən birinin qərargahı Nyu-Yorkda yerləşən "Amerika-Azərbaycan cəmiyyəti"dir. Los-Ancelesdə "Azərbaycan" və "Azərbaycan evi" cəmiyyətləri fəaliyyət göstərir və həftədə bir dəfə yerli radio ilə bir saatlıq veriliş verirlər. Ölkənin paytaxtı Vaşinqtonda "Azərbaycan mədəniyyəti ocağı" fəaliyyət göstərir və amerikalıları ölkəmizin tarixi, mədəniyyəti və incəsənəti ilə tanış edir, habelə Azərbaycan dilində aylıq məcmuə dərc etdirir. ABŞ-da həmçinin "Bakılı", "Vətən", "Azərbaycan", "Azərbaycanın amerikalı dostları" cəmiyyətləri də fəaliyyət göstərir.

Hazırda respublikamızda Azərbaycan diasporu ilə bağlı məqsədyönlü işlər görülür. Vaxtilə ümummilli lider Heydər Əliyevin göstərişi ilə Prezident Aparatında bu məsələ ilə bağlı xüsusi bölmə təşkil edilmişdir. Biz bu işin ciddiliyini və məsuliyyətini görməli, dərk etməli, sərhədlərimizdən kənarda yaşayan həmvətənlərimizlə daim əlaqə saxlamalıyıq.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev xaricdə yaşayan azərbaycanlılara müraciət edərkən demişdir: "Siz yaşadığınız ölkələrin qanunlarına riayət etməlisiniz, amma heç vaxt unutmayın ki, Sizin tarixi vətəniniz Azərbaycan Respublikasıdır!".

Artıq Diasporla İş üzrə Dövlət Komitəsinin yaranmasından 21 il keçir. Komitə geridə qalan dövr ərzində xaricdə yaşayan azərbaycanlıların, diasporumuzun təşkilatlanmasında, vahid struktur kimi formalaşmasında mühüm rol oynayıb. Azərbaycan diasporu sistemli şəkildə fəaliyyət göstərir və bu günədək bir sıra uğurlara nail olub.

Vətəndən kənarda yaşayan azərbaycanlıların birliyi, onların Azərbaycan naminə səylə və həvəslə çalışması, həqiqətlərimizin dünyaya çatdırılması istiqamətində çox böyük işlər görür.

Həm İkinci Qarabağ müharibəsi zamanı Azərbaycana qarşı təxribatların qarşısının alınmasında, həm də dünyada yaşayan azərbaycanlıların səfərbər edilərək bu prosesə cəlb olunmasında, "Xocalıya ədalət" kampaniyasının həyata keçirilməsində Azərbaycan diasporu aktiv fəaliyyət göstərir. Ölkə Prezidentinin dediyi kimi: "...50 milyonluq Azərbaycan xalqının mənəvi birliyini təmin etmək üçün çox önəmli işlər görüldü. İndi də bu istiqamətdə işlər geniş səviyyədə aparılır".

**Respublika.** - 2023.- 13 oktyabr. - № 223. - S. 5.

## Diaspor ölkənin inkişafında əsas rollardan birini oynamağa başlayır

**Ramil Quliyev**

**Bu gün dünya dövlətlərinin xüsusi diqqət mərkəzində saxladığı məqamlardan biri diaspor ilə bağlıdır. Çünki günümüzdə dünyanın son dərəcə mobilləşdiyi, qloballaşdığı müşahidə edilir, insanların köçü getdikcə intensiv xarakter alır.**

Onlar köç etdikləri ölkələrdə yaxşı təşkilatlandıqları halda diaspor qüvvəsinə çevrilə bilirlər. Bu mənada diaspor öz tarixi vətənlərindən kənarda yaşayan eyni etnik və ya milli mənşəli insanların sabit toplusudur. Bundan əlavə, diaspor öz icmasını saxlamaq və inkişaf etdirmək üçün sosial institutlara malikdir.

**Diaspor dövlətin daxili və xarici siyasəti arasında birləşdirici teldir**

Dünyada hazırda diasporlara bu qədər diqqət bir sıra səbəblərlə bağlıdır. Birincisi, diaspor anlayışının mahiyyətinin dəyişməsi və yeni meyarların meydana çıxması ilə əlaqədar olaraq, icmalarını təkcə etnik mənşə birliyi prinsipinə görə formalaşdıran insanların müəyyən qrupları məhz diasporlar olaraq təsnif edilir. Son onillikdə siyasi, sosial-iqtisadi və etno-mədəni problemlərin əhatə dairəsinin dramatik şəkildə genişlənməsi müşahidə olunur.

Diasporun problemləri ilə bağlı müzakirələr elmin müxtəlif sahələrinin alimləri: tarix, sosiologiya, demoqrafiya, iqtisadiyyat, o cümlədən siyasətçilər, məmurlar, jurnalistlər, ictimai təşkilatların, o cümlədən etnik təşkilatların rəhbərləri tərəfindən fəal şəkildə aparılır. Beləliklə, onlar təkcə müvafiq elmi deyil, həm də çox aktual praktik xarakter daşıyırlar. İkincisi, diasporların tədqiqinin aktuallığı onların cəmiyyətin etnososial strukturunda, millətlərarası münasibətlərin bütün kompleksində yerini müəyyən etməkdən, çoxmillətli dövlətlər daxilində müxtəlif etnik qrupların nümayəndələri arasında ünsiyyətdən başlayaraq hərtərəfli öyrənilməsini tələb edir. Üçüncüsü, diaspor daxili siyasətin obyekti və beynəlxalq münasibətlərin subyekti, dövlətin daxili və xarici siyasəti arasında birləşdirici teldir. Ona görə də müasir dövrdə diasporların beynəlxalq münasibətlərə təsiri probleminin tədqiqi aparılır. İstənilən ərazidə diasporun tədqiqi üçün onun bir hissəsi olduğu “ana etnik qrupunun” xüsusiyyətləri, hazırkı yaşayış ərazisinə köçürülmələrin motivləri və ardıcıllığı tələb olunur. Buna görə də həm mühacirlərin gəldiyi donor ölkə, həm də immiqrantları qəbul edən resipiyent dövlətlə bağlı bütün aspektlər diqqətə alınmalıdır. Çoxmillətli Azərbaycan üçün balanslaşdırılmış milli-mədəni siyasət ictimai-siyasi, iqtisadi sabitliyin və harmoniyanın qorunması üçün ən mühüm vasitədir. Millətlərarası və konfessiyalararası harmoniya məsələlərinin həlli üçün Azərbaycan modeli xalqın yüksək dözümlülüyünə, bütün vətəndaşların ümumi tarixi keçmişinə, gələcək inkişaf, firavanlıq naminə dostluğa və birgə əməyə əsaslanır. Təbii ki, bu hal diaspor qüvvələrinə də təsir edir, onların fəaliyyətinin səmərəlilik dərəcəsini yüksəldir. Xaricdəki azərbaycanlı miqrantları mümkün qədər tez ölkənin inkişaf strategiyasının və beynəlxalq əməkdaşlığın inkişafında təməl daşına çevrilməsi istiqamətində Azərbaycan müvafiq addımlar atır. Bu zərurət təkcə miqrasiya siyasətinin inkişafının qlobal tendensiyası ilə diktə olunmur. Miqrasiya prosesləri və nəticələrini idarə etmək üçün dövlət baxışının və qabaqlayıcı siyasətin olması Azərbaycana ən qiymətli resursu, insan kapitalını və ölkənin gələcək potensialını inkişaf etdirmək üçün uyğun siyasət yeritməyə imkan verir. Xaricdəki diasporun vəziyyəti və miqrasiya siyasəti həmvətənlərin ölkəmizin strateji inkişaf mexanizmlərinə daxil edilməsinə imkan verir.

**Azərbaycan tarixinin, mədəniyyətinin, milli kimliyinin dünyada təbliğinə diaspor qüvvələri də böyük töhfə verir**

Faktdır ki, transsərhəd miqrasiya proseslərinin intensivləşməsi hazırda qlobal inkişafın əsas tendensiyalarından birinə çevrilib. Buna, ilk növbədə, qloballaşma şəraitində müxtəlif ölkələrin iqtisadi artımının qeyri-bərabərliyi, millətlərarası, sosial və beynəlxalq münaqişələrin müxtəlifliyi, ənənəvi olaraq regionlarda demoqrafik proseslərin xüsusiyyətləri səbəb olur.

Ümumiyyətlə, əsas miqrasiya axınları inkişaf etmiş ölkələrə üz tutan əmək miqrantlarının sayının artması ilə əlaqədar formalaşır. Beynəlxalq təcrübə göstərir ki, diasporların beynəlxalq münasibətlər sistemində rolu və yeri, sosial-iqtisadi sferanın, transmilli şəbəkələrin inkişafı, ictimai-siyasi potensialı və əsrlər boyu formalaşmış millətlərarası qarşılıqlı əlaqələrin və dövlətlərarası münasibətlərin təkmilləşdirilməsində rolu artır. Qeyd edilən məqam dünyanın bir çox dövlətlərini bu fenomenə fərqli nəzər salmağa məcbur edir. Diasporlara və xarici soydaşlara ən mühüm xarici siyasət və iqtisadi resurs kimi

yanaşma dövlətin inkişafında diaspor resurslarından istifadə etmək üçün mühüm potensiala malik olan müasir ölkələrin beynəlxalq təcrübəsində getdikcə geniş vüsət alır. Xarici diasporun potensialından iqtisadi, sosial-siyasi və digər əlaqələr şəbəkəsi yaratmaq üçün istifadə etmək kifayət qədər geniş yayılmış dünya təcrübəsidir və bununla əlaqədar diaspor fəaliyyətində nailiyyətlərdən, problemlərin aradan qaldırılmasından rolundan istifadə mühümdür. Yuxarıda qeyd edildiyi kimi miqrasiyanın kəskin artması immiqrant etnik icmaların konsolidasiyası ilə paralel gedir. Yeni yaşayış yerlərində miqrantlar, bir qayda olaraq, yad etnik-mədəni mühitdə adət-ənənələrini, dillərini qorumaq üçün birləşməyə çalışırlar. Bunun üçün ya mövcud diasporlara qoşulurlar, ya da yenilərini yaradırlar. Beynəlxalq səviyyədə ümumi qəbul edilir ki, diaspor sözü müxtəlif vaxtlarda müxtəlif səbəblərdən öz ölkələrindən mühacirət etmiş və vətəndaşlıq alarkən miqrantların qəbulu vəziyyətində yaşamağa başlamış bütün əcnəbi soydaşlara aiddir. Eyni zamanda, əhalinin miqrasiyası sahəsində ekspertlər diasporların və əcnəbi soydaşların problemlərini həm də gedən əmək miqrasiyası prosesləri ilə əlaqələndirirlər. Müvəqqəti məşğulluq məqsədi ilə başqa ölkələrə gedən əməkçi miqrantların müəyyən hissəsi orada daimi olaraq qalır və müəyyən müddətdən sonra ailə üzvlərini ora gətirir, digər hissəsi isə öz ölkələrinə qayıdır. Əmək miqrasiyasının işsizlik və valyuta qənaəti problemlərinin həllinə verə biləcəyi töhfədən yararlanmağı planlaşdıran bir çox ölkələr müvafiq qanunvericiliyin işlənib hazırlanması ilə yanaşı, səmərəli ictimai institutların yaradılması kimi xüsusilə çətin vəzifə ilə üzləşirlər. Amma Azərbaycan bu məsələləri uğurla həll edə bilib. Diasporumuz Azərbaycan tarixinin, mədəniyyətinin, milli kimliyimizin dünyada təbliğinə böyük töhfə verirlər. Azərbaycan diasporunun yaxşı təşkilatlandığını, azərbaycanlıların yaşadıqları ölkələrin ictimai-siyasi proseslərinə təsir göstərə bilmək imkanlarının əhəmiyyətli dərəcədə artması sayəsində onların ölkəmizin milli maraqlarını müdafiə etmək iqtidarında olduqları faktdır. Diaspor təşkilatlarımız üzərlərinə düşən vəzifənin öhdəsindən layiqincə gəlməyə çalışırlar.

**Bakı Xəbər.** - 2023. - 26 oktyabr. - № 194. - S. 8.

## Avropa Parlamentinin prezidenti azərbaycanlı diaspor fəalına cavab verib


European Parliament

Directorate-General for Parliamentary Research Services
Directorate for the Library and Knowledge Services
Citizens' Enquiries Unit

336437 Asaf Askarov

European Parliament

27.10.23

PRIORITY PRIORITAIRE

L-3290 BETTEMBOURG

Dear Mr Askarov,

Your new letter, together with images attached, and addressed to the President of the European Parliament, Ms Roberta Metsola, was received on 25 October 2023.

The Citizens' Enquiries Unit (AskEP) has been asked to reply.

Please be assured that your observations on the latest October resolution on the situation in Nagorno-Karabakh have been attentively read and noted.

As we wrote in our March reply, the President does not have the authority to give instructions to Members on how they conduct their political activities or on how to vote. Members of the European Parliament are entitled to exercise their mandate freely and independently. Furthermore, the President did not vote.

As to the resolution, its text represents the European Parliament's position as a whole.



We would like to highlight once again the European Parliament's Delegation for relations with the South Caucasus that monitors the situation in the countries of Armenia, Azerbaijan and Georgia, and liaises with their respective Parliaments.
https://www.europarl.europa.eu/delegations/en/dsca/home

Finally, diplomatic relations between the European Union and non-EU countries are directed by the European External Action Service (EEAS), led by Mr. Josep Borrell Fontelles, and not the European Parliament. In foreign policy, the European Union's ultimate decision-making body is the European Council, comprised of EU countries' heads of state or government.

We thank you for writing to the President of the European Parliament.

Yours sincerely,



Citizens' Enquiries Unit
www.europarl.europa.eu/askEP/en

**Contacting us**
If you wish to contact us again, you can also write to us via our online contact form at www.europarl.europa.eu/askEP.

**Disclaimer**
The information given by the Citizens' Enquiries Unit of the European Parliament is not intended to provide legal advice and serves for informational purposes only.

**Privacy**
We will treat your message according to the rules on the processing of personal data by EU institutions (Regulation (EU) 2018/1725). Please see our privacy statement in annex for more information.

Avropa Parlamentinin (AP) prezidenti Roberta Metsolanın adından Azərbaycanın Almaniyada yaşayan diaspor fəalı Asəf Əsgərə cavab məktubu göndərilib.

Bu barədə AZƏRTAC-a Diasporla İş üzrə Dövlət Komitəsindən məlumat verilib.

AP-nin vətəndaşların sorğuları şöbəsindən (AskEP) soydaşımıza ünvanlanan məktubda bildirilib ki, onun qurumun Azərbaycanla bağlı qətnaməsinə etiraz məktubu 2023-cü il oktyabr 25-də qəbul edilib: "Əmin olun ki, Qarabağdakı vəziyyətlə bağlı oktyabrda qəbul edilmiş sonuncu qətnamə ilə bağlı müşahidələriniz diqqətlə oxunub və qeyd olunub".

Məktubda nəzərə çatdırılıb ki, prezident parlament üzvlərinə siyasi fəaliyyətlərini necə aparmaları və ya necə səs vermələri barədə göstəriş vermək səlahiyyətinə malik deyil: "Üstəlik, prezident bu qətnaməyə səs verməyib".

Məktubun sonunda Avropa Parlamentinin Cənubi Qafqazla əlaqələr üzrə nümayəndə heyətinin Ermənistan, Azərbaycan və Gürcüstanda vəziyyətin monitorinqini apardığı, bu ölkələrin parlamentləri ilə əlaqə saxladığı və digər məsələlər diqqətə çatdırılıb.

**AZƏRTAC**

**2023, 6 noyabr**

## Diaspor quruculuğunu tamamlamışıq!

## Görəcəyimiz işlər sırf lobbiçilikdir...

**Yeganə BAYRAMOVA**

Müxtəlif zamanlarda erməni qüvvələri tərəfindən xaricdəki soydaşlarımıza qarşı təxribat xarakterli əməllərin şahidi olmuşuq. İstər Vətən müharibəsi dövründə, istərsə də müharibədən sonra bu cür hallar yaşanmaqdadır. Erməni lobbisi həmvətənlərimizə qarşı müxtəlif vandalizm aktları törədib, nəticədə çoxsaylı soydaşımız müxtəlif dərəcəli bədən xəsarətləri alıblar. Bu, bir daha ermənilərin həyata keçirdikləri, onların əsas amalları olan işğalçılıq, təxribatçılıq, dağıdıcı siyasətin bariz nümunəsidir. Təbii ki, bütün dünya bu cür vəhşiliyi və vandalizmi qınayır. Görünən odur ki, erməni lobbisinin üzvləri öz dağıdıcılıq siyasətlərini təkcə Ermənistanın ərazisində deyil, həm də başqa hüquqi dövlətlərin ərazisində həyata keçirməyə çalışırlar

Bu günlərdə Ombusdman aparatının rəhbəri Səbinə Əliyeva keçirilən tədbirlərin birində vurğulayıb ki, 2020-ci ilin iyul və avqust aylarında onlarla azərbaycanlı ABŞ, İngiltərə, Rusiya, Ukrayna, Belçikada erməniəsilli tələbələr tərəfindən xüsusi amansızlıqla döyülüb, həmçinin psixoloji təzyiqlərə məruz qalıb. Azərbaycan bayraqları ilə dinc şəkildə yürüşlər keçirən azərbaycanlılara göstərilən təzyiqə və hətta ölümlə təhdidə dair kifayət qədər material mövcuddur.

### Arxa cəbhənin qəhrəmanları...

Diaspor İnformasiya Mərkəzinin sədri Toğrul Allahverdili “Yeni Azərbaycan”a açıqlamasında bildirib ki, Vətən müharibəsindən sonra Azərbaycan diasporundan olan gözləntilər əvvəlkilərdən daha çoxdur. O, qeyd edib ki, Azərbaycan diasporunun bundan sonra əsas fəaliyyət istiqaməti ölkəmizə qarşı əsassız və ikili standartlardan çıxış edən bəzi Avropa ölkələrinin sakinlərinə, beynəlxalq təşkilatlara bu yöndə fikirlərimizi çatdırmaqdır: “Uzun illər xaricdə yaşayan azərbaycanlılar Qarabağın bizim olmasına dair çıxışlar edirdilər. Vətən müharibəsi dövründə həmin soydaşlarımız və Azərbaycan diasporu bacardığı qədər dövlətimizin yanında durdular. Bir sözlə, Azərbaycan diasporu və xaricdəki soydaşlarımız arxa cəbhənin qəhrəmanı oldular. Hər zaman diasporumuzun daha da güclənməsinə çalışmalıyıq. Lakin bir məqamı qeyd edim ki, artıq diaspor quruculuğunu tamamlamış bir dövlətik. Xaricdə yaşayan soydaşlarımız və Azərbaycan icması artıq lobbiçilik fəaliyyətinə keçməlidir. Çünki diaspor quruculuğu fəaliyyətimizin alt hissəsi idi və bu hissəni tamamlamışıq. İndi isə görcəyimiz işlər sırf lobbiçilikdir. Bu fəaliyyətimizi isə belə tənzimləməliyik Xaricdə yaşayan soydaşlarımız dövlətin müəyyənləşdirdi siyasi xətt üzərindən hərəkət etməli, beynəlxalq qurumlarda təmsil olunmalıdırlar. Xüsusən də soydaşlarımızın yaşadıqları ölkənin mediası və QHT-ləri ilə işləməsi zəifdir. Çalışmalıyıq ki, bu boşluğu dolduraq”.

### Düşmən hər yerdə düşməndir

T.Allahverdili Ombudsmanın qeyd etdiyi məqamlara da toxunub. O, bildirib ki, soydaşlarımızın maariflənməsi üçün əlimizdən gələni etməliyik: “Xaricdə fəaliyyət göstərən Azərbaycan diplomatik korpusları-səfirlik və konsulluqlarımız hərəkətə keçməlidir. Soydaşlarımız səfirliklərimizlə bacardıqları qədər əlaqədə olmalı və ehtiyatlı davranmalıdırlar. Çünki İrəvanda yaşayan erməni ilə hansısa xarici ölkədə yaşayan ermənin heç bir fərqi yoxdur. Onların xisləti, düşüncə tərzi terrordur. Ermənistanın dövlət siyasəti, xüsusən də xarici siyasəti sırf ASALA-nın və erməni kilsəsinin təsiri altındadır. Xaricdə yaşayan soydaşlarımıza hər an hücumlar ola bilər. İstər Vətən müharibəsi dövründə, istərsəsə sonrakı zamanlarda bunun şahidi olduq. Müxtəlif ölkələrdə təhsil alan tələbələrimizə, fəaliyyət göstərən media nümayəndələrimizə hücumlar edilirdi. Bu yaxınlarda erməni lobbisi xaricdə Qərbi Azərbaycanla bağlı layihələri həyata keçirən səfirliklərimiz qarşısında insani dəyərlərdən uzaq hərəkətlər etdilər. Düşmən hər yerdə düşməndir. Artıq reinteqrasiya dövrünü yaşayırıq, bunları nəzərə almaq lazımdır ki, ölkə başçısnın yürütdüyü siyasət ermənilərlə qonşuluq siyasəti və sülh sazişinin imzalanması yönündədir. Belə təxribatlar olarsa, soydaşlarımız həmin ölkənin hüquq mühafizə orqanlarına müraciət etməlidir və mütləq Azərbaycanın həmin ölkədəki diplomatik korpuslarına məlumat verməlidirlər”.

**Hər bir soydaşımız özünü güvənli hiss etməlidir...**

T.Allahverdili qeyd edib ki, soydaşlarımız onların arxasında güclü və qüdrətli Azərbaycan dövlətinin dayandığını unutmamalıdırlar: "Dövlətimiz onların hüquq və haqlarını istənilən yerdə müdafiə etməyə hazır və qadirdir. Hansı ölkədən yaşamasında asılı olmayaq, hər bir soydaşımız özünü güvənli hiss etməlidir. Bu gün əsas fəaliyyətimiz Qərbi Azərbaycana dönüş konsepsiyası olmalıdır. Çalışmalıyıq ki, artıq beynəlxalq təşkilatları, xarici dostlarımızı bu məsələyə fokuslandıraq, Diasporumuzun, xaricdə yaşayan soydaşlarımızın və bütün Azərbaycan icmasının işi Qərbi Azərbaycandan məcburi deportasiya edilmiş qaçqınlarımızın torpaqlarına qayıtmasıdır. Həmvətənlilərimizi bu istiqamətdə diasporumuza dəstək verməyə dəvət edirəm".

**Yeni Azərbaycan.-**2023.-4 noyabr.-№203.-S.5.

## Azərbaycan türkdilli məkanda diasporlararası inteqrasiyasını gücləndirir...

**Məhəmmədəli Qəribli**

**Bişkekdə türk dövlətləri diaspor qurumları rəhbərlərinin beşinci toplantısı başlayıb. Bu barədə Türk Dövlətləri Təşkilatının "X" hesabında paylaşım edilib. Qeyd edək ki, toplantıda türk dövlətləri diaspor qurumları arasında səmərəli əməkdaşlığı gücləndirmək, konkret birgə fəaliyyət proqramı hazırlamaq və digər məsələlər müzakirə olunub.**

TDT-nin baş katibi Kubanıçbek Omurəliyev bildirib ki, toplantı çərçivəsində Türk Dövlətləri Təşkilatının (TDT) diaspor institutları və türk diasporları arasında koordinasiyanın gücləndirilməsi məsələsi müzakirə olunub.

Onun sözlərinə görə, türk dövlətlərinin diaspor institutları rəhbərlərinin Bişkek toplantısı məhsuldar keçib: “2023 Diaspor Birgə Fəaliyyət Planı” ilə irəliləyişlərin əldə edilməsi və Türk Diaspor Forumu kimi layihələrin həyata keçirilməsini müzakirə etdik".

**Azərbaycan diasporunun türkdilli respublikaların diaspor təşkilatları ilə əməkdaşlığı mühüm əhəmiyyət kəsb edib**

Müstəqillik illərində ciddi inkişaf yolu keçən Azərbaycan diasporunun qarşısında duran əsas vəzifələrdən biri də digər xalqların diaspor təşkilatları ilə əlaqələr qurmaq, birgə əməkdaşlıq nəticəsində fəaliyyət göstərdiyi ölkələrdə öz mövqelərini möhkəmləndirmək idi. Bu sırada Azərbaycan diasporunun türkdilli respublikaların diaspor təşkilatları ilə əməkdaşlığı mühüm əhəmiyyət kəsb edirdi. Xüsusilə, Azərbaycan diasporu türk diasporu ilə əlaqələrə üstünlük verir, qarşlıqlı faydalı əməkdaşlıq inkişaf etdirilirdi. Həmin dövrdə Azərbaycan diasporuna ən ciddi dəstək də məhz türk diasporundan gəlirdi. Diaspora həyatı ilə bağlı bir sıra mühüm əhəmiyyətli tədbirlərin qardaş ölkədə keçirilməsi faktı bunu təsdiqləmiş olur. Yaxın tarixə nəzər salsaq görərik ki, ilk dəfə olaraq dünya azərbaycanlılarının birliyinə yönələn və ətrafında dünyanın bir çox bölgəsində yaşayan soydaşlarımızı toplayan tədbirlər məhz Türkiyədə keçirilib. 1989-cu ildə Türk Dünyası Ümumdünya Azərbaycanlıları Konqresi, 1990-cı ildə isə Türk Dünyası Araşdırmalar Vəqfinin təşəbbüsü ilə Türkiyənin Kayseri şəhərində birinci Millətlərarası Böyük Azərbaycan Konqresi keçirildi. 1990-cı il, noyabrın 3-dən 6-dək olan müddətdə isə Türkiyənin İstanbul şəhərində Azərbaycan Mədəniyyət Mərkəzlərinin birinci qurultayının keçirilməsi isə həmrəylik hərəkatının güclənməsinə mühüm təkan verdi.

**Azərbaycan hər zaman həmin təşəbbüsləri dəstəkləyib və gələcəkdə də bu siyasəti davam etdirmək əzmindədir**

Azərbaycan diasporunun türk diasporu, eləcə də türkdilli ölkələrin diaspor təşkilatları ilə əlaqələrinin inkişaf etdirilməsi hər zaman prioritet olub.

Fərqli coğrafi məkanda məskunlaşmış, keşməkeşli inkişaf yolu qət etmiş türkdilli xalqlar bəşəriyyətin çoxəsrlik təkamül prosesində daim mühüm rol oynamış, öz zəngin mədəni ənənələri ilə tarix səhnəsində öncül yerlərini qoruyub saxlamışlar. Türkdilli xalqlar və onları təmsil edən dövlətlər bu gün də dünyada sülhün və təhlükəsizliyin təmin olunması, sivilizasiyalararası dialoqun dərinləşməsi, beynəlxalq iqtisadi, siyasi və mədəni əlaqələrin genişlənməsinə əhəmiyyətli töhfələr verirlər.

Qloballaşan dünyanın diktə etdiyi hazırkı reallıqlar türkdilli ölkələrin xalqlarını və hökumətlərini sıx əməkdaşlığa, qarşılıqlı əlaqələri daha da gücləndirməyə, xarici siyasət fəaliyyətini uyğunlaşdırmağa və birgə taktika müəyyənləşdirməyə sövq edir. Bu istiqamətdə xalqlarımızın diaspor təşkilatları arasında tərəfdaşlıq münasibətlərinin qurulması və inkişafına yönəlmiş təşəbbüslər təqdirəlayiqdir. Türkdilli dövlətlər arasında əlaqələrin inkişafında, ortaq mənafelərimizin etibarlı qorunmasında dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən diaspor təşkilatlarının rolu xüsusi əhəmiyyətə malikdir.

**Mütəmadi olaraq qarşılıqlı fikir mübadiləsinin aparılması lazımdır**

Azərbaycan hər zaman həmin təşəbbüsləri dəstəkləyib və gələcəkdə də bu siyasəti davam etdirmək əzmindədir.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrin diaspor təşkilatları rəhbərlərinin forumlarının keçirilməsi dünyanın hansı ölkəsində yaşamasından asılı olmayaraq soykökünə, tarixinə, milli mənəvi dəyərlərinə ehtiram, doğma vətənin maraqlarına bağlılıq nümayiş etdirən diasporun formalaşmasının bariz nümunəsidir. Düşünürəm ki, biz bu potensiala güvənərək siyasi çoxqütblülük,

iqtisadi, mədəni və informasiya proseslərinin qlobal inkişafı şəraitində xalqlarımızın mənafeyinin müdafiəsi, regionda sülhün möhkəmləndirilməsi, təhlükəsizlik və sabitliyin təmin edilməsinə birgə töhfə verə bilərik.

Diasporla İş üzrə Dövlət Komitəsi türkdilli ölkələrdə Azərbaycan mədəniyyətinin təbliğatını genişləndirmək istiqamətində mühüm addımlar atır. Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov Şuşada keçirilən Bakı-Şuşa Beynəlxalq Forumunda deyib.

Daha çox uğur qazanmağımız üçün diasporamızda əvvəlcədən müəyyən edilmiş ortaq strategiya istiqamətdə fəaliyyətimizi davam etdirməliyik. Həmçinin mütəmadi olaraq qarşılıqlı fikir mübadiləsinin aparılması lazımdır. Hazırda diasporamız sürətli şəkildə güclənməkdədir.

**Bakı Xəbər.** - 2023. - 24 noyabr. - № 213. - S. 8.

## Azərbaycan diasporasının formalaşması Heydər Əliyevin müstəsna xidmətlərindəndir

**İlqar Rüstəmov,**
Əməkdar jurnalist

**Görkəmli şair, dramaturq, nasir və publisist, ictimai və dövlət xadimi, Azərbaycan Respublikasının birinci dərəcəli dövlət müşaviri, fövqəladə və səlahiyyətli səfir, Əməkdar incəsənət xadimi Hidayət Orucovla müsahibə.**

***(əvvəli qəzetin 21 noyabr 2023-cü il tarixli sayında)***

**– Dünyada Azərbaycan diasporası və onun gənc müstəqil ölkəni dəstəkləməsi 1990-cı illərin əvvəllərində şirin bir arzu olsa belə, əslində bir xəyal idi. Dünyaya səpələnmiş azərbaycanlılar haqqında az-çox məlumatlı olsaq da, onların təşkilatlanması, deyək ki, erməni diasporu kimi fəaliyyət göstərməsini deyə bilmərik. Müstəqilliyin ilk illərində buna cəhdlər edildimi? Heydər Əliyevin qayıdışından sonra diaspora quruculuğu işi hansı səviyyədə idi?**

– Etiraf etmək lazımdır ki, dünyada Azərbaycan diasporasının yaranması, təşkilatlanması və ciddi işlər görməyə başlaması bilavasitə ümummilli lider Heydər Əliyevin müstəsna xidmətidir. İstərdim məsələnin tarixinə bir ekskurs edək ki, bu fikrimin nəyə əsaslandığını oxucularımız da aydın görsünlər.

Əvvəla, ötən əsrin 70-80-ci illərində Heydər Əliyev qətiyyəti, müdrikliyi və cəsarəti sayəsində Azərbaycanın bütün dünyada tanınmasına yönəlmiş çox mühüm addımlar atılmışdı. Əlbəttə, qırmızı imperiyanın amansız təqibləri üzündən diaspor quruculuğu ilə açıq və sistemli şəkildə məşğul olmağa imkan yox idi. Amma mədəniyyət, incəsənət, elm sahəsində ciddi işlər aparılır və respublikanın nailiyyətləri təbliğ olunur, açıq-gizli dünya azərbaycanlılarının tarixi Vətənlə əlaqəsinə xidmət edəcək imkanlardan istifadə etməyəyə çalışırdılar. Bu işdə, təbii ki, Heydər Əliyevin təşəbbüsü və ideyası ilə Azərbaycan Mədəni Əlaqələr Cəmiyyəti, sonradan adı “Vətən” cəmiyyəti olan qurum yaradıldı və bu qurum soydaşlarımızın birliyinə və Vətənlə əlaqələr qurmalarına yol acdı.

İkinci mühüm məsələ, Heyrdər Əliyev hakimiyyətinin ilk dövründə – 1970-ci illərdə azərbaycanlı tələbələrin kütləvi şəkildə SSRİ-nin ayrı-ayrı şəhərlərinə, çox yüksək təhsil verən institut və universitetlərinə göndərilməsi idi və həmin illər yəqin ki, sizin yeniyetməlik, gənclik dövrünüzə təsadüf etdiyindən, siz də yaxşı xatırlayarsınız. Qısaca, bir faktı deyim: O illərdə SSRİ-nin ən nüfuzlu təhsil ocaqlarında təhsil almaq imkanı qazanmış 20 minə yaxın azərbaycanlı gənc Sovet İttifaqının 50-dən çox böyük şəhərinin 170-dən artıq ali təhsil ocağında Azərbaycanda zəruri ehtiyac duyulan 250-dən çox ixtisas üzrə təhsil alıb. Təbii, bunların bir çoxu ali məktəbi bitirəndən sonra təhsil aldıqları şəhərlərdə qalıb əmək fəaliyyətinə başlayırdılar. Bir çoxu gəlib Azərbaycanda evlənib ailəsini götürüb gedirdi.

Üçüncü, Heydər Əliyevin Moskvada SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini, nəhəng dövlətin hökumətinin ikinci şəxsi kimi fəaliyyəti nəinki SSRİ-nin bütün respublikalarına səpələnmiş azərbaycanlılar, hətta dünya azərbaycanlıları arasında milli təfəkkürün güclənməsində xüsusi rol oynadı. Heydər Əliyev artıq Azərbaycanın simvoluna çevrilmişdi və xaricdə yaşayan gənclərimiz bu adla qürur hissi yaşayırdılar.

Dördüncü, artıq Heydər Əliyev Vətənə qayıdıb Naxçıvanda siyasi fəaliyyətə başlayanda 1991-ci ildə Muxtar Respublikanın Ali Məclisində məsələ qaldırıb 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Gününün təsis edilməsi haqqında qərar qəbul olunmasına nail oldu. Bununla da kifayətlənməyib, bu tarixi günün bütün Azərbaycanda bayram kimi qeyd olunması ilə bağlı ölkə parlamenti qarşısında məsələ qaldırdı. Bütün bunlar onu göstərirdi ki, Ulu öndər Azərbaycan diasporasının formalaşmasına çox vacib bir məsələ kimi baxıb və davamlı olaraq, bu məsələni diqqətdə saxlayıb.

Qaldı müstəqilliyimizin ilk illərinə, bu məsələ AXC hakimiyyəti illərində gündəmə gətirildi. O zaman bu məsələni milli siyasət məsələləri üzrə dövlət müşaviri kimi fəaliyyətə başlayandan az sonra mən qaldırdım. Buna qədər belə bir məsələ ümumiyyətlə kimsənin yadına düşmürdü. İndi deyirlər, xarici ölkələrdə 50 milyon azərbaycanlı var, amma sizi inandırım, heç 50 nəfər tapmaq olmurdu ki, bir tədbirə cəlb edə bilək. Çünki əlaqələr yox idi.

Bu məsələnin vacibliyini nəzərə alaraq Əbülfəz Elçibəylə diaspora barədə söhbətimiz oldu və ona Dünya Azərbaycanlılarının I Qurultayının çağırılması haqqında təkliflərimi söylədim. İnsafən, təkliflərimi qəbul etdi və qurultayın keçirilməsinə razılıq verdi. Amma bu şifahi həll ediləsi bir məsələ deyildi. Ona

görə mənim rəhbərliyimlə Dünya Azərbaycanlılarının birinci qurultayının çağrılması ilə bağlı sərəncam layihəsi hazırladıq və mən onu Prezidentin katibliyinə təqdim etdim. Burada Təşkilat Komitəsinin heyəti, sədr, iştirak edəcək müvafiq nazirliklər və sair məsələlər əksini tapmışdı.

Bir neçə günlük ölkəmizin şimal regionlarına səfərə getdim. Şəkidən qayıdıb Qəbələyə çatanda məni qarşılayan rayon icra hakimiyyətinin başçısı dedi: “Hidayət müəllim, təbrik edirəm. Radioda indicə məlumat verildi ki, prezident Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi ilə bağlı sərəncam imzalayıb, sizi təşkilat komitəsinin sədr müavini təyin edib”. Bu mənim üçün gözlənilməz idi, çünki bu vəzifə Baş nazirə, dövlət katibinə həvalə ediləsi bir vəzifə idi. Tədbiri keçirmək üçün yüksək səalhiyyəti olan məmur lazım idi ki, təçkilatı məsələləri həll etsin. Qayıdandan sonra Əbülfəz Elçibəylə görüşdüm və dedim: “Bəy, üstümə çox böyük yük qoymusunuz”. Dedi: “Onu, ancaq siz edə bilərsiniz”.

Müşavirliyi səfərbər edib çox ciddi şəkildə təşkilatçılıq işlərinə, xaricdə yaşayan tanınmış soydaşlarımız, onların yaratdıqları təşkilatlarla əlaqələr qurmağa başladıq. Sonra mənə müxtəlif yerlərdən təsirlər göstərməyə başladılar ki, qurultayı tez keçirək. O zaman Prezidentin mədəniyyət üzrə Nihat Çətinqaya adlı bir müşaviri var idi. Əvvəla, humanitar məsələlər üzrə dövlət müşaviri varsa, mədəniyyət üzrə müşavir kimə lazım idi, bilmirəm. Təbii ki, bu artıq bir qurum idi. Bu adamı Türkiyədən gətirmişdilər, o da dövlət idarəçiliyindən, prinsiplərindən tamam xəbərsiz idi. Yeri gəlmişkən, Əbülfəz Elçibəyin hərbi məsələlər üzrə müşaviri də türk idi. Bakıdan gedəndə mənim yanıma gəlib ağladı ki, Rəhim Qazıyev məni işləməyə qoymadı. Hətta bir dəfə Əbülfəz Elçibəy məndən soruşdu ki, “Bu Nihat bəy niyə istəyir ki, qurultay tez keçirilsin?” Dedim: “O, kiçik iş adamıdır 20-30 iş adamını başına toplayıb, onlarla yeyib-içir və istəyir ki, onların iştirakı ilə bu tədbiri yola verək”.

Məsələni qəti şəkildə qoydum ki, qurultayı yəqin ki, bu il keçirə bilməyəcəyik. Çünki biz hələ yeni-yeni dünyadakı Azərbaycan cəmiyyətləri, təşkilatları ilə əlaqələr yaradır, onlara məktublar yazır, belə bir tədbirin keçirilməsi ilə bağlı təkliflər verməyi, münasibətlərini bildirməyi xahiş edirdik. Qurultayın keçirilməsinə hazırlıq üçün azı bir il vaxt lazımdır. Amma bu tədbiri keçirmək AXC hakimiyyətinə nəsib olmadı və çox keçmədi ki, Heydər Əliyev Bakıya gəlib haqqı çatan yerdə – Prezident kürsüsündə oturdu.

İlk dövrlər təbii ki, ölkədəki gərginlik, ağır iqtisadi durum və Ermənistanın Azərbaycana qarşı işğalçı müharibəsi davam etdiyindən bu məsələ arxa plana keçdi. Vəziyyət nizama düşəndən, atəşkəs əldə ediləndən sonra məsələni Ulu öndərə məruzə etdim. Yəni biz baxdıq ki, prezident bütün xarici ölkələrə hər hansı səfəri zamanı mütləq o ölkədəki azərbaycanlılarla görüşür. Heydər Əliyev etiraz etmədi, dedi: “Baxarıq”.

**– Hidayət müəllim, Ümummilli liderin ilk xarici ölkəyə – Fransaya rəsmi səfəri zamanı mən də bunun canlı şahidi olmuşam. O zaman "Xalq qəzeti"nin əməkdaşı kimi Prezident Heydər Əliyevi müşayiət edən jurnalislər qrupunda təmsil olunurdum. Yadımdadır, Ulu öndər iş qrafikinin gərgin olmasına baxmayaraq, Avropada söz sahibi olan bu dövlətin azərbaycanlı vətəndaşları ilə çox maraqlı bir görüş keçirdi. Hamı heyrət və sevinc dolu baxışlarla müstəqil Azərbaycanın dövlət başçısını dövrəyə alıb, sanki Azərbaycanın müstəqilliyinin gerçək olduğuna arxayınlaşmaq üçün ciddi cəhdlə məhz Azərbaycan Prezidentinin əlini sıxmağa şans arayır, bunu qazanandan sonra isə bir çoxlarının, bəlkə də həsrəti uzun çəkənlərin gözündən sevinc yaşları gilələnirdi. Doğrusu, o zaman Ulu öndərin də səsində bir kövrəklik duydum.**

– Bəli, tamamilə doğru qeyd edirsiniz. Ümumiyyətlə, Heydər Əliyev azərbaycançılığı bütöv bir xalqın – bütün dünyada yaşayan azərbaycanlıların, Azərbaycanla hər hansı şəkildə bağlılığı olan bütün soydaşlarımızın və həmvətənlərimizin milli birlik simvoluna və milli ideologiyasına çevirmək üçün ən adi görüşdən belə istifadə edirdi.

Belə görüşlər sonrakı səfərlərdən çox böyük miqyas almağa başladı. Məsələn, Heydər Əliyev Almaniyaya rəsmi dövlət səfəri zamanı orada yaşayan azərbaycanlılarla o vaxtkı paytaxt Bonn şəhərində çox möhtəşəm bir görüş keçirdi. İnanın, Almaniyanın ucqar şəhərlərindən belə axışıb bu görüşə gəlmişdilər. Hotelin konfrans salonunda ayaqda durmağa yer yox idi. Gürcüstanda azərbaycanlılarla görüş Rustaveli adına teatrın böyük salonunda keçirildi. Eləcə də dünyanın başqa ölkələrində. Artıq biz də Ulu öndərin yaratdığı bu ənənəni davam etdirir, hara gedirdiksə azərbaycanlılarla sıx görüşlər keçirirdik.

İlk məruzəmdən sonra da iki dəfə də qurultay barədə ulu öndərə məruzəm oldu. Hardasa ilyarım ərzində müxtəlif vaxtlarda. Yenə eyni cavabları verdi ki, “baxarıq...” Sonra artıq dayandım və özlüyümdə düşündüm ki, Heydər Əliyev yəqin bunun vaxtının çatmadığını bilir. Hətta sonralar Heydər Əliyevin Milli Qəhrəmanlarla, həlak olan Milli Qəhrəmanların ailə üzvləri, din xadimləri, milli azlıqların nümayəndələri

ilə ayrı-ayrılıqda keçirilən görüşlərində hiss etdim ki, ulu öndərin belə tədbirləri ləngitməsi heç də təsadüfi deyil. Çünki görüşlər, tədbirlər keçiriləndə özüm də dərk etməyə başlayırdım ki, bu görüşün vaxtı elə indi imiş, prezident bunu bilib bu vaxta salıb.

Vaxtın uzanmasına baxmayaraq, diaspora quruculuğu istiqamətində iş gedirdi. Məsələn, 1998-ci ilin mayında Heydər Əliyev məni ABŞ-a göndərdi, orada Amerika Azərbaycanlılarının Konqresində iştirak və çıxış etdim, Ulu öndərin konqresə təbrikini çatdırdım. Belə tədbirlərə Azərbaycanın yüksək vəzifəli rəsmi dövlət adamının gəlməsi oradakı soydaşlarımızı daha da ruhlandırır və bu işin ölkəmiz üçün nə qədər vacib olduğunun əhəmiyyətini çatdırırdı.

2001-ci ilin yazında Prezident Heydər Əliyev bizi topladı və onun göstərişi əsasında sərəncam hazırlandı. 23 may 2001-ci ildə sərəncam imzalandı və 1-2 noyabr Dünya Azərbaycanlılarının Birinci Qurultayının keçirilməsi tarixi bəyan edildi. Yəni, nə əvvəlki sərəncamı xatırladı, nə ad çəkdi, nə də bu barədə danışdı, sadəcə qurultayın keçirilməsi ilə bağlı təşkilatı məsələlər barədə tapşırıqlarını verdi. Hətta təşkilat komitəsi belə yaradılmadı, sadəcə bir müddət sonra Prezident Aparatının rəhbərinin sərəncamı ilə işçi qrupu yaradıldı. Təbii ki, mən də qrupun üzvü idim.

Doğrusu, bu işçi qrup bir iki dəfə toplandı, amma real olaraq elə bir iş görmədi. Əsas iş bizim müşavirliyin və onun rəhbəri kimi mənim üzərimdə idi. Dünyanın elə bir ölkəsi qalmadı ki, orada yaşayan azərbaycanlılarla əlaqə qurmayaq, məktub göndərməyək, izahat işləri aparmayaq. Başqa cür ola bilməzdi, çünki artıq sərəncamda konkret vaxt göstərilirdi və bu vaxta hər şey hazır olmalı idi.

Açığını deyim ki, bu işçi qrupun bəzi üzvləri ciddi cəhdlə bu işləri siyasiləşdirməyə başladılar. Guya bunlar Heydər Əliyevə sədaqət nümayş etdirmək istəyirlər deyə, təklif etdilər ki, ölkədən kənarda hakimiyyətə qarşı müxalifət olan diaspor üzvləri qurultaya dəvət edilməsin. Bu adamlar başa düşmürdülər ki, söhbət dünya azərbaycanlılarından gedir, nə müxalifət, nə qeyri-müxalifət. Onlara izah etməyə çalışdım ki, sonra soydaşlarımız bunu ciddi qəbul etməzlər, qurultay haqqında mənfi rəy formalaşar, belə etmək, Azərbaycan övladlarını dosta-düşmənə bölmək olmaz. Yenə mənə qarşı çıxdılar...

Soydaşlarımızın böyük bir hissəsi əsasən Rusiyada yaşayır, amma orda demək olar heç bir təşkilatlanma filan yox idi. O vaxta qədər müəyyən işlər görmüşdük, Moskvada səfirlikdə Rusiyaya yaşayan tanınmış azərbaycanlı soydaşlarımızla çox sıx görüşlərimiz olmuşdu. Orada bütün Rusiyanı əhatə edə biləcək bir təşkilat yaradılmalı idi. Prezident məni Moskvaya göndərdi və biz orda Rusiya Azərbaycanlıları Konqresini yaratmağa nail olduq. Rusiyanın çox hörmətli azərbaycanlı akademiki, məşhur həkim Məmməd Əliyev Konqresin sədri oldu. İndi Prezidentin köməkçisi vəzifəsində çalışan Zeynal Nağdəliyev Konqresin məsul katibi, aparatın rəhbəri oldu. Bir müddət sonra Moskvada “Prezident” hotelinin böyük konqres salonunda Rusiya Azərbaycanlılarının birinci qurultayı keçirildi. Rusiya hökumətinin yüksək vəzifəli məmurları, tanınmış dövlət xadimləri dəvət olunmuşdular və hamısı gəlib iştirak etdilər. Mən orda Ulu öndərin təbrik məktubunu oxudum və çıxış etdim. Hamı heyrət içində idi ki, “Allaha çox şükür, biz də belə yerdə rəsmi toplaşdıq”. Bunlar çox böyük hadisə idi.

Biz əsasən səfirlər, konsullarla işləyirdik. O zaman müxalifət, iqtidar adamları söhbəti qalxanda, ABŞ-da fövqəladə və səlahiyyətli səfirimiz işləyən Hafiz Paşayevdən başqa heç kim məni müdafiə etmədi. Hafiz müəllimlə telefonla danışanda o, birmənalı mövqe nümayiş etdirdi və dedi, “doğru düşünürsünüz, bu məclisə ya hamı çağrılmalıdır, ya da heç kimi dəvət olunmamalıdır”.

Bu məsələni tam hazırlayandan sonra Prezident Heydər Əliyevə məruzə etdim. Heydər Əliyev bununla bağlı bir-iki sual verdi. Soruşdu: “Sən əminsən ki, tədbirdə onlar bir insident törətməzlər?” Dedim: “Bəli, tam arxayınam. Orda başqa heç bir şey ola bilməz”. Dedi: “Get hamısını dəvət et. O adamlara da mənim adımdan de, qərarım belədir”.

Bundan sonra biz qurultaya nümayəndə seçməyi buraxdıq xaricdə yaşayanların öz ixtiyarına. Bu tam bir demokratik seçim oldu. Əlbəttə elə nüfuzlu və tanınmş azərbaycanlılar var idi ki, onların iştirakı çox vacib idi və onları biz özümüz dəvət etmişdik. Amma əsas seçimi onların ixtiyarına buraxmağımızın özü çox yaxşı təşəbbüs oldu.

Qurultay ərəfəsində Heydər Əliyev təkrar işçi qrupunun əsas üzvləri kimi bizi yanına dəvət etmişdi. Bu tədbirdə mən bir az çox danışdım. Məsələn, Mirzə Fətəli Axundovun 150 illik yubileyində də Ulu öndər onun kötükçəsini Yaponiyadan Bakıya gətizdirmişdi. Qəbulda Axundovun kötükcəsindən, özündən, Mirzə Fətəlinin valideynlərinin ayrılmasından, Axundovun atası anasının üstünə günü gətiriməsindən, anasının Fətəlinin atasından ayrılmasından danışdım. Fətəli qalmalıymış atasının yanında, amma çılğınlıq edib, anasıyla getmək istəyib. Böyük bacısı qoymayıb. Sonra Mirzə Fətəli özü yazır ki, “Mirzə Fətəli Axundov olmağıma görə bacıma borcluyam”. İndi Mirzə Fətəlinin kötükcəsini tapa bilməməyimizdən ətraflı

danışdım. Bu söhbətlər bir az uzun çəkdi. Əslində gördüm Prezidentin özü çox maraqla buna qulaq asır, deyə təfsilatı ilə söhbət etdim. Görüşdə iştirak edən yüksək vəzifəlilərdən biri sonra mənə telefon açıb dedi: "Prezident sənə çox hörmətlə yanaşır. Ayrı adam onun yanında o qədər danışa bilməzdi. Sən az qala bir saat danışdın".

Qurultay öz işinə başladı və həmin dövr üçün həqiqətən möhtəşəm keçdi. Təsəvvür edin ki, həmin ərəfədə dünyanın əksər ölkələrində 300-dən artıq azərbaycanlı icması və təşkilatı fəaliyyət göstərirdi və onların, demək olar hamısından nümayəndələr dəvət etmişdik. Ümumilikdə Qurultaya dünyanın 36 ölkəsindən 403 nümayəndə gəlmişdi, iştirakçıların sayı isə 1105 nəfər idi.

**– Ulu öndər qurultayın keçirilməsi, gedişindən razı qaldımı?**

– Qurultay çox yüksək səviyyədə keçdi. Ulu öndərin çıxışı elə ilk dəqiqədən bütün salonda iştirak edənlərin vətənpərvərlik duyğularını ehtizaza gətirdi, Vətən həsrətlilərinin qəlbini kövrəltdi. Xüsusilə Heydər Əliyev elə ilk sözündə deyəndə ki, "Sizdən çox şey tələb olunmur. Sadəcə, siz unutmamalısınız ki, dünyada Müstəqil Azərbaycan dövləti var. Unutmamalısınız ki, bu torpaq bütün azərbaycanlıların doğma torpağıdır. Unutmamalısınız ki, Azərbaycan dövləti mümkün olan çərçivədə hər birinizin hüquqlarınızın qorunması üçün lazımi işlər görəcəkdir və bilməlisiniz ki, biz dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar haqqında daim düşünürük, maraqlanırıq, hər bir həmvətənimizin yaxşı, firavan yaşamasını istəyirik, yaşadığı ölkədə özünəlayiq yer tutmasını istəyirik. Azərbaycanlı həmvətənlərimiz, həmyerlilərimiz gərək yaşadığı hər yerdə digər xalqlara, millətlərə, yaşadıqları ölkənin vətəndaşlarına daim çatdırsınlar ki, bu gün Azərbaycan nədir, Azərbaycanın keçmişi nə olubdur, Azərbaycanın bu günü nədir, Azərbaycanın gələcəyi nədir?!"

Salonda oturanlar, ömrü boyu Vətən məsuliyyətinin nə demək olduğunu bilməyən qurultay iştirakçıları da bu sözlərin sehrindən uzun müddət çıxa bilmədilər. Siyasi ritorikadan uzaq və gerçək mənzərəni canlandıran Ulu öndərin müdrik sözləri, içində azacıq vətəndaşlıq hissi olan bir azərbaycanlını belə rahat buraxa bilməzdi və buraxmırdı da.

"Gülüstan" Sarayında verilən möhtəşəm ziyafət başa çatanda xeyli nümayəndə Ulu öndərin başına toplaşmışdı və heyranlıqla ona baxırdı. Yaxında durub bu mənzərəni seyr edir, ləzzət alır, həm də Prezidentin mənə bir sözü olacağını düşünüb gözləyirdim.

Qurultayın ertəsi günü ayrı-ayrı yerlərdə panel iclasları keçirildi. Hamısına baş çəkdim. İnanın, zallar dolu idi, hamı iştirak edirdi. Nümayəndələr son dərəcə məmnun idilər.

Sonra yekun iclası oldu və hamı öz razılığını ifadə etdi. Axşam qonaqlar üçün Prezidentin adından ziyafət təşkil edildi. İnanın elə bil milli bayrama toplaşmışdılar. Onların çöhrəsindəki sevinci görmək lazım idi...

10 il Ulu öndərin rəhbərliyi altında işlədim. Qurultaya qədər bir çox beynəlxalq miqyaslı, respublika əhəmiyyətli tədbirlər keçirmişdik. Heç bir tədbirdən sonra işçi qrupunu yığıb təşəkkür etməmişdi. Qurultay keçirilən günün səhəri Ulu öndər işçi qrupunu topladı və hamıya təşəkkür etdi. Sonra dedi: "Mənə bir çox nümayəndə heyətlərindən müraciətlər olub ki, onları qəbul edim. Hidayət, siz onları bir-bir qəbul edin. Baxın, kimlər sizin qəbulunuzla kifayətlənməyib, mənimlə görüşməkdə maraqlı olsa, deyin, mən onları qəbul edim. Yox, sizin qəbul etməyinizlə qane olarlarsa, onda ehtiyac yoxdur". Dedim: " Aydındır cənab Prezident!" Qonaqların əksəriyyəti "Avropa" hotelində qalırdı, onlara da bir rəhbər nümyəndə seçilmişdi. Siyahı tərtib edib mənə təqdim etdilər. Baxdım, çoxlu adamlar var. Onların hoteldə qalma vaxtı bizim hesaba bir həftə də uzadıldı. Səhər saat 10-dan axşam saat 8-ə qədər Prezident Aparatında bir-bir onları qəbul etdim.

İnanın, o qədər razılıq etdilər, Prezidentlə bağlı o qədər gözəl fikirlər söylədilər, minnətdarlıqlarını bildirdilər özümüz də məətəl qalmışdıq. Heyranlıqlarını gizlətmədən söyləyirdilər ki, indi biz Vətəndən arxası, dayağı olan bir azərbaycanlı kimi gedirik. Bir qonaq narazı getmədi və bir nəfər də təkid etmədi ki, prezident onu qəbul etsin. Çünki başa düşürdülər ki, dövlət başçısının daha vacib işləri var.Həm də dövlət başçısından heç bir xahişləri yox idi. Yalnız minnətdarlıq edirdilər.

Bundan bir neçə gün sonra Prezidentin qəbulunda oldum, gündəlik məsələlər haqqında məruzə edəndən sonra dedim: "Cənab Prezident, qurultaya gələn qonaqlar Sizə böyük minnətdarlıqlarını çatdırmağı xahiş etdilər və Azərbaycandan çox məmnun getdilər". Dedi: "Ayrı bir istəkləri, problemləri yox idi?" Dedim: "Yox. Bəzi xırda məsələlər vardı, onları da özüm yoluna qoydum".

Birinci qurultaydan sonra azərbaycanlılar dünyanın hər yerində səfərbər olmağa başladılar, təşkilatlandılar. Artıq başa düşürdülər ki, onların Azərbaycan müstəqilliyinin qorunmasına böyük faydaları dəyə bilər.

Qurultaydan sonra xaricdə yaşayan azərbaycanlıların təşkilatlanmasında yeni bir bir mərhələ başladı. Prezident Heydər Əliyev bu sahədə dövlət siyasətinin həyat keçirilməsini təmin etmək məqsədi ilə 2002-ci ildə "Xaricdə yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında" fərman imzaladı. Daha sonra "Azərbaycan diasporu" anlayışı elə həmin ildə Milli Məclis tərəfindən qəbul olunmuş "Xaricdə yaşayan azərbaycanlılara münasibətdə dövlət siyasəti haqqında" , eyni zamanda "Xaricdə yaşayan soydaşlarımıza dövlət qayğısı haqqında" qanunlar qəbul olundu ki, bu da xaricdə yaşayan həmvətənlərimizə dövlət qayğısının hüquqi əsaslarını müəyyənləşdirdi.

Bir müddət sonra Ümummilli lider Heydər Əliyevin "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" məşhur kəlamı bütün dünya azərbaycanlılarının ən sevimli ifadəsinə çevrildi.

**– Hidayət müəllim, maraqlı söhbətə görə sizə təşəkkürünüzü bildirirk. Çox sağ olun ki, yorulmadan bizim suallara kifayət qədər müfəssəl cavab verdiniz.**

**Xalq qəzeti.** - 2023.- 24 noyabr. - № 256. - S. 5.

## Rusiyada milli diasporumuz: Yaranması, inkisafı, mətbuatı, ədəbiyyatı, həmrəyliyi

### I yazı

**Ramin Məmmədov,**
yazıçı-publisist

Şimal qonşumuz Rusiya Federasiyası nəhəng ölkədir, burda 92 inzibati subyekt mövcuddur? Yer kürəsinin 149 millyon kv km quru sahəsinin 17 milyon kv kilometr ərazisində yerləşən bu ölkənin ən ucqar bölgələrində belə milli diaspor təşkilatlarımız təsis edilmişdir. Bu o deməkdir ki, soydaşlarımız böyük ölkənin bütün vilayət və respublikalarında yaşayırlar. Yeri gəlmişkən, bu sətrlərin müəllifi də 1992-ci ilə kimi Rusiyada on beş ilə yaxın fəaliyyət göstərmiş, bir neçə təhsil almış, müstəqil jurnalistliklə məşğul olmuşdur, bir çox qəzetlərlə əməkdaşlıq etmiş, milli-mənəvi dəyərlərimizi, məşhurlarımızı təbliğ etmiş və 1992-ci ilin martında Tümen vilayətinin Nijnevartovsk şəhərində "Azərbaycan" adlı milli-mədəni icmanın yaranmasında fəal iştirak etmişdir. Onu da nəzərə çatdırım ki, 1997-2019-cu illərdə, ürəyimin hökmilə, bu ölkədəki milli diaspor təşkilatlarımızın fəaliyyətini, fəallarını, perspektivlərini, mətbuatını, ədəbiyyatını və xalqımız üçün maraq kəsb edən başqa məsələləri tədqiq etmək məqsədilə 40 dəfə yaradıcılıq səfəri etmiş, yüz şəhərdə dayanıb araşdırmalar aparmış, KİV-də xeyli sayda elmi, elmi publisistik və publisistik məqalələr dərc etdirmiş, eləcə də otuz adda kitab, o cümlədən, topladığım materialları sistemləşdirib rusca "Odlar Yurdunun övladları Rusiya tarixində" adlı portret-oçerklər toplusunun üç nəşrini çap etdirib oxucuların mühakiməsinə vermişəm. İndi mən, Rusiyadakı milli diaspor təşkilatlarımız barədə yazarkən şəxsi arxivimdən, başqa mənbələrdən istifadə edib məsələyə dair bir qədər açıqlama vermək istəyirəm.

### Gərgin dövrdən keçən diaspor yolu.

Belə təsəvvür yranır ki, 1988-1991-ci illərdə SSRİdə, xüsusilə də Rusiyada cinayətkarlıq o dərəcədə yayılmışdı ki, əvvəlki 20-30 il ərzində baş vermiş qədər cinayət həmin üç il ərzində törədilmişdi. Bir sözlə, o illərdə "Pravda", "İzvestiya", "Komsomolskaya pravda", "Moskovskaya Pravda", "Moskovskiye novosti", "Krasnaya zvezda"...(hətta, "Sovetskiy sport" qəzeti də cinayətlərdən yazırdı), digər KİV vasitələri, ölkədə baş vermiş dəhşətli cinayətlərə dair məlumatlarla və bu barədə geniş reportajlarla, məqalələrlə, sənədli materiallarla açılırdı. Qarabağ faciəsinin açıq şəkildə başlamasından yeddi ay əvvəl, 1987-ci ilin avqustunda Tümen şəhərində "Qaraları vurun", "Qafqazlıları (əksər hallarda "qaraları" yazırdılar, deyirdilər) Rusiyadan qovmaq lazımdır" kompaniyası başlamışdı (Svetlana Jolobova, "Yeni inqilabçılar", "Tümenskiy komsomolets" qəzeti, 16.09 və 16.10.1987). Orada yaşayan həmyerlilərimiz üçün ağır, gərgin şərait yarandığı bir vaxtda, mən geniş yazımla "Yeni inqilabşılar"a tutarlı cavab vermiş, münasibət bildirmiş, Böyük Vətən müharibəsində Qələbənin qazanılmasında və Tümen neftinin tapılmasında inkişafında xalqımızın unudulmaz rolundan söhbət açmışdım. Bir qədər də o dövr üçün iti ifadələr işlətdiyimə aylarla redaksiyaların rəhbərliyi ilə danışıqlarımızdan sonra məqalələrimi dərc etdirə bildim (Ancaq belə dəf edə bilərik, "Tümenskaya Pravda", 1988, № 101. Atam belə öyrədib, "Tümenskiy komsomolets", 1988, № 84). Belə yaramaz, qeyri-qanuni hərəkətləri, özbaşınalığı, həssas adamlar duyur və söhbət zəmnində dilə gətirirdilər ki, hansısa qara əllər ölkəmizdə milli zəmində münaqişələr yaratmağa çalışır, cinayətkar qruplar təşkil edir, narkomaniyanı yayırlar. "Ya russkiy", "Era Rossii", "Za rus", "Za russkoye delo", "Natsionalnaya qazeta" kimi millətçi, şovinist və faşizm yönümlü qəzetlər peyda olur, bu qəbildən olan başqa nəşrlər "samizdat" qaydada buraxılır və bütün bu dərgilərin ümumi şüarı "Rusiya, ruslar üçün!", "Qafqaz, qafqazlılar üçün!" idi. Bu, düşmənçilik toxumu səpən və başdan-ayağa təhqiramiz cızmaqarayla, söyüşlə təchiz olunmuş "kağız parçaları"nın nüsxələrini kimlərsə operativ qaydada, avtobuslarda, elektrik qatarlarında, insan kütlələrinin çox olduğu yerlərdə yayımlayırdılar.

Həmin dövrdə bir yandan, məlum və naməlum qaragurumçular tərəfindən süni yaradılmış və "Qarabağ problemi" adı verilmiş erməni-sovet təcavüzü, digər tərəfdən Sovet ordusunun Bakıda qanlı qırğın törətməsi kimi faciələrimiz arxa plana çəkilir, müstəqilliyimizin elan edilməsi qısqanclıqla qarşılanırdı. Rusiyada yaşayan soydaşlarımıza qarşı millətçi-skinxedlərin təcavüzü, həmvətənlərimizi qətlə yetirməsi, şikəst etməsi, ən kədərli problemlərdən biri də informasiya blokadasına alınmağımız, nəticədə, haqq sözümüzü dünya ictimaiyyətinə çatdıra bilməməyimiz idi. Haqqımızda istədikləri yalan, böhtan dolu

uydurmaları böyük imperiyanın Moskvada çıxan, o mərhələdə nüfuzlu kimi qəbul olunmuş mətbuatında yazır, mərkəzi radio-telekanallarda səsləndirir, amma bizim sözümüzü ictimailəşdirmirdilər, necə deyərlər, özümüz deyib, özümüz eşidirdik. Bir yandan da ermənilər, 1990-cı ildə Rusiya paytaxtında milyon yarım tirajla işıq üzü görmüş 1632 səhifəlik "Sovetskiy ensiklopediçeskiy slovar" kimi Sovetlər Birliyinin bütün on beş respublikasında və dünyanın aparıcı ölkələrində yayımlanan qeyri-səmimi lüğətdə xalqımıza, tariximizə, şəxsiyyətlərimizə qarşı ciddi saxtakarlıqlar edilmişdi. Bu ayrı və ciddi mövzu olduğundan, barəsində xüsusi olaraq, elmi-publisistik əsər hazırlamışam. Bircə onu demək kifayətdir ki, bu lüğətdə getmiş "Koroğlu" məqaləsində Azərbaycanın adı və Üzeyir Hacıbəyovun "Koroğlu" operası hallandırılmır. Əvəzində bildirilir ki, "Koroğlu" Yaxın Şərq və Orta Asiya xalqlarının dastanıdır. Rusiyada iki milyondan çox həmyerlimiz yaşadığı halda, yalançı lüğətdə onların sayı 336 min göstərilib. Dünya ölkələrində 48.853.291 nəfər azərbaycanlı olduğu bəlli olsa da ("Respublika" qəzeti, 1994, №79 (174), redaksiya heyətinin tərkibində V.A.Ambarsumyan olduğuna, adını çəkdiyim ensiklopedik lüğətdə azərbaycanlıların sayı 17,2 milyon göstərilib. Bir sözlə, bu lüğətin sələfi, 1954-cü ildə Moskvada üç lilddə işıq üzü görmüş "Ensiklopediçeskiy slovar"da haqqımızda yazılan tarixi məlumatlar, bütün həqiqətlər saxtalaşdırılıb. İndi Rusiyada "Lixiye 90-ıye qodı" (90-cı fəlakət və hərcmərclik illəri) adlandırılan şəraitdə, təxribatlarla, təzyiqlərlə, ikili standartlarla üzləşdiyimiz və keşməkeşli, məşəqqətli zaman kəsiyində, Rusiya paytaxtında və bölgələrində bib-birinin ardınca milli diaspor icmalarımız yaranmağa başlamışdı. Bu milli cəmiyyətlər gücləndikcə, soydaşlarımız Azərbaycan-Qarabağ həqiqətlərini əks etdirən kitablar nəşr etdirir, rəsmi junal, qəzet və "samizdat" dərgilər çap etdirib dövlət orqanlarına, ictimai təşkilatlara, başqa milli icmaların nümayəndələrinə və Rusiyanın bütün regionlardakı diaspor birliklərimizə pulsuz çatdırırdılar. Belə girişlə başlamağım ona görədir ki, bəzən olur ki, müxtəlif adamlar, diaspor təşkilatlarımızın əzablı şəraitdə formalaşdığını və bütün dövrlərdə təzyiqlərlə, nankor münasibətlərlə üzləşdiyini bilmir, ya da bilmək istəmir. Şəxsi təcrübəmdən mənim mövqeyim belədir ki, yuxarıda bəzilərini sadaladığım acı həqiqətləri heç zaman unutmamalı və daim öyrənməli, tədqiq edib nəticə çıxarmalıyıq. Yaddan çıxarmaq olmaz ki, o müsibətli illərdə, sapı özümüzdən olan baltalar da hərəkətdəydilər. Bu da ürəkağrıdan bir həqiqətdir. Bir acınacaqlı hadisəni də diqqətlə izləyəndə hiss olunur ki, o vaxtki ölkə rəhbərliyi hər şeydən xəbərdar idi və bu ağrılı hadisələrə dirijorluq edirdi. Belə ki, indi məlum olur ki, birbaşa Qorbaçovun göstərişi, diqtəsi, himayədarlığı ilə, o nifrətlə xatırlanan 1980-1990-cı illərdə, xalqımızın böyük oğlu Heydər Əliyevə qarşı qaralama kampaniyası aparılırdı. Görünür qorbaçovçular hiss edirdilər ki, bu dahi şəxsiyyəti gözdən salmaq, ləkələmək mümkün deyil. Ona görə də hücuma keçir, bütün metodlardan istifadə edir və yalan, saxta məlumatlar yayırdılar. Bəzi qəzetlər (məsələn, "Pravda", 1990, № 35) o zamanki nüfuzundan istifadə edib belə bədniyyətlilərə qoşulur, lakin istədiklərinə nail ola bilmirdilər. Çünki Heydər Əliyevin nüfuzu çox yüksək idi. Yaxşı yadımdadır, hələ Andropov ağır xəstə olanda və vəfat edəndə, o illərdə yaşadığım, vaxtaşırı müxtəlif bölgələrində məzuniyyətdə olduğum Rusiyada camaat arasında əksər vətəndaşlar deyirdilər ki, baş katib Heydər Əliyev seçiləcək. Təəssüflər olsun ki, belə düşünən sadə rus insanlar Kremldə mövcud olan və kökləri lap dərinə gedən millətçilikdən, şovinizmdən xəbərsiz idilər...

### Əzablı şəraitdə yaranan, doğma Vətənə qürurla həmrəylik göstərən diasporumuz

200 il dövr ərzində Azərbaycan əvvəlcə çar Rusiyasının, sonra da Sovet İttifaqının tərkibində olmuş, bu dövlətlərin qanunları milli diaspor təşkilatı yaratmağa yol verməmişdir. Ona görə də doğma Respublikamızın yetirmələri yaranmış vəziyyətdən maksimum istifadə edərək, Rusiyada milli diaspor yaratmağa başlayanda, buna qısqanclıqla yanaşanlar, "Siz dövlət içində dövlət yaratmaq istəyirsiz?", deyə sual edənlər də olurdu. Başqa vasitələrlə də diaspor icması yaratmaq təşəbbüsünə maneələr törədilirdi. Bütün bunlara baxmayaraq 1988-ci ilin əvvəllərində Moskva şəhərində, SSRİ EA Şərqşünaslıq institutunun böyük elmi işçisi Tofiq Məliklinin sədrliyi ilə on nəfərdən ibarət təşkilat komitəsi yaradıldı. Fevral ayında isə Azərbaycan SSR-nin Moskvadakı Daimi Nümayəndəliyinin Böyük Zalında təsis toplantısı keçirərək "Ocaq" Azərbaycan Mədəniyyəti Cəmiyyəti yaradıldı (Tofiq Məlikli, "Rusiyada Azərbaycan "OCAQ"ı, 2018, s.6). İlk iclasda Tofiq Məlikli - sədr, tarix elmləri doktoru, professor Saleh Əliyev - sədr müavini, idarə heyətinə isə texnika elmləri doktoru, professor Əli Nəsibov, fəlsəfə elmləri doktoru, professor Rafiq Qurbanov, kinorejissor Rəşid Atamalıbəyov, şair İlham Bədəlbəyli, məşhur pianoçu Ədilə Əliyeva, jurnalist Fərhad Ağamalıyev, ABŞ və Kanada İnstitutunun elmi işçisi, elmlər namizədi Rüfət Novruzov, mühəndis Fizuli Fərəcov və başqa tanınmış ziyalılar seçiliblər. Həmin tarixdən "Ocaq" öz fəaliyyətinə başlayıb. Cəmiyyətin rəsmi qeydiyyatı isə 3 oktyabr 1989-cu ildə Moskva Soveti İcraiyyə Komitəsinin

toplantısında gerçəkləşib. Cəmiyyətin sədri Tofiq Məlikli açıqlamasında deyir ki, mən "Ocaq" adını təklif etdim ona görə ki, məqsədim qədim türklərdə olduğu kimi soydaşlarımızı bir ocağın ətrafında toplamaq, dərdimizdən-sərimizdən danışmaq, yeri gələndə bir-birimizə dəstək olmaq, bizi birləşdirən bayramlarımızı qeyd etmək, Moskvada yaşayan azərbaycanlıların mədəni tələblərini təmin etmək, onların hüquqlarını müdafiə etmək idi.

Bu diaspor cəmiyyəti qısa müddət ərzində bir çox vacib tədbirlər həyata keçirə bildi. Məsələn, "Ocaq" təşkilatının himayəsində Moskvada 157 nömrəli Azərbaycan milli-mədəni komponentli məktəb açıldı və təşkilatın təklifilə Aidə Quliyeva məktəbə müdir təyin edildi. Sədr Tofiq Məliklinin təklifi ilə iş planına salındı və 28 may 1988-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin 70 illik yubileyinə həsr olunmuş təntənəli tədbir keçirildi və sonralar bu yubileylərin keçirilməsi ənənə halına çevrildi. Burda iştirak edənlər söyləyirlər ki, iclas olduqca möhtəşəm idi, nümayəndələrin və qonaqların sayı çox idi - Əyləşənlər qədər də ayaqüstə duranlar var idi. Tədbirdə Rusiya Milli Məsələlər naziri Vladimir Zorin təbrik çıxışı etmiş, sonra RF Dövlət Dumasının Milli Məsələlər Komitəsinin sədri, Rusiya Xalqları Assambleyasının prezidenti Ramazan Əbüllətifovun, başqa yüksək vəzifəli şəxslərin təbrikləri oxunmuşdur. Qeyd edək ki, "Ocaq" cəmiyyəti, Ermənistanın ölkəmizə təcavüzü nəticəsində başlamış Qarabağ müharibəsi, 20 Yanvar və Xocalı faciələri... barədə həqiqətləri yayımlanması və informasiya blokadasının yarılması, doğru məlumatların Avropaya ötürülməsi istiqamətində də kifayət qədər iş görmüş, toplantılar təşkil etmiş, müsbət nəticələrə nail olmuşdur.

1988-ci ildə S.M.Kirov adına Kazan Texnologiya İnstitutunun tələbəsi Eldar Dəhnəvi bir qrup azərbaycanlı tələbələri ətrafına toplayaraq, Azərbaycan Milli Muxtariyyətini yaradır. 1992-ci ilə kimi qeyri-leqal fəaliyyət göstərən bu təşkilatın fəalları Tatarıstan respublikasında keçirilən bir çox tədbirlərdə iştirak edir və Azərbaycan-Qarabağ həqiqətlərini ictimaiyyətə çatdırırdılar. Həmin cəmiyyət 1992-ci ildə "Oğuz" adı ilə rəsmi qeydiyyatdan keçmişdir. Göründüyü kimi, Rusiyadakı həmyerlilərimiz doğma Azərbaycanla həmrəylik göstərir, nə qədər ağır mühitdə yaşasalar da, onun problemlərinin həllinə kömək etməyə çalışır və yarandığı vaxtdan azərbaycançılığın təbliği ilə ciddi məşğul olurdular. Sonraki illərdə soydaşlarımızın təşkilatlanma işi daha da sürətlənir, ayrı-ayrı bölgələrdə yeni-yeni diaspor təşkilatları yaradılır, təbliğqt işinin məhsuldarlığını artırmaq məqsədilə onlarla mətbuat vasitəsi təsis edilir. Bu barədə qeydlərimin irəlidəki hissəsində söhbət açmaq istəyirəm.

**Olaylar.**-2023.-8 -14 dekabr.-№45.-S.17.

## Heydər Əliyev dünya azərbaycanlılarını birləşdirən ideologiyanın banisidir

**İradə Əliyeva**

Vətənpərvərlik ilk növbədə insanın öz ölkəsinə olan sevgisidir. Azərbaycançılıq ruhu bu hissdən başlanır. Xalqın milli-mənəvi irsini, tarixini, mədəniyyətini, dilini, bir sözlə, özünəməxsusluğunu göstərən dəyərləri qorumağa yönələn fəaliyyət burada üstünlük təşkil edir.

Ulu Öndər Heydər Əliyevin təlqin etdiyi düşüncə, yaratdığı nümunə hər birimiz üçün mükəmməl vətənpərvərlik məktəbi, vətənə sədaqət dərsidir. "Hər bir insanın milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" deyən Ümummilli Lider öz mənəvi irsi ilə insanın vətəninə sevgisinin həm də onun mənəviyyat göstəricisi olduğunu təlqin edir. Bildirir ki, vətənpərvərlik insanın daxilindəki duyğulardır. "Əgər bunlar yoxdursa, o insanın mənəviyyatından danışmağa dəyməz. Milli mənlik hər bir adamın özünün milli mənsubiyyətini ətraflı dərk etməsinə imkan yaradır. Milli mənliyi olan şəxs həyatın heç bir hadisəsinə laqeyd qalmır". Vətən, torpaq məhəbbəti, millətin və xalqın qayğıları onun şəxsi istək və arzularını üstələyir. Onu xalq üçün müəyyən fəaliyyət göstərməyə sövq edir.

Ulu Öndər deyirdi: "Xalqımız böyük xalqdır. Böyük tarixə, böyük mədəniyyətə malikdir. Bu mədəniyyətimizi, onun qədimliyini, dünya miqyasında böyük şöhrətə malik olduğunu hər kəsə nə qədər dərindən anlada bilsək, bir o qədər də xalqımızda vətənpərvərlik, vətəndaşlıq hissini, azərbaycançılığı yüksəldərik".

Ümummilli Liderin hələ sovetlər zamanında respublikaya rəhbərliyinin bütün fəlsəfəsi xalqın milli dirçəlişi, milli qürur hisslərinin oyanışı məramına hesablanmışdır. İdarəçilikdə bütün addımlar, o cümlədən iqtisadi inkişafın sürətli strategiyasının həyata keçirilməsi milli şüurun yüksəlməsinə təkan verməli, milli dirçəlişin etibarlı təməlinə çevrilməli idi. Bu məqsədə yetişmək üçün Heydər Əliyev azərbaycançılıq məfkurəsinin rejimin ideoloji repressiya maşını ilə boğulmasına nəinki imkan verməmiş, eyni zamanda milli məfkurə və düşüncə sahibi olan ziyalıları qorumuşdur. Bir sözlə, Ulu Öndər Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra siyasi reallıqdan məqsədli şəkildə çıxarılmış milli varlıq anlayışını ötən əsrin 70-ci illərində Azərbaycana rəhbərliyi dövründə qığılcıma çevirdi. O dövrün verdiyi imkanlar çərçivəsində həyata keçirdiyi ardıcıl tədbirlərlə milli şüurun oyanışına nail oldu. Həmin illər böyük rəhbər xalqımızın mənəvi dəyərlərinin qorunması, milli ruhun yüksəlişi, kadrların milliləşdirilməsi, azərbaycançılıq məfkurəsinin aktuallaşdırılması istiqamətində tarixi işlər gördü.

Ölkəmizin sosial-iqtisadi və mədəni yüksəlişi istiqamətində aparılan islahatlar, milli şüurun oyanışı məqsədi daşıyan açıq-gizli tədbirlər birbaşa və ya dolayı şəkildə azərbaycançılıq məfkurəsinin inkişafına, cəmiyyətdə öz dayaqlarının möhkəmləndirilməsinə xidmət edirdi. Ötən əsrin 80-ci illərinin sonlarından etibarən milli məfkurə işığında istiqlal mübarizəsinə qalxan, dövlət müstəqilliyini bərpa edən, qısa müddətdə böyük inkişaf nailiyyətlərinə imza atan Azərbaycan Respublikasının əsaslandığı möhkəm bünövrə Ümummilli Lider Heydər Əliyevin həmin illərdə və ondan sonrakı mərhələdə gördüyü işlər, formalaşdırdığı sarsılmaz təməldir. Ulu Öndərin formalaşdırdığı azərbaycançılıq ideologiyası bu təməlin əsas sütunlarından biridir.

1993-cü ildə, müstəqillik yollarında hələ ilk kövrək addımlarını atan Azərbaycanın çətin günlərində xalqın təkidli tələbi ilə ölkənin gələcəyinə görə məsuliyyəti üzərinə götürəndən sonra Heydər Əliyev azərbaycançılıq ideologiyasını dövlətimizin əsas qayəsinə çevirdi. Ən böyük azərbaycanlı kimi hər kəsə nümunə yaratdı, milli mənsubiyyətindən, dilindən, dinindən, siyasi baxışından, yaşadığı məkandan asılı olmayaraq özünü Azərbaycana qəlbən bağlı sayan bütün dünya azərbaycanlılarını azərbaycançılıq ideologiyası işığında bir araya gətirdi. Azərbaycançılıq məfkurəsini milli həmrəyliyin inkişafında aparıcı amilə çevirməklə cəmiyyətin möhkəmlənməsi istiqamətində mühüm səy göstərdi.

Böyük rəhbər azərbaycançılığın tarixən inkişaf etmiş komponentlərini dövlət idarəçiliyinin elmi-nəzəri əsaslarına daxil etdi, onları bir-birinə bağlı harmonik sistem və konsepsiyada birləşdirdi. Heydər Əliyev müstəqillik illərində azərbaycançılıq ideyasına yeni məzmun qazandırdı və onun praktiki olaraq həyata keçirilməsinə şərait yaratdı. Bununla da Ulu Öndərin xalqımız və dövlətimiz qarşısında ən mühüm xidməti azərbaycançılıq düşüncəsini bütün dünya azərbaycanlılarını birləşdirən ideologiyaya, müstəqil Azərbaycan dövlətinin ideya əsasına çevirməsi oldu.

**Real müstəqilliyin təminatı**

Ümummilli Lider azərbaycançılıq ideologiyasına real müstəqilliyə nail olmaq, vahid, bölünməz Azərbaycanı qoruyub saxlamaq və möhkəmləndirmək üçün vasitə kimi yanaşır, milli mənsubiyyətin, mənəvi dəyərlərin mühafizəsində, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezində, inteqrasiyasında bu ideologiyanın roluna xüsusi önəm verirdi. Heydər Əliyevin baxışlarına görə, azərbaycançılıq ideologiyası dünya azərbaycanlılarının birlikdə mənimsədiyi ənənə və dəyərlərin, Azərbaycan hüdudlarından kənarda yaşayan soydaşlarımızın hüquqlarının qorunması və tarixi vətənə olan münasibətlərini ehtiva edən, azərbaycanlı düşüncəsini müəyyənləşdirən böyük bir konsepsiyadır. Azərbaycançılıq milli mənsubiyyətindən asılı olmayaraq, özünü azərbaycanlı sayan hər bir insanın birlik mənbəyidir. Bu ideologiya dünyanın müxtəlif səmtlərində yaşayan on milyonlarla azərbaycanlını bir araya gətirən işıqdır.

Bununla yanaşı, azərbaycançılıq ideologiyası təkcə fərdləri birləşdirmir. Eyni zamanda inancların, mədəniyyətlərin, beynəlxalq-humanitar dəyərlərin vəhdətini yaradır. Şərq və Qərb mədəniyyətlərinin dialoquna, türkçülük və avropaçılıq meyillərinin sintezinə, tarixi ənənələrin müasir inkişaf prosesləri ilə qovuşmasına kömək göstərir. Bu səbəbdən də azərbaycançılıq ideologiyası müxtəlif regionlarda, sosial-siyasi sistemlərdə və mədəniyyət mühitlərində yaşayan bütün dünya azərbaycanlıları üçün dəyərlidir.

**"Düşünün ki, biz Azərbaycan üçün nə etmişik"**

Ulu Öndər Heydər Əliyevin irəli sürdüyü azərbaycançılıq müxtəlif amillərə əsaslanır. Bu amillərin ən mühümlərindən biri məhz milli ənənələrdir. Milli ənənələr milli düşüncə sisteminin genetik mənbəyi olaraq azərbaycançılığın inkişafına təsir göstərir. Ənənə, tarixi təcrübənin nəticələrini toplayaraq, xalqın bilik və mədəni iradəsi kimi təsəvvür edilir. O, keçmişlə gələcək arasında rabitə yaradır, etnik mədəniyyəti qoruyur. Bu ənənələr xalqın tarixi təcrübəsini özündə mühafizə edərək onun mütərəqqi həyat təcrübəsini əbədiləşdirir. Bu baxımdan, azərbaycançılıq ideologiyası, xalqın tarixi ənənələrini gələcək nəsillərə ötürən mənəvi köprüdür. Azərbaycançılığın gücü, fərdi maraqları dövlət siyasəti ilə birləşdirilərək milli-mədəni eyniyyəti qorumaq imkanlarını təmin etməklə ölçülür.

Azərbaycançılıq ideologiyası insanlarda öz xalqına, Vətəninə, dövlətinə sevgi göstərməyi öyrədir. Milli simvollara, adət-ənənələrə, xalqın minillərdir yol gələn, zaman-zaman cilalanıb misilsiz mənəvi sərvətə çevrilən dəyərlərinə hörmət və sevgi aşılayır, ana dilimizə məhəbbət təlqin edir. Eyni dərəcədə də ümumbəşəri dəyərləri önə çəkir, fərqli mədəniyyətlərə hörmətlə yanaşmağı anladır.

Heydər Əliyevin irəli sürdüyü azərbaycançılıq ideologiyası hər bir soydaşımız üçün gələcək qarşısında məsuliyyətdir. Dövlət nə qədər güclü olarsa, vətəndaşı da bir o qədər güclü olar. Ona görə də özünü inkişaf etdirmək istəyən, yeni imkanlara can atan hər bir fərd bütün bu istəkləri Vətənində reallaşdırmağı bacarmalıdır. O zaman məqsədlərə çatmaq daha asan olacaq, ölkənin ümumi inkişafından bu inkişafda payı olan hər kəs bol-bol faydalana biləcək. Ümummilli Lider deyirdi: "Siz düşünməyin ki, Azərbaycan bizim üçün nə edib, düşünün ki, biz Azərbaycan üçün nə etmişik. Onda Azərbaycan da irəli gedər, Azərbaycan diasporu da inkişaf edər... Harada doğulmağın fərqi yoxdur, əsas odur ki, sən azərbaycanlısan, Azərbaycan dilinin, mədəniyyətinin daşıyıcısısan".

**Milli birliyimizin Zəfəri**

Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinin qüdrətlənməsi üçün həyata keçirdiyi strateji missiya təkcə milli birliyin təmin olunması, demokratik, hüquqi dövlət quruculuğu, sosial-iqtisadi inkişaf yönündə ardıcıl tədbirlərlə, mövcud resurslardan səmərəli istifadə mexanizmlərinin formalaşdırılması ilə məhdudlaşmamış, bütün dünyada Azərbaycan diasporunun gücünün artırılması sahəsində də mühüm nəticələr əldə edilmişdir.

Xarici ölkələrdə yaşayan soydaşlarımızla mövcud əlaqələri gücləndirmək, onları ideoloji-siyasi məsələlərdə dəstəkləmək və ümummilli məqsəd üçün səfərbər etmək Azərbaycanın xarici siyasətində ən önəmli prioritet istiqamətlərdən biri halına gəlmişdir. Dövlət siyasəti, xaricdə yaşayan soydaşlarımızın milli identikliyini qorumaq, inkişaf etdirmək, Azərbaycanla əlaqələrini genişləndirmək və onların hüquqlarını reallaşdırmaq məqsədini güdür. Azərbaycan dövləti dünya azərbaycanlılarının potensial imkanlarını bir araya gətirmək və milli birliyi təmin etmək üçün sıx əlaqələr yaratmaq istiqamətində ardıcıl və sistematik

işlər aparır. Bu məqsədlə müvafiq təsisatlar formalaşdırılıb, dünyanın müxtəlif bölgələrində yaşayan soydaşlarımızın Azərbaycanla əlaqələrinin daha da gücləndirilməsi, birliyin və həmrəyliyin təmin olunması, Azərbaycan icmaları, cəmiyyətlərinin fəaliyyətinin inkişaf etdirilməsi və əlaqələndirilməsi üçün işlək bir mexanizm qurulub.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazandığımız zəfər, Azərbaycanın ərazi bütövlüyünün təmin olunması, dövlət bayrağımızın Şuşada, Xankəndidə dalğalanması milli birliyimizin nə qədər önəmli amil olduğunu bir daha sübuta yetirdi. Biz bu şanlı qələbəni milli birliyimizin gücü ilə qazandıq və bütün dünyaya qəbul etdirdik. Azərbaycanda yaşayan bütün xalqların təmsilçiləri vahid bir vətənin ərazi bütövlüyü uğrunda vuruşdular. Dünyanın hansı səmtində yaşamasından asılı olmayaraq qəlbi Azərbaycanla döyünən hər kəs Vətənin bu şanlı qələbəsinə öz töhfəsini verdi.

Bu gün tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycan Heydər Əliyevin arzularındakı Azərbaycandır. Azərbaycançılıq ideologiyasının daha da möhkəmlənməsi, öz əhatə dairəsini genişləndirməsi, milli məfkurə kimi hər bir soydaşımızın baxışlarında özünə yer tutması indi də dövlət siyasətinin əsas istiqamətlərindəndir.

Dövlətimiz diaspor fəaliyyətinə xüsusi diqqət ayırır. Milli diaspor təşkilatlarımız getdikcə güclənir, onların vahid və mütəşəkkil qüvvə kimi möhkəmləndirilməsinin ideoloji-siyasi əsasları formalaşır. Azərbaycan Prezidentinin həyata keçirdiyi daxili və xarici siyasətin uğurları sayəsində ölkəmizin beynəlxalq nüfuzu gücləndikcə, başqa ölkələrlə əlaqələri inkişaf etdikcə xaricdəki diaspor təşkilatlarımızın imkanları da genişlənir. Onlar mövcud olduqları ölkələrin ictimai-siyasi həyatına daha təsirli şəkildə nüfuz edə bilirlər.

Diaspor təşkilatlarımız müxtəlif ölkələrdə yaşayan azərbaycanlıların bir araya gəlməsini təmin edir və Azərbaycan dövlətinin nailiyyətlərinin, mədəniyyətimizin zənginliklərinin tanıdılmasına töhfə verirlər. Prezident İlham Əliyevin azərbaycancılıq ideologiyasının daha böyük uğur qazanması üçün həyata keçirdiyi ardıcıl fəaliyyət, bu sahəyə verdiyi önəm və göstərdiyi diqqət dövlətimizin yerinə yetirdiyi strategiyanın mühüm tərkib hissəsi kimi Azərbaycan diasporunun daha da güclənəcəyindən, Vətənə və soydaşlarımıza böyük nailiyyətlər gətirəcəyindən xəbər verir.

**Mədəniyyətlər arasında dialoq və multikulturalizm örnəyi**

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın fəaliyyəti də azərbaycançılıq ideologiyasının uğurlarına mühüm töhfələr verir və hər bir soydaşımız üçün parlaq nümunələr yaradır. Mehriban xanım Əliyevanın rəhbərliyi ilə həyata keçirilən layihələr bütün dünyada xalq olaraq mədəni sərvətlərimizin zənginliyini nümayiş etdirir, Azərbaycanın dostlarının sırasını daha da genişləndirir, mədəniyyət diplomatiyasının gücü ilə ölkəmizin beynəlxalq nüfuzuna xidmət edir.

Həyata keçirilən qlobal təşəbbüslər sayəsində Azərbaycan bu gün bütün dünyada mədəniyyətlərin dialoqu, multikulturalizm məkanı kimi tanınır. Xalqımız min illərdən bəri mövcud olan tolerantlıq ənənələrinin inkişafı, mədəniyyətlər arasında hörmət ruhu ilə bütün dünyaya örnək yaradır.

Bütün bunlar Ümummilli Lider Heydər Əliyevin banisi olduğu azərbaycançılıq ideologiyasının təntənəsidir. Azərbaycan xalqı azərbaycançılıq işığında bundan sonra da gələcək strateji hədəflərə doğru irəliləyərək daha böyük nailiyyətlərə imza atacaq.

**Azərbaycan.** - 2023.- 12 dekabr. - № 271. - S. 20.

## Həmrəyliyin 50 milyon nümunəsi

### Vətən Müharibəsi həmrəy və yekdil azərbaycanlıların birgə qələbəsi idi

**Lalə Mehralı**

Dilimizdəki "həmrəy" sözü "həmfikir", "yekdil" mənasını verir. Bu sözün özülündə birlik anlayışı dayanıb. Birliyin sütunları isə yekdil qüvvədən var olur. Bu gün dünyanın müxtəlif ölkələrində yaşayan, təqribi sayı 50 milyon nəfər olan azərbaycanlının 10 milyondan çoxu mühacirətdə yaşayır. Dünyanın 5 qitəsində məskunlaşan soydaşlarımızın siyasi, iqtisadi və sosial-mədəni fəaliyyəti yaşadıqları ölkələr, oradakı şərait, mənəvi dəyərlər kimi müxtəlifdir. Lakin onları birləşdirən bir amal var – bütöv və təhlükəsiz Azərbaycan. Biz bu bütövlüyü 44 günlük müharibədə tək ürək, tək bilək olan dünya azərbaycanlılarının timsalında bir daha gördük.

### Naxçıvandan bütün dünya azərbaycanlılarına həmrəylik çağırışı

Dünya Azərbaycanlılarının Həmrəylik Gününün əsası 1989-cu il dekabrın axırlarında Naxçıvanda SSRİ-İran sərhədlərinin dağılması zamanı qoyuldu. Noyabr ayının 5-də qurultayın qəbul etdiyi qərarda 31 dekabr gününün hər il geniş qeyd edilməsi zərurəti irəli sürüldü. 1991-ci ilin 16 dekabrında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev dünya azərbaycanlılarının birliyini yaratmağın əhəmiyyətini nəzərə alaraq dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan etdi. Bu barədə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 6 bənddən ibarət qərar qəbul etdi.

Qərarda qeyd olunurdu ki, 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik və Birlik Günü elan olunsun və hər il bayram edilsin. Həmin gün Naxçıvan Muxtar Respublikası ərazisində iş günü hesab edilməsin. 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəylik və Birlik Günü kimi bütün Azərbaycan Respublikasında rəsmi qeyd edilməsi üçün qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan Respublikasının Ali Sovetinə təklif verilsin. Naxçıvan Muxtar Respublikasının şəhər və rayon məclislərinə tapşırılsın ki, bayram günləri demokratik təşkilatların iştirakı ilə təntənəli mərasimlər hazırlayıb həyata keçirsinlər. Akademik Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət Universitetinə, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan şöbəsinə, Azərbaycan Yazıçılar Birliyinin Naxçıvan vilayət şöbəsinə, Xalq Təhsili Nazirliyinə tapşırılsın ki, 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik və Birlik Gününə həsr olunmuş elmi konfrans keçirsinlər. Sərhəd çəpərlərinin bərpa edilməsi qanunsuz hesab edilsin və istehkam qurğularının ləğv edilməsini təmin etmək üçün deputat komissiyası yaradılsın.

### 32 ildir ki, 31 Dekabr bizi birləşdirir

32 ildir ki, qeyd etdiyimiz 31 dekabr — Dünya Azərbaycanlılarının Həmrəylik Günü hazırda dünyanın 70-dən çox ölkəsində yaşayan azərbaycanlılar tərəfindən qeyd olunur. Həmrəylik günü Azərbaycan diasporu üçün xüsusi əhəmiyyətə malik tarixdir. Bu tarixin yaradılması ilə Azərbaycan xalqının birliyi, bütövlüyü uğrunda gördüyü çoxsaylı işlərdən daha biri ilə ömürlük tariximizə həkk olan Ümummilli Lider qürbətdə yaşayan soydaşlarımıza müraciətlərindən birində belə deyirdi:

"Dünya Azərbaycanlılarının Həmrəylik Gününün dövlət bayramı kimi qeyd edilməsi xalqımızın milli azadlıq mübarizəsinin məntiqi nəticəsi olaraq artıq xoş ənənəyə çevrilib. Qədim və zəngin tarixə malik olan Azərbaycan xalqının dirçəlişini, tərəqqisini və milli birliyini əks etdirən, onu müstəqil dövlətçilik uğrunda müqəddəs və məsuliyyətli mübarizəyə səfərbər edən həmrəylik günü hər bir azərbaycanlı üçün inam və ümid anıdır. Hal-hazırda dünyanın müxtəlif ölkələrində milyonlarla soydaşımız yaşayır, işləyir, fəaliyyət göstərir. Buna baxmayaraq, onların milli-mənəvi varlığını yaşadan yeganə bir dövlət var. Bu, müstəqil, suveren Azərbaycan Respublikasıdır. Dünya azərbaycanlılarının birliyi və həmrəyliyi ideyasının əsasını da məhz Azərbaycan dövlətçiliyinə, xalqımızın dilinə, dininə, milli-mənəvi varlığına və ümumbəşəri dəyərlərə hörmət, onların daim qorunmasına, yaşamasına qayğı təşkil edir".

### 5 qitədə həmrəy olmaq

Dünyanın 5 qitəsində məskunlaşan soydaşlarımız Amerika qitəsinin Şimal, Mərkəzi və Cənub hissəsində daha çox məskunlaşıblar. Onların sayı Birləşmiş Ştatlarda 1 milyona, Argentinada 12 minə, Braziliyada 75 minə, Kanadada 170 minə, Meksikada isə 27 minə çatır. Amerika qitəsi ölkələrində Honduras, Qvatemala, Peru və digərlərində də soydaşlarımız yaşayırlar. Məlumatlara görə, Amerika qitəsində məskunlaşan azərbaycanlıların əksəriyyəti zaman-zaman İrandan miqrasiya edən soydaşlarımızdır. 1970-ci ildən etibarən Türkiyədən, 1991-ci ildən isə Azərbaycandan bir qisim soydaşımızın okeanın o tayına köçü baş tutub.

Statistik göstəricilərə görə, azərbaycanlıların sayı Türkiyədə və Rusiyada daha çoxdur, bu say milyonlarla ölçülür. Belarus, Ukrayna, Almaniya və Böyük Britaniyada yüzminlərlə soyadşımız məskunlaşıb, Norveç, İsveç, Macarıstan, Danimarka, İtaliya və Fransada da on minlərlə azərbaycanlı yaşayır. Azərbaycanlıların məskunlaşdığı ölkələrdən olan Avstriya, Polşa, Finlandiya, İspaniya, Albaniya, Portuqaliyada on mindən çox soydaşımız yaşayır.

## Vətən müharibəsində dünya azərbaycanlılarının həmrəyliyi

II Qarabağ Müharibəsi zamanı dünyanın hər tərəfindən Azərbaycan sədası eşidildi. Müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar orduya dəstək məqsədi ilə yardım topladılar, onlar dövlətinin, ordusunun yanında olduqlarını hiss etdirdilər. Ən ali vəzifəli azərbaycanlıdan ən az gəlirli azərbaycanlıyadək hər kəs bu yardıma öz payını əlavə etdi. Topladıqları yardımı Azərbaycana göndərənlər orduya dəstək məqsədi ilə xərclənməsini istədilər.

O vəsaitə Azərbaycan əsgərinin ehtiyacı olmasa, hər bir ehtiyacları ödənsə də, dövlət sadə vətəndaşların bu dəstəyini qəbul etdi. Bu, ölkəsindən, vətənindən uzaqda yaşayan azərbaycanlıların vəfa borcu idi. Əsgər payı bağlamalarda nələr yox idi ki? Təmizlik vasitələrindən geyimə, qidadan suyadək hər ehtiyac nəzərə alınmışdı. Xaricdəki azərbaycanlıların topladıqları vəsaitə alınan yardımlar gecə-gündüz yol kənarlarında dayanıb orduya gedən hərbi avtomobilləri yola salan gənclər tərəfindən hərbi maşınların yük yerinə yığıldı. Sərhədyanı bölgələrdə yerləşən rayonların, kəndlərin əhalisi cəbhəyə qida, qarpız-qovun daşıdılar. Əsgər, arxasında 50 milyonluq Azərbaycanın varlığını, həmrəyliyini hiss etdi, daha əzmlə, daha cəsarətlə döyüşdü.

Dünya azərbaycanlılarının həmin günlərdə hiss etdiklərini Prezident İlham Əliyev belə dilə gətirir: "Əminəm ki, indi dünya azərbaycanlıları bu bayramı ruh yüksəkliyi ilə qeyd edirlər. Çünki mən bilirəm ki, bu işğal dövrü və işğalla bağlı olan məsələlər xaricdə yaşayan azərbaycanlılara da böyük əzab-əziyyət verirdi. Çünki ermənilərlə müxtəlif ölkələrdə ünsiyyətdə olarkən onların təkəbbürlü baxışları əminəm ki, dünya azərbaycanlılarını incidirdi. İndi isə vəziyyət tam fərqlidir. Biz heç vaxt təkəbbürlü olmamışıq, amma hər zaman öz gücümüzü hiss etmişik. Bu gün əminəm ki, dünya azərbaycanlıları yaşadıqları bütün ölkələrdə başı dik, alnıaçıq, üzüağ gəzirlər və öz tarixi vətəni olan Azərbaycanla haqlı olaraq fəxr edirlər".

Ötən il, 22 aprel 2022-ci ildə Şuşa şəhərində Dünya Azərbaycanlılarının V Qurultayı – Zəfər Qurultayı işə başlayanda da Prezident İlham Əliyev ilk qurultayı da xatırlamışdı. O, 2001-ci ildə, Bakıda keçirilən Dünya azərbaycanlılarının I Qurultayı barədə xatirələrini də bölüşmüşdü. O, Ümummilli Liderin vəsiyyətini reallaşdırdığı üçün, dünya azərbaycanlılarını Bütöv Azərbaycanın mədəniyyət beşiyi Şuşaya toplaya bildiyi üçün qürur duyduğunu dilə gətirmişdi.

**Səs.**-2023.-16 dekabr.-№231.-S.15.

## Azərbaycan diasporu Heydər Əliyevin 100 illiyində...

**İradə Sarıyeva**

**Dünyanın dörd bir yanına səpələnmiş azərbaycanlılarının vahid bayraq altında birləşdirilməsi, diaspor quruculuğu və lobbiçilik fəaliyyətinin formalaşdırılması tarixi bir hadisədir. Dünya azərbaycanlılarının həmrəyliyinin və diaspor quruculuğunun banisi ulu öndər Heydər Əliyevdir. Bu birmənalı olaraq belədir.**

Məhz Heydər Əliyevin prezidentliyi dövründə diaspor quruculuğuna böyük əhəmiyyət verildi, diaspor təşkilatlarının formalaşmasına dəstək göstərildi, lobbiçiliyin qurulması məsələlərinə xüsusi diqqət ayrılmağa başladı.

Azərbaycan diasporunun tarixən keçdiyi yola nəzər salsaq onun ən parlaq dövrünün Heydər Əliyevlə bağlı olduğu aydın görsənər.

Prezident İlham Əliyevin Sərəncamı ilə Azərbaycanda 2023-cü ilin "Heydər Əliyev İli" elan edildi. Ötən bir ilə yaxın dövr ərzində həm ölkə içində, həm xarici ölkələrdə "Heydər Əliyev İli" çərçivəsində ulu öndərin 100 illiyi ilə bağlı müxtəlif tədbirlər, yığıncaqlar keçirildi. Təbii, ilin sonuna qədər bu tədbirlər davam etdiriləcək və "Heydər Əliyev İli" böyük uğurla, yadda qalan nəticələrlə başa çatacaq.

**Diaspor hərəkatının əsasını qoyan ümummilli lider...**

Biz tez-tez Azərbaycan diasporunun nümayəndələrinin müsahibələrində "Heydər Əliyev İli" ilə bağlı tədbirlər barədə eşidirik. Diaspor təmsilçiləri deyirlər ki, 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsini hər bir vətənpərvər soydaşımız böyük ruh yüksəkliyi ilə qarşılayıb.

Bu gün Rusiyanın, Avropanın, Amerikanın müxtəlif şəhərlərində, vilayətlərində, başqa-başqa materiklərdə, qitələrdə fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatları il boyu "Heydər Əliyev İli" nə töhfə veriblər.

Diaspor təşkilatları "Heydər Əliyev İli" çərçivəsində bir çox tədbir keçirib. Dünya azərbaycanlıları ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunan tədbirlərdə qeyd ediblər ki, Heydər Əliyev bütün ömrünü Azərbaycan üçün yaşayıb, o, həyatının ən böyük qayəsini milliliyin, həmrəyliyin qorunub saxlanmasında görürdü. Onlar qeyd edirlər ki, Əliyev hər zaman xaricdə yaşayan azərbaycanlıların taleyi ilə maraqlanıb, onların birləşməsi, həmrəyliyi, Azərbaycan dövlətinin ətrafında sıx birləşməsi üçün siyasət həyata keçirib.

**Qitələri dolaşan Heydər Əliyev dühası...**

Məlum olduğu kimi, "Heydər Əliyev İli" münasibətilə xarici ölkələrdə keçirilən tədbirlərin təşkil edilməsində Diasporla İş üzrə Dövlət Komitəsinin böyük rolu var. Bu ilin may ayında Dövlət Komitəsinin, Azərbaycanın Almaniyadakı səfirliyinin əməkdaşlarının və Güney Azərbaycan icmasının nümayəndələrinin iştirakı ilə Berlində müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyi çərçivəsində Almaniyadakı Azərbaycan icmasının üzvləri ilə görüş keçirilib. Burada da vurğulanıb ki, "Heydər Əliyev İli" çərçivəsində bütün dünyada müxtəlif xarakterli tədbirlər gerçəkləşdirilir və H. Əliyev irsi bütün dünyada təbliğ olunur.

"Heydər Əliyev İli" çərçivəsində Cənubi Koreyanın Seul şəhərində, Almaniyanın Hambruq şəhərində, Qırğızıstanın Bişkek şəhərində və başqa ölkələrdə "Heydər Əliyev İli" çərçivəsində Azərbaycan icması ilə görüşlər keçirilib. Fransanın paytaxtı Parisdə də Heydər Əliyev İli ilə bağlı silsilə tədbirlər həyata keçirilib. Bundan başqa xarici ölkələrdə Dövlət Komitəsinin və diaspor qurumlarının xətti ilə müxtəlif konsert proqramları, ədəbi bədii gecələr keçirilib.

Bütün tədbirlərdə qeyd edilib ki, Heydər Əliyevin miras qoyduğu milli birlik ideyası, ənənəsi davam etdirilir.

Vaxtilə Heydər Əliyev soydaşlarımızla görüşdə milli birliklə bağlı deyirdi:"Sizdən çox şey tələb olunmur. Sadəcə, Siz unutmamalısınız ki, dünyada müstəqil Azərbaycan dövləti var. Unutmamalısınız ki, bu torpaq bütün azərbaycanlıların doğma torpağıdır. Unutmamalısınız ki, Azərbaycan dövləti mümkün olan çərçivədə hər birinizin hüquqlarınızın qorunması üçün lazımi işlər görəcəkdir və bilməlisiniz ki, biz dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar haqqında daim düşünürük, maraqlanırıq, hər bir həmvətənimizin yaxşı, firavan yaşamasını istəyirik, yaşadığı ölkədə özünəlayiq yer tutmasını istəyirik".

Ulu öndərin bu tövsiyələri ədəbiyyən soydaşlarımızın yaddaşında özünə yer tutub.

**Parisdə silsilə tədbirlər...**

Bir neçə gün əvvəl AZƏRTAC-ın təşkilatçılığı ilə Parisdə Azərbaycan səfirliyinin Mədəniyyət Mərkəzində Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş fotosərgi açılıb.

“Heydər Əliyev İli” çərçivəsində təşkil olunan sərgidə AZƏRTAC-ın fotoxronikasında saxlanılan və Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətinin müxtəlif dönəmlərini, dünya siyasi liderləri, eləcə də Fransanın sabiq prezidentləri ilə görüşlərini əks etdirən nadir fotolar nümayiş olunub. Bu fotolarda əbədiləşdirilən məqamlar Ulu Öndərin fəaliyyətinin tarixi məqamlarını əks etdirir.

Azərbaycanın Fransadakı səfiri Leyla Abdullayeva AZƏRTAC-ın “Heydər Əliyev İli” çərçivəsində Parisdə təşkil etdiyi sərginin əhəmiyyətini vurğulayaraq, belə sərgilərin Ulu Öndərin əziz xatirəsini daim yaşatdığını bildirib.

Sonra Azərbaycanın Fransadakı səfirliyinin və UNESCO yanında Daimi Nümayəndəliyinin birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyev tərəfindən təsis olunan və bütün azərbaycanlıların birlik rəmzinə çevrilən Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibəti ilə tədbir keçirilib.

Tədbirdə Leyla Abdullayeva və Azərbaycanın UNESCO yanında daimi nümayəndəsi Elman Abdullayev çıxış edib.

Səfir Leyla Abdullayeva Ümummilli Lider Heydər Əliyev tərəfindən təsis olunan Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə soydaşlarımızı təbrik edib. Səfir 2023-cü ilin Azərbaycan üçün çox önəmli olduğunu və bu il müasir Azərbaycanın banisi, qurucusu və memarı Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinin dünya ölkələrində, eləcə də Fransada təntənəli şəkildə qeyd edildiyini bildirib. Vurğulayıb ki, məhz bu il Prezident, Ali Baş Komandan İlham Əliyevin uzaqgörən siyasəti və rəhbərliyi ilə xalqımızın möhkəm iradəsi və hərbçilərimizin şücaəti sayəsində Azərbaycanın ərazilərinin suverenliyi tam bərpa olunub.

Bildirib ki, 2020-ci il Azərbaycan tarixinə qızıl hərflərlə qələbə-Zəfər ili kimi yazılıb və 2023-cü il isə bu qələbənin tacı olub. Zəfərimiz dövlətimizin, xalqımızın, eləcə də xaricdə yaşayan azərbaycanlıların birlik, həmrəylik və qürur rəmzinə çevrilib. Böyük Zəfər ölkəmizin tarixində yeni səhifə açdığı kimi, xaricdə yaşayan soydaşlarımızı birləşdirən diasporumuzun fəaliyyətində yeni dövrün əsasını qoyub. Vətən müharibəsi diasporumuzu daha da mətinləşdirib...

Dünyanın çox az ölkəsi ola bilər ki, orada Heydər Əliyevin anadan olmasının 100 illiyi çərçivəsində tədbirlər, görüşlər keçirilməsin. Çünki Heydər Əliyev bəşəriyyət üçün önəmli dövlət xadimi, siyasətçidir. Dünyanın 5 qitəsində hazırda dünyanın 100-dən çox ölkəsində yaşayan azərbaycanlıların bir araya gətirilməsi, xaricdə yaşayan soydaşlarımızla Azərbaycan arasında əlaqələrin qurulması çox mühüm nəticələr verdi.

Yeri gəlmişkən, Dövlət Komitəsinin sədr müavini Elşad Əliyev mətbuata bildirib ki, bu ilin birinci yarısında “Heydər Əliyev İli”çərçivəsində diaspor təşkilatları tərəfindən Azərbaycanda və müxtəlif ölkələrdə 100-dən artıq tədbir keçirilib. Bu tədbirlər ilin sonunadək davam edəcək.

Bu gün Azərbaycan diasporu Heydər Əliyevin dövlətçilik irsinin təbliğində, tanıdılmasında mühüm rol oynayır. Bu da faktdır ki, Azərbaycan diasporu Azərbaycan dövlətinin ətrafında çox sıx birləşib.

İlin sonuna az qalmadı a baxmayaraq, Heydər Əliyev İli çərçivəsində tədbirlər davam edir, filmlər, kitablar təqdim edilir, müsabiqələr keçirilir. Bütün bunların hamısında məqsəd ulu öndərin irsini yaşatmaq və təbliğ etmək dayanır. Bizə dövlətçilik, milli birlik bəxş edən bu qüdrətli şəxsiyyətin işıqlı əməlləri dünya azərbaycanlılarının qəlbində yaşayır. Qarşıdan 31 Dekabr Dünya - Azərbaycanlılarının Həmrəyliyi günü gəlir. Bu tarix də Heydər Əliyevin adı ilə bağlıdır...

**Bakı Xəbər**. - 2023. - 21 dekabr. - № 232. - S. 8.

## Ümummilli Lider Heydər Əliyev diaspor quruculuğunun banisidir

**Fuad Muradov,**
Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin sədri

**Tarix ən böyük dərsdir, onu öyrənmək və doğru qiymətləndirməyi bacarmaq lazımdır. Tarixi düzgün qiymətləndirmək həm perspektivlə bağlı daha doğru düşüncəyə sahib olmağa, həm də daha gözəl planlar qurmağa imkan verir. Məhz bu baxımdan diasporumuzun formalaşma tarixinə, xaricdəki icmalarımızın təşəkkülünə nəzər salanda görkəmli dövlət xadimi, Ulu Öndər Heydər Əliyevin böyük bir tarixi əsəri - güclü Azərbaycan diasporu qarşımızda durur.**

### Tarixdən dərs götürmək

Diasporla İş üzrə Dövlət Komitəsi diaspor siyasətinin həyata keçirilməsinə məsul bir qurum kimi fəaliyyətinin istənilən məqamında məhz həmin tarixi dərsdən - Ümummilli Liderin yaratdığı konsepsiyadan, təməl prinsiplərdən faydalanır.

Ulu Öndər hər xarici səfərində müxtəlif ölkələrdə yaşayan azərbaycanlılarla görüşüb, onlara tövsiyələrini verib və təşkilatlanmağın, Azərbaycanla bağlarını möhkəmləndirməyin yollarını göstərməklə yanaşı, bunun mühüm tarixi əhəmiyyətini izah edib. Görkəmli dövlət xadiminin hər bir tövsiyəsi bu gün də aktualdır, müasirdir və məhz bu səbəbdəndir ki, diaspor siyasəti sahəsində Azərbaycanda yaradılmış mexanizmi müxtəlif ölkələrin oxşar qurumları öyrənir, istifadə edir.

### Diaspor hərəkatının inkişafı üçün sistemli iş

Ümummilli Lider xarici səfərlərinin birində soydaşlarımızla görüşərkən bu fikirləri ifadə etmişdi: "Siz bilirsiniz ki, dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan etmişik. Həmin gün mən Azərbaycan Respublikasının vətəndaşlarını Yeni il bayramı münasibətilə təbrik edərkən həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlıları Həmrəylik Günü münasibətilə təbrik etdim. Üzümü bütün dünya azərbaycanlılarına tutub müraciət etdim: bilin ki, sizin Vətəniniz var və hamınız öz Vətəninizlə əlaqədə olun".

Heydər Əliyev xaricdəki soydaşlarımızın hər nəslinə xitab edib, diasporun, sözün həqiqi mənasında, "hərəkət trayektoriyası"nı cızıb. Ulu Öndərin siyasi uzaqgörənliyi nəticəsində diaspor hərəkatının inkişafı üçün xüsusi sistem yaradılıb. Bu sistem xaricdəki azərbaycanlıların sıx birləşməsinə, öz bilik, bacarıq və təcrübələrini ana vətən üçün sərf etməsinə şərait yaradıb, milli birliyə mane olan bütün amillərin heçə endirilməsinə təkan verib. Diasporla hər görüşündə müstəqillik amilini xüsusilə vurğulayan görkəmli dövlət xadiminin "Mən fəxr edirəm ki, azərbaycanlıyam!" ifadəsinin bütün dünyada yaşayan soydaşlarımıza ideoloji təsiri danılmaz və ölçüyəgəlməzdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi dünya azərbaycanlıları arasında böyük rəğbətlə qarşılanıb və soydaşlarımız, diaspor təşkilatları bu ilə öz layiqli töhfələrini vermək üçün əllərindən gələni əsirgəməyiblər.

Xaricdəki Azərbaycan icmaları, diaspor təşkilatları, koordinasiya şuraları, Azərbaycan evləri, "Qarabağ" məktəbləri və həftəsonu məktəbləri Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə "Heydər Əliyev İli" çərçivəsində 200-dən çox tədbir təşkil edib, dekabrın 12-si Ümummilli Liderin anım günündə çoxsaylı kütləvi tədbirlər həyata keçiriblər. Tədbirlərdə Heydər Əliyevin həyat və fəaliyyətindən söhbət açılıb, görkəmli dövlət xadiminin Azərbaycan xalqı və

dövlətçiliyi qarşısında misilsiz xidmətlərindən, əbədiyaşarlığından bəhs olunub. Müxtəlif ölkələrdə yaşayan soydaşlarımız Azərbaycan xalqına və dövlətçiliyinə əvəzsiz xidmət edən dahi siyasətçini sonsuz saygı ilə yad ediblər.

Dərin mahiyyəti, çoxçeşidliliyi və əhatə dairəsi ilə diqqət çəkən, azərbaycanlılarla bərabər, əcnəbilərin də iştirak etdiyi bu tədbirlər xüsusi həssaslıqla hazırlanıb, dünya ictimaiyyətinin Ulu Öndərin həyat və fəaliyyəti ilə bağlı geniş məlumatlandırılmasında əvəzsiz rol oynayıb. Diasporumuz bu il çərçivəsindəki uğurlu fəaliyyəti ilə Ulu Öndərin ideyalarına sadiq qaldığını bir daha sübut edib.

Ümummilli Liderin 100 illiyinə həsr olunan beynəlxalq-elmi konfranslar, forumlar, simpoziumlar, təntənəli konsert proqramları, fotosərgilər, beynəlxalq idman yarışları, açıq dərslər, festivallar, intellektual oyunlar, ağacəkmə aksiyaları, sərgilər və digər tədbirlər onlarla ölkəni, yüzlərlə şəhəri əhatə edib. Xaricdəki icma nümayəndələri Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən sənədli filmlərin hazırlanmasına, təqaüd proqramlarının təsis edilməsinə, videoçarxlar istehsal edərək geniş yayılmasına və bununla da dünyada Ulu Öndərin daha geniş təbliğ olunmasına nail olublar. Diasporumuzun səyi nəticəsində xarici KİV-də "Heydər Əliyev İli" çərçivəsində yüzlərlə məqalə dərc olunub. Bununla da diasporumuz görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin müasir Azərbaycan dövlətinin qurucusu olduğunu, türk dünyasının birliyinə, xalqımızın milli həmrəyliyinə, milli kimliyimizin qorunmasına, tariximizin, elm və mədəniyyətimizin inkişafına verdiyi töhfələri, ölkəmizin regionda lider ölkəyə çevrilməsi sahəsindəki addımlarını dünya ictimaiyyətinə bir daha xatırladıb.

Azərbaycan diasporunun tədbirləri nəinki ABŞ, Avropa və Asiyanı, hətta Afrikanı da əhatə edib. Ümumiyyətlə, bu gün azərbaycanlıların məskunlaşdığı elə bir ölkə yoxdur ki, orada Heydər Əliyevin 100 illiyi ilə bağlı hər hansı tədbir təşkil olunmasın.

## Həmrəylik

31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü Ümummilli Liderin adı ilə bağlıdır və bu, Ulu Öndərin dünya azərbaycanlılarına bəxş etdiyi ən böyük bayramdır. Hər il məhz bu günü xaricdəki soydaşlarımız böyük coşqu ilə, birlik, bərabərlik ruhu içərisində qeyd edirlər.

Son illər komitənin təşkilatçılığı ilə 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə keçirilən "Bir olaq, həmrəy olaq" adlı bayram tədbiri artıq ənənə xarakteri daşıyır və ildən-ilə tədbirdə daha böyük qələbəlik müşahidə olunur. Heydər Əliyevin 100 illiyi münasibətilə keçirilən bayram tədbirinə 700 nəfərə yaxın soydaşımız qatılıb. Zoom-konfransda dünyanın hər yerindən azərbaycanlılar iştirak edib, icma üzvləri Ümummilli Lideri böyük ehtiramla yad edib, tövsiyələrini xatırlayıb və Ulu Öndərin təməlini qoyduğu diaspor siyasətinin bu gün böyük müvəffəqiyyətlə davam etdirilməsindən məmnunluq ifadə ediblər. Hər il olduğu kimi, bu il də bir çox soydaşımız "Diaspor fəaliyyətində xidmətə görə" Azərbaycan Respublikasının medalı ilə təltif olunub, təşəkkürnamələrə layiq görülüb. Konfransda komitənin təqdim etdiyi "Heydər Əliyev və Azərbaycan diasporu" sənədli filmi rəğbətlə qarşılanıb.

Berlində "Gallery Berlin" rəsm qalereyasında təşkil olunan "Heydər Əliyev və Azərbaycanın mədəni irsi" adlı fotosərgi, Almaniyanın Maqdeburq şəhərində Heydər Əliyev adına Dünya Boks Komitəsinin, Diaspor Boks Liqasının idman zalının və "Ana dili" məktəbinin açılış mərasimi, Rusiyanın Sankt-Peterburq şəhərindəki Tavriya sarayında keçirilən qala-konsert və onlarla digər tədbirdə görkəmli dövlət xadimi Heydər Əliyevin həyat və fəaliyyətindən, tarixi xidmətlərindən danışılıb, əziz xatirəsi böyük ehtiramla yad edilib.

Azərbaycan Diasporuna Dəstək Fondunun ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərin övladlarının iştirakı ilə baş tutan "Qardaşlaşmış Qarabağ Məktəbləri" layihəsi bu il Ümummilli Liderin 100 illiyinə həsr olunub və layihə gənclər arasında böyük rəğbətlə qarşılanıb.

Xaricdə yaşayan və böyük uğur qazanan xeyli sayda soydaşımız var ki, onlar məhz Ulu Öndərin təhsil məqsədilə xaricə göndərdiyi azərbaycanlılardır. Dövlət proqramı xətti ilə bu gün də xaricdə təhsil alan azərbaycanlılar diasporumuzun inkişafına, güclənməsinə əvəzsiz xidmətlər göstərir. Bu baxımdan "Heydər Əliyev İli" çərçivəsində Berlində keçirilən Almaniyadakı Azərbaycanlı Həkimlərin II Forumu ölkəmiz və diasporumuz üçün tarixi hadisə idi.

Diqqəti diaspor gənclərini əhatə edən bəzi başqa layihələrə də cəlb etmək yerinə düşər. Diaspor Gənclərinin IV Yay Düşərgəsi, Gürcüstanın Borjomi şəhərində qonşu ölkədə yaşayan azərbaycanlı gənclərin "Regional Gənclər Şəbəkəsi Borjomi-2023" Yay Düşərgəsi, Özbəkistanda fəaliyyət göstərən Azərbaycan icması tərəfindən təşkil olunan azərbaycanlı gənclərdən ibarət birgünlük Yay Düşərgəsi yeni nəsil diasporun şəbəkələşməsi və müasir platformalar üzərindən daha güclü fəaliyyət göstərməsi üçün ciddi zəmin yaradıb. "Heydər Əliyev İli" çərçivəsində Naxçıvanda keçirilən Diaspor Gənclərinin IV Yay Düşərgəsi xaricdə yaşayan azərbaycanlı gənclərin və ölkəmizə dost münasibəti bəsləyən xalqların nümayəndələrinin məhz Naxçıvana gələrək dünya miqyasında ən nüfuzlu siyasətçilərdən olan Heydər Əliyevin irsi ilə tanış olmalarına, dahi şəxsiyyətin ideyalarının, siyasi kursunun bu gün də uğurla davam etdirildiyini müşahidə etmələrinə şərait yaradıb. Bu, bənzəri olmayan bir layihədir və yeni nəsil diasporun təşkilatlanmasında, onların azərbaycançılıq ideyası ətrafında birləşmələrində mühüm rola malikdir.

Ümumilikdə Diasporla İş üzrə Dövlət Komitəsinin təşəbbüsü ilə Ümummilli Liderin anadan olmasının 100 illiyi münasibətilə keçirilən silsilə tədbirlər diasporumuzun yumruq kimi birləşməsində ölçüyəgəlməz təsirə malik olub.

Bu mühüm tədbirlər həm də onu göstərir ki, xaricdəki Azərbaycan icmalarının daha sıx birləşməsi, ölkəmizdən kənardakı elmi potensialımızdan həm də Azərbaycanın inkişafı üçün səmərəli istifadə olunması Ümummilli Liderin siyasi kursunu müvəffəqiyyətlə davam etdirən Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqətindədir.

## Ana dili

Hakimiyyətdə olduğu bütün dövrlərdə Heydər Əliyev Azərbaycan dilini milli mənliyin ən mühüm məsələsi kimi diqqət mərkəzində saxlayıb. Hələ 1978-ci ildə Heydər Əliyev böyük cəsarət göstərərək Azərbaycan dilini dövlət dili kimi Azərbaycan SSR-in yeni Konstitusiyasına daxil edib. Sonralar bu təhlükəli tarixi məqamı belə xatırlayırdı: "Yadımdadır, 1978-ci ildə biz Azərbaycanın Konstitusiyasına Azərbaycan dilinin dövlət dili olması haqqında maddə daxil edəndə, Moskvadan bizim başımıza nə qədər oyunlar açıldı, nə qədər təzyiqlər göstərildi. Ancaq biz bu təzyiqlərə dözdük".

Heydər Əliyev diasporumuzla hər görüşündə onların Azərbaycan dilini unutmaması, yeni nəsil diasporun dilimizi öyrənməsi üçün tövsiyələrini verib. Prezident İlham Əliyevin ötən il Şuşada keçirilən Dünya Azərbaycanlılarının V Zəfər Qurultayındakı tarixi çıxışında da ana dili məsələsi xüsusi qeyd olunub: "...Əlbəttə, çox istəyirik ki, ikinci, üçüncü nəsil azərbaycanlılar öz mədəniyyətinə bağlı olsunlar. Əlbəttə, bu o qədər də asan məsələ deyil. Burada onlar ilk növbədə Azərbaycan dilini bilməlidirlər. Burada, əlbəttə ki, təkcə ailələrdə Azərbaycan dilini yaşatmaq mümkündür, ancaq kifayət deyil. Ona görə Azərbaycan məktəblərinin, bazar günü məktəblərinin açılması istiqamətində də biz hər zaman kömək göstərməyə hazırıq. Əslində bunu edirik. Bəlkə də bunu daha da təşkilatlanmış şəkildə etmək lazımdır. Çünki ana dili əsas amildir. Ana dili bütün Azərbaycan vətəndaşlarını birləşdirir".

Həm Ulu Öndərin, həm də cənab Prezidentin bu tövsiyələri DİDK-nin, eləcə də diasporumuzun fəaliyyət planının tərkib hissəsidir. Azərbaycan Respublikasının vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü və dəstəyi ilə xarici ölkələrdə açılan həftəsonu Azərbaycan məktəblərində minlərlə azərbaycanlı uşaq təhsil alır.

Komitə məktəbləri zəruri vəsaitlərlə, xüsusi dərsliklə təmin edib. Bu gün xarici ölkələrdə 100-ə yaxın həftəsonu məktəbi var və həmin məktəblərdə də "Heydər Əliyev İli" çərçivəsində bir sıra tədbirlər baş tutub, bu tədbirlər dilimizin inkişafı və gələcək nəsillərə ötürülməsi, ana dilinin diaspor arasında geniş təbliği istiqamətində az əhəmiyyət daşımır.

**Diasporun daha da güclənməsinə aparan yol**

Ulu Öndər Dünya Azərbaycanlılarının I Qurultayındakı çıxışı zamanı demişdi: "Biz çox iş görməliyik ki, güclü Azərbaycan diasporu yaransın və müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar daha da güclənsinlər".

Azərbaycanın hüdudlarından kənarda məşkunlaşmış milyonlarla soydaşımızın vahid bir amal ətrafında birləşərək güclənməsi, bu sahədə atılan ilk addımlar Ümummilli Liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Bu gün Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, onun müəyyənləşdirdiyi ümummilli inkişaf strategiyasını müvəffəqiyyətlə həyata keçirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev diasporumuzun formalaşması sahəsindəki nailiyyətləri yeni mərhələyə qaldırıb. Xaricdəki icmalarımız dövlət başçısının siyasi kursunu daim dəstəkləyir və fəaliyyətlərinin əsas prioriteti sayırlar.

Xaricdəki Azərbaycan icmaları həm müharibə dövründə, həm də "Heydər Əliyev İli"ndə ana vətən üçün əllərindən gələni əsirgəmədilər. 44 günlük Vətən müharibəsi dövründə xaricdə yaşayan soydaşlarımız həm maddi olaraq, həm də mənəvi müstəvidə Azərbaycanın yanında oldular, əsgər və qazilərimiz, onların ailələri üçün bacardıqlarını etdilər. Diaspor təşkilatları Ümummilli Liderin 100 illiyi münasibətilə reallaşdırdığı layihələrlə dünya ictimaiyyətinin məlumatlandırılmasına, qələbəmizin mahiyyətinin təbliğinə, işğalçının ifşa olunması və dezinformasiyaların qarşısının alınmasına böyük töhfələr verdilər. Bu, vətənə böyük xidmət idi. Ölkə daxilində müharibə bitib, amma diasporumuz informasiya müharibəsini hər zaman davam etdirməlidir.

Azərbaycan dövləti diasporun daha güclü, daha mütəşəkkil olması üçün lazım olan bütün dəstəyi göstərir, diasporumuz maddi və mənəvi müstəvidə vətənin gücünü tam mənası ilə hiss edir. Komitənin nəzdində yaradılan Azərbaycan Diasporuna Dəstək Fondu diaspor təşkilatlarının çoxistiqamətli layihələrinin həyata keçirilməsinə ciddi dəstək verir. Məhz düşünülmüş, uğurla həyata keçirilən diaspor siyasətinin nəticəsidir ki, Azərbaycan icmalarının güclərini birləşdirməsi və fəaliyyətlərini təmərküzləşdirməsi üçün yaradılan koordinasiya şuralarının, Azərbaycan evlərinin əhatə dairəsi daha da genişlənir. Diasporumuzun məqsəd və istəyi bu gün fəaliyyətdə olan 20 Azərbaycan Evinin sayının yaxın gələcəkdə daha da artırılmasıdır.

Güclənən Azərbaycan diasporu gələcəkdə "yumşaq güc"ə məxsus olan bütün təsirli vasitələrdən istifadə etməli, özü hər bir öhdəliyi yerinə yetirməyi bacarmalıdır. Fəaliyyətimizin mühüm bir hissəsi də məhz bu zəminin hazırlanmasına yönəlib. Dövlət başçısının tapşırıq və tövsiyələrini əsas götürərək bu zəminin yaranması, daha etibarlı olması üçün əlimizdən gələni edirik və bunu fəaliyyətimizin əsas prinsipinə çevirmişik.

**Azərbaycan.** - 2023.- 30 dekabr. - № 287. - S. 9.

# Dünya azərbaycanlılarının qürur mənbəyi Qalib Vətən

## Beynəlxalq ictimaiyyət xaricdə yaşayan həmvətənlərimizin Azərbaycan Prezidenti ətrafında sıx birliyinə, həmrəyliyinə şahidlik edir

**Mustafa Kamal**

***Ölkəmiz tarixi günlər yaşayır. Son 20 ildə möhtəşəm uğurlara imza atan, qazandığı Zəfərlə regionda yeni reallıqlar yaradan, ərazi bütövlüyünü, suverenliyini tam bərpa edən ölkəmizin dünyada nüfuzunun artması Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin müdrik siyasətinin nəticəsidir. Dövlət başçısı Ulu Öndərin strateji inkişaf xəttini yaradıcı şəkildə həyata keçirərək böyük sosial-iqtisadi inkişafa nail olub. Ölkəmizin zəngin təbii ehtiyatlarından bacarıqla istifadə edərək Azərbaycanı bütün dünyada yaşayan soydaşlarımızın ümid, pənah yerinə çevirib. Sürətli sosial-iqtisadi inkişafa nail olmaqla yanaşı, peşəkar diplomatik fəaliyyəti ilə Azərbaycanı dünya dövlətlərinin etibarlı və sadiq tərəfdaşı edib.***

Azərbaycan regionda sürətlə inkişaf edən ölkəyə çevrilməklə müasir beynəlxalq münasibətlər sistemində mühüm geosiyasi və geostrateji yer tutub. Prezident İlham Əliyev ölkədə sosial-iqtisadi, mədəni-humanitar sahələrin inkişafına, buradakı müxtəlif xalqların nümayəndələrinin sülh və dini tolerantlıq şəraitində yaşamasına nail olub. Dövlətimizin başçısı dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların sıx birliyini, vahid ideya uğrunda həmrəyliyini təmin edib.

Azərbaycançılıq ideyasının, milli birliyin və həmrəyliyin möhkəmləndirilməsi üçün dünyaya səpələnmiş soydaşlarımızın Vətənlə əlaqələrinin, xüsusilə ölkəmizin bütün məsələlərdə milli maraqlarının və tarixən formalaşmış mənəvi dəyərlərinin qorunması məqsədilə diaspor quruculuğu sahəsində bir sıra mühüm addımlar atılıb. Bu illər ərzində Azərbaycan diasporu xeyli fəallaşıb, fəaliyyət dairəsini genişləndirib və dünyanın bir çox ölkələrilə əlaqələr yarada bilib. 2001-ci ildə keçirilən Dünya Azərbaycanlılarının I Qurultayında ulu öndər Heydər Əliyev həmin dövrdə Azərbaycan diasporunun, dünya azərbaycanlılarının fəaliyyətini yüksək qiymətləndirməklə bərabər, hələ də bu məsuliyyətli işdə müəyyən problemlərin olduğunu diqqətə çatdırır və ümidlə bildirirdi ki, dünya azərbaycanlıları birləşməlidirlər. Onlar Azərbaycan həqiqətlərini dünyaya çatdırmaqda fəal olmalı və bir məqsəd uğrunda mübarizə aparmalıdırlar. Sözsüz ki, həmin dövrdən sonra Azərbaycan diasporunun fəaliyyətində irəliləyiş baş verdi.

İkinci Qarabağ müharibəsində tarixi ədalətin zəfər çalmasında hər bir soydaşımız əlindən gələni əsirgəmədən yaşadıqları ölkələrdə Azərbaycanın haqq səsinin çatdırılması istiqamətində yorulmadan çalışdı. Xalqımız üçün belə bir həssas dönəmdə Diasporla İş üzrə Dövlət Komitəsi və xaricdə yaşayan azərbaycanlılar üzərlərinə düşən ikiqat məsuliyyəti dərk edərək vəzifə borclarını böyük fəxarət və qürurla yerinə yetiriblər. Məqsədyönlü fəaliyyətlə Azərbaycan reallıqlarının dünyaya çatdırılması istiqamətində Şanlı Qələbəmizi fəxrlə yaşadıqları ölkələrin kütləvi informasiya vasitələrində müxtəlif dillərdə yaymağa çalışıblar. Xaricdə yaşayan azərbaycanlıların müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, dünya azərbaycanlıları arasında birliyin və həmrəyliyin təmin olunması, habelə Azərbaycan icmaları, cəmiyyət və birliklərinin fəaliyyətinin gücləndirilməsi və əlaqələndirilməsi ilə bağlı məsələlərin müzakirə edildiyi ən yüksək səviyyəli tədbir Dünya Azərbaycanlılarının V Qurultayı 22 aprel 2022-ci ildə Şuşa şəhərində keçirilmişdir.

"Biz bu gün azad Qarabağda, azad Şuşada Dünya Azərbaycanlılarının Qurultayını keçiririk. Bu qurultayın adı Zəfər qurultayıdır və bu, təbiidir. Çünki tarixi Zəfərdən sonra ilk dəfədir ki, dünya azərbaycanlıları toplaşır, qurultay keçirir və ümumiyyətlə, Zəfər adı xalqımıza çox yaraşır. Siz buraya Zəfər yolu ilə gəlmisiniz, qurultayın adı Zəfər qurultayıdır". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev V Qurultayda söyləyib. Tarixi Zəfərdən sonra Dünya Azərbaycanlılarının V Qurultayının mədəniyyət paytaxtımız Şuşada keçirilməsi böyük tarixi əhəmiyyət kəsb edir və soydaşlarımızın həmrəyliyinin təzahürü olmaqla yanaşı, çox mühüm mənəvi, siyasi əhəmiyyətə malik qürurverici bir tarixi hadisədir. Bütün dünya ictimaiyyəti bir daha dünya azərbaycanlılarının öz Prezidenti ətrafında sıx birləşməsinə, həmrəyliyinə şahidlik edib.

Onu da qeyd etmək lazımdır ki, tarixi Zəfərimizi bizə iki cəbhədə gedən savaşlar qazandırdı. Ön cəbhədə arxa cəbhədə informasiya savaşında qalib olduq. Bu savaşda qazandığımız tək 30 ildən bəri işğal

altında qalan torpaqlarımız olmadı, həm də ictimaiyyətimiz informasiya savaşı kimi yeni qlobal, həm də dinc mübarizənin nə qədər önəmli olduğu gerçəyini dərk etdi. Xalqımızın dövlətin hüdudlarından kənarda xarici ölkələrdə düşmənə qarşı apardığı informasiya müharibəsində diaspor təşkilatlarının koordinasiya fəaliyyəti, dəstəyi danılmazdır. Dünya azərbaycanlılarının birliyinə, əzmkarlıq və cəsarətinə 2020-ci ilin payız günlərində bir daha şahidlik etdik. Vətən müharibəsi zamanı xaricdə yaşayan soydaşlarımızın düşmənin və anti-Azərbaycan dairələrin məkrli təxribatlarına qarşı cəsarətli etirazları, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işində fədakar xidmətləri Qələbəmizə layiqli töhfə olmuşdur.

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən Dünya Azərbaycanlılarının Qurultayları artıq ənənə halını almışdır. Ümummilli liderin dillər əzbərinə çevrilən "Mən fəxr edirəm ki, azərbaycanlıyam!" sözləri ilə tarixə düşən I Qurultayda Azərbaycan icmalarının tarixi Vətənlə əlaqələrinin qurulması və möhkəmləndirilməsi, xaricdə yaşayan həmvətənlərimizin təşkilatlanması, diaspor quruculuğu sahəsində əsas vəzifələr müəyyənləşdirilmiş və bunun əsasında Azərbaycan diaspor siyasəti formalaşdırılmışdır. I Qurultayda 36 xarici dövlətdə yaşayan həmvətənlərimizin cəmləşdiyi 200-dən çox müxtəlif təşkilatı təmsil etməklə 406 nümayəndə və 63 qonaq iştirak etmişdi. Qurultay iştirakçıları planetimizin geniş coğrafi məkanını əhatə edən ABŞ, Türkiyə, Rusiya, Böyük Britaniya, Kanada, Almaniya, Fransa, Gürcüstan, Avstriya, Rumıniya, İsveçrə, Avstraliya, Özbəkistan, Ukrayna, Estoniya, Latviya, Moldova, Qazaxıstan, Danimarka, Hollandiya, Finlandiya, Belarus, İsrail və s. dövlətləri təmsil etmişdilər. Azərbaycan Respublikası qurultayda 130-dan çox müxtəlif dövlət və ictimai qurumlardan, elm, təhsil, mədəniyyət və digər yaradıcı təşkilatlardan, 25 siyasi partiyadan 702 nümayəndə və 844 qonaqla təmsil olunmuşdur. Qurultayda Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının üzvləri müəyyənləşdirilmiş və Heydər Əliyev Şuranın sədri seçilmişdir. O vaxtdan bu günə qədər Azərbaycanda böyük işlər görülmüş, ölkəmiz daha da güclənmiş, imkanlarımız artmışdır.

2006-cı il martın 16-da Bakıda keçirilmiş Dünya Azərbaycanlılarının II Qurultayı diaspor quruculuğu prosesində irəliyə doğru növbəti addım olmuşdur. Qurultayda qəbul olunmuş sənədlər - Dünya Azərbaycanlılarının II Qurultayının qətnaməsi, qurultayın Azərbaycan Respublikası Prezidentinə və dünya azərbaycanlılarına müraciətləri, keçmiş Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara, xarici ölkələrin parlamentlərinə, dövlət və hökumət başçılarına, BMT-nin Təhsil, Elm və Mədəniyyət Məsələləri üzrə Təşkilatına (UNESCO), Azərbaycan və türk diaspor təşkilatlarına müraciətləri xaricdə yaşayan azərbaycanlıların qurultaydan sonrakı müddətdə konkret fəaliyyət proqramı olmuşdur. Qurultayda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının sədri seçilmişdir. Dünya Azərbaycanlılarının II Qurultayına ümumilikdə 1231 nümayəndə qatılmışdır. Qurultayda 49 xarici ölkədən 593 nümayəndə və 388 nəfər qonaq iştirak etmişdi. Tədbirdə Azərbaycan Respublikası 27 dövlət və hökumət qurumlarından, ictimai təşkilatlardan, elm, təhsil, mədəniyyət müəssisələri və yaradıcı təşkilatlardan, siyasi partiyalardan 638 nümayəndə və 625 qonaq ilə təmsil olunmuşdu. Beləliklə, Dünya Azərbaycanlılarının II Qurultayı Prezident İlham Əliyevin Sərəncamına əsasən 2006-cı ildə, III Qurultay 2011-ci ildə, IV qurultay 2016-cı ildə Bakı şəhərində keçirilmişdir.

Hazırda dünyada gedən proseslər və ikili standartlar, eləcə də Azərbaycan reallıqlarının təhrif olunması diaspor təşkilatlarının da fəaliyyətinə müəyyən maneələr törədir. Ancaq buna baxmayaraq, bu gün Azərbaycan xalqı, dünya azərbaycanlıları birdir. Və onların səyləri nəticəsində Azərbaycan reallıqları dünyaya çatdırılır. Ölkəmizdə keçirilən bir çox beynəlxalq tədbirlər, eyni zamanda Azərbaycanın mötəbər tədbirlərdə iştirak etməsi və söz sahibi kimi öz fikirlərini, reallıqlarını dünya ictimaiyyətinə çatdırması diaspor təşkilatlarının da rolunun artırılmasına yeni imkanlar yaradır. Qələbədə payı olan Azərbaycan diasporunu postmüharibə dövründə daha böyük vəzifələr gözləyir. Zəfər Qurultayında Prezident İlham Əliyev konseptual, dərin və əhatəli çıxış edərək Azərbaycan diasporunun qarşısında duran mühüm hədəflərdən geniş bəhs etdi, vurğuladı ki, həmişə xaricdə yaşayan azərbaycanlıların həyatı, taleyi, işləri ilə maraqlanırıq. Çalışırıq ki, onlara öz dəstəyimizi verək. İstəyirik ki, onlar olduqları ölkələrdə rahat yaşasınlar, yaxşı mövqe tutsunlar, onların yaxşı imkanları olsun və eyni zamanda, öz doğma Vətəninə də xidmət etsinlər.

**Respublika.** - 2023.- 30 dekabr. - № 287. - S. 1-2.

# Dünya azərbaycanlılarının həmrəyliyinin möhkəmlənməsində Ümummilli Liderin rolu

**Qafar Əliyev**

**Bu il Azərbaycan xalqının Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin banisi, Yeni Azərbaycan Partiyasının qurucusu, dünya şöhrətli siyasətçi Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü tamam oldu. Dahi rəhbərin Vətən, xalq və dövlət qarşısında xüsusi xidmətlərindən biri də dünya azərbaycanlılarının həmrəylik və birlik gününün rəsmiləşdirməsi, daha doğrusu, ona dövlət bayramı günü statusu qazandırması olmuşdur. 1989-cu ilin dekabrında başlanan və 1990-cı ildən ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikasında geniş qeyd edilən dünya azərbaycanlılarının həmrəylik və birlik gününə Heydər Əliyev əsl dövlət statusu qazandırdı.**

Çünki Naxçıvan Muxtar Respublikasından başlanıb Azərbaycanın digər sərhəd rayonlarına da keçən bu ümumxalq hərəkatına 1989-90-cı illərdə imperiya mövqeyindən yanaşan SSRİ-nin və Azərbaycanın kommunist rəhbərliyi, hərbi dairələr qara yaxmağa başlamışdılar. 1991-ci ilin 16 dekabrında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev dünya azərbaycanlılarının birliyini yaratmağın əhəmiyyətini nəzərə alaraq dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan etdi.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev dövlətçilik fəaliyyətində diaspor işinə daim diqqət yetirmiş, harada və hansı vəzifədə çalışmasından asılı olmayaraq daim Azərbaycan dövlətinin nüfuzunu yüksəltmiş, xalqımızın şərəf və ləyaqətini qorumuş, azərbaycanlıları uca tutmağa, onların mənəvi və fiziki qabiliyyətlərini aşkara çıxarmağa, onlara inam və etimad göstərməyə çalışmış, başqalarını da buna təşviq etmişdir.

Ulu Öndər hakimiyyətdə olduğu dövrlərdə çox cəsarətlə və qürur hissləri ilə “Azərbaycan dövləti”, “Azərbaycan xalqı”, “Azərbaycan milləti”, “Azərbaycan dili”, “Türk dünyasının birliyi”, “Bir millət, iki dövlət”, “İslam həmrəyliyi” və s. kimi fikir, ideya, söz və ifadələrini uca kürsülərdən söyləmişdir. Heydər Əliyev Azərbaycan xalqının qədim və qəhrəmanlıqlarla dolu tarixini, zəngin mədəniyyətini, ecazkar təbiətini, çox rəngarənk və ləzzətli mətbəxini, həzin,ürəkləri lərzəyə gətirən musiqisini, ədəbi-fəlsəfi fikirlərlə dolu olan ədəbiyyatını və.s dünyaya nümayiş etdirməyə çalışmışdır.

Ulu Öndər azərbaycanlıların milli şüuruna yenidən işıq saçmaqla onların milli kimliyini, milli mənsubiyyətini, milli tarixi kökünü bir daha müzakirə mövzusu edərək və bu məsələlərdə diaspor işinə xüsusi önəm verərək, 2001-ci il noyabrın 9-10-da dünyanın müxtəlif qitələrində yaşayan azərbaycanlıları doğma Vətənə - Azərbaycana topladı. Ulu Öndər Heydər Əliyevin həmin günlərdə keçirilən Dünya Azərbaycanlılarının I Qurultayındakı çıxışında söylədiyi fikirlər soydaşlarımızın milli şüurunu və tarixi yaddaşını yenidən silkələdi, onların milli hisslərini coşdurdu və işıqlandırdı. Yalnız və yalnız ulu öndər Heydər Əliyevin dünya şöhrəti, müdrikliyi, bacarığı, səriştəsi, dəmir məntiqli nitqi sayəsində müxtəlif ölkələrdə yaşayan və müxtəlif dünyagörüşə malik olan dünya azərbaycanlıları bir araya gəldilər və milli məqsədlər naminə yumruq kimi birləşməyə qərar verdilər. Dünya azərbaycanlılarının möhkəm milli birliyinin yaranması istiqamətində atılan addım kimi bu tarixi qurultayın çağırılması Ümummilli Lider Heydər Əliyevin Azərbaycan dövlətçiliyi, tarixi, xalqı və dünya azərbaycanlıları qarşısında ən böyük xidmətlərindən biri idi.

1991-ci ildə Sovet İttifaqının dağılmasını, 15 müttəfiq respublikanın öz müstəqilliyini yenidən bəyan etməsini və 1920-ci ildən sonra itirilmiş müstəqilliyin bərpasını dünyada gedən obyektiv tarixi proseslərin məntiqi nəticəsi kimi xarakterizə etdi və bu proseslərin nəticəsində dünya azərbaycanlılarının həmrəyliyinin yaranması üçün əlverişli şəraitin yarandığını bildirdi. Heydər Əliyev qurultaydakı öz nitqində bu məsələlərə toxunaraq dedi: “ ...biz hələ müstəqilliyimizin ilk aylarında,1991-ci il dekabrın 31-də Dünya Azərbaycanlılarının Həmrəylik Günü haqqında qərar qəbul etdik. Biz o vaxtdan bu günü böyük bayram kimi qeyd edirik və o vaxtdan da dünyada yaşayan azərbaycanlılarla əlaqələrimiz tədricən inkişaf etməyə başladı. Bunlar hamısı Azərbaycanın müstəqilliyinin və Azərbaycan xalqının milli azadlığının nəticəsidir”. Ümummilli Lider öz nitqində qeyd etdi ki, bütün dünyaya səpələnmiş azərbaycanlıların birliyi, həmrəyliyi indi həm bizim üçün, müstəqil Azərbaycan dövləti üçün, həm də dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar üçün xüsusi əhəmiyyət kəsb edir.

Bakıda Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsinin əsas əhəmiyyətindən biri də bundan ibarət olmuşdur ki, qurultayda iştirak edən insanlar, dünyanın bir-çox üzaq ölkələrindən gəlmiş soydaşlarımız bir-biri ilə daha yaxından ünsiyyətdə olmuş, bir-birini anlamağa çalışmış, müxtəlif ölkələrdə fəaliyyət göstərən icmaların vahid diaspor halında birləşməsində böyük rol oynamışlar.

Qurultayda Ümummilli Lider Heydər Əliyev azərbaycançılıq ideologiyasının Azərbaycan dövlət müstəqilliyi əldə edəndən sonra aparıcı ideya kimi həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideya olduğunu bəyan etdi. Ümummilli Lider dedi: “Biz həmişə bu ideya ətrafında birləşməliyik. Azərbaycançılıq öz milli mənsubiyyətini qoruyub saxlamaq, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir”.

Dünya Azərbaycanlılarının I Qurultayında Ulu Öndər yüksək tribunadan bir daha bəyan etdi: “Müstəqil dövlət kimi Azərbaycan öz milli mənafelərinə uyğun olan müstəqil xarici siyasət aparır. Müstəqil xarici siyasət aparmaq müstəqilliyi daha da möhkəmləndirmək deməkdir. Biz həm xarici əlaqələrdə, həm də Azərbaycanın daxilində bir çox çətinliklərlə rastlaşmağımıza baxmayaraq, öz müstəqilliyimizi qoruyaraq dünyada müstəqil siyasət aparırıq”. Daha sonra milli lider vurğuladı ki, Azərbaycan sülhsevər dövlətdir. Biz dünyanın bütün ölkələri ilə lazım olan səviyyədə iqtisadi, siyasi, ictimai, elmi, humanitar əlaqələr yaratmışıq, yaradırıq və bu əlaqələri inkişaf etdiririk və etdirəcəyik. Ancaq Azərbaycan heç vaxt öz müstəqil siyasətindən geri çəkilməyəcəkdir. Onun müstəqil xarici siyasəti Azərbaycanın müstəqilliyinin əsas rəmzidir, əsas göstəricisidir”.

Ölkəmiz ən böyük problemi olan Azərbaycan - Ermənistan Dağlıq Qarabağ probleminə toxunan Heydər Əliyev münaqişənin həlli ilə bağlı görülən işlərdən danışdı və əmin olduğunu bildirdi ki, bu münaqişə də aradan götürüləcək, işğal olunmuş torpaqlar azad ediləcək, yerindən-yurdundan didərgin düşmüş qaçqın və köçkünlər öz doğma torpaqlarına qayıdacaqla “Təbiidir ki, bu məsələdə beynəlxalq təşkilatlarla yanaşı, Azərbaycan diasporuna da böyük ehtiyacımız var.”-deyə o bildirib. Hamımız - siz də, biz də çox iş görməliyik ki, Azərbaycanın güclü diasporu yaransın.

Ulu Öndər çıxışını belə arzularla başa vurdu: “Qoy, çaylarımız qurumasın! Qoy, ağaclarımız kəsilməsin! Qoy, çırağımız sönməsin! Azərbaycan xalqına eşq olsun! Yaşasın müstəqil Azərbaycan, Azərbaycan, Azərbaycan!”

Ümummilli Lider Heydər Əliyev Azərbaycan diasporunu gücləndirmək məqsədi ilə türk və islam dünyasının birlik və həmrəyliyinin də vacib olduğunu bəyan etmiş və bu istiqamətdə də zəruri addımlar atmışdır.

**İki sahil**. - 2023.- 30 dekabr. - № 241. - S. 4.

## Birlik və həmrəyliyimiz!

**Zümrüd Bayramova**

Azərbaycan müstəqillik əldə etdikdən sonra dövlətin qarşısında duran əsas vəzifələrdən biri də xarici ölkələrdə yaşayan həmvətənlilərimizin təşkilatlanması, ölkəmizin ümumi maraqlarının müdafiəsi işinə cəlb edilməsi olub. Diaspor quruculuğu işi daima Azərbaycanın dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi mühüm əhəmiyyət kəsb edib. Dünya azərbaycanlılarının müstəqil dövlətimiz və vahid məqsəd ətrafında birləşdirilməsi ideyasının müəllifi Azərbaycan tarixinin və dövlətçiliyinin şərəfli səhifələrini yaradan Heydər Əliyev olmuşdur. Məhz Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Ali Məclisi "Dünya azərbaycanlılarının həmrəylik və birlik günü haqqında" 1991-ci il 16 dekabr tarixli qərarı ilə dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan edib. Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə elan edilmiş milli-mənəvi birliyə çağırış günü ümumxalq mənafelərimizin həyata keçirilməsi naminə soydaşlarımızın azərbaycançılıq ideyası əsasında sıx birləşməsi, ümumi milli diasporun formalaşması və lobbi fəaliyyətinin inkişafı prosesinin başlanğıcını qoydu. Bu bayram ayrı-ayrı ölkələrdə yaşayan azərbaycanlılarla əlaqələr qurmaq, onlar arasında birlik və həmrəylik yaratmaq işində mühüm rol oynayır.

31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü bayramı dünyanın 70-dən çox ölkəsində azərbaycanlılar tərəfindən qeyd olunur. Həmrəylik günü Azərbaycan diasporu üçün ən mühüm bayrama çevrilib. Həmrəylik gününü hətta milliyyətcə azərbaycanlı olmayıb, lakin Azərbaycanda doğulub böyümüş, Azərbaycan əsilli diaspor nümayəndələri də qeyd edirlər. Azərbaycanlılar minilliklər boyu özlərinin doğma torpağı olan tarixi Azərbaycan ərazisində yaşayaraq dünya sivilizasiyasına böyük töhfələr vermişlər. Müharibələr, inqilablar, hərbi münaqişələr, dünyada gedən müxtəlif ictimai-siyasi proseslər nəticəsində Azərbaycan parçalanmış, azərbaycanlıların bir qismi öz yurd-yuvalarından didərgin salınmış, deportasiyalara məruz qalmış, bir-birindən ayrı düşmüşdür. Beləliklə də, azərbaycanlılar tarixi Azərbaycan torpaqlarından bütün dünyaya yayılmışlar. Hazırda onlar dünyanın bir çox ölkələrində yaşayırlar. Rusiyada, Ukraynada, Müstəqil Dövlətlər Birliyinin digər ölkələrində, Baltikyanı ölkələrdə, Avropada, Amerikada, Şərq ölkələrində iri Azərbaycan icmaları yaranmışdır.

Azərbaycan diasporu bu gün bir məslək və əqidə ətrafında yetərincə birləşərək, ölkəmizin mənafeyi istiqamətində ardıcıl iş aparır. Qloballaşan dünyada müxtəlif ölkələrdə yaşayan azərbaycanlıları bir araya gətirmək, bir məslək və ideya ətrafında birləşdirmək, əlbəttə ki, azərbaycançılıq məfkurəsindən yaranan amaldır. Təbii ki, ötən əsrin 90-cı illərinin əvvəllərində müstəqillik əldə etmiş Azərbaycanda ideya əsas prioritetlərdən biri elan edilərək, bu istiqamətdə ardıcıl işlər görülməyə başlandı. 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı, digər sahələrdə olduğu kimi, diaspor quruculuğu işində də əsaslı dönüş yaratdı. Dünya azərbaycanlılarının vətənlə əlaqələrini inkişaf etdirmək, soydaşlarımızın milli özünəməxsusluğunu qoruyub-saxlamaq, diasporun potensialından milli maraqlarımızın daha etibarlı şəkildə qorunması istiqamətində faydalanmaq, diasporlararası əlaqələri genişləndirmək kimi məqsədləri reallaşdırmaq üçün mühüm addımlar atıldı. Ümummilli Lider Heydər Əliyev cəmiyyətin bütövləşməsi və azərbaycançılıq ideologiyasının milli həmrəyliyin aparıcı amilinə çevrilməsi istiqamətində mühüm işlərə imza atdı. Ulu Öndər azərbaycançılıq ideologiyasının real müstəqilliyə nail olmaq, vahid və bölünməz Azərbaycanı qoruyub-saxlamaq və möhkəmləndirmək üçün vasitə olduğunu vurğulayırdı.

Dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın və həmvətənlərimizin müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, onlar arasında birliyin və həmrəyliyin təmin olunması kimi məsələlərin, zərurətini nəzərə alaraq, Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi haqqında 2001-ci ilin may ayının 23-də Ümummilli Lider Heydər Əliyevin məlum Sərəncamı bu ideologiyanın gerçəkləşməsinə istiqamətləndi. Qurultay milli ideologiyamız olan azərbaycançılıq ideyası ətrafında soydaşlarımızın birlik və həmrəyliyini nümayiş etdirdi. Qurultayda Ulu Öndər Heydər Əliyev qurultayın məqsədinə, qarşıya qoyulan məsələlərə aydınlıq gətirərək, bildirmişdi ki, hamımız - siz də, biz də çox iş görməliyik ki, Azərbaycanın güclü diasporu yaransın: "Müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar daha da güclənsinlər. İqtisadi cəhətdən daha da möhkəmlənsinlər, yaşadıqları ölkələrin ictimai-siyasi həyatında fəal iştirak edə bilsinlər və o ölkələrin həyatına öz təsirlərini göstərə bilsinlər. Beləliklə də, müxtəlif ölkələrdə Azərbaycanın müstəqilliyini, onun xarici siyasətini təbliğ etməklə yanaşı, Azərbaycanın problemlərinin həll olunmasına yardım etsinlər. Hesab edirəm ki, dünya

azərbaycanlıları bu yol ilə getməlidir və bu yolda hələ istifadə olunmamış böyük imkanlar vardır. Bu gün işinə başlayan qurultay da, məhz bu məqsədi daşıyır".

Bir il sonra 5 iyul 2002-ci il tarixində Ümummilli Lider Heydər Əliyevin "Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında" imzaladığı Fərman tarixi hadisəyə çevrildi. Artıq imzalanan bu rəsmi sənəddən bu gün 20 il keçir. Tarixi dövr ərizində görülən işlərin miqyası ildən-ilə artmışdır. Əgər o vaxt dünyada 200-dən bir qədər çox diaspor təşkilatımız var idisə, hazırda onların sayı 500-ə yaxındır. Azərbaycan diaspor təşkilatları həm kəmiyyət, həm keyfiyyət baxımından böyük yol keçmiş, güclənmiş, bu gün dünya miqyasında azərbaycanlılar və onların təmsil etdikləri təşkilatlar önəmli rol oynayırlar. Bu gün əsası Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulan diaspora quruculuğu siyasəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qayğısı və yüksək diqqəti sayəsində uğurla davam etdirilir. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2008-ci il 19 noyabr tarixli 54 saylı Sərəncamı ilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin əsasında Diasporla İş üzrə Dövlət Komitəsi yaradıldı.

Azərbaycan diasporu təşkilatlanaraq, ölkəmizin milli maraqlarını əzmlə qoruyan bir qüvvəyə çevrilib. Azərbaycan diasporunun məskunlaşma coğrafiyasının miqyası sonsuzdur. Dünyanın 5 qitəsində məskunlaşan soydaşlarımızın siyasi, iqtisadi və sosial-mədəni fəaliyyəti yaşadıqları ölkələr, oradakı şərait və mənəvi dəyərlər kimi müxtəlifdir. Lakin problemlərə və çətiliklərə baxmayaraq, azərbaycanlılar hər zaman öz milli mənsubiyyətini, adət-ənənələrini, mənəvi-əxlaqi dəyərlərini qayğı ilə qoruyub-saxlayıb və tarixi Vətənlə əlaqələrini itirməyiblər. Bu gün dünyanın müxtəlif ölkələrində diasporumuzun mövcudluğu da, məhz bu amillə bağlıdır. Azərbaycanlılar Amerika qitəsinin şimal, mərkəzi və cənub hissəsində daha çox məskunlaşıblar.

Mövcud vəziyyət, belə deməyə əsas verir ki, yeni dünya düzəni və qloballaşma prosesləri nəticəsində, diasporlar yalnız müəyyən dövlətin ərazisində məskunlaşmış eyni milli mənsubiyyətli insanların yaratdıqları ictimai hərəkat və ya birlik kimi nəzərdən keçirilmir, onlar həm də təmsil etdikləri xalqın milli maraqlarının fəal müdafiəçisi kimi də tanınırlar. Bu gün Azərbaycan diasporu dünyanın bütün qitələrində ABŞ, Fransa, Misir, Avstraliya, Gürcüstan, Moldova, Avstriya, İslandiya, Almaniya, İspaniya, Qazaxıstan və İtaliya kimi onlarla dövlətdə fəaliyyət göstərir. Dünya ölkələrində Avstraliya-Azərbaycan-Türk Dostluq Birliyi, Azərbaycan-İsveçrə Türk Cəmiyyəti, Vaşinqton-Azərbaycan Mədəniyyət Mərkəzi, Hyuston Azərbaycanlıları Cəmiyyəti, Amerika-Azərbaycan Şurası, Qafqaz Yəhudiləri Cəmiyyəti və onlarla belə qurumlar diaspora quruculuğu siyasətinin məntiqi olaraq təşəkkül tapıb. Diasporun gördüyü işlər yaşadıqları ölkələrin siyasi həyatına təsir edəcək səviyyəyə yüksəlib.

**"Mən çox istəyirəm ki, xaricdə fəaliyyət göstərən diaspor təşkilatları da bir nöqtəyə vursunlar, birləşsinlər"**

Ölkəmizdə keçirilən dünya azərbaycanlılarının qurultayları da ölkəmizin tarixinə iftixar gətirəcək hadisələr sırasındadır. Çünki dünya azərbaycanlılarını təmsil edən əsas diaspor təşkilatlarının nümayəndələri, rəhbərləri Azərbaycana - doğma Vətənə gəlir, birliyi və həmrəyliyi nümayiş etdirirlər. Dünya Azərbaycanlılarının IV Qurultayının rəsmi açılışında Azərbaycan Prezidenti İlham Əliyev çıxışında "Mən çox istəyirəm ki, xaricdə fəaliyyət göstərən diaspor təşkilatları da bir nöqtəyə vursunlar, birləşsinlər. Belə olan halda, onların gücü də, ictimaiyyət tərəfindən onlara qarşı hörmət də artacaq" deyərək, birliyin əsas məsələlərdən olduğunu diqqətə çatdırmışdır: "Xüsusilə, nəzərə alsaq ki, bütün azərbaycanlılar, onların böyük əksəriyyəti vətənpərvərdirlər, Vətənə bağlıdırlar. Onlar istəyirlər ki, Azərbaycan dövləti daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin". Qurultayda müasir dövrdə informasiya müharibəsi, bu sahədə yeni fəaliyyət mexanizmlərinin tətbiqi, Azərbaycan diaspor hərəkatında gənclərlə bağlı yeni strategiyanın hazırlanması, yeni qlobal iqtisadi tendensiyalar fonunda lobbi quruculuğu, cəmiyyətə inteqrasiya, siyasi həyatda iştirak və digər bu kimi əhəmiyyətli mövzularda fikir mübadiləsinin aparılması dünya azərbaycanlılarının daha da sıx birləşməsinə təkan oldu.

Azərbaycanın bir sıra dünya ölkələrdəki formalaşmış diaspor fəalları Azərbaycanın haqq səsinin dünyaya çatdırılmasında mühüm rol oynayırlar. Son vaxtlar ölkəmizin siyasi həyatında baş verən hadisələr zamanı soydaşlarımızın vətən naminə atdığı addımlar, yumruğu bir yerə vurması dünyanın hansı ölkəsində yaşamasından asılı olmayaraq bir amal, məqsəd uğurunda birləşməsinin bariz nümunəsidir. Bu gün əzəli torpaqlarımızın işğaldan azad olunması və ölkəmizin ərazi bütövlüyünün bərpası uğrunda aparılan İkinci Qarabağ savaşında qazanılan tarixi Qələbəni bütün dünya azərbaycanlıları yaşadı. Hansı ölkədə yaşamasından asılı olmayaraq hər bir azərbaycpaanlı həmrəy oldu. Bir yumruq ətrafında birləşirdi. Bu, ən

böyük uğurlarımız sırasındadır. Dünyanın hansı ölkəsində yaşamasından asılı olmayaraq, hər bir Azərbaycanlının qəlbi doğma yurdla döyünür. Əlbəttə ki, Azərbaycan dövləti hər zaman həmvətənlərinin yanındadır. Dünya ölkələri tərəfindən tanınması, haqq səsinin dünyaya çatdırılmasında kifayət qədər güclüdür, güclü diasporu formalaşıb.

**“Azərbaycan xalqı bu dövrdə də birlik, həmrəylik göstərəcək,güclü iradə göstərəcək”**

Mükəmməl texnologiyamız, döyüş ruhumuzun yüksəkliyi, xalq-iqtidar birliyi, həmrəylik Azərbaycanın qalib dövlət kimi adını tarixə yazdı. Tarixi qələbənin qazanılmasında Ali Baş Komandan, Müzəffər Azərbaycan Ordusudur. 44 gün davam edən Vətən müharibəsində qəhrəmanlıq göstərən vətən oğulların şücaəti, mücadiləsi milyonlarla insanlara qələbə sevincini yaşatdı. Prezident İlham Əliyevin özünün də dediyi kimi, O, ata vəsiyyətini, Ümummilli Lider Heydər Əliyevin ən böyük arzusunu – Qarabağın mənfur düşmənlərdən, işğalçı ermənilərdən azad olunmasını gerçəkləşdirdi. Azərbaycan bayrağının işğaldan azad olunan torpaqlarımızda ucaldılmasını hər kəsin 30 ilə yaxın bir zamanda gözlədiyi möhtəşəm hadisədir. Azərbaycan Prezidenti İlham Əliyevin bildirdiyi kimi, bizim ölkəmiz üçün yeni dövr başlayır: "Yeni quruculuq dövrü, inkişaf dövrü, azad edilmiş ərazilərimizin bərpası dövrü. Mən tam əminəm ki, Azərbaycan xalqı bu dövrdə də birlik, həmrəylik göstərəcək, güclü iradə göstərəcək. Azərbaycan xalqı yenə də birləşərək dağıdılmış bu şəhərləri, kəndləri bərpa etmək üçün əlindən gələni edəcəkdir. Biz bundan sonra böyük və qürurlu xalq kimi yaşayacağıq».

Bildiyimiz kimi, sentyabrın 19-da Qarabağdakı qeyri-qanuni erməni silahlı birləşmələrinin həyata keçirdiyi hərbi təxribatlara cavab olaraq Ordumuz bölgədə lokal xarakterli antiterror tədbirlərinə başlayaraq, yenidən xalqımıza qələbə sevincini yaşatdı. Bölgədə məskunlaşmış qeyri-qanuni erməni silahlı birləşmələri bu tədbirlər nəticəsində zərərsizləşdirildi. Azərbaycan Prezidenti çıxışlarının birində bildirdiyi kimi, biz qan tökərək, cəsarət göstərərək, düşməni qovaraq yeni reallıq yaratmışıq: "Bu gün hər kəs bizimlə hesablaşmalıdır və hesablaşacaqdır... Əks təqdirdə, "dəmir yumruq" yenə qılınc kimi başlarının üzərindədir və hər an yenidən işə düşə, sarsıdıcı zərbəsini endirə bilər".

24 saata yaxın davam edən və peşəkarlıqla həyata keçirilən əməliyyat nəticəsində dövlətimizin suverenliyi tamamilə bərpa olundu. Beləliklə, Azərbaycan Prezidenti İlham Əliyev həm ölkəmizdə, həm də xaricdə yaşayan milyonlarla azərbaycanlının arzusunu gerçəkləşdirdi.

**Səs**. - 2023.- 31 dekabr. - № 242. - S. 3.

## Bu həmrəylik ölkəmizi, xalqımızı yeni-yeni qələbələrə aparacaq!

### Bu gün xalqımız bu gözəl bayramı daha mütəşəkkil, daha təşkilatlanmış və müqəddəs amallar ətrafında birləşərək qeyd edir

**Sevinc Azadi**

**Dünyanın hansı guşəsində yaşamasından asılı olmayaraq, dünya azərbaycanlılarının həmrəyliyi günü hər bir azərbaycanlı üçün əzizdir. Bu gün xalqımız bu əlamətdar günü daha mütəşəkkil, daha təşkilatlanmış və müqəddəs amallar ətrafında birləşərək qeyd edir. 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi gününün təsis edilməsi Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır.**

Azərbaycanda başlayan milli-azadlıq mübarizəsinin ən gərgin vaxtında Heydər Əliyev dünya azərbaycanlılarının vahid ideya ətrafında birləşdirilməsinin Azərbaycanın gələcəyi üçün tarixi və strateji önəm daşıdığını uzaqgörənliklə müəyyən etdi. Həmin dövrdə Heydər Əliyev tərəfindən irəli sürülmüş azərbaycançılıq ideyası Azərbaycanın dünya birliyinə inteqrasiyasının təməl sütunlarından birini təşkil etməyə başladı. Məhz Heydər Əliyevin təşəbbüsü ilə 1991-ci il dekabr ayının 16-da Naxçıvan Muxtar Respublikasının Ali Məclisi "Dünya azərbaycanlılarının həmrəylik və birlik günü haqqında" tarixi qərarı qəbul etdi. Bu qərara əsasən, dekabrın 31-i Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan edildi. Beləliklə, dünyanın 70-dən yuxarı ölkəsinə səpələnən 50 milyondan çox azərbaycanlı vahid azərbaycançılıq ideyası ətrafında birləşdirilməsinin və milli diasporumuzun formalaşdırılmasının əsası qoyuldu. 1992-ci ildə Azərbaycan parlamenti dekabrın 31-nin Dünya Azərbaycanlılarının Həmrəyliyi günü kimi qeyd olunmasına dair qərar qəbul etdi. 1993-cü ildə isə Azərbaycan Prezidentinin Fərmanı ilə 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi günü kimi rəsmi bayram elan edildi.

31 dekabr Azərbaycan millətinin birlik şüarının simvoludur. Bu bayram ayrı-ayrı ölkələrdə yaşayan azərbaycanlılarla əlaqələr qurmaq, onlar arasında birlik və həmrəylik yaratmaq işində mühüm rol oynayır. Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün qeyd edilməsi bütün dünya azərbaycanlıları tərəfindən artıq bir zərurətə və mənəvi ehtiyaca çevrilib. Ulu Öndər Heydər Əliyev azərbaycançılıq ideyasının dünya azərbaycanlılarının həmrəyliyinin təmin edilməsində güclü diaspor təşkilatının formalaşdırılmasına və onların Azərbaycan dövləti ətrafında daha sıx birləşməsinin vacibliyinə diqqəti cəlb edərək 2001-ci il noyabr ayının 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayında söylədiyi: "Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır, azərbaycançılıqdır. Öz ürəyimdən gələn fikirləri bir daha bildirmək istəyirəm ki, hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" dahiyanə fikirləri hər gün daha çox önəm daşıyır. Qurultay dünya azərbaycanlılarının birləşdirilməsi, bu sahədə mövcud olan problemlərin aradan qaldırılması istiqamətində mühüm hadisəyə çevrildi. Tədbirdə 36 xarici ölkədə yaşayan həmvətənlərimizin cəmləşdiyi 200-dən artıq təşkilatın 406 nümayəndəsi və 63 qonaq iştirak edirdi.

Ümummilli Lider Heydər Əliyevin 2002-ci il 5 iyul tarixli Fərmanı ilə Xarici ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılmasından sonra dünya azərbaycanlılarının arasında həmrəyliyin möhkəmləndirilməsi istiqamətində daha məqsədyönlü işlər aparılmışdır. Diasporla İş üzrə Dövlət komitəsi Azərbaycan diasporunun fəaliyyətinin mütəşəkkil şəkildə əlaqələndirilməsində, dünya azərbaycanlılarının siyasi və ideoloji birliyinin təmin olunmasında, bu sahədə mövcud problemlərin aradan qaldırılmasında mühüm rol oynayır. Azərbaycanlıların həmrəyliyi, birliyi yönümündə həyata keçirilən bu və ya digər tədbirlər artıq öz səmərəsini verir. Belə ki, Azərbaycan diasporu beynəlxalq aləmdə milli maraqlarımızın təmin olunmasında, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə obyektiv şəkildə çatdırılmasında böyük təsir gücünə malik bir qüvvəyə çevrilmişdir.

Dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar arasında həmrəyliyin möhkəmləndirilməsi, onların təşkilatlandırılması və güclü Azərbaycan diasporunun formalaşdırılması bu gün də respublikamızda dövlət siyasətinin mühüm istiqamətini təşkil edir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan milli həmrəylik ideyalarının Azərbaycan dövləti üçün öz aktuallığını saxladığını nümayiş etdirir. “Bu gün Azərbaycan diasporu böyük iqtisadi, mədəni, intellektual qüvvəyə malikdir. Yaşadıqları ölkələrin ictimai-siyasi həyatında onların təsiri getdikcə

daha artıq hiss olunur. Müstəqil Dövlətlər Birliyi ölkələrində, Avropada, Amerikada Azərbaycan icmaları və cəmiyyətləri əvvəlki dövrlərlə müqayisədə xeyli səmərəli fəaliyyət göstərirlər. Hazırda azərbaycanlıların həmrəyliyinin və mütəşəkkilliyinin güclənməsi, ümummilli ideyalar ətrafında birləşməsi üçün daha geniş imkanlar yaranmışdır. Azərbaycan dövləti nüfuzlu iqtisadi və siyasi gücə çevrilmiş, bütün dünyada yaşayan soydaşlarımız qarşısında parlaq perspektivər açılmışdır. İndi biz dünya azərbaycanlılarının ümumbəşəri və mili-mədəni hüquqlarının, beynəlxalq konvensiyalarda təsbit edilmiş insan haqlarının qorunmasını təmin etmək üçün daha təsirli vasitələrə malikik. Azərbaycanın siyasi rəhbərliyi dünya azərbaycanlılarının Vətənimizə və xalqımıza mənsubluq hissini gücləndirmək, onların ölkəmizin iqtisadi, mədəni həyatında hərtərəfli iştirakını təmin etmək üçün bütün zəruri tədbirləri görəcəkdir.” Prezident İlham Əliyevin bu sözləri Azərbaycan dövlətinin bu mövzuda necə qərarlı olduğunu sübut edir.

Hazırda xalqımızın birliyi, həmrəyliyi ölkəmizin inkişafını daha da sürətləndirib. Tariximizə qızıl hərflərlə yazılan Vətən müharibəsində qazandığımız Zəfər həmrəyliyimizin, xalq-iqtidar birliyinin, bir yumruq ətrafında birləşməyimizin bariz nümunəsidir. Bu tarixi Qələbəni bizlərə yaşadan Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, siyasi iradəsi, həmçinin güclü ordumuzun və xalqımızın həmrəyliyi, birliyi oldu. Bu gün hər bir azərbaycanlı cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə bundan sonra da yeni-yeni zirvələrə doğru inamla addımlayacağına tam əmindir. Bu həmrəylik ölkəmizi, xalqımızı yeni-yeni qələbələrə aparacaq!

31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi günü münasibətilə dünyanın bütün yerlərində yaşayan soydaşlarımızı təbrik edir, onlara hər bir sahədə uğur, gündən-günə çiçəklənən Azərbaycan dövləti ətrafında bundan sonra da sıx birləşməyi arzulayırıq. Bayramınız mübarək!

**İki sahil**. - 2023.- 31 dekabr. - № 242. - S. 4.

## Milyonların qəlbi Azərbaycanla döyünür!

### 50 milyon soydaşımızı birləşdirən bir VƏTƏN var...

**Mübariz Abdullayev**

Dekabrın 31-i dünyanın əksər ölkələrində böyük həyəcanla gözlənilən və xüsusi qeyd edilən bir gündür. Təqvim ili dəyişir, ömrümüzə yeni il gəlir. Təbii ki, hər kəsin qəlbində qarşıladığımız yeni illə bağlı arzular pərvazlanır, bir-birimizə xoş niyyətlərimizi ifadə edirik.

Ancaq dekabrın 31-ni xalqımız üçün əlamətdar edən başqa, daha mühüm səbəb də var. Bu da dünya azərbaycanlılarının dekabrın 31-də həmrəylik bayramlarını qeyd etmələridir. Bizim üçün müstəsna əhəmiyyət daşıyan bu günü qısaca olaraq belə səciyyələndirə bilərik: Bu gün dünyanın müxtəlif ölkələrində yaşayan 50 milyondan çox soydaşımızın qəlbində bir ürək döyünür - Vətənə, ana Azərbaycana bağlı olan bir ürək!

**Heydər Əliyevin həyata vəsiqə qazandırdığı ümummilli ideya**

Dünya Azərbaycanlılarının Həmrəylik Gününün qeyd edilməsi ideyası xalqımızın ümummilli lideri Heydər Əliyevə məxsusdur. Heydər Əliyev hələ keçmiş sovet dönəmində Azərbaycana rəhbərlik etdiyi illərdə xaricdə yaşayan azərbaycanlıların ana Vətənlə əlaqələrinin qurulmasına, soydaşlarımız arasında milli-mənəvi bağların möhkəmlənməsinə çalışır və bunu rejimin ideoloji çərçivələrini nəzərə almaqla ilk növbədə bizi birləşdirən dəyərlərə - milli mədəniyyətimizə, dilimizə sonsuz qayğı göstərməklə edirdi. İş elə gətirdi ki, sonrakı mərhələdə dünya azərbaycanlılarının həmrəyliyinin təmin olunması missiyasının praktiki müstəvidə reallaşdırılması da Heydər Əliyevin üzərinə düşdü. Beləliklə, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1991-ci il dekabrın 16-da Heydər Əliyevin sədrliyi ilə keçən iclasında 31 dekabrın dünya azərbaycanlılarının həmrəylik bayramı kimi qeyd olunması barədə tarixi qərar qəbul edildi. Təbii ki, təşəbbüs bilavasitə Heydər Əliyevin özündən gəlmişdi. Ali Məclis bununla bağlı qanunvericilik aktının qəbul olunması üçün ölkə parlamentinə - Azərbaycan Respublikasının Ali Sovetinə müraciət ünvanlayıb. Dekabrın 25-də Ali Sovetin Milli Şurası müraciəti nəzərə alaraq, dekabrın 31-nin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan olunması barədə qanun qəbul edib. Həmin vaxtdan bəri bütün dünya azərbaycanlıları bu günü bayram kimi qeyd edirlər.

Dünya azərbaycanlılarının təşkilatlanması prosesini daim diqqət mərkəzində saxlayan Heydər Əliyev həmrəylik gününü təsis etməklə xalqın mənəvi-ideoloji cəhətdən bütövlüyünə nail oldu. Dünya azərbaycanlılarının milli birliyinin ideoloqu, təbliğatçısı və təşkilatçısı olan Heydər Əliyev xarici dövlətlərə səfərləri zamanı proqramının zənginliyinə, iş gününün gərginliyinə rəğmən, həmin ölkələrdə yaşayan, fəaliyyət göstərən həmvətənlərimizlə görüşlərə də mütləq vaxt ayırır, onların problem və qayğıları ilə yaxından maraqlanır, daha sıx təşkilatlanmaları üçün dəyərli tövsiyələr verirdi. Onun dünya azərbaycanlılarının qürur rəmzinə çevrilmiş sözlərini xatırlayaq: "Hər bir insan üçün onun milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!"

Dünya azərbaycanlılarının həmrəyliyi ideyasının banisi olan Heydər Əliyev eyni zamanda bu birliyin institutlaşması prosesinin də əsasını qoyub. 2001-ci il noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayı keçirilib. Qurultay soydaşlarımızın milli mənlik şüurunun güclənməsinə, müxtəlif ölkələrdə azərbaycanlı icmalarının mütəşəkkilliyinin və fəallığının artmasına öz müsbət təsirini göstərdi. Bu təşəbbüs Azərbaycanın dövlət siyasətinin yeni bir istiqamətinə çevrildi. Qurultaydan sonra Heydər Əliyevin 2002-ci il 5 iyul tarixli Fərmanı ilə xaricdəki soydaşlarımızla əlaqələrin genişləndirilməsi və inkişaf etdirilməsi məqsədilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin (hazırda Diasporla İş üzrə Dövlət Komitəsi) yaradılması, həmin il dekabrın 27-də isə "Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" Qanunun qəbul edilməsi dünya azərbaycanlılarının milli birliyi və təşkilatlanması prosesini daha da gücləndirdi.

**Niyə məhz 31 dekabr?**

Bu gün dünya azərbaycanlılarının milli-mənəvi varlığını yaşadan yeganə bir dövlət var. Bu, müstəqil, suveren Azərbaycan Respublikasıdır. Dünya azərbaycanlılarının birliyi və həmrəyliyi ideyasının

əsasını da məhz Azərbaycan dövlətçiliyinə, xalqımızın dilinə, dininə, milli-mənəvi varlığına və ümumbəşəri dəyərlərə hörmət, bu dəyərlərin daim qorunmasına, yaşamasına qayğı təşkil edir. Həmrəylik günü milli birlik, Azərbaycana məhəbbət, milli-mənəvi dəyərlərimizə hörmət, Vətənə bağlılıq hisslərini özündə təcəssüm etdirir. Dünya azərbaycanlıları yaşadıqları ölkələrin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında daha fəal rol oynayır, respublikamızla qarşılıqlı əlaqələrin genişlənməsinə böyük töhfə verir, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında, zəngin mədəni irsimizin təbliğində, erməni lobbi dairələrinin ideoloji təxribatlarının qarşısının alınmasında qətiyyət nümayiş etdirirlər. Onlar Azərbaycan dövlətinin dəstəyi sayəsində qardaş və dost xalqların lobbi və diaspor qurumları ilə səmərəli əməkdaşlığın qurulması sahəsində təsirli tədbirlər həyata keçirir, Azərbaycanın, xalqımızın tarixini yazır və nəsillərdən-nəsillərə ötürürlər.

Bəs nə üçün Dünya Azərbaycanlılarının Həmrəylik Gününün qeyd olunması üçün dekabrın 31-i seçilib? Heydər Əliyevin həyat və fəaliyyətinə nəzər saldıqda görürük ki, O, heç vaxt təsadüfi addımlar atmayıb, verdiyi qərarlar həmişə güclü məntiqə söykənib. Bəhs etdiyimiz tarix də bu baxımdan istisna deyil. Bəllidir ki, imperialist güclərin maraqları bütöv coğrafiyamızı və xalqımızı Arazın o tayı və bu tayı deyilən iki hissəyə bölüb. Keçmiş SSRİ-nin süqutu ərəfəsində - 1989-cu il dekabrın son günlərində Araz sahillərində yaddaşımızda əbədi qalacaq hadisələr yaşandı. Arazın o tayından və bu tayından olan azərbaycanlılar onları ayıran tikanlı çəpərləri dağıtdılar. Hava soyuq və şaxtalı olsa da, Arazın sahilində bir-birinə qovuşan azərbaycanlılar günlərlə orada qaldılar və birləşmək istədiklərini bütün dünyaya bəyan etdilər. 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü məhz xalqımızın birləşmək istəyini simvolizə edir.

**İndiki mərhələdə dövlət siyasətinin mühüm istiqamətlərindən biri**

Müasir mərhələdə dünya azərbaycanlılarının həmrəyliyinin gücləndirilməsini Prezident İlham Əliyev diqqət mərkəzində saxlayır. Xarici ölkələrdə yaşayan azərbaycanlılarla əlaqələrin genişləndirilməsini dövlət siyasətinin mühüm istiqamətinə çevirmiş Prezident İlham Əliyev mövcud sosial-iqtisadi inkişaf şəraitində diaspor quruculuğu sahəsində dövrlə səsləşən genişmiqyaslı tədbirlər həyata keçirir. Dövlət başçısı xaricdə yaşayan hər bir azərbaycanlının maraq və mənafeyinin qorunmasını Azərbaycan dövlətinin başlıca vəzifələrindən biri kimi müəyyənləşdirib. Prezident İlham Əliyevin bu istiqamətdə ortaya qoyduğu siyasi iradə ölkəmizin hüdudlarından kənarda yaşayan soydaşlarımızda milli ruhun yüksəlməsinə, onların vahid ideologiya və məqsədlər ətrafında daha sıx səfərbər olmalarına böyük töhfə verir. Hədəf xaricdə yaşayan azərbaycanlıların diaspordan lobbiyə çevrilməsidir. Prezident İlham Əliyevin "Dünya azərbaycanlılarının II qurultayının keçirilməsi haqqında" 2006-cı il 8 fevral tarixli Sərəncamına uyğun olaraq həmin il martın 16-da Bakıda baş tutan növbəti mötəbər toplantı xaricdə yaşayan azərbaycanlıların diaspordan lobbiyə çevrilməsi istiqamətində yeni bir başlanğıcın əsasını qoydu və ölkəmizlə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması işində əhəmiyyətli rol oynadı. Prezident İlham

Əliyevin 2018-ci 6 iyul tarixli Fərmanı ilə Diasporla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan Diasporuna Dəstək Fondu yaradılıb. Bu Fond Azərbaycan diaspor təşkilatlarının fəaliyyətinə dəstək vermək, onların maddi-texniki bazasını möhkəmləndirmək, milli-mənəvi dəyərlərimizi inkişaf etdirmək və dünyada daha geniş tanıtmaq, xaricdə yaşayan azərbaycanlıların sosial müdafiəsini gücləndirmək, bu sahəyə dövlət dəstəyinin ünvanlılığını təmin etmək məqsədilə yaradılıb. Dövlət başçımızın təşəbbüsü ilə 2019-cu ildə "Diaspor fəaliyyətində xidmətə görə" Azərbaycan Respublikasının medalı təsis edilib.

**Dünyada müzəffər xalq kimi yaşayacaq azərbaycanlılar...**

Dünya azərbaycanlılarının I Qurltayı 2001-ci il noyabrın 10-da Bakıda keçirilib. İlk dəfə keçirilən qurultayda 36-dan çox xarici ölkədə yaşayan, müxtəlif təşkilatları təmsil edən qonaqlar iştirak etmişdi. Heydər Əliyev qurultayda nitq söyləyərək Azərbaycanla dünya azərbaycanlılarının əlaqələrinin genişləndirilmisi, müxtəlif istiqamətlərdə birlikdə çalışmaları, Azərbaycanın gələcək inkişafı, birliyin, həmrəylin möhkəmləndirilməsi, milli dəyərlərimizin qorunub saxlanılması ilə bağlı fikirlər səsləndirib. Həmin qurultayda Heydər Əliyev bir məsələyə xüsusi diqqət çəkib. O, dərin məzmunlu nitqində artıq tarixdə qalan Qarabağ problemi ilə bağlı öz fikirlərini bildirərək vurğulayıb ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək və Azərbaycan xalqı öz dədə-baba torpaqlarına qayıdacaq.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev ata vəsiyyətinə əməl edərək bu missiyanı şərəflə yerinə yetirdi. 2020-ci ildə Vətən müharibəsində Onun rəhbərliyi ilə bütün döyüş əməliyyatlarını

yüksək peşəkarlıqla həyata keçirən Ordumuz qarşı tərəfi kapitulyasiyaya məruz qoydu. Qazanılan Qələbə sayəsində Azərbaycan ərazi bütövlüyünü hərbi-siyasi yolla təmin etdi. Həmin Zəfərdən sonra biz Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü qalib xalq kimi qeyd edirik. 2022-ci ilin aprelində soydaşlarımız azad Şuşada Dünya Azərbaycanlılarının V Qurultayına - Zəfər Qurultayına toplaşdılar. "Bundan sonra Azərbaycan xalqı müzəffər xalq kimi əbədi yaşayacaq, bundan sonra bizim dövlətimiz qalib dövlət kimi yaşayacaq. Bu, böyük xoşbəxtlikdir - hamımız üçün, Azərbaycanda yaşayanlar, Azərbaycan vətəndaşları üçün, xaricdə yaşayan azərbaycanlılar üçün", - deyə Prezident İlham Əliyev Zəfər qurultayındakı nitqində vurğulayıb.

Bu il isə biz əziz bayramımızı fərqli ovqatla, daha yüksək əhval-ruhiyyə ilə qeyd edirik. Bu da onunla bağlıdır ki, 2023-cü ilin sentyabrında biz daha bir qələbə müjdəsi almışıq. Silahlı Qüvvələrimiz Qarabağda sentyabrın 19-da başladığı lokal xarakterli antiterror tədbirlərini cəmi 23 saat ərzində uğurla tamamladı və separatçılar ağ bayraq qaldırmaq məcburiyyətində qaldılar. Prezident İlham Əliyev oktyabrın 15-də zamanında separatçıların yuvasına çevrilmiş Xankəndidə Azərbaycanın Bayrağını ucaltmaqla dünya azərbaycanlılarına yenidən sonsuz sevinc hissi yaşatdı. Beləliklə, 2023-cü ildə ölkənin bütün ərazisində suverenliyimiz təmin olundu ki, bu da illər boyunca bizim qəlbimizdə yaşatdığımız müqəddəs arzu idi. Şanlı qələbələrin əldə olunmasında bütün soydaşlarımızın - həm müstəqil respublikamızda, həm də digər ölkələrdə yaşayan azərbaycanlıların əməyi var. Buna görə də qələbələrimizin sevincindən qəlbi Vətənlə döyünən hər bir azərbaycanlıya pay düşür.

**Yeni Azərbaycan**. - 2023.- 31 dekabr. - № 242. - S. 2.